ƏLİYAR ORUCOV

# AZƏRBAYCAN XALQI MİLLİ ÖZÜNÜDƏRK YOLLARINDA: XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİ

*(tarixi-fəlsəfi aspekt)*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

**ƏLİYAR AĞAGÜL oğlu ORUCOV**

# AZƏRBAYCAN XALQI MİLLİ ÖZÜNÜDƏRK YOLLARINDA: XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİ

## *(tarixi-fəlsəfi aspekt)*

*Monoqrafiya AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının 04 may 2012-ci il tarixli 4 saylı protokolu ilə çapa məsləhət bilinib.*

**Bakı – 2012**

**AZ-2** **ELMİ REDAKTOR:**

**O-67** **A.Ə.HACIYEVA**

*fəlsəfə elmləri doktoru*

**RƏYÇİLƏR:**

**İ.Ə.RÜSTƏMOV**

*fəlsəfə elmləri doktoru, professor*

**S.Y.HÜSEYNOV**

*fəlsəfə elmləri doktoru*

**A.M.BƏŞİROV**

*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**O-67.Orucov Əliyar Ağagül oğlu.** Azərbaycan xalqı milli özünüdərk yollarında: XİX əsrin sonu - XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: "**AVROPA**" 2012. 251s.

*Monoqrafiya XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşayan Azərbaycan mütəfəkkirlərinin ictimai-siyasi və fəlsəfi görüşləri kontekstində onların milli mənlik və milli özünüdərk haqqında baxışlarının obyektiv şəkildə cəmiyyətə çatdırılması baxımından elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir. Monoqrafiya dövrün cəmiyyət, insanın hüquq və azadlıqları, müstəmləkəçilik əleyhinə milli azadlıq mübarizəsi, milli mənlik və milli özünüdərk haqqındakı ideyalarının sistemli və bütöv şəkildə tədqiqinə həsr olunduğundan bu sahədə gələcək tədqiqatlarda müəyyən rol oynaya bilər. Bununla yanaşı əsərdə irəli sürülən müddəalar və çıxarılan elmi nəticələrdən, humanitar elm sahəsində çalışan mütəxəssislər, alimlər, müəllim və tələbələr istifadə edə bilərlər.*

*Müəllif elmi fəaliyyətində bəhrələndiyi və əvəzsiz rolları olduğu bütün müəllimlərinə, yaxınlarına təşəkkürünü bildirir.*

O $\frac{4702060106}{8032\text{-}2012}$ qrifli nəşr

DOI: https://doi.org/10.36719/2012/251

**© Orucov Ə.A**

**© « AVROPA»nəşriyyatı**

## MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................................... 4

**İ fəsil. XİX əsrin sonlarında Azərbaycanda milli dirçəliş özünüdərkin mənbəyi kimi**
1.1. Milli dirçəliş dövründə özünüdərkə təsir edən sosial, siyasi, mədəni və mənəvi amillər.................................... 14
1.2. Xalqın milli mənlik şüurunun formalaşması və özünüdərkində maarifçiliyin rolu.......................................... 31

**İİ fəsil. XX əsrin əvvəllərində Azərbaycanda milli özünüdərkin inkişaf qanunauyğunluqları və istiqamətləri**
2.1. Milli özünüdərk məsələləri: 1900-1920-ci illərin sosial-siyasi və mədəni mənzərəsində....................................... 73
2.2. XX əsrin əvvəllərində milli özünüdərkin səciyyəvi xüsusiyyətləri.............................................................. 124

**İİİ fəsil. Tarixi milli özünüdərk ənənələrinin müasir dövrdə milli şüurun inkişafında rolu** ................... 175

**NƏTİCƏ** .......................................................................... 230

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ................................ 236

# GİRİŞ

Özünüdərketmənin öz-özlüyündə fəlsəfi problem kimi qoyuluşu çox qədimlərə, Delfada Apollon məbədinin giriş qapısının üstündə həkk olunmuş «özünü dərk et» sözlərini Sokratın öz həyat devizinə çevirdiyi vaxta, bəlkə də, daha əvvəllərə gedib çıxır. Bu anlayış mahiyyətinə görə insanla, onun düşüncə tərzi ilə bağı olub, insanın öz «mən»ini ətrafdakı insanlara, mühitə – «qeyri-mən»ə qarşı qoyaraq çoxcəhətli hadisələri müşahidə etməsini, müqayisə vasitəsilə onlarla özü arasında ümumi və fərqli cəhətləri aydınlaşdırmasını, təbiətdə və cəmiyyətdə öz yerini müəyyənləşdirməsini ehtiva edir. Özünüdərk «insana öz şəxsi şüur aktlarına tənqidi yanaşmaq, yəni özünə daxilən xas olan bütün cəhətləri ona kənardan daxil olan bütün cəhətlərdən ayırmağa – bir sözlə, öz şəxsi şüur aktlarını öyrənməyə imkan verir» (196, 504). Şüurun müxtəlif səviyyələri, o cümlədən, refleksiya ilə sıx bağlı olan özünüdərk bir fenomen kimi təkcə insan fərdiyyətinə deyil, həm də cəmiyyəti təşkil edən ictimai zümrələrə, siniflərə, qruplara, daha geniş mənada isə xalqlara, millətlərə aid edilir.

Millət məfhumuna məlum olduğu kimi, elmi-fəlsəfi ədəbiyyatda çoxlu təriflər verilmişdir. Onların hamısında göstərilən cəhətləri ümumiləşdirərək deyə bilərik ki, millət insanların tarixi birliyi əsasında ümumi əraziyə, ümumi ədəbi dilə, ümumi iqtisadi və mənəvi həyat birliyinə, mədəniyyət və xarakter xüsusiyyətlərinə, ümumi mentallığa malik böyük insan qruplarını təmsil edir. Bu mənada milli özünüdərk başqa xalq və millətlərlə müqayisədə millətin özünü, öz tarixi köklərini, orijinallığını anlaması, ümumi maraq və ideallarını dərk etməsi əsasında özünü tanıması, bəşər tarixində, eyni zamanda müasir tarixdə xalqlar arasında tutduğu yeri və gələcək inkişaf yollarını müəyyən etməsi, vətəni üçün iftixar, qürur hissləri keçirməsi və onun naminə mübarizəyə hazır olmasının göstəricisidir.

Respublikamızın dövlət müstəqilliyi qazandığı hazırkı şəraitdə, dünyada baş verən mürəkkəb siyasi proseslər kontekstində

milli özünüdərk problemi yeni məzmun və çalarlar kəsb edərək xüsusilə aktuallaşmışdır.

Problem ən müxtəlif: sosial-siyasi, mədəni, əxlaqi-mənəvi və s. aspektlərdən araşdırıla bilər.Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasındakı giriş sözündə Heydər Əliyev məhz məsələnin etik-mənəvi aspektinə diqqət verərək, «xalqın özünü tanıması»nı təmin etmək zərurəti haqqında deyirdi: «Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin. Milli yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir» (1, 93). Milli özünüdərk, fərdin millətə mənsubluğunu və bütövlükdə milli toplumun özünü millət təmsilçisi olaraq dərk etməsi, onun milli varlıq kimi xassələrini bilməsi, qoruması və müdafiə etməsidir.

Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi mədəniyyətində (ədəbi – fəlsəfi irs də daxil olmaqla) milli mənlik və milli özünüdərk problemlərinin qoyuluşu və təlqini bir tərəfdən iqtisadi və sosial – mədəni inkişafın məhsulu, digər tərəfdən isə Azərbaycanın sosial-siyasi inkişafının təkanverici amillərindən biridir. Məhz bu səbəbdən problemin fəlsəfi-nəzəri və real sosial-siyasi tarixi paralel və üzvi vəhdətdə təqdim edilir.

Qeyd etmək lazımdır ki, milli özünüdərk xalqların taleyində ciddi dönüşlərin baş verdiyi, şərti olaraq keçid dövrü adlandırdığımız dövrlərdə xüsusilə böyük əhəmiyyət kəsb edir.

Məhz XIX əsrin sonu – XX əsrin əvvəlləri xalqımızın tarixi müqəddaratında, ictimai-siyasi və fəlsəfi fikrinin inkişafında belə bir dövrdür.

Azərbaycanın şimal hissəsinin çar Rusiyasına zorla birləşdirilməsi Şimali Azərbaycan xalqının taleyində dönüşün əsasını qoydu. Bütün neqativ tərəfləri ilə yanaşı, həmin hadisə ümumrusiya məkanına daxil olan Azərbaycanın xüsusilə iqtisadi inkişafında əhəmiyyətli rol oynadı, həyatın bütün sahələrində köklü

dəyişikliklər baş verdi. Burada XIX əsrin 60-70-ci illərində Rusiyanın mərkəzi quberniyalarında oldu kimi, məhdud şəkildə də olsa, keçirilən aqrar və inzibati-məhkəmə islahatları feodal pərakəndəliyini tədricən aradan qaldırdı və artıq yaranan kapitalist istehsal münasibətlərinin inkişafına təkan verdi,onun yayılma dairəsini genişləndirdi. Xarici, həmçinin rus, erməni və gürcü kapitalistləri ilə kəskin mübarizə şəraitində milli burjuaziya formalaşmağa başladı. Azərbaycan fəhlələrinin siyasi şüurunun artması onların öz hüquqları uğrunda mübarizəsində əks olunurdu. Həmin dövrdə Avropa və Rusiyada təhsil almış milli ziyalılar nəsli yetişdi. Onların maarifçilik fəaliyyəti nəticəsində xalq təhsili və mədəniyyət ocaqları – ana dilində məktəblər, dövri mətbuat, kitabxanalar, müxtəlif ictimai təşkilatlar, milli teatr yarandı və inkişaf etməyə başladı, o cümlədən, milli ədəbiyyat və incəsənət əsərləri yarandı. Bütün bu hadisələrdə Azərbaycan xalqının milli özünüdərki öz ifadəsini tapırdı. «Azərbaycan xalqının dil, ərazi və mənəviyyat birliyi XIX-XX əsrlərin qovşağında yeni keyfiyyət kəsb etmişdir. Azərbaycan dilinin ədəbi dilə çevrilməsi prosesi güclənir, xalqın mənəvi mədəniyyətinin bütün sahələrində diqqətəlayiq dəyişikliklər baş verir. Maarif, ədəbiyyat, rəssamlıq, musiqi və xalq yaradıcılığı ümummilli dəyərlər, ənənələr zəminində yeni məzmunla zənginləşir. Elm – təhsilə marağın artması, başqa xalqların mədəniyyətlərindən öyrənmək cəhdləri milli oyanışın səciyyəvi xüsusiyyətləri idi» (69, 14).

Yeri gəlmişkən deyək ki, xalqın, millətin özünüdərkini göstərən ən mühüm amillərdən biri də etnonimdə, yəni onun özünü adlandırmasında ifadə olunur(183, 157-158) .

XIX əsrin 60-cı illərindən başlayaraq, rus və xarici mətbuatda çap olunan kitablarda, dövri mətbuatda «Azərbaycan», «azərbaycanlı» termin və sözlərinə rast gəlinmir. Bu vaxta qədər azərbaycanlılar qafqaz müsəlmanları və ya tatar adlandırılırdı. Bu cəhətdən görkəmli ictimai xadim, «Şərqi-Rus» qəzetinin təsisçisi Məhəmməd Ağa Şahtaxtlının 1891-ci ildə «Kaspi» qəzetində «Zaqafqaziya müsəlmanlarını necə adlandıraq?» adlı məqaləsi ilə çıxış etməsi maraqlıdır. O, Zaqafqaziya müsəlmanlarının rus

dilində «tatar» adlandırılmasını düzgün hesab etmir, Azərbaycan türkü ilə daxili quberniyaların tatarı arasında dildə, zahiri görünüşdə, adətlərdə, xasiyyətdə böyük fərqin olduğunu göstərərək yazır: «Zaqafqaziya məhəmmədilərinin (yəni müsəlmanlarının – Ə.O.) danışdığı dil əsas: osman, səlcuq, Azərbaycan dialektlərinə bölünən türk qrupuna aiddir… Zaqafqaziya türkləri, əlbəttə, farslar da deyillər. Bu xalqlar bir-birindən dilinə görə fərqlənirlər, türk və fars dilləri tamamilə müxtəlif dillərdir. Zaqafqaziya müsəlmanlarını – azərbaycanlılar onların dillərini isə – Azərbaycan dili adlandırmaq daha münasib olardı» (184) .

Bütün bunlar, o cümlədən, Azərbaycan mütəfəkkirlərinin milli oyanışa və milli özünüdərkin formalaşmasına kömək edən sosial – siyasi, fəlsəfi fikirləri XX əsrin əvvəllərində millətin siyasi müstəqilliyi, azadlığı haqqında baxışların geniş yayılmasına səbəb olmuş, əslində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün ideya zəmini hazırlamışdır. Onların bizə qoyduğu mənəvi irs bu gün də xalqımızın milli mənlik şüurunun, milli özünüdərkinin inkişafında böyük əhəmiyyətə malikdir. Fəlsəfə elmləri doktoru A.Hacıyeva «Hermenevtika Şərqdə» adlı kitabında xalqın milli mənəvi irsi məsələsinə toxunaraq yazır: «Xalqın mənəvi irsi onun varlığını və təfəkkürünü, dünya anlamı və dünyaduyumunu, tarixi təcrübəsini, arzu və ideallarını özündə əks etdirir. Onun araşdırılması və fəlsəfi ümumiləşdirmə səviyyəsində öyrənilməsi həmişə humanitar elm, o cümlədən fəlsəfə tarixi qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur»(66, 187) .

Qeyd edək ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ictimai və fəlsəfi fikrinin inkişafı ədəbiyyatda- istər sovet, istərsə də postsovet elmi ədəbiyyatında nisbətən geniş işıqlandırılmışdır. Bu monoqrafiya problemin milli özünüdərk aspektində araşdırılması baxımından yenidir. Akademik A.Daşdəmirov haqlı olaraq yazır: «Azərbaycan ictimai, fəlsəfi fikri milli appersepsiya, onun Azərbaycan xalqının milli şüurunun oyanışında, təşəkkülündə rolu aspektində öyrənilibmi?... Azərbaycan mədəniyyətlərinin özünüdərk prosesləri onun xadimlərinin yaradıcı axtarışlarında necə təcəssüm etmişdir? Bir çox cəhətdən

bu, olduqca mürəkkəb tədqiqat vəzifələri həyatın gedişatı ilə milli, milli-dövlət quruculuğunun yeni vəzifələrinin önə keçdiyi bir vaxtda bizim etnomədəni, etnosiyasi inkişafımızın hazırkı mərhələsinin ehtiyacları ilə aktuallaşmışdır»(188, 54). Bu baxımdan müəllif XIX-XX əsrlərdə Azərbaycanın milli mədəniyyət quruculuğu təcrübəsinin öyrənilməsini xüsusilə faydalı hesab edir(188, 4) .

Mövzunun aktuallığı həm də respublikamızın siyasi durumu ilə də şərtlənmişdir. Torpaqlarımızın 20 faizi erməni işğalı altındadır. Bu həm də uzun illərdən bəri üzdəniraq erməni və ermənipərəst alimlərin tarixi təftiş və təhrif etmələrinin nəticəsidir. Məsələn, S.A.Arutyunov Moskvada 1989-cu ildə nəşr olunan «Xalqlar və mədəniyyətlər. İnkişaf və qarşılıqlı təsir» kitabında erməni və gürcüləri Zaqafqaziyanın «çox qədim avtoxton xalqları» hesab edib, azərbaycanlıları isə qarışıq «İran-Dağıstan substratı» adlandıranda, artıq ermənilərin Azərbaycan torpaqlarına «hüquqları» çatdığını əsaslandırmağa çalışır və gələcək işğallar üçün ayaq yeri qoyurdu(192, 27-28). Ona görə də azərbaycanlılar və ermənilər arasında tarixən mövcud olmuş konflikt, həm də ideoloji müharibədir. Qələbə xeyli dərəcədə ideoloji cəbhədəki uğurlardan asılıdır.

Acınacaqlı haldır ki, son vaxtlar çap olunan bir sıra əsərlər, xüsusilə özünü «türkoloq», «pantürkist» adlandıran Murad Acının «Armageddonun nəfəsi» (2006) kitabı, Azərbaycan tarixçisi Fəridə Məmmədovanın «Qafqaz Albaniyası və albanlar» əsəri (2005) və bir sıra digər əsərlərdə guya Azərbaycan xalqının, onun tarixinin müdafiəsi naminə irəli sürülən müddəalar əslində tariximizi təhrif etməklə, düşmənlərimizi yeni icad edilən «dəlillərlə» və «fərziyələrlə» silahlandırır. Z. Quluzadənin onlara verdiyi cavablar olduqca vacibdir (193; 195). Bundan başqa Rusiya Elmlər Akademiyasının Etnologiya və Antropologiya İnstitutunun Münaqişələrin tədqiqi və nizamlanması üzrə Mərkəzinin baş elmi əməkdaşı, tarix elmləri doktoru V.A.Şnirelmanın «Yaddaş müharibələri. Cənubi Qafqazda miflər, identiklik və siyasət» kitabında Azərbaycan xalqını və onun tarixini, mədəniyyətini tənqid və təhrif etməsi və öz növbəsində tanınmış fəlsəfə tarixçisi, fəlsəfə elmləri doktoru Z.Quluzadənin ona verdiyi cavab da

mühüm əhəmiyyət daşıyır(108, 116). Əlbəttə ki, Azərbaycan xalqını, tarixini və onun mədəniyyətini tənqid və təhrif edən V.A.Şnirelmanın «Yaddaş müharibələri. Cənubi Qafqazda miflər, identiklik və siyasət» kitabı xalqımıza qarşı olan qərəzli münasibətin təzahürüdür. Lakin xalqın bu taleyüklü məsələləri peşəkarların geniş müzakirəsinə verilməlidir. Bu baxımdan Azərbaycan xalqının milli özünüdərk probleminin fəlsəfi refleksiya səviyyəsində araşdırılması, o cümlədən XIX əsrin sonu - XX əsrin əvvəllərində fəlsəfi və ictimai-siyasi fikir tariximizdə milli özünüdərk probleminin tədqiq edilməsi zəruridir.

Sovet dövründə Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində milli özünüdərk və milli mənlik şüurunun inkişafı probleminə siyasi-ideoloji təzyiq nəticəsində ümumilikdə biganə münasibət bəslənilsə də, XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış mütəfəkkirlərimizin əsərlərinin nəşri, dünyagörüşlərinin öyrənilməsi sahəsində xeyli diqqətəlayiq işlər görülmüşdür.

Təəssüf ki, həmin dövrün tədqiqatlarında hakim marksist-leninçi metodologiyanın tələblərinə uyğun olaraq onların ictimai-siyasi və fəlsəfi dünyagörüşünü əks etdirən baxışlarında əsasən ateist və materialist ünsürlər axtarılmış, milli azadlıq hərəkatını müdafiə edən ideoloqlarımıza, görkəmli ictimai-siyasi xadimlərimizə millətçi və ya burjua ideoloqları damğası vurulmuşdur. Demək lazımdır ki, tariximizə və mənəvi irsimizə bu cür birtərəfli münasibət postsovet məkanında yazılan tədqiqatlarda tədricən aradan qaldırılır.

Fəlsəfə elmləri doktoru A.Hacıyevanın «Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri» adlı monoqrafiyası problemə tamamilə yeni yanaşması əvvəlki tədqiqatlardan fərqli olaraq mütəfəkkirin fəlsəfi baxışları kontekstində onun dinə münasibətinin obyektiv təhlili ilə seçilir. Monoqrafiyada millətin özünüdərki ilə bağlı, o cümlədən, N.Nərimanovun bu barədə fikir və mülahizələri də işıqlandırılmış və şərh olunmuşdur. Məsələn,bu barədə N.Nərimanov deyirdi: «…Ümumi ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün, millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir

olmaz isə xüsusi məsləkin dalınca gedə bilməz. Bu yolda yeriş etməz isə ümumi müqəddəs məslək nə olmağın da düşünməz»(69, 75).

Tədqiqatçı alim Faiq Ələkbərovun "Milli ideologiya problemınə tarixi-fəlsəfi baxış" (I hissə) adlı monoqrafiyası mövzuya yaxınlığı ilə seçilir. Amma buna baxmayaraq həmin monoqrafiya əsasən milli ideologiya məsələlərinin tədqiqinə həsr olunmuş və həmin məsələlərə türkçülük nöqteyi-nəzərindən yanaşılmışdır. F.Ələkbərovun monoqrafiyasından fərqli olaraq, oxuculara təqdim edəcəyimiz monoqrafiya isə sırf milli özünüdərk məsələlərindən bəhs olunmuş və burada türkçülük deyil, məhz azərbaycançılıq ideologiyası önə çəkilmiş və həmin dövrdə milli özünüdərk prosesi tədqiq olunaraq, müasir dövrlə azərbaycançılıq baxımından əlaqələndirilmişdir. Monoqrafiyada qeyd olunduğu kimi, milli özünüdərk millətin özünü başqa xalq və millətlərlə müqayisədə öz tarixi köklərini, orjinallığını anlaması, ümumi maraq və idealarını dərk etməsi əsasında özünü tanıması, bəşər tarixində, eləcə də müasir tarixdə xalqlar arasında tutduğu yeri və gələcək inkişaf yollarını müəyyən etməsi, vətəni üçün iftixar, qürur hisslərinin, onun naminə mübarizə əzminin göstəricisidir. Müstəqilliyimizin 20 illiyinin qeyd olunduğu hazırkı şəraitdə, dünyada baş verən mürəkkəb siyasi proseslər kontekstində milli özünüdərk məsələsi xüsusi aktual əhəmiyyət kəsb edir. Milli ideya hər bir dövrdə ortaya qoyula bilər. Amma onun milli ideologiyaya çevrilməsi isə hər zaman baş vermir. Qeyd edək ki, ideologiya ideya, milli ideologiya isə milli ideyalar nəticəsində Avropada yaranmışdır. İdeologiya terminini elmi dövriyəyə ilk dəfə fransız filosofu və iqtisadçısı Antuan Destyut De Trassi gətirmişdir. O, istər XVIII əsrin sonunda yazdığı "Düşünmək qabiliyyəti haqqında etüdlər" əsərində, istərsə də 1801-1815-ci illərdə yazdığı "İdeologiyanın ünsürləri" adlı dörd cilddən ibarət əsərində ideologiyanı ideyaların təşəkkülü və insan təfəkkürünün qanunları haqqında elm kimi əsaslandırmağa cəhd etmişdir. Milli ideya anlayışını ilk dəfə fransada XVIII əsrdə A.Vasyxaunt işlətmişdir. Sonralar J.J.Russo və C.Mişle öz elmi əsərlərində

milli ideya məsələlərinə xüsusi yer vermişdir. Rusiyada isə milli ideya əvvəlcə Qərbin əleyhinə olan slavyanofil ədəbiyyatda əsasən, N.Berdyayev, A.Danilevski, F.Dostoyevski, V.Solovyov və başqalarının yaradıcılığında öz əksini tapmışdır. Eyni zamanda İ.A.İlyin, A.Soljenitsin və başqaları XX əsrdə rus milli ideyasının inkişafında xüsusi rol oynamışdır. Almaniyada ideologiyanın təşəkkülü demək olar ki, klassik alman filosofu Hegelin adı ilə bağlıdır. O, öz əsərlərində ideya, ideologiya, mənəviyyat və s. məsələləri şərh etmiş, onların qarşılıqlı əlaqələri məsələsinə toxunmuşdur. İdeologiya və milli ideya məsələlərinin şərhinə dair bir çox elmi-tədqiqat əsərləri yazılmış və yazılmaqdadır.

Təqdim olunan monoqrafiya da XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan fəlsəfi fikrində milli problemlərin qoyuluşunda, milli özünüdərkin müasir xüsusi tədqiqində və təhlilində yeni bir cəhddir.

Tədqiqat işinin hazırlanmasında əsas mənbə kimi dövrün ictimai-siyasi xadimlərinin orijinal irsi-kitab, məqalə və məktublarından istifadə olunmuşdur.

Tədqiqatın məqsədi XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin fəlsəfi dünyagörüşündə milli azadlıq, xalqın milli mənlik şüuru və millətin özünüdərketməsi haqqındakı baxışlarının müasir elmin inkişafı baxımından xüsusi olaraq təhlil edilib dəyərləndirilməsi və onların bu günümüz üçün əhəmiyyətinin əsaslandırılmasıdır. Bu məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

– XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış olan Azərbaycan mütəfəkkirlərinin, görkəmli ictimai-siyasi xadimlərinin cəmiyyət, insan azadlığı, milli azadlıq, milli mənlik şüuru və milli özünüdərketmə və s. haqqında baxışlarını obyektiv təhlil etmək;

– Onların irəli sürdüyü ideyaların sonralar Azərbaycanın müstəqilliyinin, istiqlalının gerçəkləşməsində müstəsna rol oynadığını nəzərə çarpdırmaq;

– Tədqiq olunan dövrdə fəaliyyət göstərmiş mütəfəkkirlərin millət, milli mənlik və milli özünüdərk haqqındakı

fikirləri kontekstində tarixi milli özünüdərketmə ənənəsinin müasir Azərbaycan fəlsəfi fikrinə təsirini araşdırmaq;

– Onların elmi-fəlsəfi, ictımai-siyasi irsinin və tarixi milli özünüdərk ənənəsinin tədqiqinin cəmiyyətimizin gələcək inkişafı üçün xüsusi əhəmiyyətinə diqqəti cəlb etmək;

– Cəmiyyətimizin inkişafı ilə bağlı irəli sürdükləri milli mənlik və milli özünüdərk ideyalarının milli ideologiyaya, azərbaycançılıq məfkurəsinə çevrilərək milli dövlət və dövlətçiliyə xidmətlə bərabər yeni nəsillərin milli şüurunun, milli özünüdərketməsinin, milli ləyaqətinin, vətənpərvərliyinin və mənəviyyatının formalaşmasına təsirini açıqlamaq;

– 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin həmin ideyaların qabarıq təcəssümü olduğunu üzə çıxarmaq;

– Sonrakı dövrün bütün mürəkkəbliyinə baxmayaraq XX əsrin 80-ci illərin sonlarında başlanmış milli azadlıq hərəkatı üçün zəmin yaratdığını əsaslandırmaq;

– Milli özünüdərk ideyalarının XX yüzillikdə Heydər Əliyevin nəzəri və praktiki fəaliyyətində, xüsusən də Azərbaycanda hüquqi, dünyəvi milli dövlət yaradılmasında öz əksini tapdığını və bunun sayəsində Azərbaycanın dünyanın geosiyası məkanında özünəlayiq yer tutmasını və XXI əsrə daha sabit, davamlı inkişaf edən dövlət kimi qədəm qoymasını əsaslandırmaq;

– XIX əsrin sonu və XX əsrin əvvəllərində fəlsəfi və ictimai fikir tariximizdə milli özünüdərk probleminin tədqiqi yolu ilə milli özünüdərk və özünütəsdiqi bir proses, bir hərəkat olaraq həm psixoloji, həm də mənəvi-ideoloji baxımdan tədqiq etmək.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda milli ideologiyanı mütəfəkkirlərin, azad fikirli ziyalıların, maarifçilərin, ictimai-siyasi xadimlərin, milli azadlıq ideoloqlarının milli özünüdərk ideyalarına söykənən cəmiyyət və insan haqqında baxışları, onların dil, din və milli-mənəvi dəyərlərimizə münasibəti, yeni qurulacaq cəmiyyətin siyasi təşkili, insanın hüquq və azadlıqları və bilavasitə milli mənlik və milli özünüdərketməyə aid ideyaları və

görüşləri təşkil edir. Tədqiqat hadisələrə və faktlara tarixi və dialektik yanaşma metodu prinsiplərinə əsaslanaraq aparılmışdır.

Tədqiqatın elmi yeniliyi onunla bağlıdır ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin, insan, insanın hüquq və azadlıqları kontekstində milli mənlik, milli özünüdərketmə haqqında baxışları ilk dəfə olaraq kompleks şəkildə azərbaycançılıq baxımından ümumnəzəri və fəlsəfə tarixi səpkisində tədqiq edilmişdir.

Elmi yeniliklər öz əksini konkret olaraq aşağıdakı məqamlarda tapmışdır:

- XIX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində milli mənlik və milli özünüdərketmə probleminin qoyuluşu xüsusi olaraq tədqiq edilmişdir;
- Problemin qoyuluşu dövrün başlıca ideoloji cərəyanlarında konkret surətdə araşdırılmasıdır;
- XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında milli mənlik və milli özünüdərketməyə baxışın özünəməxsusluğu təhlil edilmişdir;
- Bu dövrün görkəmli ictimai-siyasi xadimlərinin və milli azadlıq ideoloqlarının cəmiyyətin demokratik siyasi təşkilinə dair baxışlarının müstəmləkçilik əleyhinə apardıqları mübarizənin və milli azadlıq ideyalarının milli özünüdərklə bağlılığı aşkara çıxarılmışdır;
- Din, dil, əxlaq və milli-mənəvi dəyərlərin millətin özünüdərketməsində, özünütanımasında yeri müəyyənləşdirilmişdir;
- XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikrində əksini tapmış milli mənlik şüurunun və milli özünüdərketmə ənənəsinin müasir Azərbaycan fəlsəfi fikrinə və Azərbaycan dövlətinin demokratik inkişafına təsiri açıqlanmış və milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlərlə uzlaşdırılmasına aid ideyalar nəzərdən keçirilmişdir.
- Seçilmiş mövzunun ümumnəzəri və fəlsəfə tarixi səpkisində tədqiqi cəhdi milli özünüdərk probleminin öyrənilməsi sahəsində daha bir addım olaraq təqdim edilmiş işin elmi yeniliyinə dəlalət edir.

# I FƏSİL
# XIX ƏSRİN SONLARINDA AZƏRBAYCANDA MİLLİ DİRÇƏLİŞ ÖZÜNÜDƏRKİN MƏNBƏYİ KİMİ

## 1.1. Milli dirçəliş dövründə özünüdərkə təsir edən sosial, siyasi, mədəni və mənəvi amillər

Xalqımızın tarixində faciəli iz buraxmış Gülüstan və Türkmənçay sülh müqavilələri Şimali Azərbaycanı Çar Rusiyasının müstəmləkəçilik təcavüzü altına salsa da, rus istilasının bu dözülməz təzyiqi xalqımızın gələcək istiqlal hərəkatı üçün zəmin yaratmış oldu. Vahid xalq iki yerə parçalandı. Rus istilasından fərqli olaraq işğaldan qabaqkı təzyiqlərdə din fərqi və dinlə bağlı mənəvi-mədəni fərq yox idi. XIX əsrin ikinci yarısında Azərbaycanda ardıcıllığı ilə fərqlənən maarifçilik fəlsəfəsi inkişaf etməyə başlasa da, bu vaxta qədər də ictimai və fəlsəfi fikirdə maarifçilik və humanizm təbliğ edən ideyalar geniş yayılmışdı. Ölkədə maarifçilik ideyaları XII əsrdən müsəlman renessansı dövründən başlayaraq, özünü göstərmiş və buna görə də maarifçilik mühüm milli hadisə kimi formalaşıb inkişaf etmişdir.

Tədqiqatçı-alim Rəfail Əhmədli: «Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri» adlı kitabında yazır: «XVI-XVII əsrlərdən başlayaraq Avropada başlanan millətlərin təşəkkülü prosesi və milli dövlətlərin yaranması, dünya ictimai-siyasi fikir tarixində yeni bir mərhələnin başlanğıcına təkan verdi. Bu mərhələnin inkişafında maarifçilik hərəkatı xüsusi yerlərdən birini tuturdu. Həmin proses milli şüur, milli özünüdərk, milli təşəkküllə müşayiət edilirdi. Bu dövrdə Azərbaycan maarifçiliyi xalqı maarifləndirmə cəhdləri ilə başlandı. A.Bakıxanovun ana dilində məktəblərin açılması uğrunda başladığı mübarizəni Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri M.Ş.Vazeh, Q.Zakir, S.Ə.Şirvani və b. daha da inkişaf etdirdilər»(46, 90).

Maarifçilik ilk dəfə olaraq Qərbi Avropa ölkələrində kapitalizmin təşəkkülü dövründə yaranmışdır. O, məzmunca çox geniş olub, ictimai, siyasi, hüquqi, əxlaqi və bədii ideyalar,

baxışlar sistemindən ibarətdir. Maarifçilik fəlsəfəsi onun mühüm tərkib hissəsi olmaqla, əsasən dünyagörüşü məsələlərini əhatə edir. Lakin buna baxmayaraq, təəssüf ki, Azərbaycanda maarifçilik bir ideoloji cərəyan kimi Qərb ölkələrinə nisbətən bir qədər gec baş vermişdir. Bunun əsas səbəbi də Azərbaycanda iqtisadi inkişafın geriliyi və ölkənin müstəmləkə əsarətində olması idi. «Buna baxmayaraq həmin dövrdə Azərbaycanda feodalizm quruluşuna, sxolastikaya və cəhalətə qarşı, tərəqqi, elm və maarif uğrunda mübarizə geniş yer tuturdu»(206). XIX əsrin sonları-XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında və dünyagörüşündə maarifçilik ideyaları xeyli geniş sürətdə yayılırdı. Maarifçilik adətən kapitalist münasibətlərinin meydana gəldiyi, kapitalizmin qərarlaşdığı dövrdə ictimai fikirdə özünü göstərən ideoloji cərəyandır. Bu barədə M.Ağamirov yazır: «Maarifçilik feodalizm əleyhinə yönəlmiş, feodal qalıqlarının ləğv edilməsi lüzumunu təbliğ edən və mahiyyətcə burjua tələbləri səviyyəsində qalan bir ideologiyadır»(8, 189).

XIX əsrin sonlarında kapitalist münasibətlərinin sürətlə inkişafına baxmayaraq, Azərbaycan hələ kənd təsərrüfatı ölkəsi olaraq qalmaqda idi. Çarizm Azərbaycanda hərbi – müstəmləkə üsuli-idarəsi yaratmışdı. O, Rusiya imperiyasını xalqlar həbsxanasına çevirərək, buradakı xalqların cəlladı kimi çıxış edirdi. İmperiya həyatına xas zorakılıq, özbaşınalıq, hüquqsuzluq Azərbaycanın da bütün şəhər və kəndlərində hökm sürürdü. Azərbaycan xalqı feodal və kapitalist zülmündən əlavə həm də milli müstəmləkə kimi zülmə məruz qalmışdı. Çarizm Azərbaycan ziyalılarını xüsusilə sıxışdırırdı. Azacıq azadlıq tələbi ilə çıxış edən bu ziyalılar «siyasi cəhətdən etibarsız» elan edilərək dözülməz məhrumiyyətlərə düçar edilirdilər. Azərbaycanın mütərəqqi fikirli ziyalılarının çoxu hökumət orqanları tərəfindən ciddi surətdə təqib olunur, hüquqdan məhrum və bir parça çörəyə möhtac edilirdi. Bu dövrdə xalqın maariflənməsi və hüquqlarını tələb etməsindən qorxan çarizm Azərbaycan dilində qəzet və jurnalların buraxılmasını imperiya üçün təhlükəli bir iş hesab

edirdi.

Bütün bunlara baxmayaraq, XIX əsrin sonlarında Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında baş verən dəyişikliklər və irəliləmələr özünü ideoloji sahədə də əks etdirmişdir. Məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq istehsal münasibətlərində əmələ gələn dəyişikliklər sinfi ziddiyyətin kəskinləşməsinə səbəb olmuşdur ki, bu da özünü getdikcə artan sinfi mübarizədə təzahür etdirirdi. Çar Rusiyasının müstəmləkəsi olan Şimali Azərbaycan siyasi hüquqdan məhrum edilməklə yanaşı, eyni zamanda mənəvi zülm altına düşmüşdü. Çarizm imperiyasının digər ucqarları kimi Azərbaycanı da özünün aqrar xammal mənbəyi hesab edirdi. Azərbaycanda ruslaşdırma siyasəti aparan imperiya, xalqın əsrlərdən bəri formalaşıb gələn adət-ənənələrinə, dilinə, milli xüsusiyyətlərinə etinasızlıq göstərir, milli hissləri tapdalayırdı. Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsi nəticəsində bu dövrdə mövcud olan xanlıqların dövlət müstəqilliyinin əlindən alınması xalqımızın milli şüurunun inkişafına mane olmaqla, siyasi fikirdə milli özünüdərketmənin, azadfikirliyin inkişafı üçün buxova çevrildi. İmperiya rus kimi fikirləşməyi, yalnız imperiyanın mənafeinə uyğun danışmağı təkidlə tələb edirdi.

«XIX əsrin birinci yarısında Azərbaycanda Rusiya müstəmləkəçiliyinin rəsmiləşməsi istismarın daha da güclənməsi demək idi. Müstəmləkə zülmünə qarşı silahlı çıxışların baş verdiyi bir şəraitdə A.Bakıxanovun və digər mütərəqqi fikirli ziyalıların ideyaları xalqı bilavasitə fəal mübarizəyə istiqamətləndirməsə də, bu ideyalar hər şeydən əvvəl, xalqın gözünün açılmasına və milli şüurun oyanmasına xidmət edirdi» (105, 44). XIX əsrin ortalarına doğru çarizm Azərbaycanda xanlıqları ləğv etməklə inzibati quruluşda dəyişikliklər əmələ gətirdi. Belə ki, xanlıqların əvəzində komendantlıq idarə-üsulu yaradıldı. Bu inzibati idarə üsulu xalqın daxili iqtisadi, ticarət əlaqələrinin, pul-əmtəə münasibətlərinin genişlənməsinə xeyli imkan və şərait yaratmaqdan əlavə, qeyri-iradi milli birliyin formalaşması prosesinə müsbət təsir göstərirdi. «Ləğv olunan xanlıqların

başında bu zaman rus komendantları dururdu ki, bunlar əvvəlki xanları əvəz edirdilər. Komendantlar «əyalət» («provinsiya») adlandırılan xanlığı bu zaman yerli bəylərdən təyin etdikləri mahal naibləri vasitəsi ilə idarə edirdilər»(101, 15).

Beləliklə, Azərbaycanın iqtisadiyyatı tədricən ümumrusiya iqtisadiyyatının ayrılmaz hissəsinə çevrildi və kapitalist təsərrüfatı sisteminə daxil oldu. Bu dövr iqtisadi inkişaf baxımından Azərbaycanda kapitalist münasibətlərinin qərarlaşması, eyni zamanda, Azərbaycan millətinin təşəkkülü dövrüdür. Bu zaman çarizm Azərbaycanda özünə bəylərdən və ağalardan ibarət sosial zəmin yaratmağa çalışırdı. Azərbaycanda kapitalist münasibətləri feodalizm bünövrəsi üzərində yaranıb formalaşırdı. Həmin proses ləng getsə belə, feodal qapalılığını dağıdır və feodal münasibətlərinin böhranını dərinləşdirirdi.

Bu dövrdə Azərbaycan iqtisadiyyatında ciddi bir canlanma, irəliləmə əmələ gəlmişdi: xüsusilə neft sənayesi sürətlə inkişaf edirdi. XIX əsrin sonunda Bakı dünya neft hasilatının yarıdan çoxunu verirdi və təsadüfi deyildi ki, dünyada buruq üsulu ilə ilk neft quyusu 1848-ci ildə Bibiheybətdə qazılmışdır. Bu vaxt Azərbaycanda ilk dəmir yolu xətti çəkildi və Bakı ilə yanaşı ölkədə yeni şəhərlər inkişaf etməyə başladı. Rusiyada 1861-ci ildə təhkimçilik hüququnun ləğvi bütün ucqarların, o cümlədən Azərbaycanın ictimai-iqtisadi inkişafına təsir göstərdi.

Azərbaycanda 1870-ci ildən başlayaraq aparılan aqrar islahat, əsrin sonuna yaxın feodal münasibətlərinin böhranını daha da dərinləşdirdi. İslahatdan sonrakı dövrdə, xüsusilə, Qafqaz mədən sənayesi sürətlə artmış və Bakı adi bir şəhərdən dönüb inkişaf etmiş sənaye şəhərinə çevrildi.

XIX əsrin sonlarında Azərbaycan ictimai həyatının bütün sahələrini əhatə edən bu proses xalq həyatının orta əsrlərə məxsus dayaqlarını dağıdır, cəmiyyətin sosial-siyasi həyatında, məişətdə, adət və ənənələrdə ciddi dəyişikliklərlə müşayiət olunurdu.

Bu dövrdə kapitalist münasibətlərinin inkişafı ilə həm də cəmiyyətin sosial-sinfi strukturunda dəyişikliklər əmələ gəlirdi. Bu sahədə mühüm hadisə - yeni ictimai tarixi qüvvə olan fəhlə

sinfinin meydana çıxması, Azərbaycan milli burjuaziyasının yaranması, xalqın milli şüurunun oyanması və inkişafı oldu. Beləliklə, imperiya iqtisadiyyatının ayrılmaz tərkib hissəsinə çevrilmiş Azərbaycan iqtisadiyyatının inkişafı, xüsusilə burjua münasibətləri ölkədə milli şüurun, milli oyanışın, milli özünü-dərkin güclənməsinə, milli birliyin xalqın və millətin formalaşmasına güclü təsir göstərirdi.

XIX əsrin sonlarında artıq Qərbi Avropa demokratik fikrinin, «azadlıq», «bərabərlik», «qardaşlıq» kimi ideyaları Azərbaycanda yayılır, zehinlərə hakim kəsilirdi. Ölkənin sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər xalqın mənəvi, mədəni həyatında ciddi yeniləşmə əmələ gətirir, həqiqi mənada fikri oyanışa, milli dirçəlişə səbəb olurdu. «XIX yüzilliyin birinci yarısında elm və sosial təcrübə ilə sıx əlaqədə fəlsəfi fikir də inkişaf edir. Bu dövrdə Azərbaycan fəlsəfəsinin başlıca problemi orta əsr ərəb-müsəlman fəlsəfi konsepsiyaları idi. Lakin bununla belə, ölkənin sosial-iqtisadi tələbatı yeni təhsil və tərbiyə sisteminin, cəmiyyətin yenidən qurulması probleminin həlli ilə bağlı Azərbaycan mütəfəkkirləri qarşısında yeni vəzifələr də qoyurdu»(27, 144-145).

Həmin dövrdə demokratik əhval-ruhiyyəli ziyalılar yetişir və onların coşğun maarifçilik fəaliyyəti geniş xalq kütlələrini mənəvi durğunluqdan,ətalətdən tədricən çıxararaq cəhalət yuxusundan oyadır, özünü dərk etməyə sövq edirdi. Yeni dövr Azərbaycan mədəniyyəti də məhz ictimai inkişaf nəticəsində sosial-iqtisadi həyatın zəruri tələbi kimi meydana gəlmişdir. Mənəvi həyatdakı durğunluğun, fanatizmin, cəhalətin, dini-mistik təsəvvürlərin tənqidi, dünyəvi təhsil, mətbuat, milli ədəbiyyat və incəsənət, elm və biliklərin, Avropa mədəniyyətinin təbliği, xalqın keçmişinə maraq uğrunda mübarizəsi ictimai-siyasi və fəlsəfi fikri dövrün tələbinə uyğun inkişaf yoluna istiqamətləndirərək, milli intibahın başlıca məzmununu təşkil etmişdi. «Vətən tarixini bilmək həvəsi öz əsərləri ilə Azərbaycanda gerçək tarixi bilikləri yayan və inkişaf etdirən vətənpərvər ruhlu tarixçilərin və salnaməçilərin bütöv bir nəslinin meydana gəlməsinə yardım göstərdi. Onlar ilk

mənbələr, canlı şahidlər, maddi mədəniyyət abidələri əsasında Azərbaycanın, onun ayrı-ayrı xanlıqlarının tarixini öyrənirdilər. Vətən tarixini yaratmağın əhəmiyyətini ilk dəfə dərk edənlərdən biri də Abbasqulu Ağa Bakıxanov olmuşdur»(27, 127).

Yerli feodal dairələr və onların ideoloqları feodal teokratik qaydaları saxlamaq məqsədilə yeni mədəniyyətin təşəkkülünə, hər şeydən əvvəl, xalqın maariflənməsinə, rus və Qərbi Avropa mədəniyyəti nailiyyətlərinin Azərbaycanda yayılmasına ciddi müqavimət göstərir, bunu xalqın ənənəvi dəyərlərinin dağılması, milli xüsusiyyət və ənənələrin məhvi kimi qələmə verirdilər. Yeni mədəniyyət uğrunda mübarizə cəmiyyətin qabaqcıl qüvvələri ilə, feodal-klerikal qüvvələr arasında kəskin ideya mübarizəsi şəraitində getmişdir. Yəni yerli feodal və burjuaziya milli mənlik və milli özünüdərki özlərinə məxsus tərzdə başa düşürdülər. Bu dövrdə köhnəpərəst, mürtəce qüvvələr yeni dövr Azərbaycan mədəniyyətinin təşəkkülü və inkişafı prosesini ləngitsə də, onu dayandıra bilməmişlər. Cəmiyyətin ictimai-siyasi sahələrdə qazandığı nailiyyətlərə əsaslanan bu proses getdikcə dərinləşmiş, təhsil, elm, ədəbiyyat və incəsənət, ictimai və fəlsəfi fikir dini-sxolastik təzyiq və təsirdən xilas olub, yeni inkişaf yoluna düşmüşdür. Bu barədə görkəmli alim Feyzulla Qasımzadə «XIX əsr Azərbaycan ədəbiyyatı tarixi» adlı kitabında yazır: «Mərsiyəçilik fanatizmi, patriarxal-feodal dini ideyaları yaymaqla zəhmətkeş kütlələrin mənəviyyatını əsarət altına almış və onların istismarçı hakim siniflər əleyhinə mübarizəsini kütləşdirmişdi. XIX əsrin ikinci yarısında M.F. Axundovun, Həsən bəy Məlikov Zərdabinin, Nəcəf bəy Vəzirovun simasında maarifçi və demokratik ideyalar güclərndikcə, mərsiyəçilik də öz müqavimətini göstərməyə başlayırdı. Mərsiyə ədəbiyyatı realist ədəbiyyata tamamilə zidd mahiyyət daşıyırdı və məhz buna görə də realistlərin kəskin tənqidi ilə qarşılanmışdır»(101, 19).

Onu da qeyd etməliyik ki, çarizm yerli əhalinin mədəni-maarif səviyyəsinin yüksəlməsində heç də maraqlı deyildi. Amma onun yerli əhali içərisindən çıxan savadlı, bilikli adamlara, məmurlara ehtiyacı var idi. Ona görə də, çarizm, birinci növbədə

özünün siyasi mənafeyini nəzərə alaraq, XIX əsrin 30-40-cı illərində Azərbaycanın müxtəlif əyalətlərində yeni tipli məktəblər açmağa icazə verdi. Bu məktəblərdə əsasən bəylərin, xanların və başqa imtiyazlı təbəqələrin uşaqları təhsil alırdı. Həmin məktəblər Azərbaycanda yeni dünyagörüşlü ziyalıların yetişməsində, yeni dövr mədəniyyətinin təşəkkülündə və inkişafında mühüm rol oynadı. Dünyəvi məktəblərin, yeni dərsliklər və dərs vəsaitlərinin yaradılması mahiyyətcə təhsil sistemini bütövlükdə öz himayəsində saxlayan riyakar din xadimlərinə böyük bir zərbə idi. Bu dövrdə ana dilində tədris və ümummilli mədəniyyətlərinin yaranması feodal dövrü adamlarının təfəkkür məhdudluğunu aradan qaldırmaqla yanaşı, xalqın kütləvi şüurunu dəyişdirmək yolunda ilk mühüm addımlar olmuşdur.

«Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti ölkədə öz siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsinə yardım etməyə qadir olan məmurlar ordusu hazırlamağı təmin edən yeni xalq təhsili sisteminin tətbiq edilməsi zərurəti ilə də qarşılaşdı. Çarizmin Azərbaycandakı məktəb siyasəti ona məxsus bütün mənfi xüsusiyyətləri ilə birlikdə Rusiyanın milli müstəmləkə siyasətinin bir hissəsi idi. Bununla belə o, obyektiv olaraq, gələcəkdə Azərbaycan əhalisinin yeni, mütərəqqi yolla təhsil alması üçün zəmin hazırladı. Bu dövr Azərbaycan xalqının maarifçilik tarixində ibtidai rus məktəblərinin təşkili ilə yanaşı, ənənəvi təhsil formalarının inkişafı ilə xarakterizə olunur»(27, 127).

Beləliklə, XIX əsrin sonlarında dünyəvi məktəblərdə ilk dəfə Azərbaycan dili xüsusi fənn kimi tədris edilməyə başlandı. Bu faktı M.F.Axundov rus dövlətinin «Əhalinin milliyyətini saxlamağa meyl» göstərməsi kimi qiymətləndirir və Azərbaycan dilində ədəbiyyatın yaradılmasına diqqət verildiyini qeyd edirdi. Bu barədə M.F.Axundov yazır: «tatar tayfalarının sayca burada yaşayan başqa tayfalardan çox olduğu Zaqafqaziya ölkəsi, bu yerlər Rusiyaya ilhaq edilənə qədər ya İran şahları, ya da Türkiyə sultanlarının hakimiyyəti altında idi. İran şahları hakim olduğu zamanlarda buradakı tatarların yazı işləri fars dilində, türklər ha-

kim olduğu zamanlar isə Zaqafqaziyada yaşayan tatarların dilindən fərqli olan türk dilində aparılırdı. Bunun nəticəsində də tatarlar indiyə qədər xalis tatar (Azərbaycan – Ə.O.) dilində ədəbiyyatdan məhrumdurlar və bu dildə oxumaq üçün orijinal əsərlərə təsadüf edilmir.

Əgər tatar dilində bəzi əsərlər varsa da, onlar ya başqa dillərdən tərcümə edilmiş, ya da fars, türk və ərəb sözləri ilə dolu anlaşılmaz bir dildə yazılmışdır. Beləliklə də, bu əsərlər, daha doğrusu, bu tərcümələr əsasında tatar dilinin ruhunu anlamaq mümkün deyildir»(22, 3).

Çar Rusiyası tərəfindən Azərbaycan istila edildikdən sonra əsilzadə müsəlmanların və imtiyazlı siniflərin uşaqlarının həm də Rusiya şəhərlərində təhsil almasına imkan yaranmışdı. Artıq XIX əsrin sonlarında bir çox zadəgan uşaqları Rusiyanın Peterburq, Moskva və başqa şəhərləri ilə bərabər, Qərbi Avropa dövlətlərində təhsil alırdılar. Bu da öz növbəsində Azərbaycan xalqının qabaqcıl rus və Qərbi Avropa mədəniyyətinə qovuşmasında mühüm rol oynamışdı. Bu dövrdə rus və Qərbi Avropa elmi nailiyyətləri müxtəlif yollarla Azərbaycana daxil olur, burada nəinki yeni intellektual mühit yaradır, eyni zamanda xalqın milli dünyagörüşü sistemində, milli özünüdərketməsində əsaslı dəyişikliklər əmələ gətirirdi.

Məhz dövrdə XIX əsr rus mədəniyyəti bütün dünyanın diqqətini özünə cəlb edirdi. Azərbaycanın qabaqcıl ziyalıları xalqı maddi və mənəvi əsarətdən xilas etmək, mənəvi üfüqləri genişləndirmək və milli mədəniyyəti geniş inkişaf yoluna çıxartmaq üçün birinci növbədə rus mədəniyyətinə üz tutur, rus dilini öyrənir, rus dili vasitəsi ilə dünya elm və mədəniyyət nailiyyətlərinə yiyələnməyə çalışırdılar. Bunu sosial-iqtisadi və mədəni inkişafın yeni mərhələsi qətiyyətlə tələb edirdi. Bu barədə Ənvər Əhmədov «Azərbaycan maarifçilik fəlsəfəsi» adlı kitabında yazır: «Rusiya və onun vasitəsilə Qərbi Avropa ilə iqtisadi-mədəni əlaqələrin genişlənməsi oyanmaqda olan milli özünüdərk fonunda mütərəqqi ictimaiyyətin ağlında vətənin geridə qalmışlığını daha qabarıq göstərirdi»(181, 174). Həqiqətən də XIX əsrin sonlarında

maarifçilik Azərbaycan gerçəkliyinin qarşıya qoyduğu vəzifələrin həllinə kömək edə biləcək mədəni-ideoloji hərəkat kimi diqqəti xüsusi olaraq cəlb edirdi.

Tədqiqatçı alim Rəşad Əsgərov: «XIX əsr Azərbaycan maarifçiliyi: cəmiyyət və insan» adlı monoqrafiyasında yazır: «Azərbaycan maarifçiliyi Azərbaycan ictimai mühitində yarandığından və təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideya-fəlsəfi ənənələrindən bəhrələndiyindən spesifik cəhətlər kəsb etmiş özünəməxsus inkişaf yolu tuta bilmişdir. Azərbaycan maarifçiliyində ümumbəşəriliklə millilik vəhdət təşkil etmişdir. Lakin millilik onun əsasını təşkil etmiş, qayəsi milli problemlər zəminində formalaşmışdır. Məhz buna görə də onun qabaqcıl ideyaları Azərbaycan xalqının milli intibahına, mədəni tərəqqisinə güclü təsir göstərə bilmişdir. Maarifçilik bir intellektual, məfkurə hərəkatı olmaqla nəzəri səpkidə yeni fəlsəfi, ictimai-siyasi, sosial, bədii-estetik prinsiplərin kompleksi kimi çıxış edir və əməli olaraq cəmiyyəti insanın mənafeyinə, xeyrinə uyğun şəkildə dəyərləndirmək, yeni həyat tərzi, yeni mədəniyyət yaratmaq vəzifəsini qarşıya qoyurdu»(58, 31). Bu dövrdə Azərbaycan maarifçilərinin təbliğ etdikləri ideyaların mənbəyi XVIII-XIX əsrlərin mütərəqqi Avropa və rus maarifçilik nəzəriyyələri idi. Azərbaycan maarifçiləri öz fikirlərini, ideyalarını Azərbaycan ictimai həyatına uyğunlaşdırırdılar.

Görkəmli alim Mirzə Kazım bəy çox düzgün olaraq qeyd etmişdir ki, «Qərb öz siyasəti ilə heç zaman Asiyada maarifi dirçəldə bilməz. Ölkəni yenidən quranlar onun öz içərisində yetişməlidirlər»(76, 192). Əlbəttə ki, bu dövrdə Azərbaycan dünya mədəniyyəti nailiyyətlərini nəinki qavramağa hazır idi, həm də ölkəni yenidən quranlar onun öz içərisindən yetişməyə başlamışdı. A.A.Bakıxanov, M.Ş. Vazeh, M.Kazımbəy, Qasım bəy Zakir, Ə.Talıbov, M.C.Topçubaşov, M.F. Axundov, İ.Qutqaşınlı və bir çox başqaları məhz belələrindən idilər.

Bunu göstərmək vacibdir ki, «başqa ölkələrdə və xalqlarda olduğu kimi Azərbaycanda da maarifçilik hərəkatı milli ziyalıların yetişməsilə müşayət edilmişdir»(94, 13).

XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində formalaşan mədəniyyət getdikcə aydın ümummilli səciyyə alır və bu da öz növbəsində milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət edirdi. Bu zaman milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərketmə, vətən və vətənpərvərlik, xalqın taleyi, gələcəyi mədəni-tarixi tərəqqinin ən aktual məsələləri kimi qarşıda dururdu. Azərbaycanda maarifçilik ideyalarının yayılması ilə əlaqədar olaraq Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənir, ictimai-fəlsəfi fikirdə yeni sosial ideyalar qərarlaşırdı. Maarifçilik mənəvi mədəniyyətin bütün sahələrinin – ədəbiyyat, incəsənət, əxlaq və s. inkişafına yeni istiqamət verməklə mədəniyyətin strukturunda getdikcə radikal dəyişikliklər əmələ gətirdi. Mədəniyyət sistemində realist ədəbiyyat, demokratik ictimai fikir, elm və elmi biliklər ön plana keçməyə başladı. Xalqımızın qabaqcıl ziyalı nümayəndələri Avropa, rus və Azərbaycan həyatına müqayisəli nəzər salır, vətənin sosial tərəqqi baxımından dövrün tarixi inkişaf səviyyəsindən geri qaldığını aydın görür və artıq belə yaşamaq olmaz qənaətinə gəlirdilər. Onlar milli həyatı, Azərbaycan cəmiyyətini iqtisadi, siyasi, mədəni gerilikdən xilas edib geniş sosial tərəqqi və maarif yoluna çıxartmaq barədə düşünür, yollar arayıb axtarırdılar.

Ə.Əhmədov Azərbaycanda maarifçilik ədəbiyyatının yaranması və tərəqqisi barəsində yazır: «Azərbaycan maarifçilik ədəbiyyatının yaranması əslində ədəbi dərkin müasirləşməsi və milliləşməsi prosesi idi. O, eyni zamanda ümummilli ədəbi dilin təşəkkül tapması ilə müşayiət olunurdu. Bu zaman azərbaycan dili rus və avropa dillərindən götürülmüş söz və terminlərin hesabına zənginləşirdi. Yeni tarixi şəraitdə ədəbi dərk vətəndaşlıq çaları qazanır, milli özünüdərkin ifadə formasına çevrilirdi. O, tarixi, fəlsəfi, sosial-iqtisadi idrakla sıx əlaqədə inkişaf edirdi» (181, 76).

Bu dövrdə Azərbaycan maarifçiliyi milli ictimai-siyasi və fəlsəfi fikrin inkişafında yeni mərhələyə qalxır və ictimai şüur sahələrində, adamların dünyagörüşündə ciddi bir hərəkət, oyanış və yeniləşmə, cəmiyyət üzvlərində sosial problemlərə ayıq

münasibət tərbiyə edilməsinə kömək edirdi.

Maarifçilik ideologiyası xalqımızın ideya-mənəvi həyatında, mənəvi varlığında əlamətdar hadisə olmaqla yanaşı onun intellektual inkişaf səviyyəsini yüksəldir, intellektual simasını müəyyənləşdirirdi.

Ümumiyyətlə, Azərbaycanda maarifçiliyin və demokratik ictimai-fəlsəfi fikrin formalaşması ilk öncə A.Bakıxanovun və M.F.Axundovun adı ilə bağlıdır.Bu barədə F.Qasımzadə yazır: «M.F.Axundovun yaradıcılığında maarifçilik, xalqın tərəqqisi ilə bağlı olan məsələlər, xalq hakimiyyəti, demokratik azadlıqlar ideyası mühüm yer tutur. O, öz dövrünün qabaqcıl ictimai-siyasi baxışlarına malik olan mütəfəkkir, xalqın azadlıq hərəkatı və ictimai tərəqqisi ilə bilavasitə bağlı olan görkəmli maarifçi və Yaxın Şərq ölkələrinin ilk inqilabçı-demokratıdır. Axundov XIX əsrin 30-40-cı illərində Azərbaycanda A. Bakıxanov, İ. Qutqaşınlı və Mirzə Şəfi Vazehin simasında yaranan ilk və hələ zəif olan maarifçiliyi inkişaf etdirərək kamala çatdırmışdır» (103, 303). Bütün bunlarla bərabər qeyd etməliyik ki, Azərbaycan maarifçiləri yalnız maarifçi ideoloqlar olmaqla qalmayıb, həm də özləri ölkədə maarifin reallaşmasında böyük rol oynamışlar. «1873-cü ildə Zərdabinin rəhbərliyi altında, Nəcəf bəy Vəzirovun və Əsgər bəy Adıgözəlovun yaxından iştirakı ilə Bakı realnı gimnaziyasının otaqlarından birində böyük dramaturq M.F.Axundovun «Hacı Qara» komediyasının tamaşası göstərildi. Bununla da Azərbaycan milli teatrının əsası qoyuldu»(142, 64). 1875-ci ildə H.B. Zərdabi çox böyük əziyyətlər bahasına Zaqafqaziyada Azərbaycan dilində ilk qəzet – «Əkinçi»ni nəşr etmişdir.

M.F.Axundov on illər ərzində yeni Azərbaycan əlifbası yaratmaq uğrunda gərgin mübarizə aparmışdır. M.F.Axundov millətin milli şüurunun inkişafını təmin edən azad, demokratik cəmiyyət, dövlət quruluşu yaradılmasını istəmiş və istibdadı rədd edərək yazırdı: «Ədaləti yerinə yetirmək və zülmü aradan qaldırmaq üçün millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma deməlidir: «Səltənət və hökumət büsatından itil!» (20, 213).

M.Cəfər «Mütəfəkkirin şəxsiyyəti» sərlövhəli məqaləsində yenə də M.F. Axundovun Şərq xalqları ilə əlaqədar olan fəaliyyətinə, onun çox geniş üfüqlərə malik olan düşüncə və amalına xüsusi diqqət yetirir, ona müəyyən yer ayırır: «Zəmanəyə görə mədəni (mədəni-texniki-Ə.O.) səviyyəcə geridə qalmış Şərq xalqlarının yenidən tərbiyə edilməsi Axundovu düşündürən ən mühüm məsələ idi. O, belə hesab edirdi ki, əsrlərcə öz hökmünü icra edən cismani və ruhani despotizmin nəticəsində Şərq xalqlarında xoşbəxt, rifah həyat uğrunda mübarizə üçün zəruri olan qabiliyyətlər inkişaf etməmiş qalmışdır. Öz doğma vətənlərində daima əsarətdə yaşamaq onlarda vətənpərvərlik hissini öldürmüşdür» (38, 40).

Elə bu illərdə S.Ə. Şirvani öz vəsaiti ilə doğma torpağı olan Şamaxıda rus-tatar məktəbi açıb yeni üsulla dərs verməyə və müasir elmləri tədris etməyə başlamışdır. O, habelə xüsusi ədəbiyyat dərnəyi təsis etmişdir.

Bu dövrdə Azərbaycan maarifçiləri əxlaq məsələlərinə geniş yer verirdilər. Bunun isə bir səbəbi də bu idi ki, onlar ictimai həyatdakı ədalətsizlikləri çox zaman dövlət xadimlərinin, qanunvericilərin, imtiyazlı feodal silkləri nümayəndələrinin əxlaqındakı naqisliklə, xalqın qeydinə qalmamaları ilə izah edirdilər. Onların bir hissəsi güman edirdilər ki, ixtiyarlı şəxslər xudpəsəndlikdən əl çəkib xalq işilə məşğul olsalar, dünyada ədalət bərpa olar.

Tədqiqatçı alim Afaq Məmmədova «XX əsr Azərbaycan romantizminin fəlsəfəsi» adlı kitabında yazır: «XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiyanın ucqar müstəmləkələrindən biri olmasına rəğmən, ölkənin sosial-mədəni həyatının bir sıra sahələrində nəzərə çarpacaq dirçəliş, müsbət irəliləyişlər baş vermişdir. Şimali Azərbaycanın ayrı-ayrı əraziləri arasında müəyyən səviyyədə iqtisadi birliyin yaranması, ölkədə mövcud olan dil, ərazi, mənəviyyat birliyi, ortaq keçmiş və digər bu kimi faktorlar əhalinin milli şüurunun formalaşması prosesini sürətləndirirdi»(118, 36).

Beləliklə də Azərbaycan maarifçiləri yalnız geniş xalq

kütlələrinin ideoloqları olmaqla qalmayıb, bilavasitə öz fəaliyyətlərilə xalqı əsarətdən qurtarmağa, qəflət yuxusundan oyatmağa çalışmışlar. «Azərbaycanda maarifçilik təkcə fatalizmdən, dini və dünyəvi qəflətdən yox, həm də milli qəflətdən xilas olmağın təliminə çevrilə bilir»(97).

Azərbaycan maarifçilərinə görə humanizmin ən mühüm tələblərindən biri insana qayğı göstərməkdən, onun ehtiyac və tələblərinə həssaslıqla yanaşmaqdan ibarətdir. Onlar o, dövlət quruluşunu ən ədalətli bir quruluş hesab edirlər ki, onun sayəsində insanı alçaldan və rəzil edən bütün səbəb və münasibətlər aradan qaldırılmış olsun, vətəndaşların maddi və mənəvi tələbatı daha yaxşı təmin olunsun.

Bu barədə görkəmli alim Ziyəddin Göyüşov «Azərbaycan maarifçilərinin etik görüşləri» kitabında yazır: «Dövlət o qədər qüvvətli və qayğıkeş olmalıdır ki, onun məmurları məhkəmə işlərində fövqəladə ədalətli, doğruçu və haqq tərəfdarı olsunlar. Dövlət xalqın qeydinə qalmalıdır ki, xalqla dövlət arasındakı biganəlik aradan qaldırılsın» (63, 198).

Ümumiyyətlə, maarifçilərin humanizminin əsas prinsipi belədir ki, dövlətin bütün iqtisadi və mədəni fəaliyyətinin əsasını insana xidmət təşkil etməlidir, yəni hər şeydə insan vasitə deyil, məqsəd olmalıdır, onun getdikcə artan tələbatı hərtərəfli ödənilməlidir. Həm də onların fikrincə, təkcə dövlət insanlara deyil, insanların özləri də başqa insanlara kömək etməlidirlər. Belə olmazsa, bir neçə insan milyonlarla insanları öz şəxsi mənafeləri üçün daim işgəncə və məşəqqət içərisində saxlarsa, onda H.Zərdabinin dediyi kimi, insan cəmiyyətini, şüursuz qarışqaların cəmiyyətindən heç cür fərqləndirmək olmaz. İnsanlar arasında insana layiq münasibətlər olmalıdır. Azərbaycan maarifçilərinin nəzərincə, insana qayğının ilkin şərti ona öz mənafeyini, yüksək bəşəri ləyaqətini dərk etməkdə kömək etməkdən ibarətdir. «Maarifçilik elm və mədəniyyətin, fəlsəfənin, ictimai-siyasi fikrin, təbii-elmi biliklərin inkişafına güclü təkan vermişdir. Şəxsiyyət azadlığı, sosial bərabərlik, humanizm ideyaları ilə silahlanmış maarifçilər ən geniş xalq kütlələrinin maraqlarını

ifadə etmişlər. Maarifçilik milli şüura, milli dil və mədəniyyətin inkişafına mühüm təsir göstərmişdir. Maarifçilər elm və maarifi sosial tərəqqinin əsas meyarı hesab edirdilər»(157, 59). Çünki insan əgər özünü və dünyanı dərk etməyi bacarmazsa, onun heyvanla fərqi olmaz. Belə bir vaxtda M.F.Axundov soruşurdu ki, əgər bir insan 60 ya 70 il heyvan kimi kor-koranə yaşayıb və bu dünyadan kor gedərsə, belə bir həyatın insan üçün nə faydası vardır. Elə bu səbəbə görə də o yazırdı ki, hər şeydən əvvəl «mən, təfəkkür sahiblərinin gözünü açmaq, filosoflarımızın, alimlərimizin əsarətdə və zindanda olan fikrini azad etmək, insanları korluqdan qurtarmaq istəyirəm»(63, 199).

Rafail Əhmədli «Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq» adlı kitabında yazır: «XIX əsrin ortalarından başlayaraq Azərbaycanda milli ədəbi-bədii fikrin inkişafı və onun gələcəkdə bir milli ideologiyaya, milli məfkurəyə, ideya-fəlsəfi cərəyana çevrilməsində Axundovun yeni maarifçilik sisteminin əhəmiyyətli rolu olmuşdur. Onun maarifçiliyi nəinki bədii və estetik əsərlərin meydana gəlməsinə, həm də kütləvi bir hərəkata təkan vermişdir»(45, 83).

Azərbaycanda maarifçiliyin formalaşmasında Rusiyanın və Avropanın mütərəqqi fikri böyük rol oynasa da, maarifçilik əsasən sırf milli zəmində, ölkənin ictimai-siyasi inkişafının zəruri tələbatı kimi yaranmışdı. Ölkədə maarifçilik fəlsəfəsi ümumdemokratik ideologiya fonunda təşəkkül tapmışdı.

Beləliklə də, bu ideologiya XIX əsrin ikinci yarısından başlayaraq, XX əsrin əvvəlləri daxil olmaqla uzun müddət Azərbaycan xalqının ictimai-siyasi şüurunun, onun bütün tərəflərinə və ilk növbədə milli özünüdərkə mühüm dəyişdirici təsir göstərmişdi. Azərbaycanda maarifçiliyin ilk pilləsini zadəgan maarifçiliyi təşkil edir. Bu mərhələnin ən görkəmli nümayəndəsi A.A.Bakıxanov olmuşdur. O, Azərbaycanda orta əsrlərin son və yeni dövrün ilk mütəfəkkiri olmuşdu. «A.A.Bakıxanov bir maarifçi olaraq feodalizm cəmiyyətinin bir çox qanun-qaydaları və ənənələri əleyhinə çıxırdı. O, «Nəsihətnamə»də «insanın şərafəti kamal və həsəb iləndir, nəsəb ilən deyil, belə ki,

qabiliyyətli olan nəsəbin şərafətindən biehtiyacdır: naxələf övlad dudmanı zay edəndir» sözləri ilə feodalizm cəmiyyətində hakim nəsəb prinsipi əleyhinə çıxmış olur»(100, 123-124). Mütəfəkkirin yaradıcılığında klassik Şərq elmi və ədəbiyyatı ilə müasir yeni dövrün elmi cücərtiləri əlaqəli şəkildə çıxış etmişdi. Buna görə də onun dünyagörüşü xeyli dərəcədə ziddiyyətlidir. «O, bir tərəfdən maarifçi kimi tanınıb, tarixə maarifçi baxışı təbliğ edirdi, digər tərəfdən isə Şərq sxolastikasından tam azad ola bilməmişdi, maarifçi monarxa ümid bəsləyirdi»(65, 120).

A.A.Bakıxanov başa düşürdü ki, vətən tarixini öyrənmək xalqın milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına kömək edir. Eyni zamanda o, xalqlar arasında mehriban qonşuluq münasibətlərinin də faydasını israrla göstərirdi. O yazırdı: «Tarixin öyrənilməsinin, tarixin onun keçmiş həyatını təsvir etdiyi xalq üçün xüsusilə vacibdir. Tarix onu doğma torpağın keyfiyyətləri ilə, onun üzərində məskunlaşmış tayfaların xarakteri ilə tanış edir və xalqların bütün qarşılıqlı əlaqələrindən nəticə çıxararaq, onun zərərini və faydasını göstərir» (27, 139). Bu dövrdə türk xalqları arasında, o cümlədən Azərbaycanda milli mənlik şüurunun oyanması və milli özünəqayıdış prosesi güclənirdi. Artıq xalqın dünyagörüşündə yaranan milli özünüdərk prosesinin önündə ziyalılar gedirdi.

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Azərbaycanda ictimai-iqtisadi və siyasi şəraitin, maarif və mədəniyyətin inkişafı ilə Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşləri xüsusi ilə bağlıdır.

Maarifçi–demokrat H.B.Zərdabinin dünyagörüşü ölkədə müəyyən ictimai-iqtisadi şərtlərlə yanaşı, mütərəqqi dünya mədəniyyətinin təsiri altında formalaşmışdır. Eyni zamanda mütəfəkkirin dünyagörüşü öz ideya mənbələri etibarilə istər Şərqin, istərsə də Qərbin mütərəqqi ictimai-siyasi, fəlsəfi və bədii-ədəbi ənənələrinə gedib çıxır. Bu ənənələr içərisində Azərbaycan xalqının uzun illərdən bəri formalaşmaqda olan ictimai-siyasi və fəlsəfi fikrinin nailiyyətləri xüsusi yer tutur.

H.B.Zərdabi Azərbaycan mədəniyyət tarixi ilə yaxından

tanış idi, mütəfəkkir Bəhmənyardan tutmuş M.F.Axundova qədərki Azərbaycan mütəfəkkirləri ilə ideya əlaqəsində olmuşdur. Lakin H.B.Zərdabinin bir mütəfəkkir kimi yetişməsində Azərbaycan mədəniyyətinin XIX əsrdə yaşayıb yaratmış görkəmli nümayəndələri Abbasqulu Ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov diqqəti daha çox cəlb edirlər. A.A.Bakıxanovun və M.Ş. Vazehin maarifçilik ideyaları, M.F.Axundovun dinə münasibəti H.B.Zərdabinin görkəmli bir alim və maarifçi kimi yetişməsinə və onun dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. «Dünyagörüşü baxımından Qərb və rus maarifçilərinə, xüsusilə Mirzə Fətəli Axundova yaxın olan Zərdabi bütün həyatı boyu feodalizm və daha sonra kapitalizmin iqtisadi, ictimai və mədəni sahələrdəki təzahürlərinə qarşı mübarizə aparmış, mənsub olduğu xalqın milli mənlik şüurunun yaranması və inkişafında bütün bilik və bacarığını əsirgəməmişdir»(44, 122)

Akademik Heydər Hüseynov «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabında yazır: «Elmə və mədəniyyətə qarşı düşmənlərinin kinli çıxışları müqabilində isə Zərdabi özünəməxsus nikbinliklə xalqa inanır və deyirdi: «Xalq, nəhayət, başa düşər ki, mən onun dostuyam. Məktəbin, teatrın xeyrini dərk edər – əgər xalqa bir qəzet də verə bilsək, onun dünyagörüşünü biz büsbütün dəyişərdik»»(76, 101). Beləliklə də müəfəkkir bütün qəlbilə xalqına bağlı idi və o öz vətəninin, xalqının alovlu vətənpərvəri idi. O, mütərəqqi ideyaların daşıyıcısı kimi, öz fəlsəfi məzmunlu əsərləri ilə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində xalqımızın milli mənlik şüurunun oyanmasında, milli özünüdərketməsində və milli özünütanımasında müstəsna rol oynamışdır.

H.B.Zərdabinin əsərləri və bütövlükdə yaradıcılığı ilə dərindən tanışlıq, onun bu görkəmli mütəfəkkirlərin mütərəqqi ideyaları ilə nə qədər sıx bağlı olduğunu, daim bu ideyalardan qida aldığını bir daha sübut edir.

Elə buna görə də biz A.A.Bakıxanovu, M.Ş.Vazehi və M.F.Axundovu, H.B.Zərdabinin bilavasitə ideya sələfləri

adlandıra bilərik.

Beləliklə də, «XIX əsrin birinci yarısında A.A.Bakıxanov, M.Kazım bəy, Qasım bəy Zakir, M.Ş.Vazeh, İsmayıl bəy Qutqaşınlının fəaliyyəti ilə başlanan milli oyanış əsrin ikinci yarısında M.F.Axundov, S.Ə.Şirvani, H.B.Zərdabi tərəfindən inkişaf etdirilmişdir»(35, 148).

XIX əsrin sonlarında Azərbaycanda feodal-patriarxal qaydalarının hökmran olduğu, dini xurafat və mövhumatın beyinlərdə möhkəm kök saldığı bir dövrdə adı çəkilən mütəfəkkirlər maarif uğrunda mübarizəyə başlamış, öz mütərəqqi elmi, ədəbi-bədii irsləri ilə xalqımızın mədəniyyəti tarixinə parlaq səhifələr yazmış, mövhumat və cəhalət əleyhinə çıxış etmişlər.

A.A.Bakıxanov, M.Kazımbəy, İsmayıl bəy Qutqaşınlı və M.Ş.Vazeh tərəfindən təmsil edilən ilkin maarifçilik M.F.Axundov və H.Zərdabinin adı ilə bağlı olan yetkin maarifçilik üçün bir ideya zəmini idi.

A.A.Bakıxanov və M.Ş.Vazeh öz əsərləri, dərin məzmunlu şeirləri ilə xalqımızın mənəvi dirçəlişinə, Azərbaycanda maarifçilik ideyalarının yayılmasına xidmət etmişdirsə də, M.F.Axundov və H.B.Zərdabi öz yaradıcılıqları ilə xalqımızın XIX əsrin ikinci yarısının sosio-mədəni inkişafına və bundan əlavə milli mənlik şüurunun oyanmasına və milli özünüdərkə xidmət etmişlər.

Beləliklə də, A.A.Bakıxanov, M.Ş.Vazeh, İsmayıl bəy Qutqaşınlı, M.Kazım bəy, S.Ə.Şirvani, M.F.Axundov, H.B.Zərdabi ilə başlayan yeniləşmə hərəkatı, XX əsrin əvvəllərində M.Ə.Sabir,C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.B.Məmmədzadə, Ö.F.Nemanzadə, N.Nərimanov, M.Hadi, Ə.Topçubaşov , M.Ə. Rəsulzadə və digər mütəfəkkirlərimizin ideyaları üçün bir qaynaq idi.

## 1.2. Xalqın milli mənlik şüurunun formalaşması və özünüdərkində maarifçiliyin rolu

Qeyd edək ki, fəlsəfə elmlə müqayisədə milliliyi, sənətlə müqayisədə isə ümumbəşəriliyi ilə fərqlənir. Milli fəlsəfi fikir dövlətçiliyin təməl daşlarından biridir və özünü dərk etməyən xalqın nə fəlsəfi fikri, nə də vətən idealı ola bilməz. Belə ki, torpaq, ərazi o zaman vətənə çevrilir ki, o, milli ideyanın daşıyıcısı olsun. Əlbəttə ki, dərk olunmuş vətənpərvərlik, təbii ki, daha dayanıqlı və faydalı olur. Xalqın, millətin milli şüurunun, milli özünüdərketmənin inkişafı üçün milli ideologiya lazımdır. Bu milli ideologiyanın da əsasında ancaq və ancaq milli fəlsəfi fikir dayanmalıdır. «Xalqı müstəqilliyə və istiqlaliyyətə apara biləcək yeganə dünyagörüşü varsa, o da milli ideologiyadan ibarətdir. Bizim millətçiliyimiz M.Ə. Rəsulzadənin sözləri ilə desək, Avropa şovinist millətçiliyi deyil, müdafiə olunan, özünü yadellilərdən qoruyan mütərəqqi millətçilik olmalıdır. M.Ə.Rəsulzadəyə görə millətçiliyin son məqsədi milli dövlətin yaradılmasıdır» (156, 36).

Beləliklə də, milli- mənəvi dəyərlərin, əxlaqın, adət və ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Milli ruhu qorumaq, inkişaf etdirmək və nəsildən-nəslə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edərək, milli ruhu həyat tərzinə çevirmə imkanına qadirdir. İstər dövlətçilik ideologiyası olsun, istərsə də milli ideologiya eyni bir təməl üzərində-milli fəlsəfi fikir zəminində formalaşır. Milli dövlətin dövlətçilik ideologiyasının təşəkkülündə milli fəlsəfi fikir əsas yer tutur.

Bununla bərabər ümumbəşəri şüur, ümumbəşəri özünüdərk əsrlər boyu insanların dünyaya münasibətinin rasionallaşmış ifadəsi olmuşdur. Lakin insanın dünya haqqındakı bilikləri cəmiyyətin müxtəlif inkişaf pillələrində təzahur edir. Deməli, fəlsəfə məhz ən ümumi biliklər əsasında, ən ümumi qanunların

dərki sayəsində dünyanın ümumiləşmiş mənzərəsini yaratmağa çalışır. Hər bir xalqın milli fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən yox, xalqı təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı, milli özünüdərk səviyyəsinə qalxmış şəxsiyyətlərin - filosofların fəlsəfi təlimlərindən ibarət olur. Ümumbəşəri özünüdərkdən fərqli olaraq milli özünüdərk millətin özü-özünü dərketməsidir, özünü tanımasıdır.

«Milli-fəlsəfi və ictimai-siyasi fikir milli özünüdərk, milli oyanışın bilavasitə nəzəri, tarixi-məntiqi ifadəsi deməkdir.

Bu dövrün ən böyük mənəvi uğuru Azərbaycan ideyasının təşəkkül tapması və şüurlara aşılanması idi. Azərbaycan ideyası özündə vətənin tərəqqisi, bütövlüyü, azadlığı uğrunda mübarizə əzmini, istək və arzuları, bu yolda milli həmrəylik, milli birlik məramını ehtiva etmişdir»(44, 88).Milli fəlsəfi fikir milli fəlsəfi konsepsiyalar sistemidir. Milli fəlsəfi fikir dedikdə, ilk növbədə, hər bir ölkənin görkəmli filosofları, onların əsərləri nəzərdə tutulur. XIX əsrin sonu-XX əsrin əvvəllərində yaşamış Azərbaycan mütəfəkkirlərinin irsinin araşdırılması həmin dövrün ictimai-siyasi prosesləri və fəlsəfi milli özünüdərk məsələlərinə aydınlıq gətirməkdə xüsusi əhəmiyyət kəsb edir. Milli fəlsəfi fikrimizin inkişafında müstəsna xidmətləri olan mütəfəkkirlərimiz çoxdur. Biz burada A.A.Bakıxanov, M.Ş.Vazeh, Mirzə Kazım bəy, İsmayıl bəy Qutqaşınlı, M.F.Axundov, H.B.Zərdabi, M.A. Şahtaxtlı, M.Ə.Sabir, Ə.Ağaoğlu, Ə. Hüseynzadə, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, M.B.Məmmədzadə, M.Hadi, N.Nərimanov, Ə.Topçubaşov, M.Ə. Rəsulzadə və digər mütəfəkkirlərin yaradıcılığı üzərində problemlə bağlı daha geniş dayanacağıq. Sadalanan mütəfəkkirlər xalqın milli şüurunun oyanmasına və milli özünüdərkinə güclü təsir göstərmiş və bunun nəticəsi olaraq həmin dövrdə Azərbaycan xalqı rusiya imperiyasının işğalçılıq siyasətinə məruz qalmasına baxmayaraq milli-mənəvi dəyərlərini qoruyub saxlaya və daha da inkişaf etdirə bilmişdi. Məhz bu dövrdə Avropada bir neçə əsr əvvəl meydana gəlmiş maarifçilik fəlsəfəsi Azərbaycanda təşəkkül taparaq inkişaf etmişdir.

Hələ bu barədə XIX əsrin axırlarında böyük mütəfəkkir Şeyx Cəmaləddin Əfqani deyirdi: «Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər» (110, 29). Bunun əsl səbəbini isə mütəfəkkir haqlı olaraq, fəlsəfi ruhun olmamasında, çatışmamasında görürdü. Mütəfəkkir millət, dil və milli vəhdət haqqında fikirlərini ümumiləşdirərək yazır: «Millətdən kənarda səadət yoxdur, dilsiz də millət ola bilməz. Əgər dil millətin bütün sənət və peşə sahiblərinin ünsiyyəti və istifadəsi üçün lazımi ehtiyacı təmin etmirsə, onu dil adlandırmaq olmaz» (110, 8).

Şamil Qurbanov «Cəmaləddin Əfqani və türk dünyası» adlı kitabında yazır: «Onun vaxtilə Hindistanda fars dilində çap olunan «Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti» adlı əsərinə əsaslanaraq demək olar ki, Əfqani mədəni inkişafda Avropaya çatmaq üçün bir neçə amilə diqqət yetirməyi məsləhət görür və belə bir fikir irəli sürürdü ki, hər kəs öz millətinin tərəqqisinə nail olmaq istəyirsə, birinci növbədə, özünü tanımalıdır, soyuna, kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır» (109, 19). Qeyd edək ki, hər bir xalqın milli tərəqqisinə, milli özünüdərkinə çalışan qabaqcıl zəka sahibləri olmuşdur. Bu barədə Rafail Əhmədli «Azərbaycan dövlətçilik fəlsəfəsinə dair» adlı monoqrafiyasında yazır: «Bəşər tarixi sübut edir ki, hər bir xalqı tərəqqiyə, inkişafa sövq edən, onun dirçəlişinə çalışan əsasən qabaqcıl zəka sahibləri olmuşdur. Hər bir xalqı oyanışa, tərəqqiyə o xalqın maarifçi mütəfəkkirləri hazırlamışlar. Azadlıq və müstəqillik idealı ilk öncə ədəbi-bədii və fəlsəfi fikirdə formalaşır, daha sonra isə ictimai-siyasi xarakter alaraq yeni-yeni siyasi qurumlarda təcəssümünü tapmışdır. XX əsr müstəqil Azərbaycan Cümhuriyyətinin mənəvi memarları da məhz Bakıxanovlar, Mirzə Şəfilər, Mirzə Fətəlilər, Həsən bəy Zərdabilər, Seyid Əzim Şirvanilər, Əli bəy Hüseynzadələr, Əhməd Ağaoğlular, Məmməd Əmin Rəsulzadələr, Ömər Faiq Nemanzadələr, Cəlil Məmmədquluzadələr, Haqverdiyevlər, Vəzirovlar, Sabirlər, Cavidlər, Üzeyir bəylər, Cabbarlılar və bunlar kimi onlarla fikir fədailəri

olmuşdur. Milli İstiqlal məfkurəsini azərbaycanlıların şüuruna bu xalqın maarifpərvər şəxsiyyətləri yerləşdirmişlər. İctimai-fəlsəfi və bədii fikrin təmsilçiləri olan bu maarifçilər xalqa milli «mən» və «özünüdərk» şüurunu aşılamaqla ana dilinin imkanlarından istifadə edərək ədəbi həyatda demokratik mübarizə üsullarını da xalqa çatdırmaqda istedad və bacarığını əsirgəməmiş, daima yeniliyə, tərəqqiyə can atmışlar»(44, 143-144).

XIX əsrin sonlarında Azərbaycan sosial fəlsəfi fikir tarixində mühüm yer tutan şəxsiyyətlərdən biri də Azərbaycan maarifçiliyinin banisi, tarixçi və siyasətçi-diplomat *Abbasqulu Ağa Bakıxanovdur.* «O, 1794-cü ildə Bakının Əmircan kəndində anadan olmuşdur. A.Bakıxanov Bakı xanı II Mirzə Məhəmmədin oğludur. O, gəncliyində mükəmməl təhsil almış, fars, ərəb, rus dillərini, klassik ədəbiyyatı, ilahiyyatı dərindən öyrənmişdir» (221). O, rus, gürcü, polyak yazıçıları ilə yaxından tanış olmuş və bu tanışlıq onun yaradıcılığına müsbət təsir göstərmişdir. A.Bakıxanovun dünyagörüşünün formalaşmasında klasik Şərq, rus və Avropa ədəbiyyatının böyük rolu olmuşdur.

A.A.Bakıxanov elmin və maarifin yorulmaz müdafiəçisi, feodal geriliyinin, cəhalətin qatı əlehdarı kimi tarixə düşmüşdür. A.A. Bakıxanov mütərəqqi zadəgan nümayəndəsi kimi öz xalqının milli intibahında yaxından iştirak etmişdir. O, 1841-ci ildə fars dilində yazdığı «Gülüstani-İrəm» əsəri ilə Azərbaycan tarixşünaslığının inkişafına misilsiz xidmət göstərmişdir.

Mütəfəkkir «Gülüstani-İrəm» əsərində Şirvan və Dağıstan ərazisində yaşayan xalqların mənşəyi haqqında məlumat verməklə yanaşı, onun coğrafi şəraiti barəsində də yazır: «Şirvan məmləkəti Səlyan, Şəki, Bakı, Quba, Dərbənd, Təbərsəran, Kürə, Samur nahiyəsi və İlisunun aşağı qismindən ibarətdir. Bunlar ölkənin ən gözəl və ən geniş vilayətlərindəndir» (32, 6).

Qeyd edək ki, mütəfəkkir «Gülüstani-İrəm» əsərində Dərbəndi əzəli Azərbaycan torpağı kimi göstərmişdir. Beləliklə, «Gülüstani-İrəm» əsəri xalqın milli mənlik şüurunun inkişafında və milli özünüdərketməsində əhəmiyyətli rol oynamışdır.

Görkəmli Azərbaycan maarifçisinin irsində fəlsəfə mühüm

yer tutur. A.A. Bakıxanovun fikrincə, fəlsəfənin məqsədi adamları maarifləndirmək, onlara bilik verməkdir. Ona görə təbiət elmlərindən fərqli olaraq, fəlsəfə varlıq haqqında birbaşa bilik vermir, o insanlara dünyanın dərk edilməsi yolunda çətinlikləri aradan qaldırmağa kömək edir. Onun fikrincə, fəlsəfənin ən böyük əhəmiyyəti mənəviyyatın, ləyaqətin əsası və mənbəyi olmasındadır.

A.A.Bakıxanov ictimai elmlər içərisində tarix və fəlsəfə elmlərinə xüsusi yer vermişdir. O, belə hesab edirdi ki, tarixin hərəkətverici qüvvəsi mənəvi-ruhani qüvvələrdir. Cəmiyyətin yaradıcısı və istiqamətverici qüvvəsi kimi mütəfəkkir bu qüvvələrlə bərabər ağlı ön plana çıxarırdı. Çünki elm, maarif və mədəniyyət, bunların hamısı ağılın köməyi ilə yaradılır.

A.A.Bakıxanov tarixdə görkəmli şəxsiyyətlərin rolunu həddindən artıq şişirtmişdi. Ona görə tarixdə həlledici rolu hakimlər, sərkərdələr və alimlər oynayır. A.A. Bakıxanov elə buna görə də öz əsərlərində ayrı-ayrı dövlət xadimlərinin, diplomatların, alimlərin tərcümeyi-halına, onlar haqqında fikirlərə geniş yer vermişdir. Akademik Feyzulla Qasımzadə «Abbasqulu Ağa Bakıxanov Qüdsi» adlı kitabında yazır: «A.Bakıxanov isə köhnə alimlərdən fərqli olaraq, elmi dindən və sxolastikadan ayırdı: ona yeni məzmun, yeni üsul və ruh gətirdi» (100, 159). Onun fəlsəfi baxışlarına gəldikdə isə fəlsəfə elmləri doktoru, prof. Y.Rüstəmov «Fəlsəfənin əsasları» adlı kitabında çox haqlı olaraq qeyd etmişdir ki, «mütəfəkkir fəlsəfə məsələlərində sufi konsepsiyası olan vəhdəti-vucud tərəfdarı idi. Sufizmə uyğun olaraq A.A.Bakıxanov təsdiq edir ki, ilahi məhəbbət dünya qaydalarının daxili məqsədəuyğunluğunu müəyyən edir. Dünyanın nizami və ahəngdarlığı İlahi məhəbbət əsasında qurulur, məhəbbətsiz heç bir şey yaşaya bilməz, heç nə baş verə bilməz»(145, 145) .

A.A.Bakıxanov maarif, elm və təhsil haqqında yazır: «məmləkətin asayişini nizama salmaq, siyasət işlərinin möhkəmlənməsinə bağlı olduğu kimi, maarifi təhsil etmək və əxlaqı təmizləyib safa çıxarmaqla, ürəyin bədən risalətində müstəqil olmasına bağlıdır» (33, 67).

A.A.Bakıxanovun ictimai-siyasi və fəlsəfi görüşlərində insan, azadlıq, ədalət, cinayət və cəza problemi xüsusi yer tuturdu. Buna görə də onun insan-cəmiyyət probleminin çoxcəhətli mahiyyətinə xüsusi diqqət yetirməsi təbii və qanunauyğun hal idi. Onun fikrincə, insan ictimai-siyasi ideyaların, idrakın, tarixi prosesin fəal və yaradıcı subyektidir. A.A.Bakıxanova görə dünyada nə varsa, hamısı insan üçün yaradılmışdır. O, öz yaradıcılığında mürəkkəb və çoxcəhətli insan probleminə, insan iradəsinin gücünə, qüdrətinə ədalətli münasibət bildirir və insan ləyaqətini yüksək qiymətləndirirdi.

Mütəfəkkirin fikrincə, ən mühüm məqsəd məhz azadlığa nail olmaqdan ibarətdir. Ona görə azadlıq özbaşınalıq, ifratçılıq deyildir, azadlıq ifrat dərəcəyə çatdıqda artıq özbaşınalığa çevrilir. A.A.Bakıxanov insan azadlığını, azad fəaliyyəti müəyyən ictimai- siyasi, əxlaqi qaydalarla tənzimlənməsini məqsədəuyğun sayırdı. Mütəfəkkirə görə maarif insanın mənlik şüurunun inkişafının ən mühüm vasitəsidir və insanın cəmiyyətdə öz yerini dərk etməsinin rəhnidir.

Xalqın cəhalət boyunduruğundan xilasını elm və maarifdə görən A.A.Bakıxanov göstərirdi ki, biliksiz inkişaf yoxdur. Ona görə də «bütün elmlər və əsərlərdən son məqsəd maarifi tədqiq etməkdən ibarətdir. Çünki onlarsız şəraitin işi nə davam edər, nə də məişətin gedişi qaydaya düşər»(105, 44).

A.A.Bakıxanov «Qafqaz xalqlarının mədəni (mədəni-texniki – Ə.O.) inkişafdan geri qalmasını izah edərək qeyd edirdi ki, əgər siyasi sabitlik, lazımi tərbiyə Qafqaz xalqlarının inkişafına imkan yaratmış olsaydı, onlar maarifçiliyin ən yüksək zirvəsinə çatmış olardılar»(76, 101). Onun fikrincə, xalqı idarə edən hökmdar ona əziyyət verməməlidir, ölkəni idarə etmək bacarığına yiyələnməlidir. Hökmdar vaxtını boş-boşuna keçirməməli, öz fəaliyyətində ölkənin rifahına xüsusi diqqət yetirməli və xalqı ədalətlə idarə etməlidir. Hakimiyyətdən sui-istifadə etmək ədalətsizlikdir və xalqın mənafeyinə qəti olaraq ziddir.

A.A.Bakıxanov öz dövrünün cəmiyyətinin sosial strukturundakı ziddiyyətləri diqqətlə nəzərdən keçirərək yazır: «Həyat

yoxsulluqdur, dünya isə qaranlıq». Bu dünyada xoşbəxt insan yoxdur, hər bir adamda ruh düşkünlüyü nəzərə çarpır»(43, 40). O, eyni zamanda çarizmin siyasətini pisləyir və ona qarşı çıxırdı. Bu mənada 1837-ci ildə başlanan Quba silahlı üsyanına onun münasibəti də səciyyəvidir. O, üsyan vaxtı Qubada olmuşdur. Bu üsyan XIX əsrdə Azərbaycan kəndlilərinin çarizmə qarşı ən böyük etiraz hərəkatlarından biri hesab olunur. Quba üsyançıları çarizmin müstəmləkə siyasətinə qarşı çıxırdılar.

A.A.Bakıxanov humanizm prinsipini özünün ədalət anlayışının məzmununa aid edərək, hesab edirdi ki, humanistlik prinsipinin, adamların ləyaqəti və xoşbəxtliyinin əsasını ədalətə, bərabərliyə nail olmaq təşkil edir. Ona görə ədalətli və ağıllı insan zülmə etiraz edir.

A.A.Bakıxanov belə hesab edirdi ki, millətin zülmətdə yaşayan avam kütlələrinin xoşbəxtliyi birinci növbədə elmlə, maariflə bağlıdır. Buna görə də o, 1832-ci ilə Bakıda rus dilində məktəb açmağa təşəbbüs edərək, bu barədə hökumətə xüsusi bir layihə təqdim etmişdi. Həmin layihədə ilk Azərbaycan maarifçisinin bu sözlərini oxuyuruq: «Maarifə doğru ilk addım məktəb təsis etməkdir. Mən həmvətənlərmin faydası üçün var qüvvəmi bu işə sərf edirəm və öz nəzarətim altında məktəb təsis etmək haqqında fikir irəli sürməyə cəsarət edirəm». Yenə həmin layihədə bu sətirlərə rast gəlirik: «İndiyədək şüurlarda kök salmış cahil təsəvvürlərin təsirilə bəzi asiyalıların düşündükləri kimi «Avropaya Asiya qarşısında üstünlük verən» tale və təsadüf deyil, maarifdir»(103, 19). Onun yaradıcılığına diqqət yetirdikdə görərik ki, o nəinki Azərbaycanda, Rusiyada, eləcə də Avropada yaşayan alimlərlə sıx elmi əlaqələrə malik olmuşdur. Bunlardan Tiflisdə yaşayan M.Ş.Vazehi, Peterburq şəhərində yaşayan M.C.Topçubaşovu, Kazan universitetinin professoru Mirzə Kazımbəyi və Varşavada müsəlman süvari alayında xidmət edən İsmayıl bəy Qutqaşınlını göstərə bilərik. «A.Bakıxanovun azərbaycanlılardan başqa, digər millətlərdən olan alimlərlə, görkəmli insanlarla da elmi əlaqələri olmuşdur»(200).

A.A.Bakıxanovun həmçinin A.Qriboyedovla, A.S.Puşkinlə,

A.Bestujev-Marlinski ilə, Cənubi Azərbaycan şairi Fazil xan Şeyda ilə, alman F. Bodenştedlə, A.Fon-Hakstauzenlə, K.Koxla, polyak Bikeni David, Vladislav Stjelnitski, Tadeuş Lada Zabloski, fransız qraf Süzanne və b. ilə dostluğu və elmi əlaqələri olmuşdur. Həmçinin A.A.Bakıxanov bir çox Rusiya, İran orden və medalları ilə təltif olunmuşdur.

Beləliklə də, mütəfəkkir öz dərin məzmunlu yaradıcılığı ilə Şimali Azərbaycan xalqının milli oyanışında, milli şüurun və milli özünüdərk ideyalarının inkişafında müstəsna xidmət göstərmişdir.

Bu dövrdə Azərbaycan sosial - fəlsəfi fikir tarixində milli mənlik şüuru və milli özünüdərketmənin inkişafında mühüm xidməti olan şəxsiyyətlərdən biri də görkəmli Azərbaycan şairi, mütəfəkkiri və maarifçisi *Mirzə Şəfi Vazehdir.* O, memar ailəsində anadan olmuş, Gəncədə mədrəsədə təhsil almış və dini ehkamlara mənfi münasibətinə görə həmin dini təhsil ocağından uzaqlaşdırılmışdır. M.Ş.Vazeh Gəncədə bir müddət xəttatlıq edir və 1840-cı ilin əvvəllərində Tiflisə köçməyə məcbur olur. O, burada M.F.Axundovun köməyi ilə qəza məktəbində müəllim işləyərək Azərbaycan və fars dillərində dərs deyir. Mirzə Şəfinin Gəncədə təsis etdiyi «Divani-hikmət» ədəbi-fəlsəfi dərnəyinin fəaliyyəti, Tiflisdə də davam etdirilir. Bu dərnəkdə poeziya, fəlsəfə və etika ilə yanaşı dövrün əhəmiyyət kəsb edən ictimai-siyasi hadisələrinə dair müzakirələr keçirilirdi. Onun ədəbi-fəlsəfi məclislərində A.A.Bakıxanov, M.F.Axundov və alman Fridrix Bodenşted kimi görkəmli ziyalılar yaxından iştirak edirdilər. F.Bodenşted burada Mirzə Şəfidən Azərbaycan və fars dillərini öyrənir və klassik Şərq poeziyası nümunələri ilə tanış olurdu. A.A. Bakıxanovla Mirzə Şəfinin tanışlığının şahidi və söhbətlərinin iştirakçısı olan F. Bodenşted bu haqda yazır: «Mənim o vaxt ölkənin bir çox alimləri-ədəbiyyatçıları ilə tanış olduqlarım arasında Mirzə Şəfi mənə müdrikliyi öyrədirdi. Vəzifə və rütbəyə görə ən görkəmlisi isə Abbasqulu xan idi»(74, 340).

Mirzə Şəfi Vazeh öz əsərlərini Azərbaycan və fars dillərində yazmışdır. O, əlyazması formasında olan şeirlər toplusunu

1844-cü ildə Tiflisə gələn alman F.Bodenştedə vermişdir. 1847-ci ildə Almaniyaya qayıdan Bodenştedt «Müdriklik açarı» adlanan həmin şeirlər toplusunu digər şairlərinin əsərləri ilə birlikdə «Şərqdə min bir gün» (1850) və «Mirzə Şəfinin şərqiləri» (1851) kitablarında çap etdirmişdir. Bu şeirlər bir sıra Avropa ölkələrinin dillərinə tərcümə olunaraq geniş şöhrət qazanır. «Mirzə Şəfiyə olan bu marağın artdığını görərək, həmin şeirləri öz imzası ilə 1875-ci ildə alman dilində yenidən nəşr etdirir və dünya şöhrəti qazanır»(204). F.Bodenştedtin şərqə səfəri zamanı o, təkcə Mirzə Şəfinin şeirlərini deyil, həm də A.A.Bakıxanovun divanını da özü ilə götürüb Almaniyaya aparmışdır. Əlbəttə, o, Mirzə Şəfini Avropaya tanıtsa da öz adını da əbədiləşdirdi. M.Ş.Vazehin fəlsəfi dünyagörüşünün əsasını sufiliyin və çarvaka hind fəlsəfi məktəbinin materialist təliminin ünsürlərini birləşdirən panteizm təşkil edir. Mirzə Şəfi Vazeh öz fəlsəfi görüşlərində Allahla kainatı eyniləşdirir və qeyd edirdi ki, insan kainata xas olan qanunauyğunluqları dəyişdirməyə qadir deyildir. İnsan yalnız varlığı dərk edə bilər və təbiətin sirlərinə nüfuz etməyə qadirdir. Mirzə Şəfi idealist fəlsəfi cərəyan olan fatalizmin müddəalarını qəbul etməyərək ona qarşı çıxırdı. O, tərkidünyalıq, axirət dünyası barədə fatalist-dini təsəvvürləri kəskin tənqid edir, insanları real ictimai gərçəkliyə xas olan dəyərləri, gözəllikləri, xoşbəxt həyatı dərk edib qiymətləndirməyə, şəxsiyyətin azadlığı uğrunda mübarizəyə çağırırdı.

O, müasiri olduğu zəmanəsini, feodal-cəhalət dünyasını riyakarlığın, rəzilliyin və saxtakarlığın baş alıb getdiyi arzu olunmaz gerçəklik kimi izah edir. Mirzə Şəfi Vazeh azad fikirliliyin carçısı kimi yaşadığı cəmiyyətdə hökmranlıq edən sosial haqsızlığı, bərabərsizliyi ifşa edərək bildirirdi ki, cəmiyyətdəki bütün nemətlər, insanların yaratdıqları sərvətlər onların arasında ədalətli şəkildə bölüşdürülməlidir. Onun bu fikirlərindən aydın olur ki, o, ədaləti haqsızlığın aradan qaldırılması və bərabərliyin qərarlaşması meyarı kimi başa düşürdü.Mütəfəkkir azadlığın, xoşbəxt-şən həyatın tərənnümçüsü kimi, gələcəyə nikbinliklə baxır və inanırdı ki, bütün bəlaları, fəlakətləri və bərabərsizliyi

birdəfəlik aradan qaldıran yaxşı zəmanə hökmən gələcəkdir.

Mirzə Şəfinin bu fikri utopik mövqedən deyil, məhz real düşüncə tərzindən irəli gəlirdi. Onun çoxcəhətli, dərin yaradıcılığında ictimai zülmə, siyasi qəbahətlərə, cəhalətə qarşı barışmaz mübarizə ruhu aydın şəkildə biruzə verir. Bütün namuslu insanları cəsarətli, mübariz, mərd olmağa, mənəvi-əxlaqi ləyaqətə, saflığa çağıran mütəfəkkir riyakarların nifrətinə nifrət et, dünyanın güclüləri qarşısında cəsarətli ol, zəifdən alçalmasını tələb etmə deyirdi. Eyni zamanda mütəfəkkirin bu müdrik, qiymətli sosial-əxlaqi fikiri mahiyyət etibarilə ictimai-siyasi və fəlsəfi məna daşıyır, yəni bir sözlə ədalətsizliklə barışmamağa, öz haqqını tələb etməyə, gözü açıq olmağa çağırırdı.

«Görkəmli maarifçi Mirzə Şəfi Vazeh ictimai-fəlsəfi lirikasında həyat, dünya haqqında düşüncələrini əks etdirmişdir. O, bu tipli əsərlərində həyat haqqında dini-sxolastik görüşlərin əleyhinə çıxır, insanları real həyat nemətlərindən fəal surətdə istifadə etməyə çağırırdı. Onun satirik səciyyə daşıyın şerlərində, həcvlərində cəmiyyətdəki azğın, nadan hakimlər, riyakar ruhanilər tənqid atəşinə tutulmuşdur. Mirzə Şəfi klassik Azərbaycan və Şərq əxlaqi, didaktik ədəbiyyatı səpkisində yazılmış məzmun hekayələrində feodal cəmiyyətinin bir sıra ictimai eyiblərini açıb göstərir, zalım, başıboş şahlara qarşı çıxır, ədalət, xeyirxahlıq kimi müsbət keyfiyyətləri təbliğ edirdi»(58, 65).

Mirzə Şəfi Vazeh cəmiyyətdəki pisliklərə, şər əməllərə qarşı xalqı mübarizəyə səsləyir, xalqın acı taleyinə, fəlakətlərinə sadəcə ahzar etməklə, taledən şikayətlənməklə münasibət bildirməyi acizlik sayır, mənasız hesab edir, bədbinlikdən uzaqlaşmağa, gələcəyə böyük ümidlərlə baxmağa çağırırdı. Belə ki, mütəfəkkir sosial bədbinliyi xoşbəxt həyat, azadlıq uğrunda mübarizə üçün zərərli hal sayırdı. Onun dinə, ruhaniliyə qarşı mübarizəsi böyüyərək sonralar sosial-siyasi mübarizəyə çevrildi. Mütəfəkkirin istedadı, gerçəkliyə fəlsəfi münasibəti, realist dünyagörüşü sağlam fikir və siyasi istehzası onun başlıca fərqləndirici cəhətləri idi. Buna görə də Mirzə Şəfi ruhaniliyin və istibdad üsuli-idarəsinin kəskin düşməni idi. Onun ictimai-siyasi

və fəlsəfi düşüncə tərzi mövcud həyata qətiyyətli etirazla, insan azadlığı, sosial ədalət problemi və insan haqları uğrunda mübarizə ilə səciyyələnir. Mütəfəkkir insan azadlığını və onun mənəvi ləyaqətini yüksək qiymətləndirərək bu barədə yazırdı: «Sarsaqlığın hökm sürdüyü aləmə Allah bəzən ona görə şair göndərir ki, o azadlığın və zülmətin hökmranlığında zəkanın və işığın daşıyıcısı olsun»(43, 407).

Onun bütün yaradıcılığı və siyasi əqidəsi doğma xalqının oyanmasına, özünüdərketməsinə, maariflənməsinə bir çağırış kimi səslənir. Mütəfəkkirin fikrincə, insan təkmilləşməyə layiqdir və yeniləşməyə daim məruz qala bilər, lakin bu məqsədilə insanı oyatmaq lazımdır. Ona görə də qaranlığa düçar olmuş insan öz başı üzərində alovlanan məşəli qaldırmalıdır ki, yolunu işıqlandırsın. Onun fikrincə, azadlığın əldə olunması insanın özü-özünün dərketməsindən, həyatın mahiyyətini başa düşməsindən asılıdır. Mütəfəkkirə görə insan özünü dərk etmək istəyirsə öz-özünə aldadan baxmamalıdır. Buna görə də mütəfəkkir təqlid etməkdən çəkinməyi tələb edir, özgənin rəyinə xidmət etmə və hər şey barədə öz mülahizən olsun deyirdi. O, öz ictimai-siyasi, sosial və fəlsəfi görüşlərində müasiri olduğu ictimai gerçəkliyə nifrət edirdi. Ona görə də mütəfəkkir öz zəmanəsini «qeyri-insani aləm» kimi başa düşürdü. Onun fikrincə, qeyri-insanlıq nəinki öz məmləkətində, eləcə də hər yerdə hökm sürür. O, insanın sarsılmaz ruhuna, şəxsi azadlığa qovuşmasına və xoşbəxt həyata cəhd etməsinə inanaraq hesab edirdi ki, mövcud qanunlar azadlıq uğrunda mübarizə yolunda sədd ola bilməz, çünki onlar xalqın istək və arzularını, xoşbəxtliyini ifadə etmir.

«Mirzə Şəfi ruhaniliyə, fanatizmə və istibdad hakimiyyətinə qarşı kəskin çıxış edir, qadınların təhkimçilikdən azad edilməsinə çağırır, çadra daşımaq kimi adətin qəti əleyhinə çıxırdı»(76, 145). M.Ş.Vazeh də A.A.Bakıxanov kimi elmin bayrağını hər şeydən yüksək tutduğu üçün gənclərə müasir dünyəvi elmləri öyrətməyə böyük əhəmiyyət verirdi. O, 1832-ci ildə Gəncədə gənc Mirzə Fətəliyə dərs verirkən, onu ruhani təhsilindən uzaqlaşdırmağa və müasir dünyəvi elmləri kəsb etməyə çağırırdı. İlk Azərbaycan

maarifçiləri öz elmi və bədii yaradıcılıqlarında həmişə vətənpərvərlik, xalqı sevmək və onun üçün çalışmaq kimi tərəqqipərvər ideyalara əsaslanırdılar. Mirzə Şəfi Vazeh həm də bir sıra dərsliklərin müəllifi olmuşdur. «Bu dərsliklər arasında xüsusi yeri onun İvan Qriqoryevlə birgə tərtib etdiyi «Türk Azərbaycan dili və xrestomatiyası» (yəni ədəbiyyatı – Ə.O.) kitabı tutur»(149, 11).

Beləliklə, Mirzə Şəfi Vazeh öz dərin məzmunlu yaradıcılığı ilə Azərbaycan xalqının milli şüurunun oyanmasında və millətin özünüdərketməsində yaxından iştirak etmiş və milli şüurun, milli özünüdərketmənin inkişafında müstəsna xidmət göstərmişdir. Dahi mütəfəkkir və onun ardıcılları xalqımızda milli şüurun oyanmasına çalışmaqla bərabər, xalqın bir millət olaraq özünüdərketməsini, özünütanımasını istəmişlər.

Azərbaycan sosial-fəlsəfi fikir tarixində milli mənlik şüurunun və milli özünüdərketmənin inkişafında mühüm xidməti olan mütəfəkkirlərdən biri də *Mirzə Məhəmmədəli Hacı Qasım oğlu Kazım bəydir*. Mütəfəkkir tez bir zamanda atasının yanına gedib-gələn şotland missionerlərə Şərq dillərini öyrətdi, həmçinin özü də onlardan ingilis və fransız dillərini mənimsədi, tədricən Avropanın dini, fəlsəfi və ictimai fikri ilə tanış olmağa başladı. Bir sıra əcnəbi dilləri bilməsi, onun mütaliəsinə də güclü təsir göstərmişdi.

Mirzə Kazım bəy oxuduğu kitablarda həqiqət axtarırdı və özü sonralar bu haqda yazırdı: «Mən həmin kitabları (xristianların müqəddəs kitabları) artıq nə müsəlman, nə də xristian kimi deyil, həqiqət axtaran bir adam kimi oxuyurdum»(74, 164).

Beləliklə də şotland missionerlərinin iki il müddətində apardıqları gərgin təbliğat öz bəhrəsini verdi.

1823-cü ildə xristianlığı qəbul etmiş Mirzə Kazım bəy sonra Aleksandr Kazım bəy adını almışdır.

1826-cı ildə Mirzə Kazım bəy Kazan universitetinin Şərq bölməsində həmkarlıq edir və 1837-ci ildən isə bir professor kimi türk-tatar dili kafedrasının müdiri vəzifəsində çalışmağa başlayır. 1845-ci ildə o, Kazan universitetinin Fəlsəfə fakültəsinin birinci

bölməsinin dekanı olur. 1849-cu ildə isə Kazan universitetini tərk edərək Sankt-Peterburqa köçmüş, burada Şərq dilləri fakültəsinin dekanı və İran filologiyası kafedrasının müdiri təyin olunmuşdur. O, həmin universitetdə elmi-pedaqoji fəaliyyətinin 25 illiyi münasibətilə əməkdar professor adına layiq görülmüşdür. Mirzə Kazım bəy Rusiyada şərqşünaslıq elminin yaranmasına mühüm töhfələr bəxş etmişdir.

Təsadüfi deyildir ki, rus şərqşünasları bu böyük insandan danışarkən onun adını həmişə böyük ehtiramla yad edir və göstərirdilər ki, Rusiya Şərqi yaxşı tanımasına görə Mirzə Kazım bəyə minnətdardır. Onun ictimai-siyasi və fəlsəfi problemlərə həsr edilmiş əsərləri Azərbaycan və rus elminin qızıl fonduna daxil olmuşdur. Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Hollandiya və ABŞ akademiyalarının və elmi cəmiyyətlərinin üzvü olan görkəmli alim Rusiya, Yaxın və Orta Şərqdə mövcud olan siyasi və fəlsəfi cərəyanların mahiyyətini, həmin ölkələrin xalqlarının tarixini, fəlsəfəsini, siyasətini və ədəbiyyatını öyrənməyə ciddi diqqət yetirmişdir. O, üç dəfə Demidov elmi mükafatını almışdır. Bu barədə akademik H.Hüseynov yazır: «Azərbaycan qrammatikasının Demidov mükafatına təqdim olunması ilə əlaqədar, əsərə rəy verən akademik Dorn onun Rusiyada Şərqşünaslıq elminin son illərindəki coşqun inkişafının qanunauyğun nəticəsi hesab edir və göstərirdi ki, «Türk-tatar dilinin qrammatikası» Rusiya üçün çoxdan hiss olunan bir ehtiyac idi. Həm də belə bir əsərin dilə tam bələd olan, hələ uşaq yaşlarından, beşikdən başlayaraq, onun bütün incəliklərini mənimsəyən və bunu Avropa elmi ilə məharətlə sintez edən bir şərqli tərəfindən yazılması daha çox arzu olunurdu»(76, 169).

Mirzə Kazım bəyin ilk dəfə «Azərbaycan dili» terminin elmi əsaslandırması və işlətməsi onun xalqına verdiyi ən böyük töhfələrdən biri idi. Onun milli özünüdərkdən gələn dil haqqında fikirləri də xüsusi əhəmiyyət kəsb edir. Bu barədə Mirzə Kazımbəy yazır: «Xalqın dili onunla birlikdə böyüyür, onun düşüncəsi ilə bərabər inkişaf edir. Dil xalqın həyatının daxili və zahiri şəraiti ilə zənginləşir, onun maariflənmə yolunda uğurları

ilə təkmilləşir. Hər bir xalqın dili iki əsas elementlərdən ibarətdir: zahiri anlayış ideyalarının ifadəsi və daxili mənəvi aləm ideyalarının ifadə olunması. Birincinin çox olması dilin zənginliyini təşkil edir, ikincinin zənginliyi xalqın maariflənməsini»(76, 173).

Onun «Türk-tatar dilinin qrammatikası» (Kazan, 1830), «Müsəlman qanunşünaslığı kursu» (Kazan, 1845), «Müridizm və Şamil» (Sankt-Peterburq, 1859), «Bab və babilər» (Sankt-Peterburq, 1865) və digər əsərləri o dövrdə müəllifə böyük nüfuz qazandırmış və bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır. Mirzə Kazım bəyin bir sıra əsərləri bir çox Avropa xalqlarının (ingilis, alman, fransız və s.) dillərinə tərcümə olunaraq geniş şöhrət qazanmışdır.

Görkəmli alimin «Türk-tatar dilinin ümumi qrammatikası»ndan(194) uzun illər Rusiya və Avropa universitetlərində yeganə dərs vəsaiti kimi istifadə olunmuşdur.

Mirzə Kazım bəyin dünyagörüşü Azərbaycan mühiti, qabaqcıl Rusiya ictimai-siyasi və fəlsəfi fikri, antik dövr və alman klassik fəlsəfəsinin təsiri altında formalaşmışdır. O, müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, Azərbaycan dilinin ilk elmi qrammatikasının yaradıcısı, İranda babilər hərəkatının ilk tədqiqatçılarından biri olmuşdur.

Mirzə Kazım bəy dövrünün ziyalılarını, alimlərini Azərbaycanın tarixini, ədəbiyyatını, dilini və dinini tədqiq etməyə çağırırdı. Onu ilk növbədə maraqlandıran «Azərbaycan» sözünün mənşəyi idi.

Ağababa Rzayev «Dərbənddən başlanan əzablı yol» adlı kitabında yazır: «Bu məqsədlə alim ərəb, fars mənbələrini araşdırır, müqayisələr aparır, qədim Azərbaycan dinini, xüsusilə Zərdüştlüyü və onun Azərbaycanda yayılması məsələlərini tədqiq edirdi. Sonra uzun illər ciddi araşdırmalarda alim belə bir nəticəyə gəldi ki, «Azər-od», «baycan» isə «bərəkətli yer» deməkdir»(147, 63-64).

Böyük alim Mirzə Kazım bəy öz vətənindən ayrı düşməsinə baxmayaraq həyatının sonuna qədər Azərbaycana, doğma xalqına, onun tarixinə, elminə, poeziyasına və dilinə böyük məhəbbət

bəsləmişdir. O, Nizaminin, Xaqaninin, Füzulinin, Bakıxanovun və M.F.Axundovun böyük yaradıcılıqlarını yüksək qiymətləndirmişdir. İngilis dilində çap olunmuş «Dərbəndnamə» əsərində mütəfəkkir doğma vətəninin gözəlliyini, xalqın müdrikliyini və qəhrəman keçmişini tərənnüm edirdi. O, elmi-fəlsəfi yaradıcılığı ilə millətin özünü tanımasına, özünüdərkinə çalışmışdır.

Mirzə Kazım bəy 100-dən artıq elmi əsər yazmışdır ki, onların da əksəriyyəti Şərq xalqlarının, o cümlədən də, Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikrinin problemlərinə, onun milli inkişafına həsr olunmuşdur. Mütəfəkkir maariflənmiş monarx ideyasını müdafiə etmiş və belə hesab etmişdir ki, müdrik hakimlər ölkəni sənaye, texnika və elmin inkişaf yolları ilə apararaq gözəl bir cəmiyyət qura bilərlər.

Mirzə Kazım bəy kəndlilərin antitəhkimçi mübarizəsinin və tələbə hərəkatının təsiri altında tədricən bir çox utopik fikirlərdən əl çəkərək burjua-maarifçi demokrat yoluna keçmişdi. Eyni zamanda o, maarifə, təhsilə böyük əhəmiyyət verirdi və belə hesab edirdi ki, elm və maarifin inkişafı olmadan Şərq ölkələri, o cümlədən Azərbaycan iqtisadi və mədəni gerilikdən xilas ola bilməz. Ona görə zaman keçdikcə Şərq xalqları sivilizasiyalı dünyada layiq olduğu yeri tutacaqlar. Bunun üçün dini fanatizmdən xilas olunmaqda, həqiqət yolunda iri addımlar atılmasında maarifçilik mühüm rol oynaya bilər. Onun fikrincə mövcud qaydalar xalqın təbii tələblərinə cavab verməzsə həmin qaydaları dəyişdirmək onun haqqıdır. Mirzə Kazım bəyə görə, insan azadlıq, təhsil almaq, xoşbəxt yaşamaq hüquqlarına malikdir. Əgər hakimlər bu hüquqları tapdalayırsa xalq kütlələri onu devirmək hüququnu özlərində saxlayırlar. Buna görə də o, XIX əsrin ortalarında İranda baş vermiş antifeodal, antimütləqiyyət xalq hərəkatı- babilər hərəkatına haqq qazandırmışdır. Mirzə Kazım bəy «onların məqsədinin vətənlərini ruhaniliyin acgözlüyündən, tiranın zülmündən azad etmək olduğunu iddia edirdi. Dini islahatın zəruri olduğunu da bura əlavə edirdi»(155, 562).

Bütün bunlara baxmayaraq Mirzə Kazım bəyin ictimai-siyasi və fəlsəfi dünyagörüşü çoxcəhətli, zəngin, eləcə də

mürəkkəb və ziddiyyətlidir. Görünür bu mürəkkəblik və ziddiyyətli hal mütəfəkkirin yaşadığı sosial mühitin mahiyyəti və şəxsi taleyi ilə şərtlənirdi. Məsələn, humanizmin, ədalətin qızğın carçısı, maarifçiliyi ilə nüfuz qazanmış dünya şöhrətli bu böyük alim maraqlıdır ki, çar Rusiyasının Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinə haqq qazandırırdı. Bu barədə Mirzə Kazım bəy yazır: «Alicənablıq, təmənnasız igidlik, ədalət bütün Qafqazı itaət altına almaq üçün zəruri olan üç silahdır, bunlardan biri digərləri olmadan uğur əldə edə bilməz. Yermolovun adı bu diyar üçün qorxulu və xüsusilə yadda qalan idi. O, alicənab və bəzən zalımlığı ilə seçilən sərt adam olmuşdur. Onun Qafqazı dinclikdə və itaətdə saxlamaq üçün istifadə etdiyi üsullar o dövrdə müasir və ağıllı idi»(43, 412).

Mirzə Kazım bəy olduqca mürəkkəb və ziddiyyətli siyasi inkişaf yolu keçmişdir. O, monarxist və liberal illüziyalardan demokratizmə, idealizmdən deizmə qədər bir yol keçmişdir. Bir mütəfəkkir kimi o, sosial ədalətsizliyə, siyasi zülmə öz etirazını bildirmiş, azadlıq, bərabərlik, qardaşlıq ideyaları ilə bərabər yer kürəsində sülh ideyasını da təbliğ etmişdir. Onun cəmiyyət haqqında görüşlərində istibdad üsul-idarəsinə nifrət xüsusi yer tutur. Elə bu cəhət də onun sosial fəlsəfəsinin humanizmini səciyyələndirir. Mütəfəkkir belə hesab edirdi ki, istibdada, zülmə əsaslanan idarəçilik mahiyyət etibarilə xalqın əsarət altına alınması, cəhalətə məhkum edilməsi, onun mənəviyyatının ləkələnməsi, milli-mənəvi dəyərlərinin aradan qaldırılması və mədəniyyətinin inkişafdan qalmasıdır.

Mirzə Kazımbəyin cəmiyyət haqqında görüşləri onun «Bab və babilər» adlı əsərində aydın olaraq göstərilir. O, həmçinin cəmiyyətdəki bəlaları, əsarətin səbəbini yalnız istibdad qaydalarında görmür, eləcə də din, fanatizm və cahilliklə əlaqələndirirdi.

Mirzə Kazım bəyin dini-fəlsəfi baxışları bir tərəfdən dünyanın Allah tərəfindən yaradılmasını, digər tərəfdən yaradılışdan sonra Allahın rolunu məhdudlaşdırılmasını ehtiva edirdi. Mütəfəkkir təbiət və ictimai həyatın səbəb və hərəkətverici

qüvvələrini təbiətin və cəmiyyətin özünə xas olan obyektiv qanunlarda görür, təbii qanunların roluna böyük yer verirdi. O, təbiətdə mövcud qanunları mənəvi həyat sahəsindəki qanunlardan fərqləndirirdi. Maddi dünyanın qanunları insandan asılı deyil və dəyişməzdirsə, onlar pozulmazdır. Mənəvi dünyanın qanunları isə onun sözləri ilə desək, insanın azad iradəsindən asılıdır.

Mirzə Kazım bəyin sosial – fəlsəfi baxışlarından danışdıqda qeyd etmək lazımdır ki, o inkişafa qanunauyğun bir proses kimi diqqət yetirir və onun yüksələn xətlə getdiyini iddia edirdi. Onun fikrincə, dünyada, o cümlədən siyasi həyatda hər şey təbii sarsılmaz qanunlarla inkişaf edir. O, bu müddəanı cəmiyyətin inkişaf tarixinə müncər edərək, antik dövlətlərin, ilk növbədə Romanın, Babilistanın nümunəsində əsaslandırır ki, ictimai inkişaf fasiləsiz təbii prosesdir və inkişaf köhnə ilə yeniliyin mübarizəsi gedişində davam edir. Mütəfəkkirə görə Şərqdə bəşəri dəyərlər aydın nəzərə çarpır.

Mirzə Kazım bəy qeyd edirdi ki, «Şərq və Asiya ağıllı dünyanın çox böyük hissəsini təşkil edir və orada sivilizasiya ruhu mövcuddur» (43, 416). O, Şərqin oyanmasını və hərəkətə gəlməsini belə təsvir edirdi. Mütəfəkkirə görə, Çin və Yaponiya indi silkələnir: Hindistan artıq oyanmışdır, Türkiyə tam şüurlu olmasa da Qərbdən çox şey mənimsəmişdir və İran isə darıxmadan sakit addımlarla gedir. Onun «Müridizm və Şamil» əsəri Qafqaz xalqlarının Çar Rusiyasına qarşı apardığı milli-azadlıq mübarizəsinə həsr olunmuşdur. Çarizm Şeyx Şamilin başçılığı ilə başlanan uzunmüddətli milli-azadlıq hərəkatına sırf dini xarakterli mübarizə kimi baxırdı. Mirzə Kazım bəy ilk dəfə olaraq çarizmin ideoloqlarının saxta fikirlərini alt-üst edərək cəsarətlə əsaslandırırdı ki, Qafqaz dağlılarının çarizmin müstəmləkəçilik siyasətinə qarşı hərəkatı dini deyil, məhz dini bayraq adı altında aparılan milli-azadlıq mübarizəsidir. O, eyni zamanda Şeyx Şamilin şəxsiyyətini yüksək qiymətləndirmiş və göstərirdi ki, o, dərin zəkası, ağılı ilə adi müridizmdən siyasi müridizmə keçilməsini hamıdan yaxşı hiss etmişdi.

Mirzə Kazımbəy Şeyx Şamil hərəkatını araşdırarkən,

dağlıların rəhbəri haqqında yazır: «Şamilin adı özündə çoxlu tarixi və vətənpərvərliklə bağlı fikirlər ehtiva edir. O hər halda, qəhrəmandır, qəhrəmanların yaradıcısıdır» (76, 186). O həmçinin müsəlman dövlətinin sosial-siyasi strukturunda dinin yeri və rolunu müəyyənləşdirməyə səy göstərirdi. O, hesab edirdi ki, din siyasiləşir, siyasət isə dini pərdə ilə örtülür. Mirzə Kazım bəy qeyd edirdi ki, «islam sivilizasiyanın qarşısını ala bilməz, o, maarifə qarşı dura bilməz; bu, ruhani təbəqəsinin fanatizmidir, hər yerdə sivilizasiyanın rüşeymini kəsən nadanlıqdır»(43, 422) .

Nəhayət, Mirzə Kazım bəy öz dərin məzmunlu elmi-fəlsəfi yaradıcılığı ilə Azərbaycan dilinin zənginləşməsində, xalqın milli mənlik şüurunun inkişafında və millətin özünüdərketməsində yaxından iştirak etmiş və onu xalqın milli oyanışında, milli özünüdərkində mühüm xidmət göstərən mütəfəkkirlərimizdən biri hesab etmək olar.

XIX əsrin sonlarında Azərbaycan sosial fəlsəfi fikir tarixində milli mənlik şüuru və milli özünüdərketmənin inkişafında müstəsna xidməti olan mütəfəkkir şəxsiyyətlərdən biri *Mirzə Fətəli Axundovdur.* Yeni dövr Azərbaycan ədəbiyyatı, ictimai-siyasi və fəlsəfi fikrinin inkişafında mühüm rol oynayan M.F.Axundov həm dramaturgiyamızın banisi, həm də maarifçilik ideologiyasının mükəmməl əsasını qoyan şəxsiyyətdir.

M.F.Axundov 1833-cü ildə Şəkidə açılan rus-tatar məktəbinə daxil olmuş və bir il oxuduqdan sonra Tiflisə getmiş, Qafqaz canişininin baş dəftərxanasında Şərq dilləri üzrə mütərcim işləmişdir. O, ömrünün sonunadək həmin vəzifədə çalışmışdır.

1851-ci ildə Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilir və 1864-cü ildə Zaqafqaziya və Qafqaz arxivlərini tədqiq etmək üçün Arxeologiya komissiyasının üzvü olmuşdu. M.F.Axundov 1873-cü ildə çar ordusunun polkovnik rütbəsini alır. O, Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində, ictimai-siyasi və fəlsəfi dünyagörüşü ilə xüsusi əhəmiyyət kəsb edən yer tutur. Onun ictimai-siyasi, fəlsəfi-bədii yaradıcılığı Azərbaycan xalqının mənəvi mədəniyyətini yüksək səviyyədə zənginləşdirmişdir. M.F.Axundov Tiflisdə dövrünün ən görkəmli adamları,

o cümlədən, rus, gürcü, azərbaycanlı və digər millətlərin nümayəndələri ilə tanış olmuş, müxtəlif ölkələrdən olan görkəmli adamlarla məktublaşmışdır. O, dərin və geniş yaradıcılığına şeirlə başlamışdır.

Beləliklə, Səbuhi ləqəbi ilə şeirlər yazan M.F.Axundov 1837-ci ildə «Puşkinin ölümünə Şərq poeması» yazmış və burada şairin ölümündə günahı olanları lənətləmişdir. Bu əsər həmin ildə Bestujev-Marlinski tərəfindən rus dilinə tərcümə edilərək çap olunmuşdur. «Onun ictimai-siyasi və fəlsəfi görüşlərinin formalaşmasında ilk öncə Azərbaycanın ictimai mühiti, xalqımızın zəngin mütərəqqi ideya-nəzəri irsi, qədim mədəniyyəti həlledici rol oynamışdır»(212). Onun dünyagörüşünün formalaşması ilk öncə Azərbaycan gerçəkliyi ilə bağlı olan mənəvi-mədəni və ideya-siyasi və fəlsəfi amillərlə də şərtlənmişdir. Mütəfəkkirin dünyagörüşünün təşəkkülü və inkişafına eləcə də klasik Şərq ədəbiyyatı, qabaqcıl rus və mütərəqqi Avropa fəlsəfəsi və ictimai-siyasi fikri əhəmiyyətli təsir göstərmişdir.

O, öz yaradıcılığında Volter, Monteskye, Russo, Mill, Yum, Kopernik kimi böyük mütəfəkkirlərin qiymətli fikirlərinə müraciət edir. M.F.Axundov altı komediya yazmış və o, bu əsərlərdə feodal cəmiyyətinin qüsurlarını, nadanlığını, ikiüzlüyünü, ruhanilərin yalanlarını, xəsisliyini, hərisliyini tənqid etmişdir. Onun bu əsərləri hələ müəllifin sağlığında rus dilinə tərcümə olunaraq tamaşaya qoyulmuşdur. Sonralar həmin əsərlər fars, fransız, ingilis, alman dillərinə tərcümə olunaraq geniş şöhrət qazanmışdır. Əsasən M.F.Axundov XIX əsrin 50-ci illərindən etibarən fəlsəfi məsələlərlə məşğul olmağa başlamışdır. Onun bir çox fəlsəfi məzmunlu elmi əsərləri olmuşdur. Bunlardan «Həkimi ingilis Yuma cavab», «Yek kəlmə haqqında», «Mollayi Ruminin və onun təsnifinin babında», «Con Stüart Milli azadlıq haqqında», «Babizm ehkamı haqqında», «Molla Əkbərlə mübahisə» və s. göstərə bilərik.

M.F.Axundov «Yek kəlmə» haqqında məqaləsində yazır: «Etiqad ayrılığı sayəsində insan növü azadlıq hüququndan məhrum ola bilməz. Buna görə də qul və kənizləri alıb-satmağı köhnə

və yeni dünyanın hər bucağında qəti surətdə qadağan etmişlər»(19, 309). Onun bədii və fəlsəfi əsərlərində insan azadlığı o, cümlədən, qadın azadlığı xüsusi önəm daşıyır. Bu mənada o, fəlsəfi məzmunlu əsərlərində qadın azadlığına da geniş yer ayırmışdır. M.F.Axundov qadının cəmiyyətdə kişilərlə bərabər hüquqlu olması uğrunda mübarizə aparmış və şəriət ehkamlarına qarşı çıxış etmişdir. Bu barədə mütəfəkkir yazır: «Şəriətin nə haqqı var ki, qadın tayfasını hicab ayəsi vasitəsilə daimi həbsə atıb, ömrü boyunca bədbəxt edir və yaşamaq nemətindən məhrum edir»(19, 309).

Mütəfəkkir (1863-1866-cı illərdə) «Hind şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab» adlı fəlsəfi traktatını yazmışdır. Bu fəlsəfi əsərin onun ədəbi, elmi və ictimai fəaliyyətinin yekunu hesab etmək olar. Mütəfəkkir həmçinin ərəb əlifbasının dəyişilməsi istiqamətində də böyük maneələrə baxmayaraq, mübarizə aparmışdır. Bütün yaradıcılığı boyu öz məqsədlərindən əl çəkməyərək ömrünün sonuna qədər Osmanlı vəzirləri və İran mühafizəkarları ilə mübarizə aparmış və bu barədə özünün «Əlifba haqqında mənzumə» əsərini yazmışdır.

M.F.Axundov əlifbanın dəyişilməsi haqqında yazır: «Köhnə yazını kökündən dəyişməklə, dilin qrammatikasını müasir elmin ruhunda tərtib etmək vacibdir. Bu sahədə dilçilərin çoxlu işi var. Təzə əlifbanın tətbiq edilməsi ilə dilçi alimlərin işi xeyli asanlaşır. Tətbiq edilmiş təzə əlifba gələcək nəsilləri elm və mədəniyyətə qoşulmaq üçün əlavə çətinliklərdən azad edir. Durğunluq və hərəkətsizlik dünyası əbədiliyə qovuşur. Bugünkü dünya-tərəqqi dünyasıdır»(76, 186).

Mütəfəkkir əlifbanın dəyişilməsinin vacib olduğunu vurğulayaraq yazır: «İndi «Kəmalüddövlə» müəllifinin təlaş və arzusunun hədəfi heç olmazsa, öz millətimin, o qövmdən bizə yadigar qalan rədd olunmuş və murdar yazının əlindən xilas edib millətini cəhalət qaranlığından mərifət işığına çatdırmaqdır»(20, 138).

M.F.Axundov orta əsr cəhalətinə, fanatizmə, feodal üsuli-idarəsinin geriliyinə qarşı gərgin mübarizə aparmışdır. O, Azər-

baycanda və bütün Yaxın Şərq ölkələrində fəlsəfəni sistemləşdirən və yüksəklərə qaldıran, onu xalqın azadlıq hərəkatı ilə bağlamağa çalışan, qabaqcıl ictimai-siyasi baxışlarla, mütərəqqi ideyalarla sıx vəhdətdə təbliğ edən bir filosof olmuşdur. M.F.Axundovun dinə münasibəti haqqında fəlsəfə elmləri doktoru, professor Y.Rüstəmov «Fəlsəfənin əsasları» adlı kitabında yazır: «Axundovun fəlsəfi irsində dinin tənqidi mərkəzi yer tuturdu. O, elm və dini bir-birinə qarşı qoyur, onların bir araya sığışmadığını sübut etməyə çalışırdı. M.F.Axundov dini tərəqqi yolunda ən böyük maneə hesab edirdi» (145, 310).

M.F.Axundov öz sosial-siyasi idealının həyata keçirilməsində insan ağlına böyük ümid bəsləyir və göstərirdi ki, elm, maarif tərəqqinin mühüm amilidir. O, despotik dövlət quruluşunu tənqid edir, ictimai həyatın ədalət əsasında yenidən qurulmasını tələb edirdi. Əvvəlcə maarifpərvər, ədalətli hökmdara ümid bağlayan M.F.Axundov sonralar konstitusiyalı monarxiya fikrini irəli sürürdü. «Ümumiyyətlə, M.F.Axundov öz ictimai-siyasi görüşləri, müasiri olduğu cəmiyyətə fəlsəfi baxışları etibarilə despotizm, monarxiya üsuli-idarəsinə, teokratiyaya qarşı çıxaraq, maarifçi və inqilabçı demokrat kimi, demokratik respublikaya, xalqın seçdiyi nümayəndələrdən ibarət parlament idarəçiliyinə tərəfdar idi, xalqın inqilabi-demokratik və azadlıq hərəkatını alqışlayırdı»(40, 71). Onun fikrincə, azadlıq insanın təbii hüququdur, insanın inkişaf etməsinin zəruri şərtidir. Buna görə də hər bir fərd öz fikirlərini azad surətdə söyləyərək, azad şəkildə təbliğ etmək, yaşamaq hüququna malikdir. O insan azadlığı problemini insan hüquqlarının tam təmin edilməsi ilə əlaqələndirir və insan hüququnu tapdalayan quruluşun məhvi məsələsini qəti şəkildə qoyurdu.

M.F.Axundov öz əsərlərində Azərbaycan, İran, Türkiyə və s. ölkələrin ictimai və siyasi quruluşlarının qüsurlarını açmış, Şərq despotizmini tənqid etmişdir. Eyni zamanda onun bu tənqidi fikrini bütövlükdə təhkimçi-rus mütləqiyyətinə qarşı çevrilən kimi də qəbul etmək olar. Onun fikrincə mövcud münasibətlərdə əməlli-başlı dəyişiklik etmədən əsrlərcə hökm sürən geriliyi

aradan qaldırıb dünya sivilizasiyasının geniş yoluna çıxmaq mümkün deyildir. Bu barədə Mirzə Fətəli Axundov yazır: «Kəmalüddövlənin müəllifi də Avropa filosofları əqidəsindədir, yəni liberal və proqress məsləki sahiblərindən və sivilizasyon taliblərindəndir. Məqsədi budur ki, onun millətinin arasında dəxi əhalinin bütün siniflərində elm və sənətlər intişar etsin» (20, 136).

Artıq XIX əsrin 70-ci illərindən etibarən o, monarxiyanın devrilməsi və inqilabi yolla demokratik qaydaların bərqərar olmasını müdafiə etməyə başlamışdı. «M.F.Axundov Azərbaycan milli dövlətçiliyinin təməl prinsiplərini işləyib hazırlayan nadir şəxsiyyətlərdəndir. O, Azərbaycan dövlətçilik ideologiyasında inqilabi-demokratik fikrin banisidir. Axundovun ictimai-siyasi və hüquqi təlimi və onun dövlətçilik dünyagörüşü nəinki Azərbaycan və İranda, bütövlükdə Şərqdə demokratik ideologiyanın formalaşmasının ideya mənbəyi olmuş, ardıcılları onun ənənələrini davam etdirərək onları yeni tarixi şəraitə uyğun şəkildə inkişaf etdirmiş, yeni anlayış və yeni problemlərlə zənginləşdirərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar».(44, 116)

M.F.Axundovun sivilizasiya haqqında fikirləri mühüm maraq doğurur və o, bu barədə yazır: «Sivilizasiya tarixi tərəqqi ideyasına uyğun olaraq çoxəsrlik inkişafın məhsuludur və onun yaradılmasında dünyanın bütün xalqları iştirak etmişdir. Birinci olaraq sivilizasiya Şərq ölkələrində yaranmışdır. Orta əsrlərdə də Şərq xalqları öz inkişafına görə irəlidə olmuşlar. Sonralar isə Şərq əvvəlki mövqeyni itirmiş, öz yerini Avropaya vermişdir» (155, 569).

M.F.Axundova görə tarixi inkişafın başlıca səbəbi elm və maarifdir. Onun fikrincə cəmiyyətin tərəqqisi–əqlin məhsuludur. Lakin mütəfəkkir ömrünün sonuna yaxın cəmiyyətin inkişafında iqtisadi faktorun rolunu qiymətləndirməyə çalışmışdır. Mütəfəkkir, maarifçi demokrat olan M.F. Axundov bütün ömrünü xalqının – millətinin tərəqqisinə həsr etmişdir. O, xalqın gücünə inanır, istibdad zülmündən xilas olmaq üçün onu birliyə, mövcud quruluşu inqilabla məhv etməyə çağırırdı.

M.F.Axundovun qələmindən çıxan «Aldanmış kəvakib» əsəri Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində çox mühüm əhəmiyyət kəsb edir. Bu əsərdə istibdadın tənqidi, feodal cəmiyyətinin dəyişdirilməsi ideyası, maarifçi mütləqiyyətin təbliği başlıca yer tutur. Müəllifin fikrincə yuxarıdan hər hansı islahat yolu ilə xalqı yoxsul vəziyyətdən, ağır iqtisadi şəraitdən xilas etmək mümkün deyildir. Ona görə də xalq hər şeydən əvvəl inqilabın zəruriliyini dərk etməli və onun ideyalarını mənimsəməlidir. Belə olan təqdirdə inqilabın aparıcı qüvvəsi məhz xalq olmalıdır.

Beləliklə də xalq cəmiyyətin və mövcud dövlət quruluşunun dəyişdirilməsi zərurətini dərk etmək üçün bir sıra mütərəqqi islahatlara ehtiyac duyur və şübhəsiz ki, mütəfəkkir mütərəqqi islahatı yaxşılığa doğru addım hesab edirdi.

Fəlsəfə elmləri doktoru, professor Ənvər Əhmədov «Azərbaycan maarifçilik fəlsəfəsi» adlı kitabında yazır: «M.F.Axundovun sosial-siyasi fəlsəfəsi özündə aşkar şəkildə humanizm, vətənpərvərlik, milli özünüdərk ideyalarını daşıyırdı»(181, 145).

M.F.Axundovun 1865-ci ildə yazdığı «Hindistan şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab» adlı fəlsəfi-siyasi traktatında başlıca olaraq düşməni hesab etdiyi və həyatı boyu mübarizə apardığı mütləqiyyəti və orta əsr qalıqlarını kəskin şəkildə ifşa edir, xalq kütlələrinin məruz qaldığı ağır zülmü və istismarı lənətləyir. M.F. Axundov bu əsərində arzu etdiyi sosial tədbirlərin həyata keçirilməsi üçün insan zəkasına daha çox ümid bəsləyir və hesab edirdi ki, elm maarif və tərəqqinin başlıca amilidir və onun sözləri ilə desək, «insan növünün tərəqqisi ağıl ilədir», elə buna görə də cəmiyyət öz fərdlərinə fikir azadlığı verməlidir. O, elə cəmiyyət quruculuğuna çağırırdı ki, orada sənaye, iqtisadiyyat, elm, mədəniyyət tərəqqi etsin, həmin cəmiyyət xalqın ümumi güzəranını yaxşılaşdırsın. Həmçinin o, öz əsərində mövcud feodal dövlətini, onun məhkəmələrini və qanunlarını kəskin tənqid edirdi.

Mütəfəkkir alim feodal üstünlüklərinə, ruhanilərə və

zadəganlara qarşı qətiyyətlə çıxış edərək göstərirdi ki, onlar xalqı soyur, ona zülm edirlər və cəmiyyətdə adi qanunlar belə onlar üçün yoxdur.

M.F.Axundova görə zülmü aradan qaldırmaq üçün iki şey lazımdır: ya zalım zülmdən əl çəkməlidir, ya də məzlum zülmə dözməməlidir. O ictimai-siyasi və fəlsəfi traktatında istibdadın ümumiləşdirilmiş tərifini verərək yazır: «İstibdad elə bir hökmdardır ki, öz hərəkətlərində heç bir qanuna tabe olmur, onlara əməl etmir, daim mülkiyyət və xalq üzərində hökmranlığını həyata keçirir, həmişə özünə münasib şəkildə hərəkət edir»(43, 430).

M.F.Axundov istibdadı ifşa etməklə başlıca diqqəti onun milli xüsusiyyətlərinə deyil, bütün mütləqiyyətə, eləcə də rus mütləqiyyətinə xas olan ümumi cəhətlərə istiqamətləndirir.

Beləliklə də, M.F.Axundov öz əsərlərində mövcud ictimai-siyasi quruluşu tənqid edərək, bu quruluşun ləğvi yollarını və yenisi ilə əvəz olunması imkanlarını göstərir. M.F.Axundov birmənalı şəkildə xalq kütlələrini inqilaba çağırır. Onun fikrincə inqilabın qələbəsi yalnız maarifçilik yolu ilə, fanatizmə qarşı mübarizə sayəsində təmin oluna bilər. Həmçinin maarifçilik, biliklərə yiyələnmək ilk növbədə savadlanmağı, cəhalətə qarşı amansız olmağı tələb edirdi. O aydın dərk edirdi ki, savadsız adam siyasətdən baş çıxara bilməz, irəliyə yox, geriyə boylanar. Bir sözlə cəhalətdən xilas ola bilməz.

Mütəfəkkir öz xalqına bağlılığı, vətənpərvərliyi haqqında yazır: «Düşmənlərim məni din və dövlət düşməni adlandırır… Mən xalqı sevən, canını bu yolda qurban verməyə hazır olan bir adamam»(21, 128).

M.F.Axundov eyni zamanda dini-feodal əxlaqın qadına münasibətə dair ehkamlarını tənqid edərək, qadınlara bütün sahələrdə kişilərlə bərabər insanlıq və azadlıq hüquqları verilməsini və birinci növbədə onların arasında elm və maarifin geniş yayılmasını qızğın arzu etmişdir. Mütəfəkkirin yazdığı məşhur komediyalarında yaratdığı qadın obrazları bu məqsədi özündə əks etdirmişdir.

Müəllif öz komediyalarında belə bir fikir irəli sürmüşdür ki, imtiyazlı feodal silklərinin əməli əxlaqı əslində cəmiyyətin əxlaqca tənəzzülünün və pozulub eybəcər hala düşməsinin əlamətidir. Onun fikrincə istər məhkəmə işlərində, istərsə də başqa dövlət işlərinin icrasında ədalətin belə kobud bir surətdə tapdalanması cəmiyyət üzvlərinin əxlaqına son dərəcədə pis təsir edir və belə bir vəziyyətdə əxlaqın heç bir meyarı qalmır.

M.F.Axundov eyni zamanda Azərbaycan ədəbiyyatında tənqidi realizm məktəbinin əsasını qoymuşdur. «Bu ədəbi cərəyanını əsas istiqaməti Azərbaycanın o zamankı ictimai-mədəni həyatında, yaşayış tərzində və məişətində kök salmış mənfi cəhətləri, köhnəliyi, cəhalət və mövhumatı, bəylərin, mülkədarların, ruhanilərin özbaşınalığını və əxlaq düşkünlüyünü amansız surətdə tənqid etməkdən ibarət idi»(63, 108).

Qeyd etməliyik ki, M.F.Axundov çar idarəsində işləməsinə baxmayaraq, heç də çarpərəst olmamış və əksinə, burada çar üsuli-idarəsinin əsil mahiyyətini, çarizmin xalqa yad siyasətini daha dərindən dərk edirdi. «Onun xidməti vəzifəsi ona çoxsahəli ictimai-siyasi və maarifçilik fəaliyyətini həyata keçirmək üçün maddi, həm də müəyyən başqa üstünlüklər, təminatlar verirdi. Doğrudur, o çarizmə qarşı açıq şəkildə çıxış etməmişdir. Lakin Azərbaycan yazıçısı və mütəfəkkiri despotizmi amansız bir şəkildə ifşa etməklə, eyni zamanda çar üsul-idarəsini, cəlladın özünü ifşa edirdi»(94, 35).

Həmçinin o, zəhmətkeş xalqa çox yaxın olmuş, onun kədərini, dərdini özünün kədəri, dərdi hesab etmişdir. Elə bu yaxınlıq onun gələcək həyat yolunun müəyyənləşməsində həlledici rol oynamışdır. Xalqın mənafeyi, azadlıq və tərəqqisi uğrunda mübarizə Axundovun həyatının əsas mənası, məqsədi olmuşdur.

M.F. Axundovun mühüm xidmətlərindən biri də odur ki, o ilk dəfə olaraq Azərbaycan mütəfəkkirlərinin fəlsəfəyə münasibətini əsaslı surətdə dəyişdirdi. Ona qədər belə hesab olunurdu ki, fəlsəfə varlığın və idrakın fövqəlhissi prinsipləri haqqında elmdir. M.F. Axundov isə göstərdi ki, «bu elm maddi dünyanın qanunlarını və səbəbiyyət əlaqələrini öyrənir. O, qeyd

edirdi ki, varlıq təkdir, öz-özünün səbəbidir»(65, 123).

M.F.Axundovun dünyagörüşündə sosial fəlsəfə məsələləri mərkəzi yer tutur. Onun bütün bədii, ictimai-siyasi, fəlsəfi və ədəbi-tənqidi fəaliyyəti böyük bir məqsədə – doğma xalqının azadlığı, tərəqqisi və səadəti uğrunda mübarizəyə, mütəfəkkirin öz sözləri ilə desək «həmvətənlərini qaranlıqdan işığa, tərəqqi və sivilizasiya yoluna» çıxarmaq məqsədinə yönəlmişdir. «Təsadüfi deyil ki, M.F.Axundzədəyə (M.F.Axundov – Ə.O.) böyük rəğbət bəsləmiş F.Köçərli onu «milli yazarlarımızın mənəvi atası», «ədəbiyyatımızın fəxri» saymış, Axundzadənin bədii və fəlsəfi əsərlərindəki maarifçilik ideyalarına yüksək qiymət verərək dövrünün yaramazlıqlarını ifşa etmək və xalqın milli şüurunu oyatmaq uğrunda yorulmadan mübarizə aparmasından fəxrlə söhbət açmışdır»(55, 22) .

Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından olan ictimai-siyasi xadim M.B.Məmmədzadə istiqlal, azadlıq və müstəqillik məfkurəsinin inkişafında M.F.Axundovun müstəsna rol oynadığını xüsusi qeyd edərək yazır: «Azərbaycan milli xartiyasının xülasəni istiqlal fikrinin təşkilində … Mirzə Fətəlidən Üzeyirə kimi, «Əkinçi»dən «Azərbaycan» və «Yeni Qafqaziya»yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Siyasi – ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən bu dövr bu gün aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin etmək üçün belə keçirdiyimiz fikri-inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər.

…Zənnimcə, Mirzə Fətəli və Həsənbəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır. …Özünün türkçülüyünü və azərbaycanlılığını dərk etməyən xalq belə bir bəyannaməni verə bilməzdi»(121, 139). M.F.Axundov fəlsəfi fəaliyyəti ilə ilk növbədə milli müstəmləkə vəziyyətində yaşayan xalqın azadlıq hərəkatını nəzəri cəhətdən əsaslandırmağa çalışmış, milli maarifçiliyin mühüm nəzəri müddəalarını hazırlamışdır.

Eyni zamanda mütləqiyyət quruluşunu devirib, onu demokratik cəmiyyətlə, ədalətli ictimai-siyasi quruluşla əvəz etmək, xalqa azadlıq, tərəqqi və xoşbəxtliyin yolunu göstərmək Axundovun başlıca sosial idealı olmuşdur. Onun sosial fəlsəfəsində hər şeydən əvvəl Azərbaycan tarixinin keçid mərhələsinin, Azərbaycanın çar Rusiyası tərəfindən istilasından sonrakı dövrün qarşıya qoyduğu problemlər, birinci növbədə azadlıq və ictimai tərəqqi problemləri dururdu. M.F. Axundov dönə-dönə təkrar edir ki, istər Azərbaycan, istərsə də İran xalqlarının təbii qabiliyyəti Avropa xalqlarının təbii qabiliyyətindən geri deyildi.

M.F.Axundov İranda despotizm idarəsinin timsalında, ümumiyyətlə despotizmi nəinki ifşa edir, həm də deyirdi ki, belə bir üsuli-idarənin dövrü çoxdan keçmişdir.

Avropanın bir sıra dövlətləri despotizmdən xilas olub, «azadlıq hökmranlığı» qurmuşlar. O, İran xalqlarına müraciətlə yazır: «Sənin padişahın dünyanın proqresindən xəbərdar deyil və bixəbər oturubdur öz paytəxtində. Belə bilir ki, padişahlıq ibarətdir yaxşı libas geyməkdən, yaxşı xörək yeməkdən. İran əhli sivilizasiyalı cahandan bixəbər olmaqdan başqa, həm də zülmdən və fəqrdən pərakəndə olub sərmayəsiz, kəmali-zillətdə fəhləlik və nökərçiliklə gün keçirir və hər yerdə başına döyülür və hər yerdə xar və xakisar tutulur. Ölkədə nə bir qanun var, nə bir nizam var, nə bir ixtiyari müəyyən var. Bir padişahın ki, dünyanın vəziyyətindən, məmləkəti idarə və tərbiyə etmək qaydalarından, ədalət, mürüvvət, rəiyyətpərəstlik və vətənpərvərlikdən xəbəri olmaya ən alçaq yolkəsənlərin müqabilində əzilib məğlub ola, daha nə kimi cahü-cəlal və əzəmət sahibi ola bilər»(94, 57).

M.F.Axundov içərisində yaşadığı cəmiyyəti tənqid və ifşa etməklə kifayətlənmirdi. Mütəfəkkir cəmiyyəti dəyişdirmək, ədalətli cəmiyyətlə əvəz etmək problemini qoyur və bunun uğrunda yorulmadan mübarizə aparırdı. Mütəfəkkir yazır: «Millətin ağıllıları bu əsrdə gərək milli qüdrət və vətənin biganə xalqlardan qorunması üçün azadlıq və istiqlaliyyətin əldən alınması və əsarət kimi bir zillətin ki, bu aləmi – həvadisdə ola biləcəyi yəqinə yaxındır, rədd edilməsi tədbirində olsunlar. Bu

növ zillətin rədd edilməsi tədbiri fəqət millətin bütün sinifləri içində elmləri yaymaq və onların zehnində qeyrət, namus, millətpərvərlik və vətənpərvərlik toxumunu əkməklə mümkündür. Necə ki, hali-hazırda Avropanın qüdrətli millətləri bu sifətin sahibidirlər»(20, 137). Ona görə «azadlıq hakimiyyəti» yoxsulluq və zəlilliyi aradan qaldırıb, sosial tərəqqiyə kömək edən, cəmiyyət üzvlərinin mülkiyyət hüququnu, şəxsiyyətin toxunulmazlığını, tam əmniyyətini, millətin namusunu, milli ləyaqətini, milli mənliyini müdafiə edən bir cəmiyyətdir. Onun fikrincə, azadlıq hakimiyyəti şəraitində xalq özü qanun verməlidir. Qanun da xalqın, ictimaiyyətin iradəsini ifadə etməlidir. Ona görə bəşəriyyət əqli və mənəvi qüvvələrin inkişafı sayəsində barbarlıqdan sivilizasiya dövrünə keçmişdir. Beləliklə də, yer üzərində istibdadı məhv edib, ədalətli cəmiyyət qura biləcək yeganə qüvvə xalqdır, millətin özüdür.

Görkəmli fəlsəfə tarixçisi, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə «VII-XVI əsrlər Azərbaycan fəlsəfəsi tarixi» adlı kitabında M.F.Axundovun mədəni-mənəvi irsi haqqında yazır: «Mütəfəkkirin həqiqi mənəvi aləmini müasir oxucuya çatdırmaq onun fəlsəfi görüşlərinin adekvat və eyni zamanda müxtəlif hazırlıq səviyyəsində duran müasir oxucu üçün anlaşıqlı şərhini vermək vacibdir, çünki Axundovun irsi əsl mədəniyyət sərvətidir, onu çoxları bilməlidirlər. Bu isə asan vəzifələrdən deyil, elmi dürüstlükdən əlavə, böyük nəzakət və ustalıq tələb edir»(192, 231).

M.F.Axundovun demokratizmlə bərabər milli mənlik və milli özünüdərkə yönəlmiş ictimai-siyasi, fəlsəfi və maarifçi ideyaları xalqımızın fəlsəfi fikir tarixində keyfiyyətcə yeni mərhələni təşkil edir. Onun mütərəqqi ideyaları maarifçiliyin sonrakı inkişafı üçün, eləcə də xalqın özünüdərkində mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusən də XIX əsrin sonunda yetişmiş maarifçilər nəslinin dünyagörüşünün formalaşmasında onun böyük təsiri olmuşdur. Belə ki, M.F.Axundovun ictimai-siyasi və fəlsəfi görüşləri ondan sonra gələn Azərbaycan maarifçiləri və inqilabçı-demokratları, xüsusilə H.B.Zərdabi, M.Ə.Sabir,

C.Məmmədquluzadə, M.S.Ordubadi, N.B.Vəzirov, Ü.Hacıbəyov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Hadi, M.Ə.Rəsulzadə, Ə.B.Haqverdiyev və başqalarının əqidəsinin formalaşmasında az rol oynamamışdır. «XX əsrin əvvəllərində M.F.Axundzadənin (M.F.Axundov – Ə.O.) həyat və yaradıcılığı haqqında ilk məqalələr müəllifi kimi görkəmli yazıçı və pedaqoq Abdulla Şaiqin (1881-1959) adını çəkmək olar. A.Şaiq 1924-cü ildə «Mirzə Fətəli Axundov haqqında mülahizələrim», 1 il sonra isə «M.F.Axundovun «Aldanmış kəvakib»i haqqında mülahizələrim» adlı məqalələrini yazır və həmin illərdə M.F.Axundzadə irsinin öyrənilməsinin yeni dövrü axundzadəşünaslığın ilk addımlarını atır. A.Şaiq bildirirdi ki, XIX əsrin əvvəllərindən etibarən Azərbaycanda köhnə Şərq ənənələri tərəfdarları ilə qərbləşmə tərəfdarları arasında ilk mübarizənin və bu hərəkatın ilk rəhbəri məhz Mirzə Fətəli Axundzadə olmuşdur. A.Şaiq M.F.Axundzadəni Azərbaycan ədəbiyyatı tarixinə yeni cərəyan, yeni ruh verən, həqiqi həyatı real əks etdirən «birinci realist yazıçı», öz dövrünün tələbatını dərk edən, maarifçilik ideyaları ilə sıx bağlı olan yaşadığı cəmiyyətin nöqsanlarını açıb göstərən, xalqın milli mənlik şüurunu və özünüdərkini oyadan mütəfəkkir yazıçı kimi təqdim edirdi»(55, 25). Tanınmış türkçü Ziya Göyalp M.F.Axundovu xalqın milli özünüdərkinin inkişafı sahəsində xidmətlərini yüksək qiymətləndirmiş və onu milli oyanış uğrunda hərəkatın rəhbərlərindən biri saymışdır. Fransız tədqiqatçısı Fransua Jorjon 1996-cı ildə Parisdə «Cahiers du monde» jurnalının səhifələrində dərc etdirdiyi «Əsrin dönəmində Azərbaycanda modernizm haqqında qeydlər» adlı məqaləsində M.F.Axundovun elmi-fəlsəfi irsinə toxunaraq yazır: «Bu dövrün əsas intellektual simaları arasında Mirzə Fətəli Axundzadəni (1812-1878) xüsusilə vurğulamaq lazımdır. Ona «Azərbaycan Molyeri» ləqəbi verilməsinə səbəb olan azəri türkcəsində ilk yazdığı teatr pyesləridir»(55, 97). Mütəfəkkirin həyat və yaradıcılığı ən çox Avropa ölkələrində, o cümlədən Fransada, Almaniyada, İngiltərədə, son dövrlərdə isə Polşa, Çexiya, Slovakiya və Macarıstanda öyrənilməkdədir. Eyni zamanda onun yaradıcılığı təkcə Avropa ölkələrində deyil, eləcə

də dünyanın qabaqcıl ölkələri olan ABŞ-da və Yaponiyada da tədqiqatçıların diqqətini cəlb etmişdir. Onu da qeyd edək ki, Yaponiyada mütəfəkkirin yaradıcılığına marağın artması, müəyyən dərəcədə onun qız nəticəsi Pəri xanımın orada yaşaması ilə bağlıdır. Beləliklə də M.F.Axundov öz yaradıcılığı ilə doğma xalqının milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdə milli özünüdərk prosesində başlanan milli yeniləşmə hərəkatı M.F. Axundovun adı ilə bağlıdır.

XIX əsrin sonlarında Azərbaycanda maarifçiliyin mühüm bir xüsusiyyətini onun təbiətşünaslıq ilə sıx əlaqəliliyi təşkil edirdi. Bu münasibətdə görkəmli maarifçi, təbiətşünas, mədəniyyət xadimi, pedaqoq, istedadlı publisist *Həsən bəy Zərdabinin* yaradıcılığı səciyyəvidir. Onun dünyagörüşü XIX əsrin ortalarındakı rus və Avropa təbiətşünaslğının ən yaxşı ənənələri əsasında formalaşmışdır. O, Azərbaycanda milli özünüdərkdən gələn demokratik mətbuatın banisi sayılır. Azərbaycan dilində ilk qəzetin «Əkinçi» qəzetinin 22 iyul 1875-ci ildə nəşri məhz onun adı ilə bağlıdır və bu qəzet 1875-1877-ci illər arasında nəşr olunmuşdur.

H.B.Zərdabi 1896-cı ildən ömrünün sonuna qədər Bakıda yaşamış, şəhər Dumasının üzvü seçilmiş, maarif və mədəniyyətin tərəqqisinə çalışmışdır. Onun fəlsəfi məzmunlu yaradıcılığında maarifçilik və təbiətşünaslığa dair fikirləri aşağıdakı əsərlərində əks olunmuşdur: «Torpaq, su və hava», «Barama qurdunun saxlanması», «Gigiyena haqqında», «Ayın fazalarının yerdə üzvü həyata təsiri», «Bədəni səlamət saxlamaq düsturüləməlidir». Bunlardan əlavə onun «Əkinçi» qəzetində nəşr etdirdiyi məqalələri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Mütəfəkkir «Rusiyada əvvəlimci türk qəzeti» adlı məqaləsində yazır: «Bizim qubernator general Staroselski, doğrudur, xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə Qafqazın yerli əhlini artıq özünə dost tuturdu. Mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını «Əkinçi» qoyun ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki,

senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izn aldım»(173, 229). Mütəfəkkirin milli özünüdərk ideyalarının inkişafında mühüm amil olan dil haqqında fikirləri də olduqca maraqlıdır.

H.B.Zərdabi dil və din haqqında yazır: «Bu axır zamanacan biz Rusiyaya tabe olan müsəlmanların işi çox yaman idi. Bir tərəfdən zindəganlıq davası ilbəil ki, şiddət edirdi və bir tərəfdən də elm təhsil etmək yolu bağlanmış idi. Çünki bizim öz milləti məktəbxanalarımız yox idi ki, orada öz dilimizdə, öz məzhəbimizdə elm təhsil etmək olaydı və dövlət tərəfindən açılan məktəblərdə rus keşişlərindən misyonerlik edənlərin məsləhəti ilə bizim dilimizi və adabi-şəriəti oxutmağı qadağan etmişdilər»(173, 237).

O, dil haqqında fikrini davam etdirərək yazır: «Dil bir şeydir ki, onu öz halında saxlamaq mümkün deyil. Elə ki, qaranlıq otağın qapısı açıldı, qeyri-tayfalar ilə gediş-gəliş artdı, artıq şeylər əmələ gəldi və adətlər dəyişildi, təzə sözlərin qədəri günügündən artacaqdır, belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var. Çünki o, sözlər tərəqqi etməyə səbəb olurlar»(173, 243).

H.B.Zərdabi xalqın, gənc nəslin tərbiyə edilib maariflənməsi işində xeyriyyə cəmiyyətləri ilə yanaşı teatr kimi digər vasitələrə də fikir vermişdir. Eyni zamanda H.B. Zərdabi tərbiyəvi, sosial fəlsəfi fikirləri ilə də diqqəti cəlb edir. O, xalqının tərəqqi və xoşbəxtliyini elmdə, maariflənmədə, təhsilin inkişafında görürdü. Onun tərbiyəvi baxışlarında humanizm, vətənpərvərlik, doğruluq kimi keyfiyyətlər əsas yer tuturdu. O, köhnə və yeni dövrün mütərəqqi ənənələri ruhunda tərbiyə almış, xalqın sosial və siyasi azadlığı uğrunda yorulmadan mübarizə aparmışdır.

Akademik Heydər Hüseynov H.B.Zərdabi haqqında yazır: «Zərdabi bir maarifçi kimi bütün ömrü boyu xalq təhsili uğrunda mübarizə apardı. O, xalqın rifahı naminə elm və maarifi təbliğ etdi. O, dəfələrlə qeyd etmişdir ki, elm və maarif xalqın çiçəklənməsinə və milli xüsusiyyətlərinin saxlanılmasına xidmət edir»(76, 410).

H.B.Zərdabi həm şəhər, həm də kənd əhalisinin yəni

bütövlükdə millətin ideoloqu olmuşdur. Vətənpərvər, humanist və demokratik fikirli qabaqcıl ziyalı kimi şöhrət qazanmış mütəfəkkir zəhmətkeş kütlələrin xoşbəxtliyini və tərəqqisini elmi biliklərlə əlaqələndirmişdir. «Elə bu məqsədlə H.B.Zərdabi ictimai fəaliyyət göstərmiş, N.Nərimanov və başqaları ilə birlikdə 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilən birinci qurultayında yaxından iştirak etmişdir»(208). Eyni zamanda qeyd edək ki, H.B.Zərdabi və N.Nərimanov bilavasitə həmin qurultayı hazırlamış, onun proqramını tərtib etmiş və əvvəldən axıradək qurultaya sədrlik etmişdir.

Həsən Bəy Zərdabi cəmiyyətdəki sosial ədalətsizlikləri, zülmü və s. haqsızlıqları tənqid etsə də, ictimai dəyişikliklər, inqilabi hərəkatlar haqqında maraqlı fikirlər söyləsə də, bütövlükdə cəmiyyətə baxışlarında idealist mövqedə olmuşdur. O, inqilabi dəyişikliklərlə bərabər, maarifin, elmin yayılması yolu ilə yeni cəmiyyətin qurulmasında təbliğat roluna daha yüksək qiymət vermişdir.

Fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov «Həsən Bəy Zərdabi» adlı kitabında yazır: «Zərdabi «Dil dəvası» adlı bir məqaləsində yazıçıları sadə xalq dilində yazmağa dəvət edərək göstərirdi: «Ay… yazıçılarımız, tənkiri insaf edib gözlərinizi açıb cəmaətə bir təmaşə edin, siz onların çobanı hesab olursunuz, siz də onların dalıncan getməniz eyn-səlahdır, siz cəmaətdən aralanıb dil dəvası etməyinizdən bir şey olmaz, cəmaət ki, olmadı, siz də yox hesabındasınız»(142, 183-184).

H.B.Zərdabi yaşadığı feodal burjua quruluşunu kəskin tənqid etmiş və bu cəmiyyətdə insanların, dünyanın və həyatın əvəzolunmaz neməti olan azadlıqdan məhrum olduqlarını xüsusi olaraq vurğulamışdır.

Həsən Bəy Zərdabi millətin kəndli zümrəsinin xüsusi acınacaqlı vəziyyətini müşahidə edərək, bu zümrənin ideoloqu kimi çıxış edir və yaradıcılığında kəndlilərin ağır həyat şəraitinin təsvirinə, onların istismar və zülm zəncirlərindən azad etmək yollarının araşdırılmasına geniş yer vermiş, mülkədarları və onları müdafiə edən ruhanilərin acgözlüyünü təsvir etmişdir.

Əhməd Baxış oğlu «Azərbaycan türkləri 1905-ci il inqilabında» adlı kitabında yazır: «Azərbaycan türklərinin mədəni dirçəlişinin başlanğıcı Həsən Bəy Məlikov - Zərdabinin fəaliyyəti ilə bağlıdır, hansı ki, birinci xalqçı olaraq yorulmadan Azərbaycan türklərinin milli oyanışında əsas rol oynamışdır»(180, 90).

Buna görə də H.B.Zərdabi XIX əsrin 60-70-ci illərində çar hökumətinin bəylərin bəzi hüquqlarının əllərindən almasını alqışlamışdır. Bütün bunlara baxmayaraq istismar aradan qalxmamış, bəylərin ağalığına vərdiş edən xalq nominal olaraq azad edilmiş və faktiki olaraq yenə də bəylərin tam asılılığı altına düşmüşdür. Mütəfəkkir aydın şəkildə başa düşmüşdür ki, «bəxş edilən azadlıq kəndliləri asılılıqdan xilas etməmişdir. Sadəcə olaraq həmin asılılıq digər formanı qəbul etmişdir. Yəni dünənə qədər bəylərdən asılı olanlar, indidə «yoldan ötənlərin» aslılığına məruz qalmışdır. Bu «yoldan ötənlər», «əclaflar» dedikdə isə marifçi-demokrat mülkədarları, şeyxləri və digər imtiyazlı təbəqələrin nümayəndələrini başa düşürdü»(155, 579).

H.B.Zərdabi eyni zamanda Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafının şahidi olmuşdur. Ona görə kapitalizmin inkişafı zəhmətkeşlərin amansız istismarı, kəndlilərin yoxsullaşması ilə müşaiyyət olunmuşdur. Mütəfəkkir bir tərəfdən maşın texnikası və sənayenin inkişafını alqışlamış, digər tərəfdən isə bütün bunların zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmadığını görüb kədərlənmişdir. Eyni zamanda o, bütün istismar formalarının aradan qaldırılmasını, demokratik azadlıqların bərqərar edilməsini tələb etmiş və zorakılıqla deyil, dinc yollarla islahatların tərəfdarı olmuşdur. Lakin sonralar o, inqilabi çıxışların tərəfdarı olmuşdur.

Beləliklə də, «XIX əsrin ikinci yarısında Azərbaycanda ictimai, fəlsəfi və elmi fikrin görkəmli nümayəndələrindən biri olan Zərdabi Azərbaycan ziyalılarının bütöv bir nəslini yetişdirmişdir. Təsadüfi deyildir ki, müasirləri onu Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası adlandırmışlar» (173, 7).

Belə ki, H.B.Zərdabinin 1880-1906-cı illərdə yazdığı

əsərlərin müqayisəli təhlili onun ictimai-siyasi və fəlsəfi görüşlərinin təkamülü barədə qənaətə gəlməyə əsas verir. O, eyni zamanda bildirirdi ki, müsəlman xalqlarının geriliyi hər şeydən əvvəl cəhalət və savadsızlıqda, elmə yiyələnməkdən uzaq olması ilə bağlıdır.

Mütəfəkkir ölkənin sosial, iqtisadi-təsərrüfat həyatının və mədəniyyətinin inkişafının başlıca mənbəyini maariflənmədə görürdü. O, cəhalətə, geriliyə qarşı mübarizədə mətbuatın roluna böyük əhəmiyyət verirdi və qəzet vasitəsilə mütləqiyyət quruluşunu, ona xas olan süründürməçiliyi, rüşvətxorluğu ifşa edirdi.

H.B.Zərdabinin ictimai-siyasi görüşlərində çarizmin, onun yerli orqanlarının və məmurlarının müstəmləkəçi siyasətinin tənqidi mühüm yer tutur. Onun bütün əsərlərində insanın istismar edilməsinin olmadığı, zülmün və milli hüquq bərabərsizliyinin ləğv edildiyi, demokratik özünüidarənin qərarlaşdığı cəmiyyət haqqında ideyalar nəzərə çarpır. O, öz ideyalarının həyata keçirilməsini islahatlar yolu ilə bərabər, həmçinin maariflənmə vasitəsilə əlaqələndirirdi və inamla qeyd edirdi ki, xalqı dini fanatizmdən, bəylərdən və digər istismarçılardan yalnız maariflənmə xilas edə bilər, maariflənmə həm də xalqın öz mənafeyini dərketməsinə imkan yaradır. Onun cəmiyyətin sosial-siyasi strukturuna dair maraqlı və real mülahizələri olmuşdur. O, yaşadığı cəmiyyətdəki zümrələri iki qütbə ayırırdı: birinci qütbə bəylər, qolçomaqlar və ruhanilər, ikinci qütbə isə sadə əmək adamları – xalq, kəndlilər və fəhlələr daxil idi.

«H.B.Zərdabinin insan hüquqlarına dair fikir və düşüncələri, siyasi və milli tələblərlə çıxış etməsi, o dövrdə Azərbaycan xalqının siyasi və milli şüurunun oyanmasında və inkişafında mühüm rol oynamışdır»(36, 109).

H.B.Zərdabiyə görə, cəmiyyətdə mülkiyyətin, sərvətin təzahürü məhz əməklə şərtlənir. Mütəfəkkir varlılarla yoxsulların vəziyyətinin və münasibətinin real mənzərəsini təsvir edərək yazır: «Yoxsulların cahilliyini istəyən varlılar onları cəhalətdə və gerilikdə saxlayırlar ki, onların özlərindən asılılığını möhkəmləndirsinlər. Ona görə də ağıllı və ləyaqətli adamların əksəriyyəti öz

imkanlarından məhrum olur və heyvan kimi həyat sürür. Lakin heyvan həmişə öz ovu uğrunda mübarizə aparır. İnsan isə öz cahilliyi üzündən alın təri ilə özü üçün qazandığını öz əlləri ilə varlılara verir, bununla da onun daha da varlanmasına kömək edir»(43, 438).

Onun fikrincə varlılar yoxsullara zülm etməklə, yoxsulları istismara məruz qoymaqla yalnız öz mənafeyi barədə düşünürlər. H.B.Zərdabi cəmiyyətdə ağalıq və tabelik münasibətlərinə və bu münasibətlər sistemində siniflərin yeri və rolu məsələsinə xüsusi diqqət yetirmiş və özünəməxsus şəkildə həmin məsələnin sosial – fəlsəfi mahiyyətinə nüfuz edə bilmişdir. Eyni zamanda mütəfəkkir xalqa düşməncəsinə münasibət bəsləyən imtiyazlı-varlı sinifə nifrət edərək hər şeydən əvvəl kəndliləri bəy və ağalardan feodal asılılığına son qoyulmasına çağırırdı. Görkəmli alim dövrünün və yaşadığı cəmiyyətin qabaqçıl, tərəqqipərvər ziyalıları kimi öz xalqının xoşbəxtliyi və gözəl gələcəyi uğrunda fəal mübarizə aparırdı. H.B.Zərdabi «Kaspi» və «Əkinçi» qəzetlərində dərc etdirdiyi bir sıra məqalələrində ölkədə mövcud olan sosial ədalətsizliyi, özbaşınalığı kəskin tənqid edərək kütlələrin-yeni kəndlilərin güzəranının yaxşılaşdırılması arzusu və tələbi ilə çıxış edirdi.

Mütəfəkkir cəmiyyətin mütərəqqi inkişafı nəzəriyyəsinin tərəfdarı idi. Ona görə bəşəriyyətin irəliyə doğru mütərəqqi inkişafı daimidir, lakin bu proses cəmiyyətin yenisilə əvəz olunması yolu ilə baş verir. H.B. Zərdabi insan cəmiyyətinin inkişafını üç dövrə ayırır: antik dövr, orta əsrlər dövrü və yeni dövr. O həmin dövrləri xronoloji ardıcıllıqla tarixi-məntiqi planda araşdırır və antik dövrün mahiyyətini kölə əməyi ilə səciyyələndirir. Xanlar və bəylərin hakim vəziyyətdə olduğu orta əsrlər dövrünü mütəfəkkir özbaşınalıq və istibdad dövrü adlandırmışdır. Onun fikrincə yeni dövr antik və orta əsrlər dövründən bununla fərqlənir ki, bu dövrdə köləlik və feodal soyğunçuluğu mövcud deyildir. Mütəfəkkir yeni dövr Qərbi Avropada təzahür edir, indi artıq pul və əmək dövrüdür deyirdi.

«Zərdabi yaradıcılığında xüsusi yer tutan amillərdən biri də

Qərb mədəniyyəti və onun milli məsələyə təsiridir. Bütövlükdə, Zərdabi də Axundzadə (Axundov-Ə.O.) kimi milli ideyaları təbliğ edərkən, Qərb mədəniyyətinin müsbət ideyalarından yararlanmışdır. Belə ki, milli ideyaların səmərəli cəhətlərini vaxtında görərək soydaşları arasında yaymağa çalışmışdır».(52, 364) Mütəfəkkir xalqın inkişafında əsas yeri milli dəyərlərə verməklə yanaşı, Qərb mədəniyyətinin müsbət cəhətlərindən də istifadə edilməsinə çalışmışdır.

Bu mənada Azərbaycan şəraitində imtiyazlı təbəqələrin, yəni bəylərin və xanların hökmranlığının başa çatdığını hiss etmiş və yeni eranın, başqa sözlə, kapitalizmin və pulun hakimiyyəti dövrünün başlandığını görə bilmişdi. Onun sosial-fəlsəfi görüşlərinin mühüm istiqamətlərindən biri də bundan ibarətdir ki, o, yeni kapitalizm cəmiyyətinin təşəkkülünü və vaxtı keçmiş feodal ictimai münasibətləri, patriarxal feodal quruluşu ilə müqayisədə onun əhəmiyyətini dərk edə bilmişdi. Mütəfəkkirtin dəyərli sosial-siyasi xidmətlərindən biri də odur ki, o çarizmin Azərbaycanda xalqı istismara, milli zülmə düçar etmək, milli mədəniyyəti tapdalamaq siyasətini cəsarətlə açıb göstərmiş və qətiyyətlə ifşa etmişdir.

H.B.Zərdabi əmin idi ki, «Azərbaycan xalqı bir millət kimi daha çox siyasi hüquqlara malik olmalıdır. Buna nail olmağın yeganə yolunu o, bütün xalqın milli mənlik şüurunun inkişafında görürdü»(36, 78).

O, xalqın hüquq və azadlıqlarının kobudcasına pozulmasını ifadə edən səbəblərdən birini məhkəmə işlərinin ana dilində aparılmamasında görürdü və çarizmin müstəmləkəçilik siyasətini əks etdirən belə qadağanı ədalətə, humanizmə, xalqın milli mədəniyyətinə mənfur münasibət kimi qiymətləndirirdi.

Mütəfəkkir yalnız mənsub olduğu xalqın deyil, eləcə də bütün müsəlman aləminin hüquq və azadlıqlarının müdafiəçisi, mədəniyyətinin tərəfdarı kimi nüfuz qazanmışdı.

H.B.Zərdabi Şərq xalqlarının, o cümlədən, öz xalqının gələcəyinə böyük ümid bəsləyirdi. «O, gənclərə məsləhət görürdü ki, xalqın gözünü örtən qara pərdəni qaldırmaq, həmvətənlərini

işıqlı dünyaya çıxarmaq üçün heç şeydən çəkinmədən, kafir adlandırılmaqdan qorxmayaraq ciddi-cəhdlə elmlərə yiyələnsinlər. Azərbaycanın şəhər və kəndlərində elmi, mədəniyyəti, yeni adətləri, xalqlar və millətlərin dostluğu ideyalarını həvəslə yaysınlar»(63, 83).

Onun fikrincə, insanın elmi, biliyi nə qədər artıq olarsa, onun heyvandan ayrılmaq, fərqlənmək dərəcəsi də bir o qədər artıq olar. Ona görə eqoizm insanı heyvana nə qədər çox yaxınlaşdırırsa, ədalət, vicdan da ondan bir o qədər uzaqlaşdırır. Xalqın səadəti, vətənin tərəqqisi uğrunda mübarizəni mütəfəkkir, həmişə əxlaqın meyarı kimi qiymətləndirmişdir. Mütəfəkkir xalqın mənafeyinin əleyhinə hərəkət edənləri, öz xoşbəxtliyini minlərcə adamların əzab və iztirabları hesabına var-dövlət yığan bəyləri, xanları, mollaları, şeyxləri ciddi surətdə tənqid etmişdir. O, gənclərə etdiyi müraciətində onları vətənin, xalqın səadəti uğrunda mübarizədə heç bir şeydən qorxmamağa, xalqın səadəti üçün hər cür çətinliyə sinə gərməyə çağıraraq yazmışdı: «Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Siz danışdığınızı onlar başa düşməyib, əfalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti - qardaşlarımızı atıb onları kor və sərkərdan qoyasınız. Bəs ləzzətidünyaya tamah etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin, qoy şairlər sizi həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bilin gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq»(63, 157).

H.B.Zərdabinin özü zülmət və cəhalət içərisində boğulan bir xalq arasında maarifçilik işi apararkən heç bir çətinlik, mərhumiyyət onu qorxutmamışdır. Ruhanilərin, bəylərin feylinə uymuş avam adamlar çox vaxt onu başa düşmürdülər və hətta ona həqarətlə baxırdılar. H.B.Zərdabi azərbaycanlı müəllimlərə yazdığı «Açıq məktub»da elmin, maarifin geniş yayılmasının son dərəcədə zəruriliyini bir daha qeyd edərək «elmi bütün dərdlərin əlacı» kimi qiymətləndirmişdir. Buna görə də o, tək-tək

adamların deyil, bütün xalqın elmə yiyələnməsini arzu edərək yazmışdı: «Damcı-damcı ilə yaramız sağalan deyil. İndi sel vaxtıdır. Elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin. Belə yanğı vaxtında hər milləti istəyənin borcudur ki, birə-beş artıq işləsin və bir də bizim oxuyanımız az olduğuna biz gərək nəinki işi müftə və bitəmənna millət üçün eləyək, hətta lazım olsa xərcini də bəqədr-məqdur özümüz gərək verək. Belədə iş irəli gedə bilər. Gözlərimizi dövlətlilərin əlinə tikib, onların qara sandıqlarına ümid olmaq, nahaqdır… təvəqqə edirəm yaddan çıxarmamaq ki, biz hamımız müsəlman balasıyıq, müsəlman südü ilə böyümüşük, müsəlmanların içində oluruq. Heç insafdırmı ki, artıq qalan vaxtımızı onlardan müzayiqə edək»(63, 157). Mütəfəkkir «Kaspi» qəzetində dərc etdirdiyi məqalələrin birində elmi həqiqətləri mütəxəssislərin dar çərçivəsindən çıxarıb, onları bütün kütlələrin malı etməyi alimlərin ən vacib mənəvi borcu hesab edirdi. H.B.Zərdabi «vətənimiz Azərbaycanı, onun şəhər və kəndlərini, o cümlədən «küləklər və qumlar şəhəri Bakını» baş-dan-başa meşələrlə, bağlarla, yaşıllıqlarla örtülmüş bir gülüstana çevirməyi, onun bərəkətli torpağını daha da münbitləşdirməyi, yollarını abadlaşdırmağı, şəhər və kəndlərini sağlamlıq ocaqlarına çevirməyi qızğın arzu etmiş və on illər ərzində bu uğurda mübarizə aparmışdır»(63, 157).

Ümumiyyətlə, Azərbaycan maarifçi mütəfəkkirlərinin vətənpərvərliyi səmimi və son dərəcədə təsirli, fəal bir vətənpərvərlik idi. Onlar həmçinin ömürlərinin sonuna qədər vətəni və xalqı böyük bir məhəbbətlə sevmişlər.

Beləliklə də, XIX əsrin sonlarında Azərbaycan sosial – fəlsəfi fikir tarixində milli mənlik şüuru və milli özünüdərk ideyalarının inkişafında mühüm xidməti olan H.B.Zərdabiyə görə elm, maarif və milli mətbuatın inkişafı xalqımızın milli mənlik şüurunun oyanmasına,milli özünüdərkə və milli özünütəsdiqə gətirib çıxaracaqdır.

Bu dövrdə Azərbaycan maarifçiliyinin digər nümayəndəsi tanınmış hüquqşünas, tarixçi, filosof və ictimai-siyasi xadim *Məhəmməd Ağa Şahtaxtlıdır.* Bir sıra dilləri öyrənən Məhəmməd

Ağa Şahtaxtlı Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi, elmi, fəlsəfi məzmunlu əsərlər yazmışdır. «M.Şaxtaxtlı uzun müddət Fransada yaşamış və işləmişdir. O, fransız dili vasitəsilə öz maarifçilik ideyalarını və əsərlərini Avropaya yaymağa müvəffəq ola bilmişdir. Maarifçi-jurnalist 1899-cu ildə ikinci dəfə Parisə qayıdaraq fransız kollecində və Ali praktik məktəbdə ərəb, fars, zend, pəhləvi və türk dillərində mühazirələr oxumuş, Fransanın «Metr fonetik» («Fonetik müəllimi») jurnalında bir neçə elmi məqalə çap etdirmiş, jurnalın redaktoru P.Passi onun elmi fəaliyyətini yüksək dəyərləndirmiş, Fransa Maarif Nazirliyi isə onu Fəxri Fərmanla mükafatlandırmışdır»(56, 162). Məhəmməd Ağa Şahtaxtlı yaradıcılığının ilkin dövründə liberal xalqçılığın tərəfdarı olmuş, lakin sonralar o, bu ideyalarından əl çəkmişdir.

1902-ci ildə mütəfəkkir Tiflisdə «Qeyrət» adlı xüsusi mətbəə açmışdır. Həmin mətbəədə onun bir sıra elmi əsərləri də çap olunmuşdur. 1903-cü ildə onun təşəbbüsü ilə «Şərqi-Rus» qəzetinin ilk nömrəsi çapdan çıxmışdır. 1907-ci ildə M.A.Şahtaxtlı İrəvan quberniyasından Rusiyanın ikinci Dövlət Dumasına deputat seçilmiş, Duma bağlandıqdan sonra isə o, yerli və mərkəzi qəzetlərin müxbiri olmuş, sonralar isə «Rossiya» (Peterburq) qəzetinin redaksiyasında işləmişdir.

Mütəfəkkir digər maarifçilər kimi mövhümata, mollaların riyakarlığına və feodal ictimai quruluşuna qarşı çıxırdı. Fanatizmin milli mənlik şüurunun və milli özünüdərkin inkişafına mane olmasından narahat olan M.A. Şahtaxtlı bu faktı cahilliyin başlıca səbəbi adlandırmışdır.

Bu barədə Ənvər Əhmədov «Azərbaycan Maarifçilik fəlsəfəsi» adlı kitabında yazır: «İslamın müsəlman xalqlarının mənəvi dünyasında kök atmasını digər radikal maarifçi M.Şahtaxtınski də (Şahtaxtlı-Ə.O.) öldürücü tənqid atəşinə tutdu. O qeyd edirdi ki, islam ona sitayiş edən xalqlara guya Allah tərəfindən göndərilmiş qanunlar toplusu – şəriəti sırıyaraq, onlarda kollektiv iradəni, milli şüuru, ictimai rəyi, ümumi rifah hissini, insan və vətəndaş olaraq daxildəki borc və məsuliyyət duyğusunu öldürmüş-

dür»(181, 224). Eyni zamanda maarifçi mütəfəkkir müsəlman xalqlarının gerilikdən, cəhalətdən azad olub, tərəqqiyə nail olma yollarını da göstərmişdir. Müsəlman xalqlarının durğunluğunun səbəbləri və ondan çıxmanın yol və vasitələri maarifçi M.Şahtaxtını da narahat edirdi. O, Avropa təhsil və tərbiyə sistemini götürməyi təklif edirdi. Dövrünün mütəfəkkirləri kimi onun da yaradıcılığında cəmiyyətin sinfi təbəqələşməsi məsələləri öz əksini tapırdı. M.A.Şahtaxtlı özünün ictimai-siyasi və fəlsəfi dünyagörüşündə cəmiyyəti «yüksək və aşağı» siniflərə ayırırdı.

Mütəfəkkir ömrünün bir hissəsini İranda keçirdiyinə görə İran əhalisinin həyatı ilə yaxından tanış olmuş və burada yaşayan xalqların bütün bədbəxtliyini də hakim feodal quruluşunda görmüşdür. O, öz çıxışlarında kəndlilərin feodal asılılığından azad edilməsi və onlara torpaq verilməsi tələbini irəli sürürdü. M.A.Şahtaxtlı eyni zamanda kəndlilərə torpağın pulsuz deyil, ədalətli qiymətlərlə verilməsinin tərəfdarı olmuşdur. Onun yaradıcılığında istibdad dövlətinin xalqa zidd xarakteri çox kəskin qoyulmuşdur. Mütəfəkkir Azərbaycan və İranda olduğu kimi Türkiyədə də hökmran olan özbaşınalıq və hüquqsuzluq üsuli-idarəsini ifşa edir, bunu amansız quruluş adlandırmışdı. Onun fikrincə, türklər azad olmaq üçün mövcud quruluşdan əl çəkməlidirlər. M.A.Şahtaxtlı eyni zamanda dövlətin idarə formaları məsələlərində, respublika idarə formasına üstünlük verirdi.

M.A.Şahtaxtlı «Avropa-Türkiyə münaqişəsi» adlı məqaləsində demokratik respublika haqqında fikirləri daha aydın şərh edilmişdir. Onun fikrincə, demokratik hökumət yaratmaq üçün dini etiqadından asılı olmayaraq, Türkiyənin bütün xalqlarından ümumi səsvermə yolu ilə məclisi-müəssisi çağırılmalıdır. Eyni zamanda M.A.Şahtaxtlı 1907-ci ildə yazdığı «Müsəlmanların avropalaşması» məqaləsində belə bir fikir irəli sürürdü ki, xalq qanunvericilik hakimiyyətini avropalılar kimi öz əlinə almalıdır. 1909-cu ildə onun xalq hakimiyyəti və respublika idarə forması haqqında fikirləri «Müsəlman həyat qabiliyyətinin böhranı» adlı məqaləsində daha parlaq şəkildə əks olunmuşdur. Onun bu ideyasının mahiyyəti ondan ibarətdir ki, müsəlmanlar da

avropalılar kimi «insan hüququna əsasən həyatları üçün özləri qanunlar verməlidirlər.

M.A.Şahtaxtlının ictimai-siyasi görüşlərini qiymətləndirmək üçün onun 1905-1911-ci illər Səttarxanın başçılığı ilə İran inqilabına və şahidi olduğu Gənc türklər inqilabına münasibətinə nəzər salmaq mühüm əhəmiyyət kəsb edir. Bu məsələlərdə o, inqilabi hərəkatın tərəfdarı kimi çıxış edirdi. Mütəfəkkir Gənc türklər inqilabının başlıca səbəbini xalqın məruz qaldığı amansız zülmdə və xalqın hakim sinfin hökmran rejimindən narazılığında görürdü.

Amma bütün bunlarla bərabər mütəfəkkir inqilabı ona görə baş tutmayan hesab edirdi ki, bu inqilab problemləri həll etməmiş, ölkəni xarici əsarətdən qurtarmamışdır. Eyni zamanda Şahtaxtlı «Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. Universitetin müstəqil milli dövlətçilik maraqlarına uyğun qurulması məsələsi ilə məşğul olmuşdur. «Darülfünun nə halda?» məqaləsində rektor Razumovskinin ruslaşdırma siyasətini, professor- xidmətçi heyətinin ruslardan təşkil olunmasını, kadr hazırlığı işinin elmi dərəcəsi, peşəkarlıq səviyyəsi olmayan müəllimlərə tapşırılmasını, Azərbaycan dili dərslərinin cədvələ salınmamasını kəskin tənqid etmişdir»(25, 363).

M.A.Şahtaxtlı istər Azərbaycan, istərsə də İran və Türkiyədə baş verən ictimai-siyasi hadisələri yaxından izləmiş və dövrün ictimai-siyasi xadimi kimi ictimai həyatın bütün sahələrində demokratik dəyişikliklərin tərəfdarı olduğunu bildirmişdir. Bütün deyilənlərə əsasən deyə bilərik ki, M.A.Şahtaxtlı ictimai-siyasi və fəlsəfi yaradıcılığı ilə xalqın milli mənlik şüurunun formalaşmasına və onun milli özünüdərk ideyalarının inkişafına çalışmışdır.

Beləliklə, bu dövrdə «bədii ədəbiyyatla yanaşı Azərbaycanda XIX əsrin ikinci yarısının şifahi xalq yaradıcılığı maarifçilik ideyalarının əsas formalarından biri, zəhmətkeşlərin milli və sosial özünüdərkinin inkişafını göstərən çox mühüm ideya sferası olmuşdur»(181, 19). Bütün bunların nəticəsində «XIX əsrin

sonlarında Azərbaycan sosial-fəlsəfi fikir tarixində xalqımızın milli mənlik şüuru və milli özünüdərketməsi inkişaf etmiş və bu da öz növbəsində XX əsrin əvvəllərində milli-azadlıq ideyalarının geniş yayılması üçün zəmin yaratmışdı»(204)

Ümumiyyətlə Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində XIX əsrin sonları çox mühüm əhəmiyyət kəsb etmişdi. Belə ki, bu dövrdə Azərbaycan xalqı Rusiya imperiyasının işğalçılıq siyasətinə məruz qalmaqla yanaşı, eyni zamanda milli-mənəvi dəyərlərini qoruyub saxlamış və onları daha da inkişaf etdirə bilmişdi. Məhz bu dövrdə Avropada bir neçə əsr bundan əvvəl meydana gəlmiş maarifçilik fəlsəfəsi Azərbaycanda təşəkkül taparaq inkişaf etmişdir.

Beləliklə, bu dövrün maarifçi mütəfəkkirləri olan A.A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazımbəy, M.F.Axundov, H.B.Zərdabi, M.A.Şahtaxtlı və başqaları xalqın milli mənlik şüurunun formalaşmasında və milli özünüdərk ideyalarının inkişafında mühüm rol oynamışlar. Bu dövrdə formalaşmış milli yeniləşmə hərəkatı XX əsrin əvvəllərində milli-azadlıq mübarizəsi üçün ideya zəmini hazırlamışdı.

Bir sözlə xalqın milli inkişafı və bu inkişafın ölkənin kolonial vəziyyəti ilə bağlı vəhdətdə olan iqtisadi, siyasi, mənəvi-mədəni problemlərin həlli başqa sözlə, xalqın yaşama və gələcək inkişafı onun milli özünüdərkini tələb edirdi.

Milli azadlığa xidmət edən milli özünüdərk ideyaları XX əsrin əvvəllərində Azərbaycanda milli dövlətin yaradılmasına istiqamətlənmişdi. Lakin milli özünüdərk milli dövlətin mövcudluğu və inkişafı üçün əsas siyasi-mənəvi amillərdən olaraq daimi proses olaraq qalır.

# II FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ ÖZÜNÜDƏRKİN İNKİŞAF QANUNAUYĞUNLUQLARI VƏ İSTİQAMƏTLƏRİ

## 2.1. Milli özünüdərk məsələləri: 1900-1920-ci illərin sosial-siyasi və mədəni mənzərəsində

XX əsrin əvvəllərinin ictimai-siyasi və fəlsəfi fikir tarixini öyrənərkən ilk növbədə bu dövrün ən mürəkkəb və ziddiyyətli hadisələrini araşdırmaq lazım gəlir. Ötən əsrin əvvəllərində Azərbaycanın maarifpərvər ziyalı gəncləri milləti cəhalət və xurafat girdabından çıxartmaq, onun maariflənməsinə və mədəni tərəqqisinə kömək etmək yollarını axtarırdılar. Onlar başa düşürdülər ki, bir millət özünü tanımayınca, hüququnu düşünməz. Millətin özünü tanıması üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bütün bunların olması üçün də hürriyyət lazımdır. 1903-cü ilin mart ayının 30-dan Tiflisdə nəşr olunan «Şərqi-Rus» qəzeti xalqın maarifi, elmi, qadın azadlığı uğurunda mübarizə aparmaqla yanaşı milli mənlik şüurunun oyanmasına və milli özünüdərkə xidmət etmişdi. Bu qəzetin naşiri və redaktoru olan Məhəmməd Ağa Şahtaxtlı Moskva, Kazan, Həştərxan, Qazaxıstan, Türkmənistan, Sibir və Təbrizdən müxbir məktubları alır və onları olduğu kimi çap edirdi. Bu dövrdə Azərbaycanda xalqın milli mənlik şüurunun oyanmasını və milli özünüdərk ideyalarını təbliğ edən digər qəzetlər də nəşr olunmağa başladı. 1904-cü ilin oktyabrından 1905-ci ilin yanvar ayının ortalarına qədər Azərbaycan dilində «Hümmət», 1906-cı ildən «Dəvət-Qoç» və «Təkamül» qəzetləri nəşr olunmuşdur. Həmin dövrdə Həsən Bəy Zərdabi kimi M.A.Şahtaxtlı da türk-tatar xalqları üçün vahid ədəbi dil yaratmaq zərurətini irəli sürərək yazırdı: «Ədəbi dilimiz yoxdur. Ləhza şimdilik biz qəzetimizdə yazı yazanları şivə və tələffüz intixabında azad qoyuruz. Yazsın Trabzonlu, marağalı, dərbəndli hər kəs öz şivəsində, öz tələffüzündə bizə yazsın. Vəqt və zaman illəri də bu

müxtəlif şivələrdə ədəbi dil yapar»(153, 34) .

Bu dövrün bir sıra mətbuat orqanlarına, o cümlədən də «Şərqi –Rus» qəzetinə sovet hakimiyyəti illərində başqa qəzetlər kimi pantürkist, panislamist damğası vurulmuş və onlar Azərbaycan milli bürjuaziyasının mənafeyinin təmsilçisi kimi ciddi tənqidə məruz qalmışlar. «1905-ci ilin iyununda Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadənin redaktorluğu ilə Azərbaycan dilində ilk qəzet «Həyat»ın nəşrinə başlanmışdı»(210). Bu qəzet xalqda milli hissi oyatmaq, ana dilini və milli özünüdərk ideyalarını inkişaf etdirməklə yanaşı Azərbaycan milli burjuaziyasının siyasi cəhətdən təşkilində xeyli böyük rol oynamışdır.

1905-ci ilin iyun ayının 7-də Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə nəşrə başlayan «Həyat», dekabrın 17-dən isə «İrşad» qəzetlərində Azərbaycanın görkəmli ziyalıları ilə yanaşı, inqilabçı-sosialistlərin və xüsusilə də «Hümmət» partiyasının üzvlərinin məqalələri nəşr edilirdi... Əhməd bəy Ağaoğlunun naşirliyi, redaktorluğu, fəal müəllifliyi ilə çıxan «Həyat», «İrşad», «Tərəqqi» qəzetləri də hər şeydən öncə həmin məqsədə – Azərbaycan türklərində sağlam milli hisslərin tərbiyə olunması və onların öz gələcək taleləri uğrunda mübarizəyə hazırlanması ideyasına xidmət edirdi. Bu mətbu orqanlar içərisində Ə.Ağaoğlunun artıq müstəqil nəşr etdiyi «İrşad» xüsusi yer tuturdu. Dövrün M.Ə.Sabir, N.Vəzirov, A.Səhhət, M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, S.M.Qənizadə, A.Sur, F.Köçərli, Ü.Hacıbəyov kimi müqtədir qələm sahibləri «İrşad»ın ətrafına toplaşmışdılar. Milli mətbuatın yeni mərhələyə qədəm qoyduğu, qəzet və məcmuələrin sayının artdığı bir şəraitdə Əhməd bəy Ağaoğlu «İrşad»ı ümummilli nəşrə çevirmək, onun vasitəsilə Azərbaycanın hər kəndinə, hər məhəlləsinə maarif işığı, mədəniyyət nuru yaymaq, həmvətənlərini qəflət yuxusundan oyatmaq istəyirdi. Bu qəzetin 1905-ci ildən sonra Azərbaycan mətbuatına gətirdiyi yenilikçi ruh, ictimai bərabərlik ideyaları və maarifçi fikirlər eyni qayə və amala satirik gülüş vasitəsilə xidmət edən «Molla Nəsrəddin»in diqqətindən yayınmamış və onun təqdirini qazanmışdı»... (9, 12-13) «Şərqi-Rus» qəzetinin

bağlanması və onun mətbəəsinin satışa qoyulması Ömər Faiq Nemanzadənin təbirincə desək «Rusiya inqilabı hərəkatından dadmış bir inqilab yavrusu» olan «Molla Nəsrəddin» kimi jurnalı yaratmağa və dövrün əsas demokratik qüvvələrinin təşkilinə, öz ətrafına toplayıb mövcud quruluşa qarşı çıxmağa imkan yaratdı (111, 40).

Belə ki, Naxçıvanlı tacir Məşədi Ələsgər Bağırovun verdiyi yeddi min manat borc pula mətbəə M.A.Şahtaxtlıdan alındı və «Qeyrət» adı ilə 1905-ci ilin mart ayından Mirzə Cəlilin sahibi-imtiyazlığı, Ömər Faiqin müdürlüyü, M.Ə.Bağırovun maddi yardımı ilə 1907-ci ilə qədər fəaliyyət göstərdi. Bir müddət mətbəə «Qeyrət» şirkəti adı ilə 28 payçının ixtiyarına verilmişdir. Bu şirkət Zaqafqaziyada birinci maarif şirkəti olub bütün müasir avadanlıqla təchiz olunmuşdu. Burada müxtəlif elmi və bədii kitablar, mübariz ruhlu əsərlər, İran və Türk inqilabçılarına göndərmək üçün çoxlu intibahnamələr və sair çap olunurdu. Lakin mətbəəni yaşatmaq üçün vəsait lazım idi. Ö.F.Nemanzadə bu barədə yazırdı: «Ziyalılarda pul, pullularda isə ziya yox idi»(153, 36). Mətbəə gəlir götürməyə deyil, milli oyanışa, milli dirçəlişə, mədəni tərəqqiyə xidmət edirdi. «Qeyrət» mətbəəsinin ən mühüm fəaliyyəti 1906-cı il aprelin 7-də «Molla Nəsrəddin» jurnalının nəşri ilə başlayır və bu jurnal tezliklə yalnız Zaqafqaziyada deyil, Orta Asiyada, Volqa boyunda, Türkiyədə, İranda, Hindistanda və Şərqin digər ölkələrində də çox böyük hörmət qazanmışdır. Jurnalın ətrafında birləşmiş C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S. Ordubadi, Ə.Qəmküsar, Ə.Əzimzadə və başqaları qabaqcıl Azərbaycan ziyalılarının inqilabi-demokratik cinahını təşkil edirdilər. «Molla Nəsrəddinçilər» feodal geriliyinə, çarizmin müstəmləkə zülmünə, ictimai ədalətsizliyə qarşı çıxırdılar. Jurnalın birinci sayı milli ədavətin qızışdırıcılıarına işarə edərək istehza ilə yazırdı: «Bu nə sirdir ki, erməni-müsəlman davası düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla oldular ki, təbiblər onların çölə çıxmağını rəva görmürdülər»(153, 36).

1906-cı ildə işıq üzü görən digər jurnal «Füyuzat» Əli bəy

Hüseynzadənin redaktorluğu ilə nəşr olunurdu. Ə.Hüseynzadə məcmuənin ilk nömrəsindəki «Həyat və meyli füyuzat» adlı proqram məqaləsində «Füyuzat»ın məhz «Həyat» qəzetinin varisi olduğunu qeyd edərək yazırdı: «Həyatın mənayi həqiqiyyəsi, meyli-füyuzatdır»(153, 36). Bu dövrdə ölkədə ictimai hərəkatın inkişafının təşkilatlanma mərhələsi siyasi partiyaların yaranması və formalaşması prosesinə keçir. Məlumdur ki, bəzi xalqlarda bu proses tez, bəzilərində isə gec baş verir. XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixinə nəzər salsaq, görərik ki, «Azərbaycan xalqı bu mərhələyə gec, əsasən də birinci Rus inqilabı və 1905-1906-cı illərin erməni-Azərbaycan münaqişəsinin təsiri ilə qədəm qoymuşdur»(217). Yaranan partiyaların xarakterinə gəldikdə isə, onu ictimai hərəkatın istiqaməti müəyyən edirdi. Azərbaycanın ictimai-siyasi həyatında rol oynayan burjua-liberal, burjua, xırda burjuaziya, sosial-demokrat partiyaları olmuşdu. XIX əsrin ortalarında kapitalizmin sürətli inkişafı nəticəsində dünyanın qabaqcıl dövlətləri olan ABŞ, İngiltərə, Fransa və s. ölkələrdə ilk partiyalar: burjua, demokratlar, respublikaçılar, liberallar və mühafizəkar partiyalarının meydana gəlməsinə səbəb olmuşdur. Karl Marks və Fridrix Engels tərəfindən işlənib hazırlanmış sosializm ideologiyası isə sosial-demokrat fəhlə partiyalarının yaradılmasına gətirib çıxarmışdır. Bütün Avropa və Rusiyanı bürüyən fəhlə hərəkatı kapitalist sənayesinin inkişaf etməkdə olduğu Azərbaycanda sirayət etməyə bilməzdi. 1901-ci ilin yazında Bakıda sosial-demokrat dərnəklərinin fəaliyyətini əlaqələndirmək, təbliğat və təşviqat işini planauyğun şəkildə qurmaq üçün təşkilat mərkəzi yaradıldı. Tezliklə bu mərkəz RSDFP-nin Bakı komitəsi adını aldı. «O dövrdə komitənin tərkibinə və onun fəalları sırasına Ə.C.Axundov, L.Y.Qalperin, Y.B.Qolikova, A.C.Yenukidze, B.Z.Ketxoveli, B.M.Knunyants, L.B.Krasin, M.M.Məmmədyarov, M.Q.Melikyan, A.Q.Eyzenbet və başqaları daxil idilər»(26, 45). Bu dövrdə Məhəmməd Əmin Rəsulzadə Bakının əhəmiyyəti haqqında yazırdı: «Bakı o zamankı şərtlər daxilində yalnız Rusiyada sosialist cərəyanlarının və çar əleyhdarları

hərəkatının qaynar bir ocağı deyil, eyni zamanda Qafqazda yaşayan müsəlmanların və xüsusilə Azərbaycan türklərinin milli hərəkatına mərkəzlik yapan bir şəhər idi»(153, 202). M.Ə.Rəsulzadənin xatırladığı dərnək hələ onun 17 yaşında ikən 1902-ci ildə Bakıda yaratdığı «Müsəlman gənclik təşkilatı» idi. Bu təşkilat çarizmə qarşı Azərbaycanın XX əsrin əvvəllərində ilk gizli mübarizə aparan siyasi təşkilatı idi. «Hümmət» adlı jurnalı da bu təşkilat nəşr etdirmişdir. Bu dərnəyin başlıca məqsədi əhalidə, Azərbaycan xalqında milli hissi oyatmaq, milli özünəqayıdışı və ana dilini inkişaf etdirmək, çarizm əlehinə yazılmış inqilabi şerləri əzbərləmək, bəyannamələr yaymaq, fəhlələr arasında hürriyyət və inqilabi fikirləri təbliğ edərək, təbliğat və təşviqat işləri aparmaqdan ibarət idi.

Dilarə Seyidzadə «Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar» adlı əsərində yazır: «XX əsrin əvvəllərində sosial münaqişələrin kəskinləşməsi, fəhlələrin kütləvi çıxışları, Azərbaycan kəndlilərinin artan narazılığı Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin siyasi və ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı. Çar hökumətinin böyük dövlətçilik siyasəti, milli zülmün güclənməsi, imperiyanın milli ucqarlarında yaşayan xalqların hüquqlarının hər cür sıxışdırılması cəmiyyətin milli məsələnin tezliklə həllində marağı olan bütün təbəqələrini bu məsələ ətrafında birləşdirirdi. Bu ondan irəli gəlirdi ki, milli məsələ ən mürəkkəb sosial məsələlərdən biri idi. Millətin taleyindən narahat olan cəmiyyətin mütərəqqi hissəsi getdikcə daha kəskin şəkildə mövcud quruluşun yeniləşməsi məsələsini qoyur, islahatlar keçirilməsini tələb edirdi. Çara və hökumətə qarşı hərəkatlar – fəhlələrin, kəndlilərin və ziyalıların çıxışları milli –azadlıq hərəkatında sıx birləşirdi»(148, 55) .

1903-cü ilin yayında ümumrusiya siyasi tətilinə çağırış xarakteri daşıyan intibahnamələrdə deyilirdi ki, bir ovuc hökumət naziri qanun qəbul edərkən fəhlələrin ehtiyacı ilə hesablaşmır. Amma dünyanın qabaqcıl ölkələrində - məsələn, Almaniyada hər hansı bir qanun parlamentdə bütün xalqın seçdiyi deputatların açıq müzakirəsi ilə qəbul olunur. Orada hətta sosial-demokrat

fəhlə partiyalarının da parlamentdə nümayəndəsi var.

1903-cü ildə mart ayının ortalarında RSDFP-nin Bakı, Batum, Tiflis komitələri və bir sıra sosial-demokrat qruplarını təmsil edən 15 nümayəndənin iştirakı ilə RSDFP-nin Qafqaz İttifaqının birinci qurultayı keçirilmişdi. Qafqaz İttifaqı komitəsi fəhlələri nümayişə çağırırdı. 1904-cü ilin payızında M.Ə. Rəsulzadə tərəfindən 1902-ci ildə yaradılmış «Müsəlman gənclər təşkilatı» əsasında «Hümmət» partiyası yarandı. Bu partiyaların baniləri Mir Həsən Möhsümov (1882-1907), Məmməd Əmin Rəsulzadə (1884-1955) və Məmmədhəsən Hacınski (1875-1931) idilər. 1905-ci ildən bu təşkilata Məşədi Əzizbəyov, Nəriman Nərimanov, Soltanməcid Əfəndiyev, Bünyad Sərdarov və başqaları da daxil olmuşlar. «Hümmət»in əsas məqsədi Azərbaycanda, eləcə də Rusiyanın müxtəlif yerlərində yaşayan müsəlmanları inqilabi hərəkata cəlb etmək idi. Bu zaman ana dilində təbliğat və təşviqata böyük ehtiyac yaranmışdı. M.Ə.Rəsulzadə başda olmaqla bir qrup hümmətçi inqilabi mübarizəyə eyni zamanda milli-azadlıq hərəkatının qırılmaz hissəsi kimi baxırdı. Bu cəhətdən də onlar digər azərbaycanlı sosial-demokratlardan fərqlənirdilər. Lakin «Hümmət» təşkilatının milli əsaslarda təşkil edilməsi, onun çox zaman müstəqil fəaliyyət göstərməsi, M.Ə. Rəsulzadə başda olmaqla bir qrup hümmətçinin RSDFP sıralarına daxil olmaqdan imtina etməsi, təşkilat mərkəzində, xüsusən partiyanın Qafqaz komitəsində yaxşı qarşılanmadı. Hətta Qafqaz komitəsinin üzvü İ.Stalin partiyadan kənarda qalan digər hümmətçiləri məhv ediləcəyi ilə hədələmişdir. M.Ə.Rəsulzadə «Hümmət» partiyasının 1904-1907-ci illərdə bir-birini əvəz edən «Hümmət», «Dəvət-qoç», «Təkamül», və «Yoldaş» qəzetlərinin rəhbər və redaktorlarından biri olmuşdur. Sadalanan qəzetlərdə M.Əzizbəyovun, S.M.Əfəndiyevin və başqa bolşeviklərin bütün millətlərin zəhmətkeşlərini mütləqiyyət və istismara qarşı mübarizəyə çağıran məqalələri ilə yanaşı, M.Ə.Rəsulzadə, M.H.Hacınski və başqa hümmətçilərin milli birliyə çağıran yazıları da dərc olunurdu. «Hümmət» partiyasının fəal mübarizəsi ilə 1904-cü ilin dekabrın 13-də Bakı fəhlələrinin ikinci ümumi

tətili başladı. Həmin gün «Hümmət»in Azərbaycan dilində «Rədd olsun mütləqiyyət!», «Yaşasın azadlıq!» sözləri ilə bitən intibahnamələri buraxıldı. Tezliklə şəhərdə 50 mindən çox adam tətil etməyə başladı.

1904-cü ilin dekabrın 30-da fəhlələrlə sahibkarlar arasında ilk müştərək müqavilə imzalandı.Bu sonralar fəhlələr tərəfindən «Mazut konstitusiyası» müqaviləsi adlandırıldı.«Lakin az keçməmiş 1905-ci ildə Rusiyada başlanan birinci inqilabi hadisələrdən sonra M.Ə.Rəsulzadə və silahdaşları bolşeviklərin məram və məqsədlərindən Azərbaycana fayda olmayacağını başa düşüb onlardan uzaqlaşdılar.1907-ci ildə «Hümmət»in bağlanmasına qərar verildi» (164, 22).

XX əsrin əvvəllərində inqilabi böhranı daha da dərinləşdirən 1904-1905-ci illərdə Rusiya ilə Yaponiya arasında müharibənin başlanması oldu. Belə ki, «Çarizm qalibiyyətli müharibə vasitəsi ilə özünün bir sıra imperialist planlarını həyata keçirmək və Rusiyada dərinləşməkdə olan inqilabi böhranın qarşısını almaq ümidində idi»(219). Amma bu tərsinə oldu. Çar Rusiyası qalib deyil, məğlub oldu. Rusiyada, o cümlədən, Azərbaycanda da inqilabi böhranın dərinləşməsi milli-azadlıq hərəkatının genişlənməsinə şərait yaratdı. Bu müharibədə Rusiya tərəfində Azərbaycanlı topçu zabitlərdən polkovnik Səməd bəy Mehmandarov (1855-1931), kapitan Əliağa Şıxlinski (1863-1943), süvari alay komandiri Hüseyn xan Naxçıvanski (1863-1919), mayor İbrahimağa Usubov (1872-1920) və başqaları iştirak etmişlər. Döyüşlərdə, xüsusən də Port-Arturun müdafiəsi zamanı göstərdikləri şücaətə görə S.Mehmandarova, Ə.Şıxlinskiyə və H.Naxçıvanskiyə bir sıra orden və üstü yazılı qılınc mükafat verilmişdir. S.Mehmandarova general-mayor, Ə.Şıxlins kiyə polkovnik rütbəsi verilmişdir.

1905-1907-ci illərin Birinci Rus inqilabı mütləqiyyətin dayaqlarını kökündən sarsıtmışdı və müstəmləkə xalqlarının milli-azadlıq hərəkatına çox güclü təkan verərək, onları yeni bir mərhələyə gətirib çıxardı. Bu inqilab nəticəsində zəhmətkeş kəndlilər çar istibdadına, mütləqiyyətə qarşı sinfi mübarizəyə

qalxmışsa, çar Rusiyasında yaşayan müstəmləkə xalqları, o cümlədən Azərbaycan xalqı üçün də bu inqilab hər şeydən əvvəl milli-azadlıq mübarizəsi idi. «1905-ci il Azərbaycan türklərinin kütləvi milli hərəkatının ən yüksək başlanğıcı olmaqla bərabər fəhlə və sosialist hərəkatının yaranması, milli və siyasi özünüdərketmə, milli mədəniyyət-mətbuat, maarifçilik, ədəbiyyat və s. inkişaf ili idi»(180, 250). Bu barədə M.Ə. Rəsulzadə özünün «Azərbaycan Cümhuriyyəti» əsərində yazır: «Hakimiyyəti milliyyə davasının 1905 sənəsi Rusiya inqilabi-səgiri nəticəsində milli məktəb, milli mətbuat və milli cəmiyyətlər təsisinə aid cüzi müsaidələr kibi qazandığı məhsullar vardı»(137, 25).

«1905-ci ilin yaz və yayında «Ərz-hal kampaniyası» genişləndi. Aprel ayında burjuaziyanın, liberal-mülkədarlar və ziyalıların nümayəndələri tərəfindən bütün Qafqaz müsəlmanları adından hazırlanan «Ərz-hal» Nazirlər kabinetinə cənab Vitteyə və Qafqaz canişini Vorontsov-Daşkova göndərildi»(153, 257). Bu «Ərz-hal»da müsəlmanların dövlət idarələrində xidmətə qəbul edilməsi, anadilli məhkəmənin müsəlmanlar yaşayan ərazilərdə tətbiq edilməsi, məhkəmə işlərinin xalqın başa düşdüyü dildə aparılması, müsəlmanlara yığıncaq, ittifaq, vicdan, söz, rus və ana dilində təhsil, mətbuat azadlıqları verilməsi, hökumətin yardımı ilə pay torpaqlarının kəndlilər tərəfindən satın alınması, boş qalan xəzinə torpaqlarında torpaqsız və ya az torpaqlı kəndlilərə pay verilməsi, dövlətin ixtiyarına keçmiş vəqf torpaqlarının müsəlman ruhanilərinə qaytarılması və din xadimlərinin hüquqlarının genişləndirilməsi, rus kəndlilərinin Azərbaycana köçürülməsinin dayandırılması və digər tələblər öz yerini tuturdu.

1905-ci ilin yayında Gəncədə Azərbaycan mülkədarlarının və burjuaziyasının «Qeyrət» adlı partiyası yaradıldı. «Bu dövrdə hələ dəqiq məramnaməsi və mükəmməl təşkilati əsasları olmayan bu partiya Azərbaycanda ilk siyasi təşkilatlardan biri idi»(201) .

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm yer tutan ictimai-siyasi xadim, ideoloqlardan biri də Əlimərdan bəy Topçubaşov idi. O, 1862-1934-cü illər arasında yaşayıb yaratmışdır. Ə.Topçubaşov milli

zəmində baş verən mühüm ictimai-siyasi hadisələrin hamısında yaxından iştirak etmişdir. O, Rusiyada Peterburq universitetinin hüquq fakültəsini bitirmişdir. Ə.Topçubaşovun redaktoru olduğu «Kaspi» qəzetində və başqa mətbuat orqanlarında milli-azadlıq, ədəbiyyat, mədəniyyət və s. məsələlərə dair çoxlu məqalələri dərc olunmuşdur. O, «Həyat» qəzetinin nəşrinə görə hökumətdən icazə alınmasında çox böyük işlər görmüşdür.

1905-ci ilin avqustun 15-də Ə.Topçubaşovun təşəbbüsü və onun rəhbərliyi ilə Nijni-Novqorodda Rusiya müsəlmanlarının birinci qurultayı açıldı. Qurultayda Qafqaz, Krım, Türküstan, Kazan, Ural və Sibirdən 150 nəfərə yaxın nümayəndə iştirak edirdi. Qurultay Ə.Topçubaşovun yazdığı qətnaməni cüzi dəyişikliklə qəbul etdi. «Orda deyilirdi ki, Rusiya müsəlmanlarının bütün siyasi və mədəni məsələlərdə həmrəy olmasının zəruriliyi nəticə etibarilə ittifaqa gətirib çıxaracaqdır. Həmin qurultayda Ümumrusiya Müsəlman İttifaqı partiyası təşkil etmək qərara alındı. Bu partiyaının məqsədi beynəlxalq imperializmə qarşı mübarizədə Rusiya müsəlmanlarını vahid cəbhədə birləşdirmək idi»(216). Bu partiyanın rəhbərliyi Bakı şəhərində idi. Beləliklə, «Rusiya imperiyasında müstəmləkə xalqların milli-mənəvi dəyərlərinə, mənsub olduğu dinə və dilinə qarşı ögey münasibət, milli ayrıkeşlik siyasəti bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da milli özünüdərkin əsasında yaranmış ictimai-siyasi hərəkatın meydana çıxması ilə nəticələnirdi»(118, 40).

Bu dövrdə Azərbaycanda təhsil sürətlə inkişaf edirdi. Buna XX əsrin əvvəllərində olan sosial-iqtisadi yüksəliş təkan verdi. Azərbaycanda «xalq maarifinin bütün sahələri ölkədə inkişaf edən azadlıq hərəkatının təsiri altında idi. Hərəkatın vüsətindən asılı olaraq hökumət gah cəza tədbirlərinə əl atmağa, gah da bəzi liberal güzəştlərə getməyə məcbur olurdu. Lakin təhsil sistemindəki ruslaşdırma siyasəti şagirdlərin dini – monarxist tərbiyə prinsiplərindən kənara çıxmasına yol vermirdi. Çünki çar Rusiyasının müstəmləkəçi mənafeyi təhsil-xalqın maariflənməsi kimi strateji bir sahəni özünə əlverişli bir şəkildə və istiqamətdə qurub dəyişdirməyi tələb edirdi»(28, 192).

Xalq kütlələrinin təzyiqi altında Çar hökuməti 1905-ci il oktyabr ayının 17-də Manifest verməyə məcbur oldu. Burada söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları elan edilir və qanunverici Duma çağırmaq vəd olunurdu. 17 oktyabr Manifestindən sonra Bakıda və Azərbaycanın başqa şəhərlərində bir sıra qəzet və jürnallar nəşr olundu. Müxtəlif adda kitablar buraxıldı, məktəblər açıldı, yeni mədəniyyət ocaqları yaradıldı. «XX əsrin əvvəllərindən kitabxana işi genişləndikcə, kitabxanalarda rusdilli kitablarla yanaşı, ana dilində olan ədəbiyyatın azərbaycanlı oxucular hesabına artması müşahidə olunurdu. Lakin kitabxanaların sayı və kitab fondunun tərkibi oxucuların böyük əksəriyyətinin tələbatını lazımınca ödəyə bilmirdi»(28, 219). Amma buna baxmayaraq, bu dövrdə anadilli kitabların sayı artırdı. Bütün bunlar Azərbaycan xalqının mədəni, elmi, iqtisadi və siyasi cəhətdən tərəqqisinin zəruri şərtlərindəndir. «1905-ci il inqilabından sonra Azərbaycanda, xüsusilə də Bakı şəhərində mətbəələrin sayı sürətlə artdı. Təkcə 1908-ci ildə Bakı şəhərində 3 mətbəə və litoqrafiyanın olduğunu arxiv sənədləri təsdiq etməkdədir»(171, 10). İlk dəfə olaraq xeyriyyə cəmiyyətləri və siyasi təşkilatlar meydana gəlməyə başladı. Xeyriyyə cəmiyyətləri içərisində ən görkəmliləri və uzun müddət fəaliyyət göstərən «Cəmiyyəti xeyriyyə» (1905-1917), «Nəşri maarif» (1906-1917), «Nicat» (1906-1917) idi. Bu cəmiyyətlərə çoxlu vəsait verənlərdən tanınmış xeyriyyəçilər, H.Z.Tağıyev və M.Muxtarov «Nəşri Maarif»in fəxri sədrləri seçildilər. Yelizavetpolda (Gəncədə-Ə.O.) əsasən «Müsəlman xeyriyyə cəmiyyəti», «Müsəlmanlar içərisində maarifi yayan cəmiyyət» fəaliyyət göstərirdi. Xeyriyyə cəmiyyətlərinin fəaliyyətlərinə başlıca olaraq ana dilini inkişaf etdirmək, məktəb, kitabxana, qiratəxana, savadsızlığın ləğvi üçün axşam kursları, müəllimlər hazırlamaq, kimsəsizlərə, qaçqınlara yardım göstərmək və başqaları daxil idi.

Beləliklə də, XX əsrin əvvəllərində Azərbaycan xalqının fəlsəfi fikir tarixində, xalqın milli dirçəlişində, milli şüurun, milli özünüdərketmənin inkişafında xeyriyyə cəmiyyətləri çox mühüm əhəmiyyətə malik rol oynamışdır. 1905-ci ilin axırlarında

Gəncədə «Difai» partiyası təsis edilmişdir. Bu partiyanı bəzən Müdafiə partiyası da adlandırırlar. Əslində «Difai» partiyası müstəqil partiya olmuşdu. «Difai» partiyası başqa partiyalar kimi burjua mövqeyində olmuş və onlarda Azərbaycanın azadlığı uğrunda mübarizə aparırdılar. «Difai» partiyası Yelizavetpol quberniyasında son dərəcə kəskin şəkil almış erməni-daşnak təcavüzünə qarşı və onların havadarları ilə mübarizə aparmaq üçün yaradılmışdır. Eyni zamanda bu siyasi təşkilatın yaradılmasında Əhməd bəy Ağaoğlu və Məmmədhəsən Hacınskinin mühüm rolu olmuşdur. «Difai» partiyası xalqın müxtəlif təbəqələrinin nümayəndələri, xüsusən də qabaqcıl ziyalıların daxil olduğu partiya idi və bu partiya digər partiyalardan öz millətçiliyinə görə fərqlənirdi. Bu partiya 1905-ci ilin axırlarında yaransa da, əsasən geniş fəaliyyətə 1906-cı ildən başlamışdır. 1906-cı ilin dekabrın 28-də Əhməd bəy Ağaoğlu Tiflisdə Qafqaz canişininin yanında keçirilən müşavirədə Daşnak partiyasının hərəkətlərinə göz yuman hökumətin özünü tənqid və ifşa edərək demişdir: «İndiki belədir, indiki bir müsəlləh partiya 15 ildən bəri təşkil olunur və hökumət adamları bunu bilib də, nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər, onda lazımdır biz ancaq özümüz öz əlacımızı edək»(153, 259).

Əhməd bəy Ağaoğlu Tiflis müşavirəsindən sonra yolüstü Gəncəyə gələrək, buranı «Difai» partiyasının fəaliyyəti üçün seçir. «Əhməd bəy Ağaoğlu Tiflis müşavirəsindən sonra zalımların öldürülməsini, xalqının düşmənlərini, milli faciəyə göz yumanları qətl etməyi qarşısına məqsəd qoyur»(109, 116).

Gəncədə keçirdiyi görüşlər zamanı Əhməd bəy Ağaoğlu buranın qabaqcıl ziyalıları Ələkbər Rəfibəy, B.Cavanşir, İsmayıl xan Ziyadxanov, Ələkbər və Ələsgər Xasməmmədov qardaşları, doktor Həsən Ağayev, doktor K.Mehmandarov, Nəsibbəy Yusifbəyli və başqaları ilə görüşüb məsələni götür-qoy edirlər. Həmin görüşdə hamı belə qərara gəlir ki, xalqı təşkilatlandırmaq lazımdır. Belə ki, bu vaxt Gəncədə təşkilatın möhürü, bəyannaməsi hazırlanır, strukturu, dayaq məntəqələri müəyyənləşdirilir. İşə cəlb olunacaq və aradan götürüləcək adamların siyahısı

müəyyənləşdirilir. Amma buna baxmayaraq, çox təəssüflər olsun ki, Sovet hakimiyyəti illərində «Difai» partiyası mürtəce «burjua mülkədar bəyləri»n yaratdığı və «millətlər arasında toqquşmalar salan» bir qurum adlandırılaraq, ona qara yaxılmışdır. Təşkilatın fəal üzvlərindən biri olan Nağı Şeyxzamanlı «Difai firqəsinin doğuş səbəbləri» əsərində göstərirdi ki, «Difai» çox sürətlə yaradılırdı. Artıq qısa zaman ərzində küçələrdə intibahnamələri, intiqama çağırış vərəqələrini yığıb-yığışdırmaq mümkün olmurdu. Bu günlərdə Gəncədə divarlara vurulan vərəqələrin birində yazılmışdı: «Firqəmizin məqsədi Qafqaz xalqları arasında səmimi dostluq-qardaşlıq və birlik yaratmaqdır. Hərgah «daşnak» firqəsi qabağda oduğu kimi müsəlmanların üstünə xain və qəddarcasına hücumlarına davam edərsə, bizdən layiqli cavablarını alar və Qafqaz bitməz-tükənməz qanlı bir rəhnə halına düşər»(109, 117). Daşnakların mənfur siyasətlərini və iyrənc niyyətlərini başa düşən difaiçilərin belə fikirləri qarşısında ermənilərin arasında çaxnaşma düşmüşdür. Qırğından sonra sülh danışıqlarına çağıran da məhz ermənilər olmuşdur. Üstəlik Qafqazda xristian təəsübkeşliyi ilə nəfəs alan çar məmurlarının da canına üşütmə düşmüşdü. «Ona görə ki, «Difai» partiyası ermənilərin haqsız tələblərinə açıq-aşkar rəğbət göstərən və yardım edən çar məmurlarına da divan tutmağı planlaşdırmışdır»(205). Həmin qətilə yetiriləcək ilk adam Gəncənin özündə idi. Bu şəhər valisinin müşaviri olan, insanlıqdan uzaq Qreçinski idi. Qətlə yetiriləcək ikinci adam isə Şuşa şəhər general-qubernatoru Qoloşapov idi. O, erməni millətçilərinin fitvası ilə azərbaycanlıların qırğınında iştirak etmişdi. Çox keçmədən Qoloşapov Tiflisin mərkəzi küçələrinin birində Bilal adlı bir difaiçinin əli ilə öldürüldü. Qısa müddət ərzində ermənipərəst adamların bir çoxu məhv edildilər. «Difai» düşmənlərlə bərabər öz xainlərinin də, milli satqınların da dərsini verirdi. Dövlət idarələrindən inanılmış adamlar satqınlar barəsində dəqiq informasiyalar verirdilər. Nağı Şeyxzamanlı o zaman rus əmniyyətində işləyən Sədrəddin adlı bir vətən övladının adını iftixarla yad edirdi. Bütün bunların hamısı «Difai» təşkilatının,

xüsusən də Ə. Ağaoğlunun fəaliyyətindəki fədakarlıq tarixi zərurətdən doğurdu və olmalı idi. Əhməd bəy Ağaoğlu bütün varlığı ilə çalışsa da, ancaq «Difai» partiyasını 1909-cu ilə qədər yaşada bildi. O, hakim dairələr tərəfindən təqibə və sıxışdırılmağa məruz qaldı. Amma buna baxmayaraq, Ə.Ağaoğlunun başçılığı ilə «Difai» partiyasının fəaliyyəti nəticəsində Zaqafqaziyada millətlərarası münaqişələrin əsas təşkilatçısı olan rus çarizminə qarşı hərəkat xeyli gücləndi. Beləliklə, Azərbaycanda xarici qüvvələrin təsiri ilə sıxışdırılan milli-mənəvi və dini dəyərləri qorumaq tələbatı islamçılığın və türkçülüyün sosial-siyasi və fəlsəfi cərəyan şəklində formalaşmasını zamanın hökmünə, ictimai-siyasi zərurətə çevirmişdi. Ə. Ağaoğlu, Ə. Hüseynzadənin mətbu əsərlərində islamçılıq və turançılıq milli şüurunun formalaşmasının mühüm faktoru kimi təbliğ edilir, elmi əsaslarla işlənirdi. Azərbaycanda baş qaldıran milli hərəkatdan, milli özünüdərkdən, dinə və tarixi soykökə qayıdışından ehtiyatlanan rus müəlliflərinin tənqidi məqalələrini Ə.Ağaoğlu elmi dəlil və tutarlı mülahizələrlə cavablandıraraq yazr: «İndi məsələn, Avropada çoxlu ittifaq və partiya vardır; «Pangermanizm», «Panslavyanizm», «Panlatinizm», «Panamerikanizm» və s. «panlar». Belə cəmiyyətlər sözdə deyil, həqiqətən mövcuddurlar və fəaliyyət göstərirlər»(118, 47).

1905-ci ilin dekabrında Kadetlər Konstitusiya və Demokratlar Partiyasının Bakı şöbəsi yaradıldı. Milli burjuaziyanın, liberal mülkədarların və ziyalıların bəzi nümayəndələri bu partiyanın ətrafında birləşdilər. 1906-cı ilin yanvarın 13-dən 23-dək Peterburqda gizli surətdə çağırılmış ikinci ümumrusiya müsəlman qurultayı «İttifaqi Müslimin» partiyasının Ə.Topçubaşov tərəfindən hazırlanmış 23 maddədən ibarət nizamnaməsini qəbul etdi. Nizamnamədə həmçinin Rusiya müsəlmanlarının vahid siyasi ittifaqını yaratmaq və onun yerlərdə şöbələrini açmaq, Ümumrusiya Müsəlmanları qurultayını hər il çağırılmış qurultaylararası dövrdə «İttifaq»ın daim fəaliyyət göstərən ali şurasını yaratmaq və s. haqqında maddələr vardır. Bu qurultayda Ə.Topçubaşov «İttifaq»ın Mərkəzi Komitəsinin sədri seçildi.

Avqust ayında Nijni-Novqorodda onun rəhbərliyi ilə açıq surətdə keçrilən üçüncü qurultayda Ə.Topçubaşovu yenidən Mərkəzi Komitənin sədri seçdilər. Bütün bu deyilənlər xalqda yaşayan milli və dini özünüdərkin vəhdətinin əyani sübutudur.

1906-cı il aprelin 27-də Peterburqda I Dövlət Duması açıldı. Rusiyanın müsəlman əyalətlərinin, o cümlədən Azərbaycan deputatları I Dövlət Dumasında müsəlman fraksiyasını təşkil etdilər. Fraksiyanın rəhbərliyinə Ə.Topçubaşov seçildi. Onun iştirakı ilə hazırlanan müsəlman siyasi proqramında imperiyanın bütün ərazisində məhkəmə konstitusiyası əsasında özünü idarə vahidləri və vilayət məclislərinin yaradılması, torpağın vilayət üzrə milliləşdirilməsi, din işlərində tam muxtariyyət olması və yerlərdə geniş muxtar idarəetmə sisteminin təşkili tələbləri irəli sürülürdü. Bunu da qeyd etmək lazımdır ki, həmin vaxt Azərbaycandan olan deputatlar Dumanın ayrı-ayrı komissiya və şöbələrinə seçildilər. Onlar öz çıxışlarında dəfələrlə Azərbaycandan hökumətə göndərilmiş problemlərə toxunurdular. Hətta deputat İsmayıl xan Ziyadxanov öz çıxışlarında çar hökumətinin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini çox kəskin surətdə tənqid etdi. Bu da öz növbəsində millətin siyasi azadlıq uğrunda mübarizəsinin əhəmiyyətini bir daha artırmışdı. Ancaq təəsüflər olsun ki, 1906-cı il iyulun 8-də daha itaətkar Duma yaratmaq məqsədi ilə çarın xüsusi fərmanına əsasən I Dövlət Duması buraxıldı. Bu barədə dahi bəstəkar, ictimai-siyasi xadim Ü.Hacıbəyov yazır: «Duma buraxıldı. Bu iki kəlmə yalnız bir Rusiya deyil, bütün aləmi əsəbi bir hərəkətə, laənşüur bir qələyana gətirib, əqəbincə də məbhut və mütəhəyyir qoyub» (64, 48). I Dövlət Dumasının buraxılmasının ertəsi günü 170 nəfərə yaxın deputat, o cümlədən Azərbaycanın Dumadakı deputatları etiraz əlaməti olaraq, «Seçki» müraciətnamə»sini qəbul etdilər. Həmin müraciətnamədə Duma çağırılana qədər «Rusiyanın bütün vətəndaşları xəzinəyə nə bir qəpik pul, orduya nə bir nəfər əsgər» verməməyə çağırırdı. Rusiyanın bağlayacağı bütün müqavilələr etibarsız elan edilirdi. Lakin Çar hökuməti itaətsiz deputatlarla məsələni həll etmək üçün münasib vaxt

gözləyirdi.

«1906-ci il dekabrın 20-də işə başlayan II Dövlət Duması çarizmin gözlədiyinin əksinə olaraq, birinci Dumadan daha sol və müxalifətçi olmuşdu».(211) II Dövlət Dumasının iclasları zamanı öz çıxışında deputat Fətəli Xan Xoyski çar hökumətinin Mərkəzi Rusiyadan rusların Azərbaycana köçürülməsinə son qoyulmasını və əsarət altına alınmış xalqlara məhəlli muxtariyyət verilməsini tələb etmişdir. Bu arada Dövlət Dumasının tribunasından rus müstəmləkəçilərinin milli ayrıseçkilik siyasətini cəsarətlə tənqid edib, ali qanunvericilər kimi, öz xalqının qanuni hüquqlarının ödənilməsini tələb edən milli ziyalı kadrların yetişməsi Azərbaycanda milli azadlıq hərəkatının yüksəldiyini, milli özünüdərk ideyalarının inkişaf etdiyini bir daha sübut edirdi. Bu barədə dahi bəstəkar Ü.Hacıbəyov yazır: «İştə, o səbəbdəndir ki, biz Rusiya hökumətinin Rusiya azadlıq hərəkatına cəlbi-diqqət etməsindən istifadə edərək, yavaş-yavaş gözümüzün örtüyünü açmağa müqtədir olmuşuq»(64, 73). Qeyd edək ki, koloniyal Azərbaycanda milli mülkədar burjuaziyasının mənafeyi ilə ümumxalq mənafe müəyyən dövr üst-üstə düşmüşdür.

Hadisələrin belə gözlənilməz inkişafı həmin dövrdə Azərbaycanda yeni bir siyasi təşkilatın yaranması zərurətini ortaya qoymuşdu. Bu Gəncədə «Difai» partiyası ilə bərabər yaradılan siyasi təşkilat olan «Müdafiə» partiyası idi. «Müdafiə» partiyasına İsmayıl xan Ziyadxanov başçılıq edirdi. Yelizavetpol quberniyasında, o cümlədən başlıca olaraq liberal ruhlu mülkədar burjuaziyasına arxalanan bu partiyanın əsas məramı müstəmləkə üsul-idarəsinə qarşı mübarizə aparmaq və müsəlmanları erməni millətçilərinin hücumlarından müdafiə etmək idi. Bu partiyanın məram və məqsədi heç də «Difai» partiyasından fərqlənmirdi. Birinci Rus inqilabının qarşısını almaq üçün min cür fitnələrə əl atan çar hökuməti Azərbaycanda bir sıra tədbirlərə, hətta cinayətlərə belə əl atdı. Belə ki, milli-azadlıq hərəkatının qızğın çağında Azərbaycan xalqı erməni-daşnak təhlükəsi ilə üz-üzə dayanmalı olmuşdur.

«1905-ci iilin fevral ayının 6-dan 9-dək Bakıda erməni-

müsəlman qırğını törədildi»(209). Bundan sonra polis tədbirləri gücləndirmək üçün 1905-ci ilin fevral ayının 15-də Bakıda müvəqqəti olaraq general-qubernator vəzifəsi təsis edilmişdir. 1905-ci ilin fevral ayının 18-də çarın fərmanına əsasən Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan edildi. Fevral ayının 26-da Qafqazın baş rəisi vəzifəsi ləğv edilərək, əvəzində hələ 1882-ci ildə ləğv edilmiş Qafqaz canişinliyi bərpa olundu və ona çox böyük fövqəladə səlahiyyətlər verildi. Bütün bunlara baxmayaraq, milli-azadlıq uğrunda mübarizə getdikcə daha da güclənməkdə idi. Erməni-müsəlman qırğını zamanı Bakıda çoxlu sayda ev, dükan və müəssisə qarət edilib dağıdıldı, buruqlar yandırıldı. Yüzlərlə insan öldürüldü və yaralandı. Bu zaman çar hökuməti qərəzli bir mövqe tutmuşdu. Çar hökumətinin kazak və polis qüvvələrini hadisə yerindən uzaq saxlamaq istəyi, əslində o idi ki, vuruşan tərəflərin taleyini onların özlərinə tapşırmışdır. Amma bütün bunlarla yanaşı çar hökuməti yeri düşdükcə daşnaklara kömək edirdi. Buna baxmayaraq ermənilər özlərindən sayca qat-qat çox olan müsəlmanların ciddi müqavimətinə rast gəldilər. Münaqişənin ilk anından hər iki tərəfə bütünlüklə aydın oldu ki, çar hökuməti millətlərarası toqquşmaların nəinki qarşısını almaq istəmir, əksinə ölkədə milli-azadlıq hərəkatı və inqilabi mübarizəni boğmaq üçün bu qarşıdurmadan istifadə etmək niyyətində idi. Bakıda qanlı fevral hadisələri ilə başlanan erməni-müsəlman münaqişəsi tezliklə Zaqafqaziyaının başqa regionlarına yayılaraq, iki ilə qədər davam etmişdir. Düşmənlə mübarizədə yüzlərlə dinc, günahsız azərbaycanlı qətlə yetirildi. Çünki terror, qətl, qarət erməni daşnaklarının başlıca mübarizə üsulu idi. Azərbaycanın əsas yaylaqları ölkənin daxilində, ermənilərin yaşadığı dağətəyi ərazilərdə yerləşirdi. Ermənilər köç aparan müsəlman çobanlarına hücum edərək, onları öldürür, heyvan sürülərini qovub aparırdılar. Erməni daşnak hərbi hissələri çar ordusunda və başqa ordularda xidmət etmiş keçmiş erməni döyüşçülərindən ibarət idi. Onlara erməni general və zabitləri başçılıq edirdilər və onların müasir silahları, təchizatları var idi. Çar hökumətinin yeritdiyi ayrı-seçkilik siyasəti nəticəsində

müsəlman əhalisindən əsgər çağırılmaması öz acı nəticəsini verirdi. Bu arada hərbi təlim görməmiş azərbaycanlılar yaxşı silahlanmış daşnak erməni qüvvələrinə qarşı yaxşı halda ov tüfəngləri ilə, ata-babadan qalma çaxmaqlı tüfənglərlə və xəncər-qılıncla müqavimət göstərirdilər. Erməni-müsəlman müharibəsinin ən faciəlisi, xüsusən erməni əhatəsində olan İrəvan quberniyası, yaxud da onunla qonşu ərazilərdə yaşayan azərbaycanlılar üçün son dərəcə faciəli oldu. 1905-ci il mayın 23-də İrəvanda ermənilər tərəfindən törədilən milli münaqişə bir ayadək davam etmişdir. Şəhərin ermənilər və müsəlmanlar yaşayan ərazilərində səngər döyüşü başlandı. İrəvanın ətrafında olan on beş müsəlman kəndi erməni daşnak qüvvələri tərəfindən məhv edildi. Bu zaman müsəlman əhalisi canlarını qaçmaqla qurtara bilmişdi. İyunun 9-10-da Eçmiədzin mahalında on altı azərbaycanlı kəndi yerlə yeksan edilmişdir. Bu yerlərdə daşnak terrorçularından qorxan, çox zaman rüşvət alan çar məmurlarından və hərbçilərindən söhbət açanda, onlar çox zaman erməni millətçilərinin tərəfini saxlayırdılar.

1905-ci il mayın 11-də gecə erməni daşnak qüvvələri Naxçıvan şəhərini atəşə tutub oranı qətl-qarət etmişlər. Erməni daşnakları eyni zamanda Şuşada müsəmanlara divan tutmaq üçün çox ciddi hazırlaşırdılar. 1905-ci ilin avqust ayının əvvəllərində Şuşada başlayan erməni-müsəlman davası yalınz avqust ayının 21-də erməni arximandriti və qubernatorun iştirakı ilə sülh bağlandı. Amma buna baxmayaraq ermənilər dəfələrlə sülh və vədlərini pozmuşdular. 1905-ci ilin avqust ayının 26-da Bakıda erməni fitnəkarlığına son qoyuldu. Sentyabr ayının 14-də bu vaxt Bakıda olan Qafqaz Canişini Vorontsov-Daşkovun rəhbərliyi altında müsəlmanlarla-ermənilər arasında sülh bərpa edildi. Bu arada daşnak erməni generalı Hamazaspın qüvvələri Cavanşir qəzasında bir neçə müsəlman kəndini yerlə yeksan etdilər. O zaman «Daşnaksütun» partiyasına yaxın olan Pivovarov adlı birisinin Cavanşir qəzasına rəis təyin edilməsi, ermənilərin daha da fəallaşmasına səbəb oldu. 1906-cı ilin yanvarında general Hamazaspın qüvvələri Ağdamın Papravənd kəndi uğrunda iki

gün davam edən döyüşlərdə məğlubiyyətə uğrayaraq Ağdərə istiqamətində geri oturduldu.

1905-ci ilin axırları – 1906-cı ilin əvvəllərində erməni millətçiləri, daşnak qüvvələri Gəncə, Tiflis, Naxçıvan şəhərlərində və Qazax qəzasında görünməmiş vəhşiliklər etmişdilər. Bu zaman Qarabağın ermənilər tərəfindən qarət edilən müsəlman kəndlərinin əhalisi ağır sosial duruma düşmüşdülər. Aclıq hökm sürürdü. 1905-ci ildə Azərbaycanın ayrı-ayrı yerlərindən, həmçinin çar Rusiyasının Kazan, Aşqabad və İranın bir sıra şəhərlərindən Şuşa əhalisinə ərzaq, məişət malları və pul göndərilmişdi. Bu dövrdə tanınmış xeyriyyəçi H.Z.Tağıyev ziyan çəkmiş əhaliyə 750 pud un, 105 pud qənd və çay, 600 pud neft və şam göndərmişdir. Eyni zamanda erməni vəhşiliyi nəticəsində qaçqın düşmüş müsəlman əhalisinə xeyriyyəçi Murtuza Muxtarov 600 manat pul göndərmişdir. Nəhayət erməni daşnakları bütünlüklə dəf edildilər, onlarda insan itkisi daha çox idi. «1906-cı ilin fevralın 20-də erməni-müsəman münaqişəsinə son qoymaq məqsədilə Qafqaz canişini Vorontsov – Daşkov sərəncam verərək, Tiflis sülh məclisini topladı. Məclisə Zaqafqaziyanın dörd quberniyasından erməni və müsəlman nümayəndələri dəvət olunmuşdular»(202).

Azərbaycanlıları Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Ələkbər bəy Xasməmmədov, Adilxan Ziyadxanov və başqaları təmsil edirdilər. Erməni tərəfinin ciddi müqavimətinə baxmayaraq, müsəlmanların təkidi ilə «Ermənilərin terror və sair qiyam gətirən qatil dəstələrini aradan götürülməsi» məsələsi danışıqların əsas mövzusuna çevrildi. Bu zaman erməni terroru təkcə Azərbaycanda deyil, o cümlədən Zaqafqaziyada, Rusiyanın digər ərazilərində, eləcədə Sultan Türkiyəsində müdhiş bir şəkil almışdı. Erməni terrorundan zərər çəkən təkcə azərbaycanlılar deyildir, həmçinin onlar dövlət məmurlarına terror hədəsi ilə güclü təsir edərək məsələlərin ədalətli həllinə mane olurdular. İtaət etməyən məmurları isə bir qayda olaraq ölümə məhkum edirdilər. Dünyanın hər yerində yaşayan ermənilər özlərinin mənəvi dini mərkəzi olan Eçmiədzinə (Üç kilsə) xərac göndərirdilər. Bu mərkəzin 113 milyon manatlıq əmlakı var idi.

Bu vəsait əsasən erməni məktəblərinin təşkilinə və siyasi partiyaların maliyyələşdirilməsinə yönəldilirdi. Məhz buna görə də çox keçmədən erməni-qriqoryan kilsəsinin varidatının müsadirə olunması haqqında 12 iyun 1903-cü il tarixli Çar fərmanı Rusiyanın hər yerində erməni terrorunun baş alıb getməsinə səbəb olmuşdu. Erməni-qriqoryan kilsəsi həqiqətən də ermənilər üçün milli idarə, millətin rəmzi olduğu kimi, kilsənin başçısı – katalikos bütün erməni millətinin başçısı hesab olunurdu. Buna görə də o vaxta qədər Türkiyə ərazisində Sultana qarşı mübarizə aparan, Osmanlı imperiyasında özlərinə dövlət yaratmaq istəyən erməni kilsəsi və siyasi partiyaları olan «Hınçaq», «Droşak», «Armenakan», «Daşnaksütyun» öz fəaliyyət dairələrini bütövlükdə Rusiya imperiyasının ərazisinə keçirdilər. Bu zaman çoxlu yüksək rütbəli çar məmur və zabitləri «Daşnaksütyun»un qurbanına çevrildilər. Həmin vaxtdan etibarən əzəli Azərbaycan torpaqları, o cümlədən Qərbi Azərbaycan əraziləri erməni terrorunun meydanına çevrildi. Erməni millətçilərinin siyasi hiyləgərliyi, terroru və heç bir tarixi həqiqətə uyğun olmayan iddiaları nəticəsində sonralar əzəli Azərbaycan torpaqlarında erməni dövləti yaradıldı. Məhz bu səbəbdəndir ki, erməni tarixçiləri erməni dövlətçilik tarixini deyil, millətinin tarixini yazmağa üstünlük verirlər. Ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarını yalnız daşnaklarla bağlamaq doğru deyil. «Böyük Ermənistan» ideyasının reallaşmasında erməni kilsələri də mühüm rol oynamış və oynamaqdadır. Bundan başqa istər Ermənistan daşnak hökuməti, istərsə də Ermənistan SSR-in rəhbərliyi və kommunist adı altında Moskvada səlahiyyət sahiblərinə çevrilmiş ermənilər bu xülyanın reallaşması üçün əllərindən gələni əsirgəmirdilər. Hətta Sovetlər dönəmində Ermənistan K(b)PMK-nın katibi Arutyunov Azərbaycan SSR-in tərkibində olan Dağlıq Qarabağ Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılması haqqında təklifini ÜK(b)PMK-nın (Ümumkommunist bolşeviklər Partiyasının Mərkəzi Komitəsi) müzakirəsinə təqdim etdi. Buna cavab olaraq Azərbaycan K(b)PMK-nın birinci katibi M.C.Bağırov 10 dekabr

1945-ci il tarixdə G.M.Malenkova yazırdı: «Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur. 1826-cı ildə Qarabağ Çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur. 1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil edilmişdir. Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğın nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri, Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi. 1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indiki Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir. Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağ Vilayətinin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri – DQMV-nin hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir. Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni,

əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir. Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri – Azərbaycan K(b)PMK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir. Bununla belə biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik. Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır. Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür. Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır. Eyni zamanda, ÜK(b)PMK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-nin Azərbaycan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır. Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı. ÜK(b)PMK-dən yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik: Gürcüstanlı yoldaşlar, Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar. Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 (yetmiş doqquz min) nəfər olduğu halda cəmi 9.000 (doqquz min) gürcü – inqiloyun yaşamasına baxmayaraq biz bu məsələyə baxılmasına etiraz etmirik,lakin bu məsələ ilə bir zamanda

Gürcüstan SSR-nin demək olar yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-yə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır. Və nəhayət biz, Dağıstan MSSR-in keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-i tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özüdə maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir»(99, 297-300). Göründüyü kimi, rus dövlətindən və onlara havadarlıq edənlərdən dəstək alan ermənilər Azərbaycan xalqına qarşı əsrin əvvəllərində olduğu kimi, ortalarında və sonlarında da olmazın vəhşiliklər etmişlər.

Akademik Ramiz Mehdiyev 4 noyabr 2010-cu il tarixində Xalq qəzetində "Gorus-2010: Absurd teatrı movsümü" adlı məqaləsində qeyd edir: "Ermənilər (haylar) XV əsrin ortalarınadək Cənubi Qafqazda demək olar ki, yaşamırdılar. 1441-ci ildə Qaraqoyunlular türk-Azərbaycan dövlətinin hökmdarı Cahan şah erməni katalikosluğunun mərkəzini əhalisi tamamilə türklər olan İrəvan yaxınlığındakı Kilikiyanın Sis şəhərindən qədimdə alban monastrı olmuş Üçkilsə (yaxud Üç Müədzin) monastrına köçürmüşdür. Sonralar ermənilər Üç Müədzin adını dəyişərək "Eçmiədzin" kimi ifadə etmişlər. Erməni dilində bu sözün heç bir mənası yoxdur. Halbuki, Azərbaycan türkcəsində bu sözün mənası "üç müəzzin"dir ("müəzzin" ərəbcə azan oxuyan deməkdir). Matenadaranda saxlanılan orta əsr sənədlərində məbədin adı məhz "Üçkilsə" kimi xatırlanır. Erməni katalikosluğunun Üçkilsəyə köçürülməsi ilə erməni missionerləri buraya üz tutdular. Onların Cənubi Qafqazda nüfuzlarını artırmaq imkanı yaranmışdı. Tezliklə monastrın özü ermənilərin dini mərkəzinə çevrilmişdir. Bu torpaqların XIX əsrin birinci yarısında Rusiyaya birləşdirilməsinədək Cənubi Qafqazda Üçkilsənin hüdudlarından kənarda çox cüzi erməni var idi... Türkmənçay müqaviləsi bağlanana qədər nəinki Qarabağ xanlığında, eləcə də Cənubi Qafqazda həqiqətən də ermənilərin sayı daha az idi. Göstərilən

müqavilədən sonra ermənilər çar Rusiyasının himayəsi və yardımı ilə İran və Türkiyədən bu ərazilərə köçürülmüşdür. Azərbaycan ərazilərinə İrandan 40 mindən artıq və Türkiyədən 90 min nəfər erməni köçürülmüş və bu da çar Rusiyasının işğalçılıq siyasətinin acı nəticəsi idi(116).

Erməni daşnaklarının törətdikləri vəhşiliklər çar hökumətini vahiməyə gətirmişdir. Gördüyü erməni vəhşiliklərindən dəhşətə gələn knyaz Qriqori Qolitsın yazır: «Mən Qafqazda cəmi iki erməni saxlardım - biri kişi cinsindən digəri qadın. Onlardan müqəvva düzəldib Qafqaz muzeyinə qoyardım ki, gələcək nəsillər vaxtilə Qafqazda yaşayan ermənilərin neçə bir xalq olduğunu başa düşsünlər»(153, 292). Elə knyaz Qriqori Qolitsin da erməni terrorunun qurbanı oldu. 1903-cü ilin dekabrında erməni terrorundan aldığı yaradan sağalsa da Knyaz Qriqori Qolitsin tezliklə Qafqazı tərk etdi. Onu əvəz edən knyaz V.İ.Nakaşidze 1905-ci ilin yanvarında Sankt-Peterburqa səfərindən sonra müsəlmanlara ən müxtəlif silahlar verilməsi haqqında qərar imzalamışdır. Onun bunda məqsədi erməni terrorunun istiqamətini azərbaycan türklərinə, azərbaycanlılara qarşı qoymaq olmuşdu. Çar hökumətinin yeritdiyi siyasət ilkin mərhələdə öz bəhrəsini verdi. Bu barədə Məmməd Səid Ordubadi 1905-1906-cı illərin erməni-azərbaycanlı qırğınına konkret tarixi fakt və sənədlər əsasında həsr etdiyi «Qanlı illər» adlı əsərində bu hadisələrdən bəhs edərək yazır: «Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bomba isə partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı, deyilsə daha düz olar. Görəsən o partlayıcı maddə həqiqətdə bomba imiş? Bəli bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı»(134, 13). Bu arada 1905-ci ildə Bakı qırğınından sonra Qubernator Nakaşidze erməni terrorçuları tərəfindən öldürüldü. Həmin dövrdə «Bakinskiye izvestiya» qəzeti bu münaqişənin hökumət tərəfindən törədildiyini yazırdı. Bu xəbərə öz etirazını bildirən general-mayor Baron Medem hökumətdən Bakıda hərbi vəziyyət elan olunmasına təkid edirdi. 1907-ci il iyunun 3-də çar Nikolayın

fərmanı ilə II Dövlət Düması buraxıldı. Bu çevrilişdən sonra Rusiyanın hər yerində irtica hücuma keçdi. Azərbaycanın demək olar ki, bütün qəzalarında hərbi vəziyyət elan edildi. Yüzlərlə adam siyasi əqidəsinə görə həbs edildi. Bu vaxt təkcə Bakının mərkəzi həbsxanasında min nəfərdən artıq siyasi məhbus var idi.

Çar hökuməti bu dövrdə mütləqiyyəti devirməyi qarşıya məqsəd qoyan sosial-demokratlara nisbətən geniş islahatlar keçirilməsini tələb edən milli demokratları daha təhlükəsiz düşmən hesab edirdi. Bununla belə milli demokratik qüvvələr də irtica tərəfindən hücuma məruz qalırdı. Həmin dövrdə bir sıra ictimai-siyasi təşkilatlar, cəmiyyətlər, jurnal və qəzetlər bağlandı. Eyni zamanda demokratik fikirli ziyalıları təqib etməyə başladılar. Yelizavetpol qubernatorunun xüsusi sərəncamı ilə «Difai» və «Müdafiə» partiyalarının fəaliyyəti polisin ciddi nəzarəti altına alındı. Çünki Qafqaz canişini «Difai» partiyasının başçıları barəsində daha təsirli tədbirlər görülməsini tələb etmişdir. «Bu böhtan kampaniyası təsadüfi deyildi. Artıq ayıq ermənilər Əhməd bəy Ağaoğlunun hətta təkbaşına belə ciddi qüvvəyə çevrildiyini, xalq arasında böyük nüfuz qazandığını, sözünün və səsinin eşidildiyini görürdülər. Ona görə də, ictimai-siyasi fəaliyət üçün daha geniş imkanlar yarandığı 1905-ci ildən etibarən erməni-rus alyansı və onların təəssüf ki, azərbaycanlılar içərisində də təsadüf olunan tək-tük dəmtutanları Ə.Ağaoğlunu «zərərsizləşdirmək» üçün əvvəlkindən daha artıq qüvvə və eneri ilə çalışır, müxtəlif yollara baş vururdular»(9, 10).

Bu vaxt XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində dərin iz buraxan ideoloq, ictimai-siyasi xadim, Əhməd bəy Ağaoğlu 1908-ci ildə vəziyyətin son dərəcə təhlükəli olduğunu nəzərə alaraq, Türkiyəyə getməyə məcbur olmuşdur (199). Təbii ki, xalqın açıq fikirli, qeyrətli qələm adamlarına böyük ehtiyacı olduğu bir zamanda Əhməd Ağaoğlunun vətənindən didərgin salınması ilk növbədə millətə və onun milli özünüdərkinə zərbə idi. «Əhməd Ağaoğlu Bakıda başladığı jurnalistlik işini və ictimai-siyasi fəaliyyətini İstanbulda daha geniş vüsət və coşğunluqla davam etdirirdi. Tezliklə o, Əli bəy

Hüseynzadə, Ziya Göyalp, Yusif Akçura, Həmdulla Sübhi, Mehmet Əmin Yurdaqul və b. ilə bir sırada türkçülük hərəkatının lideri kimi tanınır. «Xalqa doğru» və «Sirati-müstəqim» qəzetlərində ardıcıl məqalələr çap etdirir. 1911-ci ildə İstanbulda yaradılan və indinin özündə də fəaliyyətini davam etdirən «Türk yurdu» cəmiyyətinin başlıca təsisçilərindən və təşkilatçılarından, bir il sonra təşəkkül tapan «Türk ocağı»nın isə dörd qurucularından biri Əhməd Ağaoğlu olur. O, eyni zamanda «Tərcümani-həqiqət» qəzetinin redaktoru kimi qələmi və ideyaları ilə bütün türk dünyasına xidmət etməyə çalışır. Qafqazdan təzə gəlməsinə baxmayaraq Əhmədbəyin geniş çoxcəhətli fəaliyyəti tezliklə onun yeni vətənindəki vətəndaşların diqqətini cəlb edir – azərbaycanlı mühacir türkmənlərin – Azərbaycan əsilli türklərin yaşadığı Afyon – Qarahisardan Osmanlı parlamentinə deputat seçilir. Əhməd Ağaoğlu eyni zamanda İstanbul Universitetində rus dilini və ədəbiyyatını tədris edir, türkçülük ideyalarını yaymaq və əhalini maarifləndirmək üçün Türkiyədən Rusiyanın türklər yaşayan bölgələrinə müəllimlər göndərilməsi işinin təşkili ilə məşğul olur».(107, 33) Bütün bunlar xalqın milli özünüdərki ilə bərabər türk milli şüurunun inkişafına da mühüm təsir göstərirdi. Mütəfəkkir Türkiyədə yaşasa da, doğma Azərbaycanla əlaqəni heç vaxt kəsməmişdi. Əhməd bəy Ağaoğlu 1915-ci ildə Rusiyada yaşayan milli azlıqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi çıxış edir. Eyni zamanda o, 1917-ci ildə Əlibəy Hüseynzadə, Əbdürrəşid İbrahimov və Yusif Akçura ilə birlikdə ABŞ prezidenti V.Vilsona təqdim edilən və Rusiya imperiyasında türk xalqlarının dözülməz vəziyyətindən söz açan müraciəti imzalayır. 1918-ci ilin iyununda, Türkiyənin Qafqaz ordusunun komandanı Nuru paşanın müşaviri kimi vətənə qayıdan Əhməd bəy Ağaoğlu tezliklə Azərbaycan parlamentinə üzv seçilir. Mütəfəkkir eyni zamanda Gəncədə «Türk sözü» adlı mətbu orqanı da təsis etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunu qorumaq üçün Ənzəlidəki ingilis komandanlığı ilə danışıqlar aparan nümayəndə heyətinə məhz Əhməd bəy Ağaoğlu başçılıq etmişdi. 1919-cu ilin mayında

saxta ittihamla keçmiş «İttihad və Tərəqqi» partiyasının liderləri ilə birlikdə Əhməd Ağaoğlu da İstanbulda ingilislər tərəfindən həbs edilərək Malta adasına sürgünə göndərilir. 1921-ci ilin mayında onun iki ildən artıq davam edən sürgün həyatı başa çatır. Qeyd edək ki, Malta məhbuslarını ingilislərin əlindən xilas etmək üçün Ankara hökuməti ilə birlikdə Azərbaycan XKS (Xalq Komissarları Soveti) sədri Nəriman Nərimanovun da mühüm xidməti olmuşdur. Əhməd bəy Ağaoğlu Azərbaycanamı, yaxud da Türkiyəyəmi qayıtmaq dilemması qarşısında qalır. O, hətta özünün vətənə qayıtmaq qərarı haqqında Romadan N.Nərimanova göndərdiyi 11 may 1921-ci il tarixli məktubunda bu barədə geniş yazır. Nəhayət mütəfəkkir Türkiyədə qalmağa üstünlük verir. «Tezliklə o, Mətbuat Baş müdiri kimi milli hökumətin çap-təbliğat siyasətinə başçılıq edir, Atatürk ideyalarını yayan «hakimiyyəti-milliyyə» qəzetinin baş redaktoru olur. Atatürkün tapşırığı ilə Anadolu Agentliyini yaradır və onun ilk baş direktoru təyin edilir. O, eyni zamanda yeni yaradılan Türkiyə Böyük Millət Məclisinə Qarsdan deputat seçilir, bütün çoxrəngli, çoxsahəli siyasi fəaliyyət arasında vaxt tapıb həm də Ankara Universitetində konstitutsiya əsaslarından mühazirələr oxuyur. Və bütün bunlarla bərabər qəzetlərdə hər gün bir-birindən kəskin, aktual məqalələrlə çıxış edir. Əhməd Ağaoğlu hələ əsrin əvvəllərindən başlayaraq siyasi görüşlərində demokratiya və respublikaçılıq ideyalarına mühüm yer ayırırdı. Buna görə də o, Türkiyə Cümhuriyyətinin yaranmasını böyük sevinclə qarşıladı, ilk günlərdən başlayaraq bütün qüvvə və enerjisi ilə azad, demokratik cəmiyyətin qurulmasına xidmət etdi». (107, 41) 1930-cu ildə mütəfəkkir özü də istəmədən böyük bir siyasi oyuna cəlb edilir. Bu dövrdə Türkiyəyə demokratiya ab-havası gətirmək istəyən Atatürk hakim Cümhuriyyət Xalq Partiyası ilə rəqabətdə olan bir müxalifət partiyası yaratmaq istəyir. Tezliklə Atatürkün xeyir-duası ilə Türkiyənin o dövrdəki Paris səfiri olan Fəthi Okyarla Əhməd bəy Ağaoğlu birlikdə «Sərbəst Firqə» partiyasını yaratdılar. Amma «Sərbəst Firqə» partiyasının fəaliyyəti uzun sürmədi. Belə olan təqdirdə Əhməd bəy Ağaoğlu Ankaradan

İstanbula köçür. Mütəfəkkir burada da boş durmur. O, çox keçmir ki, «Axın» qəzetini təsis edir. Əhməd bəy Ağaoğlunun təxminən otuz illik qəzetçilik-redaktorluq fəaliyyətində «Axın» bilavasitə özünün başçılıq etdiyi son mətbuat orqanı olur. Sorbonna Universitetinin professoru, şərqşünas Fransua Jorjon Azərbaycanın XIX əsrin sonu-XX əsrin əvvəllərinə dair iki qiymətli əsər yazmışdır. Onlardan biri «Əsrin dönəmində Azərbaycanda modernizm haqqında qeydlər», ikincisi isə «Maarifçilik və inqilab fədaisi türk ziyalısı Əhməd Ağaoğlu» adlanır. Məqalədə F.Jorjon Ə.Ağaoğlunun düzgün olaraq Şərqə nisbətən Qərbin inkişafına, tərəqqisinə fərdiyyətçiliyin və azadlığın səbəb olduğunu qeyd etdiyini nəzərə çarpdırır. «Elə bax, bu nöqteyi-nəzərdən də Ağaoğlu Şərqlə Qərbi fərqləndirir. Qərbdə azadlığın fəth edilməsi, fərdiyyətçiliyin çiçəklənməsi üçün zəmin olduğundan maddi və mənəvi tərəqqinin inkişafı da təmin olunur. Şərqdə isə fərdin nəfəsini kəsib boğurdular. Tənzimat dövrünün liberal ənənələrinin sağ təmayülünü seçmiş Ağaoğlu Şərqdə fərdiyyətçiliyin geri qalmasını azadlığın orada olmaması ilə izah edirdi. 1919-1920-ci illərdə Malta həbsxanasında yazdığı və yalnız 1927-ci ildə çap etdirə bildiyi «Üç sivilizasiya» əsərində Şərq ictimaiyyətinin qüruba tərəf enməsi səbəblərini və qərbləşmənin, Qərb dünyasından görüb –götürməyin zəruriliyini müfəssəl və dolğun şəkildə açıqlayır. Şərq aləmin dini, əxlaqi, şəxsiyyət, ailə, cəmiyyət, dövlət, hökumət və başqa aspektlərdən öyrənərək o, insanların şüurunda idarə mexanizmində şəxsiyyəti məngənə kimi sıxan, onu alçaldan despotizmin varlığını təsdiq edir. Nəhayət, Ağaoğlu Şərqdə bizim bu gün «mülki cəmiyyət» adlandırdığımız şeyin, demək olar ki, büsbütün yoxluğuna inanır»(56, 76). Beləliklə, fransız tədqiqatçısı Fransua Jorjon Əhməd bəy Ağaoğlunu türk ziyalı sinfinin hərəkətverici qüvvələrindən biri hesab etmiş, azadlığın və radikal qərbləşmənin qızğın tərəfdarı kimi dəyərləndirmişdir.

Bu dövrdə milli-azadlıq mübarizəsinin ideoloqları olan ictimai-siyasi xadimlər M.Ə. Rəsulzadə, Ə.Hüseynzadə və başqa demokratik fikirli ziyalılar da İran və Türkiyəyə getməklə,

irticanın təqiblərindən yaxa qurtara bilmişdilər. 1907-ci ildə vaxtilə «Seçki müraciətnamə»sini imzalamış Duma deputatlarının hər birinə 3 ay həbs cəzası verilmişdi. Onlar dövlət Dumasına və ictimai vəzifələrə seçkilərdə iştirak etməkdən məhrum edildilər. Həmin dövrdə milli-demokratik qüvvələr, əsasən çar hökumətinin icazə verdiyi leqal imkanlardan istifadə etməklə fəaliyyət göstərirdilər. 1907-ci il iyunun 3-də Dumanın buraxılmasından sonra, deputatların sayı 524-dən 442-yə endirildi. Qafqaz üçün 28 deputat sayı 10-a endirilmişdi.

1907-ci il noyabr ayının 1-də III Dövlət Duması açıldı. Dumada Bakı, Yelizovetpol və İrəvan quberniyalarının müsəlmanlarını təkcə Xəlil bəy Xasməmmədov təmsil edirdi. Bu zaman erməni tərəfindən də bir deputat seçilmişdi və bu Daşnaksütyun partiyasından olan İ.Saqtelyan idi. Azərbaycanlı deputat olan Xəlil bəy Xasməmmədov öz çıxışında Qafqaz xalqlarının bir-birinə qarşı qoyulması siyasətini kəskin tənqid edərək göstərirdi ki, millətlər arasında heç bir ayrıseçkilik olmamalı, onlar eyni hüquqlardan istifadə etməli və eyni vəzifələri daşımalıdırlar. Ancaq belə olan təqdirdə əhali dövlətə etimad edə bilər. X.Xasməmmədov müsəlman fraksiyası adından çıxış edərək, çarizmin köçürmə siyasətini pislədi, yerli torpaqsız və az torpaqlı kəndliləri torpaqla təmin olunmasını, ana dilində təhsil, qeyri-rus xalqlarının milli dillərinin öyrənilməsini və eləcə də məcburi fənlər sırasına daxil edilməsinin Rusiyanın ali məktəblərinə qəbul zamanı müsəlmanlara qoyulmuş məhdudiyyətlərin aradan götürülməsini, milli ucqarlarda seminariyalar, o cümlədən də ali məktəblər, müsəlman qızları üçün dövlət məktəblərinin açılmasını, yerli məhkəmə işlərində milli dilin işlədilməsini və s. tələb etmişdi. İrticanın hücumuna düçar olmayan «Mədəni-Maarif», «Nəşr maarif», «Nicat» cəmiyyətləri və 1910-cu ildə təşkil edilmiş «Şəfa» cəmiyyəti xüsusən jurnal və qəzetlər vasitəsi ilə milli-azadlıq ideyaları təbliğ edərək milli şüurun və milli özünüdərketmənin inkişaf etməsinə yardımçı olmuşdular. Buna görə də jurnal və qəzetlərin demokratik fikirli naşirləri dəfələrlə təqiblərə, böyük məbləğdə cərimələrə, həbslər

və başqa cəzalara məruz qalırdılar. Bu dövrdə artıq Azərbaycanda xeyriyyəçilik işləri çox güclənmişdi. Təkcə bunu demək kifayətdir ki, 1912-ci ildə «Nəşr maarif» cəmiyyətinin vəsaiti hesabına Abşeron kəndlərində 12 məktəb açılmışdır. H.Z.Tağıyev Bakı kommersiya məktəbini, ikinci qız gimnaziyasını, Musa Nağıyev və Murtuza Muxtarov Realnı məktəbini himayədarlığa götürmüşdülər. Himayədarlar sırasında Həbib bəy Mahmudbəyovu, Əsədulla Əhmədovu, İsabəy Hacınskini və başqalarını göstərə bilərik. Azərbaycan milli burjuaziyasının vəsaiti hesabına gənclərin Rusiyaya və başqa xarici ölkələrə ali təhsil almağa göndərilməsi davam etdirilir, imkansızlara pul yardımı göstərilirdi. Cəmiyyətin xətti ilə müxtəlif ictimai- mədəni tədbirlər həyata keçirilirdi.

XX əsrin əvvəllərində mühacirətdə olan Azərbaycanın demokratik əhval-ruhiyyəli ziyalıları milli istiqlal ideyalarını yayır və inkişaf etdirirdilər. Bu dövrdə Şimali Azərbaycandan olan mühacirlər həm Cənubi Azərbaycan məşrutəçiləri ilə, həm də gənc türklərlə yaxınlaşmışdılar.

Milli ziyalılarımız İran və Türkiyə mətbuatında, xüsusən də özlərinin bu ölkələrdə nəşr etdirdikləri jurnal və qəzet səhifələrində Azərbaycanın milli qurtuluşu yollarını, onun tarixi keçmişini, mədəniyyətini, dilini, mənəviyyatını araşdıran, milli şüur və milli özünüdərketmə haqqında fikirlərlə yanaşı, gənc türklər, məşrutə inqilabından bəhs edən bir sıra məqalələr dərc etdirirdilər, kitablar buraxırdılar.

Beləki, Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm yeri olan ictimai-siyasi xadim, milli-azadlıq hərəkatının lideri M.Ə.Rəsulzadə 1910-cu ildə İran demokrat partiyasının yaradılmasında yaxından iştirak etmişdi.

Tədqiqatçı alim Faiq Ələkbərov «Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü» adlı monoqrafiyasında bu barədə yazır: «1908-ci ilin sonu, 1909-cu ilin əvvəllərində M.Ə.Rəsulzadə həm çar üsuli-idarəsi tərəfindən həbs olunmaq təhlükəsi ilə əlaqədar, həm də Azərbaycanın cənubunda Səttar xanın liderliyi ilə baş qaldırmış milli azadlıq hərəkatında iştirak etmək üçün Bakını tərk

edərək Təbrizə, daha sonra Tehrana getmişdir. M.Ə.Rəsulzadə Tehranda Avropa təhsili görmüş bir qrup İran ziyalısı – Seyid Həsən Tağızadə, Hüseynqulu xan Nəvvab, Süleyman Mirzə, Seyid Məhəmməd Rza və b. ilə birlikdə 1910-cu ilin sentyabrında İran Demokrat Partiyasının əsasını qoyub. O, bu partiyanın əsas orqanı olan «İrani-no» qəzetinin baş redaktoru olub. Bu qəzetin nəşri ilə M.Ə.Rəsulzadə İranda Avropa tipli jurnalist sənətinin əsasını qoyub »(51, 48).

Çox keçmədən bu partiyanın mərkəzi komitəsinin üzvü seçilən M.Ə.Rəsulzadə Şimali Azərbaycandakı məsləkdaşlarına göndərdiyi məktublarında milli-azadlıq hərəkatına rəhbərlik etmək üçün siyasi partiya yaratmağın vacibliyini göstərmiş və müvafiq tövsiyələr vermişdir. Beləliklə, qeyd olunduğu kimi «Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin həbsdə, mühacirətdə və ciddi polis nəzarəti altında olduğu bir dövrdə Azərbaycan xalqını milli istiqlala çatdıracaq bir partiya lazım idi. Bu «Müsavat» partiyası idi» (213).

1911-ci ilin oktyabr ayının 11-də keçmiş hümmətçilərdən Məhəmmədəli Rəsulzadə (M.Ə.Rəsulzadənin əmisi oğlu), Abbasqulu Kazımzadə və Nağı Nağıyev tərəfindən gizli fəaliyyət göstərən «Müsəlman Demokrat Müsavat Partiyası»nın əsası qoyuldu. Bu barədə Məhəmmədəli Rəsulzadə öz xatirələrində yazırdı: «Arkadaşlarımız Kazımzadə Abbasqulubəy və Nağı Nağıoğlu ilə gizli surətdə keçirdiyimiz müşavirələrin birində Nağı Nağıoğlu «Müsavat» Partiyası yaratmaq təklifini irəli sürdü. O vaxt mərhum M.Ə.Rəsulzadə İstanbuldan bir siyasi təşkilata ehtiyac olduğunu yazırdı. Bu arada «Müsavat» partiyasına ilk cəlb olunan arkadaşlarımız bunlar idi: Vəli Mikayıloğlu, Seyid Hüseyin Sadiq, Əbdürrəhimbəy, Yusif Ziyabəy, Seyid Musəvi idi. Müsavat Partiyası Azərbaycan xalqının milli -azadlıq mübarizəsində aparıcı partiya olmuşdur»(153, 323). Belə ki, «Müsavat»ın mənası «Müsəva» sözü olub, ərəbcə bərabərlik deməkdir. «Müsavat» partiyası nə burjua partiyası, nə də fəhlə partiyası olmayıb, əsl milli partiya olmuşdur.

Müsavatın islam şərqində yeganə milliyyətçi, istiqlalçı,

xalqçı və cümhuriyyətçi partiya olduğunu deyən Mirzə Bala Məmmədzadə «Milli Azərbaycan hərəkatı» kitabında yazır: «Müsavat», milliyyətçiliyi, istiqlalçılığı, xalqçılığı və cümhuriyyətçiliyi ilə bütün islam şərqində ilk təşəkkül edən Avropa yönümlü bir partiyadır. İslam şərqində «müsavat»dan əvvəl heç bir siyasi təşkilat olmamışdır ki, «ümmətçilik» ilə «millətçiliyi» belə ideal bir surətdə təfrik və təlif edə bilsin»(174, 3).

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə verilən «Əfv-ümumi»dən sonra vətənə qayıdan M.Ə.Rəsulzadə «Müsavat» Partiyasına rəhbərlik etməyə başladı. «Müsavat» Partiyası Qərbin nümunəsində kapitalist inkişaf yolunu müdafiə edən liberal burjua və istiqlala aparan milli partiya idi. Bu partiyanın qəbul etmiş ilk proqramında milli və dil fərqlərindən asılı olmayaraq, bütün müsəlman xalqlarını müstəqillik və tərəqqi uğrunda mübarizədə birləşdirmək ideyası əsas məqsəd götürülürdü.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm rol oynayan və xalqımızda milli şüur və milli özünüdərketmənin inkişafında müstəsna xidməti olan «Müsavat» partiyası öz fəaliyyətini getdikcə genişləndirir, Azərbaycanın müxtəlif yerlərində onun şöbələri açılırdı. Bu dövrdə hürriyyət və məşrutiyyət yolu ilə gedən Türkiyənin İtaliya tərəfindən arxadan vurulması, bütün Rusiya türkləri kimi azərbaycanlılara da pis təsir göstərmişdi. Bu ilk növbədə türk milli özünüdərkinin bariz göstəricisi idi. 1912-ci ildə İtaliyanın Trablisə hücum etməsi «Müsavat»ın mövqeyini daha da gücləndirdi. «Müsavat» partiyasının istər proqram və intibahnaməsi, istərsə də 1912-ci ildə İstanbulda çıxan «Səbilur-Rəşad» məcmuəsində çap olunmuş bəyannaməsi açıq şəkildə göstərirdi ki, «Avropa ölkələri «Trablis», «Bosniya-Hersoqovina» indi də Balkan məsələsini ortaya ataraq hər tərəfdən toplar, tüfənglər, bombalar, xəncər və nizələrini ataraq islam aləminin qəlbinə sapladılar. Onu parçalamaq tamamilə payimal etmək istəyirlər. Cəmi aləm bilir ki, islam xilafətinə sahib olan Türkiyəyə qarşı bu müharibəni Balkanın uzaq və kiçik hökumətləri elan etməmişlər.

Çünki, şir nə qədər zəif olsa da, çaqqallar və tülkülər ona yaxın gəlməyə cürət etməzlər. Bu işləri işləyən islamiyyət və insaniyyət düşməni və «dünya jandarmı» ləqəbi ilə məşhur olan şimal ayısı müstəbid Rusiya hökumətidir ki, hər gün tibbi ləvazimat, həkimlər və könüllü adı altında bölük-bölük nizamilər Türkiyəyə qarşı göndərir. «Müsavat» Partiyasının imzaladığı bu bəyannamə bütün Qafqazda yayılmışdı»(153, 322). 1912-ci il 9 iyun tarixli çar fərmanı ilə III Dövlət Düması buraxıldı və çox keçmədən elə həmin ilin sentyabr-oktyabr aylarında IV Dövlət Dümasına seçkilər keçirildi. 1912-ci il noyabr ayının 15-də IV Dövlət Düması öz işinə başladı. Azərbaycandan Dövlət Dumasına M.İ.Papacanov, M.İ. Skoblev və azərbaycanlı M.Y.Cəfərov seçildilər.

1914-cü ilin yayında I Dünya müharibəsi başladı. I Dünya müharibəsinin başlanması dövründə Şimali Azərbaycanda hərbi əməliyyatlar getməsə də, Zaqafqaziyanın cəbhəyanı zolağa çevrilməsi Azərbaycanın iqtisadi və ictimai-siyasi vəziyyətinə ciddi təsir göstərmişdir. Bu dövrdə ictimai təşkilatların və siyasi partiyaların müharibəyə münasibətləri bir-birindən fərqlənirdi. Müharibənin vurduğu ziyan ilə əlaqədar olaraq xeyriyyə cəmiyyətlərinin qayğıları olduqca artmışdır. Bu zaman Bakı milyonçusu Şəmsi Əsədullayevin oğlu Mirzə Əsədullayevin sədr olduğu Bakı müsəlman «Xeyriyyə cəmiyyəti»nin üzvləri didərginlərə, yaralılara, qaçqınlara kömək məqsədi ilə bütün cəbhə boyu türk xalqlarının yaşadıqları rayonlara getmişdilər. Bütün bunlar xalqın, millətin azərbaycanlı kimi milli özünüdərkilə bərabər, türk milli şüurunun, milli özünüdərketməsinin təcəssümü idi.Bu cəmiyyətə Hacı Zeynalabdin Tağıyev böyük pul yardımı edirdi. Bakı müsəlman «Xeyriyə cəmiyyəti»nin işində gənc şair Əhməd Cavad da (1891-1937) yaxından iştirak etmişdir. O, cəmiyyətin xətti ilə Şimali Qafqaza, Gürcüstana, Türkiyəyə və başqa yerlərə xeyriyyəçilik məqsədi ilə gedib çıxmışdır. O zaman kimsəsiz uşaqlar üçün yetim evləri də təşkil edilmişdi. I Dünya müharibəsinin əvvəllərində Bakıda qadın xeyriyyə cəmiyyəti yaradılmışdı. Bu cəmiyyət eyni zamanda xaricdə təhsil alan

azərbaycanlı qadınlara müharibə ilə əlaqədar olaraq maddi çətinlikləri dəf edib öz təhsillərini başa vurmaları üçün vəsait toplayıb göndərirdilər. Bu dövrdə qaçqınlara kömək komitəsi təşkil edilmiş və tez bir zamanda onun çoxlu şöbələri açılmışdı. Milli-demokratik ziyalılara şəhərin xanımları da yaxından kömək edirdilər. Bu dövrdə milli özünüdərklə, milli özünütanıma ilə bərabər özünüdərkin yüksək forması olan milli-azadlıq mübarizəsi də güclənirdi.

1914-cü il oktyabrın 31-də Qafqazda hərbi əməliyyatların başlanması Türk ordusunun Batum və Qars istiqamətində irəliləməsi ilə müşayət olunurdu. Bu zaman 1914-cü ilin noyabr ayının 8-də Türk qoşunları cənubi Azərbaycan ərazisinə daxil oldular.

1915-ci il yanvar ayının 1-dək isə artıq türk qoşunları Təbriz şəhərinə qədər olan bütün cənubi Azərbaycan ərazilərini tutmuşdular. Gənc türklər hərəkatının üzvlərindən olan Ömər Naci Azərbaycan və Şərqi Qafqaz üzrə «İttihad və tərəqqi» komitəsinin baş inspektoru təyin edilmişdir. Bu eyni zamanda Türkiyənin o, taylı bu taylı Azərbaycanı vahid görmək istəməsi demək idi. Lakin belə bir müstəqil dövlətin yaranması Türkiyə ilə Rusiya arasında Bufer Türk dövlətinin mövcudluğu demək olardı və ola bilsin ki, bu parçalanmış Azərbaycan xalqının yenidən birləşməsi üçün tarixi bir şans idi. Amma gözlənilmədən rus qoşunlarının Sarıqamış yaxınlığında əks-hücuma keçərək irəliləməsi və sonra isə Təbrizi tutması türk komandanlığının bütün planlarını alt-üst etmişdir. Bütün bunlarla yanaşı Türkiyə Qafqaza göndərdiyi «Təşkilati-məxsusi» vasitəsilə azərbaycanlılar arasında təbliğat və təşviqatı genişləndirirdi. Bu təşkilatın üzvləri azərbaycanlılara türk milli hissini aşılayırdı. Bunun da nəticəsində rus hökuməti əleyhinə məqalələr dərc edən Azərbaycan qəzetləri bir-birinin ardınca bağlanırdı. Müharibənin gedişatında çar ordusu tərəfindən acarlara divan tutulması Qafqazın bütün müsəlman xalqları üçün bir xəbərdarlıq idi. Lakin bu bütün Rusiya müsəlmanlarının hiddətinə səbəb olduğundan çar hökuməti Qafqaza yeni canişin təyin etdi. General-adyutant qraf Vorontsov Daşkovun yerinə knyaz Nikolay Nikolayeviç təyin

edildi. Böyük knyaz Nikolay Nikolayeviç isə öz növbəsində müsəlmanların könlünü almaq məqsədi ilə onlara bir sıra güzəştlər vəd etmişdi. Bu güzəştlərdən biri də «Müsavat» lideri M.Ə.Rəsulzadəyə «Açıq söz» qəzetinin nəşrinə verdiyi razılıq idi. Belə ki, bu dövrün ictimai-siyasi və fəlsəfi fikrində mühüm yer tutan, ictimai-siyasi ədəbi türk qəzeti olan «Açıq söz» qəzeti 1915-ci il oktyabr ayının 2-də işıq üzü gördü. M.Ə.Rəsulzadə bu qəzet haqqında yazır: «Siyasi düşünüş klerikal sistemdən həvəs alaraq milli hars sisteminə doğru seri bir inqilab yapıyor. Milliyyət və türklük davasını müdafiə məqsədilə təsis olunan «Açıq söz» Maada milliyyət prinsipi və türk birliyi qayəsi üzərinə müəssis siyasi bir firqə təşəkkül ediyor: Türk Federalist Müsavat xalq firqəsi»(60, 127). Bu iqtibas qəzetin «Müsavat» partiyasının rəsmi orqanı olduğunu sübut edir. «Açıq söz» qəzeti 1918-ci ilin müdhiş mart hadisəsinə qədər fasiləsiz olaraq nəşr olunmuşdur. Mart hadisələrindən sonra erməni-rus silahlı dəstələri tərəfindən törədilmiş faciə zamanı «Açıq söz» qəzetinin redaksiyası darmadağın edilmiş və nəşri dayanmışdır. Ancaq 1918-ci ilin sentyabr ayının 15-də Bakı şəhəri birləşmiş Türk-Azərbaycan ordusu tərəfindən düşmən qüvvələrindən təmizləndikdən sonra «Açıq söz» qəzeti fəaliyyətini bərpa etmişdir. Bunu da qeyd etmək lazımdır ki, bu qəzet ilk dəfə olaraq rusların Qafqaz müsəlmanı və ya tatar dediyi xalqın Azərbaycan türkü olduğunu irəli sürmüşdür. Bu barədə Əhməd Baxış oğlu Əhmədov «Azərbaycan türkləri 1905-ci il inqilabında» adlı kitabında yazır: ««türk», və «türk xalqı» terminləri 1914-cü il, daha doğrusu 1917-ci ilə qədər Azərbaycan türklərinə aid deyildi. Bunun əvəzinə «Qafqaz müsəlmanı» və ya «tatar» termini istifadə olunurdu. Bunu onunla izah etmək olar ki, Azərbaycan türkləri fars təsirindən azad olmaqlarına baxmayaraq, türk milli özünüdərketməsi onlarda hələlik zəif inkişaf etmişdir. Azərbaycanlılar ilk dəfə olaraq 1914-cü ildə I Dünya müharibəsi zamanında türk adlandırıldılar, «Açıq söz» qəzeti öz nəticələrini elmi xarakterli sübutlarla müdafiə edərək, bu hüququ rus senzurası qarşısında qaldırdılar»(180, 251).

1915-ci ilin iyununda çar hökuməti «özgə xalqlar»dan olan 18 yaşından 23 yaşınadək gənclərin cəbhə arxası işlərə səfərbərliyi haqqında fərman verdi. Lakin çox keçmədi ki, IV Dövlət dumasının deputatı olan M.Y.Cəfərov bu fərmana öz etirazını bildirmişdi. O, müsəlman fraksiyası adından çıxış edərək, çar hökumətinin müstəmləkə əhalisinə qarşı çevrilmiş bu fərmanı ciddi tənqid etdi və tarla işləri qurtaranadək cəbhəarxası işlərə «özgə xalqların» səfərbərliyini təxirə salmasına nail olmuşdu.

1912-1913-cü illərdə kəndli hərəkatı daha da yüksəlmiş və buna səbəb də həmin illərdə kolonial Azərbaycanda aqrar islahatların hazırlandığı, həyata keçirilməyə başlandığı dövrün olması idi. Kəndlilər aqrar islahatlar nəticəsində özlərinin aldadılması ilə heç cürə barışa bilmirdilər. Bununla belə torpaqsızlığın, aztorpaqlığın aradan qaldırılması kəndli iğtişaşlarının başlıca mənbəyi olaraq yenə də qalırdı. Bu dövrdə Azərbaycanın Yelizavetpol, Bakı, Lənkəran quberniya və qəzalarında qaçaq kəndli hərəkatı geniş vüsət almışdı. Yelizavetpol (Gəncə –Ə.O) quberniyası qaçaq hərəkatı ilə xüsusi ilə fərqlənirdi.

1916-cı ilin noyabr ayında IV Dövlət Dumasında Zaqafqaziya müsəlmanlarının yeganə deputatı Məmməd Yusif Cəfərov müxalifətə qoşularaq müsəlman fraksiyası adından hökumətə etimad göstərmədiyini bildirmiş və bütün xalqlara azadlıq verilməsini tələb etmişdir.

Birinci Dünya müharibəsi bütün Rusiyada olduğu kimi, Azərbaycan iqtisadiyyatının da bütün sahələrinin o cümlədən də neft sənayesinin tənəzzülünə səbəb olmuşdur. Müharibənin doğurduğu ümummilli böhran Rusiyada çarizmin devrilməsi ilə nəticələndi və bu xəbər, hər yerdə olduğu kimi, Azərbaycanda da böyük sevinc hissi ilə qarşılanmışdı. 1917-ci ildə Rusiyada fevral burjua inqilabının qələbəsi nəticəsində silah və zor gücünə kiçik xalqların torpaqlarını işğal edib dünyanın altıdabir hissəsinə yiyələnmiş Rusiya imperiyası dağılmağa doğru addımlamağa başladı. Bunun sürətlənməsinin səbəbi isə milli müstəmləkə

zülmündən cana doyan xalqların istiqlaliyyət-milli azadlıq uğrunda mübarizəyə qalxmaları idi və bu inqilab ölkədə heç bir zaman olmayan demokratiyanın həyata keçirilməsinə şərait yaratmışdır. Eyni zamanda azad fəaliyyət üçün bütün siyasi partiyalara sərbəstlik verilmişdi.

Tədqiqatçı alim Müstəqil Ağayev «Məhəmməd Əmin Rəsulzadə» adlı kitabında yazır: «Dünya müharibəsində Rusiyanın iştirakı onun özünün ictimai-siyasi, iqtisadi və mədəni həyatına ağır zərbə endirdi. Hökumətə qarşı üsyanların, inqilabi çıxışların sayı getdikcə artırdı. Xalqın vəziyyəti, xüsusən rus olmayan millətlərin güzəranı daha aşağı səviyyədə idi. İğtişaşlar bütün ölkəni bürümüşdü. Nəhayət, 1917-ci ilin oktyabr ayında Rusiyada böyük bir inqilab baş verdi. Mütləqiyyət üsuli-idarəsi süqut etdi. Müvəqqəti hökumət yaradıldı. Bu inqilab xalqa heç bir şey vermədi. Bu hökumət də xalqın mənafeyini qorumaqdan imtina etdi. Müstəmləkə siyasəti bir az da genişləndirildi. Zülm, istismar daha da artdı. Bu isə, öz növbəsində istismar olunan xalqlarda, millətlərdə öz milli dövlətlərini yaratmaq arzusunu oyatdı»(15, 41).

1917-ci il mart ayının 3-də Bakı şəhər dumasının həyətində və neft sənayeçiləri qurultayı şurasının binasında keçirilən mitinqlərdə Müvəqqəti hökumətə etimad göstərilməsi haqqında qərar qəbul edilmişdir. Həmin vaxt fəhlə deputatları soveti də 1917-ci ilin mart ayının 6-da qiyabi surətdə S. Şaumyanı sədr seçərək fəaliyyətə başladı. Bakı İcrayə komitəsinə həmin gün F.X.Xoyski, Ə.Topçubaşov müavin, N.Nərimanov və H.Z. Tağıyev nümayəndə seçildilər. Bu nümayəndə heyəti müsəlman xeyriyyə, mədəni-maarif və kooperativ təşkilatlarının birgə iclasında təsdiqlənmişdir. Bakı şəhər meri D.D.Arutyunov təyin edildi. Bakı icrayə komitəsinin sədri isə L.L.Bıç oldu.

1917-ci ilin mart ayının 9-da Müvəqqəti hökumətin sərəncamı ilə Qafqaz canişinliyi ləğv olunaraq, onun yerində Xüsusi Zaqafqaziya Komitəsinin yaradılması haqqında əmr verdi. B.A.Xarlamovun sədrliyi ilə yaradılmış bu komitəyə M.Y.Cəfərov da daxil oldu. 1917-ci ilin mart ayının 27-də Müsəlman

ictimai-siyasi təşkilatları və kooperativlərinin nümayəndələrindən ibarət Büro yaradan Azərbaycan ziyalıları, martın 29-da bu Büronu Bakı Müsəlman ictimai təşkilatlarının müvəqqəti komitəsi ilə əvəz etdilər. Müvəqqəti komitənin sədri M.H Hacınski, müavini isə M.Ə Rəsulzadə seçildi. Bu vaxt həmin komitənin «Kaspi» qəzetində dərc edilmiş «Müsəlmanlara» müraciətində deyilirdi ki, əldə edilmiş azadlığı qorumaq və ondan məqsədəuyğun surətdə istifadə etmək üçün birləşmək lazımdır. Bunu da ancaq ittihad və təşkilat yolu ilə əldə edə bilərik. Qeyd olunduğu kimi, Fevral burjua inqilabının nailiyyətlərindən biri də bütün siyasi partiyalara və təşkilatlara fəaliyyət azadlığı verilməsində idi. Bu dövrdə Azərbaycanın siyasi partiyaları olan «Müsavat», «Difai», «Nicat», «İrşad» «Hümmət» və s. partiyaları mart ayında öz fəaliyyətlərini leqallaşdırdılar.

1917-ci ilin mart ayının 29-da Azərbaycanda milli hərəkata vahid rəhbərlik etmək məqsədilə, siyasi xadimlər və ziyalılar tərəfindən Bakıda demokratik əsaslarda «Müsəlman Milli Şurası» yaradılmışdı. Bu demokratik təşkilatlarda Azərbaycanın müsəlman əhalisinin bütün təbəqələri, o cümlədən türk və qeyri-türklər təmsil olunurdu. Milli hərəkatla bağlı bütün tədbirlər demək olar ki, Şura tərəfindən hazırlanırdı və onun Azərbaycanın bütün şəhər və qəzalarında şöbələri fəaliyyət göstərirdi. 1917-ci ilin aprel ayının 15-dən 20-dək Bakıda Qafqaz Müsəlmanlarının qurultayı keçirildi. Həmin qurultayda ilk dəfə olaraq M.Ə.Rəsulzadə tərəfindən milli ərazi muxtariyyəti ideyası irəli sürülmüşdü. M.Ə.Rəsulzadə məruzəsində Rusiyanın müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən dövlət quruluşu forması ərazi-federasiya prinsiplərinə əsaslanan demokratik respublikadır deyə göstərmişdir. Belə ki, bu dövrdə Rusiya imperiyasında gedən milli- azadlıq hərəkatında başlıca iki əsas konsepsiya var idi. Tatar burjuaziyasının başçılıq etdiyi cərəyan unitaristlər idilər. Onlar müsəlmanlara yalnız milli–mədəni muxtariyyət vermək şərti ilə onların vahid Rusiya dövlətinin tərkibində qalmasını istəyirdilər. Başlıca olaraq, Azərbaycan milli ziyalılarının, yeni yaranmış sənaye burjuaziyasının daxil olduğu ikinci cərəyan

Federalistlər idilər. Onlar Rusiyada Federal burjua respublikası daxilində müsəlmanlara ərazi muxtariyyəti verilməsini tələb edirdilər. 1917-ci il may ayının 1-dən 11-dək Moskvada Ümumrusiya müsəlmanları qurultayı keçirilmişdi. Qurultay unitaristlərin təklifini rədd edərək, M.Ə.Rəsulzadənin Türküstan, Qazaxıstan, Başqırdıstan və Azərbaycan-Dağıstan kimi bir neçə muxtariyyətlərdən ibarət olan gələcək Rusiyanı federativ şəkildə qurmaq haqqında irəli sürdüyü qətnaməni yekdilliklə qəbul etdilər.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində, xalqın milli özünüdərketməsində müstəsna rol oynayan Müsavat Partiyası 1917-ci ilin iyunun ikinci yarısında Gəncədə yaradılmış «Türk Ədəmi Mərkəziyyət» partiyası ilə birləşib, «Türk Ədəmi Mərkəziyyət Müsavat» partiyası adını almışdı. «Müsavat» Partiyası əsl milli partiya idi və eyni zamanda dövlətçilikdə milli ərazi muxtariyyəti formasını, iqtisadiyyatda isə kapitalizmin Qərb inkişaf modelini müdafiə edirdi. Bu partiyanın nəinki Azərbaycanın bütün qəzalarında, eləcədə Tiflis, İrəvan, Həştərxan, Daşkənd, Kiyev, Təbriz, Rəşt, İstanbul və digər yerlərdə də şöbələri yaradılmışdı.

Fəlsəfə elmləri doktoru, professor Y.Rüstəmov yazır: ««Müsavat» partiyasının üzvləri xalqın milli mübarizə yolunu müəyyən etməyə çalışırdılar. Bu yol Azərbaycanın gələcək milli istiqlaliyyət yolu idi. Milli ruhlu gənclər öz mövqelərini sərbəst surətdə müəyyənləşdirmək üçün «Hümmət» təşkilatından ayrıldılar»(146, 295).

1917-ci ilin sentyabrında Azərbaycanda panislamistlər tərəfindən yaradılan, əvvəlcə «Rusiyada müsəlmanlıq», sonralar isə «İttihad» adlandırılan partiya meydana gəlmişdi. Onlar müstəqil dövlətçiliyimizin əleyhinə çıxır və bildirirdilər ki, müstəqil olmaq, islam birliyini parçalamaq deməkdir. «Qeyd edək ki, bu dövrdə milli şüurun formalaşmasına bir sıra amillər yardımçı olmuşdur. Bunlar xalqın psixologiyası, adət–ənənələri, mənəviyyatı, milli mentaliteti və s.–dir. Onlara xalq etiqadını, dini də əlavə etmək olar. Bu baxımdan islam bütün müsəlmanların dini olsa da (islama çoxlu millət və xalqlar etiqad edirlər-Ə.O.), ayrı–

ayrı millətlərin milli şüurunun formalaşmasında mühüm rol oynamışdır»(218). Eyni zamanda Azərbaycan xalqının da milli mənlik şüurunun formalaşmasında və milli özünüdərketməsində islam mühüm faktor olmuşdu. İttihadçılar yalnız Rusiya tərkibində Azərbaycana milli-mədəni muxtariyyət verilməsinə tərəfdar idilər. Bu dövrdə milli hərəkatda, eləcə də Müsəlman Milli Şurasında üç əsas siyasi qüvvə var idi. «Bunlardan milli demokratların «Müsavat», sosialistlərin «Hümmət» və «Ədalət» təşkilatları və islam radikalistlərinin «İttihad» partiyalarını göstərmək olar»(214). Hətta bunu da qeyd etmək lazımdır ki, 1917-ci il oktyabr ayının 22-də Bakı Sovetinə seçkilərdə «Müsavat» bütün partiyaları geri qoyaraq, səslərin 40-faizə qədərini qazanmışdır. Amma buna baxmayaraq, «Müsavat» partiyası səhvə yol verərək, Bakı Sovetinə, Sovetin İcrayə Komitəsinə daxil olmadı. Həmin ilin oktyabr ayının 26-dan 31-dək Bakıda «Müsavat» partiyasının birinci qurultayı keçirildi. Qurultayda Müsavatın Federalizmə tərəfdar çıxması dəstəkləndi. Çünki, o zamankı ictimai-siyasi şəraitdə bolşeviklərin dünya inqilabi ideyasını rəhbər tutaraq dövlət quruluşunu saxlamağa çalışdıqarı vaxt idi. M.Ə.Rəsulzadə qurultayda «Müsavat» partiyasının mərkəzi komitəsinin sədri vəzifəsinə seçilmişdi. Qurultay sona çatdıqdan sonra Azərbaycanın bütün qəzalarında, yerlərində «Azərbaycana muxtariyyət» şüarı altında milli-azadlıq hərəkatı daha da genişləndi. Qeyd edək ki, qurultay getdiyi zaman Rusiyada dövlət çevrilişi baş verdi və bolşeviklər hakimiyyətə gəldilər.

Bu dövrdə Azərbaycanın milli azadlığını Rusiya azadlığının tərkib hissəsi sayan bolşeviklərdən fərqli olaraq müsavatçılar əvvəlcə Rusiya tərkibində muxtariyyat, sonra isə müstəqil Azərbaycanın tərəfdarı kimi çıxış edirdilər. Həmin dövrdə Azərbaycan milli azadlıq hərəkatına əsas istiqamət verən qüvvələr bolşeviklər və müsavatçılar idi.

Tədqiqatçı alim Müstəqil Ağayev «Azərbaycan ictimai fikrində milli məsələ (1917-1920-ci illər)» adlı kitabında yazır: «Mövcud quruluşa, dövləti idarəetmə formasına münasibətdə

müsavatçılar ilə bolşeviklər arasında ciddi fərq özünü göstərirdi. Bolşeviklər bir dövlət forması, siyasi sistem kimi mütləqiyyət üsulu – idarəsinin, tamamilə məhv edilməsi, yeni sosializm cəmiyyətinin, sosialist dövlətinin yaradılması tərəfdarı idilər. Müsavatçılar isə mövcud dövlət quruluşunun tamamilə məhv edilməsinə yox, onun idarəetmə formasının təkmilləşdirilməsi yenidən qurulmasına tərəfdar idilər»(14, 13).

1917-ci ilin noyabr ayının 9-dan 12-dək Zaqafqaziya Müsəlman Komitəsinin Bakıda keçirilən konfransında təcili olaraq Milli Müəssislər Məclisinin çağrılmasını qərara almışdılar. Konfransın «Müstəqil Azərbaycanın yaradılması haqqında» qərarı bolşevik Bakı Soveti ilə münasibətləri daha da kəskinləşdirdi və eyni zamanda bu iki siyasi qüvvənin toqquşması zərurətini labüd hesab etmişdir. Əlbətdə ki, belə olan təqdirdə, Müsəlman Milli Şurası özünün Silahlı Qüvvələrini möhkəmləndirməyə başladı.

Sovet Rusiyası hökuməti öz tərəfindən «Rusiya xalqlarının hüquq bəyənnaməsi»ni elan etdikdən sonra, keçmiş Rusiya imperiyası ərazisində bir sıra milli dövlətlər meydana gəlmişdir. 1917-ci ilin noyabr ayının 14-də Xüsusi Zaqafqaziya Komitəsi əvəzinə Müstəqil Zaqafqaziya Komissarlığı yaradılmışdı. Müstəqil Zaqafqaziya hökumətinə Azərbaycandan M.Y.Cəfərov, F.Xoyski, X.Xasməmmədov daxil oldular və ona gürcü menşeviki E.P.Kegeçkori başçılıq edirdi.

Müstəqil Zaqafqaziya Komissarlığının yaradılması Zaqafqaziyanın Rusiyadan ayrılması yolunda ilk addım oldu. Lakin əsassız olaraq bolşevik hökuməti Zaqafqaziyaya ayrılmaz hissə kimi baxırdı. Sovet Rusiyasının bu mövqeyi milli qüvvələr tərəfindən dövlət unitarizminin təzahürü kimi qiymətləndirildi və o cümlədən də bu cür hallar Zaqafqaziyada ictimai-siyasi vəziyyəti xeyli gərginləşdirdi. Müstəqil Zaqafqaziya Komissarlığı belə olan təqdirdə milli gürcü, erməni, Azərbaycan hərbi hissələrinin təşkilini gücləndirdi. Sovet Rusiyası hökuməti Azərbaycan xalqına müstəqillik vermədi, əksinə onun ərazisinin bir hissəsini-neftlə zəngin olan Bakı rayonunu faktiki olaraq, ondan qoparıb

aldı. Beləliklə, vəziyyətin bu cür dəyişməsi Müstəqil Azərbaycan dövləti yaratmaq ideyasını milli-demokratik hərəkatda ön plana keçirdi.

1918-ci ilin yanvar ayının 6-da Ümumrusiya Müəssislər Məclisi Sovet hökuməti tərəfindən qovulduqdan sonra, Müəssislər Məclisinə Zaqafqaziyadan seçilmiş nümayəndələr yanvar ayının 23-də Tiflisdə toplaşaraq özlərinin qanunverici orqanını, Zaqafqaziya Seymini yaratdılar. M.Ə.Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyəti 44 nəfərdən ibarət idi. Seymin gürcü, Azərbaycan və erməni millətinin hərəsindən bir nümayəndə olmaqla, üç nəfərdən ibarət rəhbərliyi yaradılmışdı və Seymin sədri gürcü menşeviki A.Çxenkeli idi.

1918-ci ilin mart ayının 29-da bolşeviklər daşnaklarla birlikdə silahlı qüvvə ilə Azərbaycan hərbi hissələrini tərkisilah etdilər. Mart ayının 30-da isə misli görünməmiş milli faciə - mart qırğını başladı. Bakı Soveti və ona başçılıq edən S. Şaumyan Bakıda müsəlman əhalisinə qarşı amansız üsula əl atmış və nəticədə on minlərlə adam şəhid edilmişdi. Bakı Soveti və erməni daşnaklarının törətdiyi bu vəhşiliyə azərbaycanlı bolşeviklər də öz etirazlarını bildirdilər. Mart hadisələri barədə Bakıdan alınan xəbər sülh danışıqlarına, yəni, Seymin Türkiyə və Antanta ilə apardığı danışıqlara təsir etməklə bərabər, Seymdə olan vəziyyəti daha da gərginləşdirdi. 1918-ci ilin aprel ayının 2-də bu barədə Seymə məlumat verildi. Seym üzvü N.Ramişvili mart hadisəsini Tiflisə bolşevik hücumunun və müstəqil Zaqafqaziya komissarlığında hakimiyyəti ələ keçirməyin başlanğıcı kimi qiymətləndirdi. Bakıdakı mart hadisələrindən sarsılmış Azərbaycan fraksiyası bolşeviklərə qarşı təcili tədbirlər görülməsini tələb etdi və əks təqdirdə müsəlman fraksiyasının Seymi boykot edəcəyi bildirildi. Hakimiyyəti ələ keçirmək üçün mart ayında Bakıda bolşeviklərin daşnaklarla birlikdə qaldırdığı qiyam, Bakı və onun ətrafında törədilən milli qırğın xalqların müqəddaratını təyin etmiş Sovet Rusiyasının Azərbaycana münasibətinin təzahür forması idi. Buna görə də Mart hadisəsinə Bakı bolşeviklərinin hakimiyyəti ələ keçirmək kimi deyil, Sovet

Rusiyasının yeritdiyi təcavüzkarlıq siyasətinin tərkib hissəsi kimi baxılmalıdır. Bolşeviklər Mart soyqırımını törətməklə Bakıda milli demokratların və müsavatçıların sosial bazasını məhv etməyə çalışırdılar.

Mart qiyamında qarşıya qoyulan məqsədi S.Şaumyan bu hadisə törədiləndən və müsəlman əhalisinə divan tutulduqdan sonra daha açıq etiraf edirdi. O, yazırdı ki, «əgər müsəlman «əksinqilabı» qalib gəlsəydi Bakını Azərbaycanın paytaxtı edərdi və «Transqafqaz Rusiya üçün itirilmiş olardı»»(75, 57). Bu dövrdə Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi S.Şaumyan başda olmaqla bolşevikləri narahat etməyə başlamışdı. Bu barədə «Bakinskiy raboçiy» qəzeti yazırdı: «Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratiyası razı olur. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar» (75, 42). Eyni zamanda bu dövrdə Qafqazda, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələri diqqətlə izləyən Böyük Britaniyanın Qara dəniz orduları baş komandanı general Corc Miln «General Corc Milnin Qafqazda və Orta Asiyadakı hadisələr haqqında məlumatları» adlı hesabatında, 1918-1920-ci illərdə regionda, o cümlədən Azərbaycanda gedən proseslər təsvir və təhlil edilmişdir. «Sənəddə 1918-ci ilin martında Bakıda bolşevik-daşnak qüvvələrinin dinc türk-müsəlman əhaliyə qarşı törətdiyi kütləvi qırğınlar, «Sentrokaspi diktaturası»nın siyasəti, Bakının azad edilməsi, Qafqazda, xüsusən Bakıda ingilis ordu hissələrinin qarşısında duran vəzifələr, bütövlükdə Böyük Britaniyanın Azərbaycanda maraqları, general Tomsonun, Biçeraxovun fəaliyyəti və s. öz əksini tapmışdır»(25, 199). Bundan başqa Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda və Tiflisdə fəaliyyət göstərmiş ingilis hərbi müxbiri Skotland-Liddellin Cənubi Qafqazdakı siyasi və millətlərarası münasibətlərə həsr edilmiş məqalələrində azərbaycanlılarla ermənilər arasındakı münasibətlərə toxunmuşdur… Skotland-Liddell erməni psixologiyasını, ermənilərin regionda və ona qonşu ərazilərdə yeritdikləri şovinist millətçilik siyasətinin

mahiyyətini çox gözəl başa düşmüşdür. Belə ki, 1920-ci ilin yanvarında Paris Sülh Konfransı dövlətləri tərəfindən Cənubi Qafqaz respublikalarının müstəqilliyinin de-fakto tanındığı bir vaxtda daşnak Ermənistanın hökumət ordusunun silahlı erməni quldur dəstələri ilə birlikdə Qarabağda Şuşa istiqamətində hücumunu Skotland-Liddell «təkcə cinayət deyil, həm də son dərəcə ağılsız hərəkət» adlandırmışdı. Skotland-Liddellnə görə ermənilər ona görə bədbəxt xalqdır ki, orada daşnak partiyası hakimiyyətdədir. Bu terrorçu inqilabi təşkilat bir çox illər ərzində erməniləri ərazi iddiası ilə məqsədyönlü şəkildə müsəlmanlara qarşı hücuma çağırır. Sonunculardan layiqli cavab aldıqda isə, onlar bu məsələni bilərəkdən şişirdərək, dünya ictimaiyyətinin rəğbətini yazıq ermənilərə tərəf yönəltmək istəyirlər. Skotland-Liddelln qeyd edir ki, Londonda erməni bürosu var. Ermənilərin belə təşkilatları Fransada və Amerikada da mövcuddur. Ermənilərin sevimli üsulları ucuz reklam xarakteri daşıyan «xristian» amilindən gen-bol istifadə etməkdir. Bu, ingilis ictimaiyyətinə bəlli deyilsə də, ingilis nazirləri bunu çox yaxşı bilirlər.

Skotland-Liddell məqalələrində Azərbaycan-erməni münasibətlərinə geniş yer verir və bu millətləri bir-biri ilə müqayisə edərək göstərirdi ki, «Ermənilər dünyanın ən yaxşı təbliğatçılarıdır». Onların bu hərəkəti son ayların işi deyil, uzun illər apardıqları təbliğatlarının nəticəsidir. Buna baxmayaraq nə Rusiyada, nə Qafqazda elə bir adam tapa bilməzsiniz ki, o, ermənilər haqqında hansısa yaxşı bir söz desin. Ruslar, tatarlar (azərbaycanlılar), gürcülər onlara nifrət edir və görmək belə istəmirlər. Bunun belə olub-olmadığını mənim deməyimə lüzum yoxdur, çünki burada ermənilər nifrət edilən irqdir. Ancaq xaricdə onların təbliğatı elə qurulubdur ki, Avropa və bütün dünya onların tərəfindədir. Skotland-Liddellə görə azərbaycanlılar ermənilərlə müqayisədə çox mərd və yüksəkdə duran bir millətdir. Ermənilərin «Aşkatavor» qəzetində dərc edilmiş «Müstəqil Ermənistan», «Müttəfiqlərin mərhəməti lazım deyil» məqalələrinə münasibət bildirən Skotland-Liddell yazırdı ki,

Azərbaycan və Gürcüstan Cənubi Qafqaz respublikalarının müstəqilliyinin tanınmasını sevinclə qarşılayaraq müttəfiqlərə öz səmimi minnətdarlıqlarını bildirdikləri bir vaxtda Ermənistanın hakim partiyası «Daşnaksutyun» nə öz razılığını, nə də təşəkkürünü bildirmişdir. O,göstərirdi ki, belə bir vaxtda Ermənistan ordusu hücuma keçərək qırxa yaxın müsəlman kəndini dağıtmışdır.

Skotland-Liddell məqalələrində Cənubi Qafqaz xalqlarını həmişə sülhə, qarşılıqlı anlaşmaya çağırır, Qarabağa və Zəngəzura səfərləri ilə bağlı yazdığı iri həcimli məqalədə göstərirdi ki, əgər Ermənistandakı və Qarabağdakı erməni rəhbərləri imkan versə, belə bir sülhün yaranmasına heç bir şübhə etmirəm. Erməni saxtakarlığını kəskin şəkildə ifşa edən Skotland-Liddell 1920-ci il martın 30-da qələmə aldığı «Qarabağ erməniləri» məqaləsində həmin il fevralın 21-də buraxılmış «Qrafik» jurnalının redaktoruna ünvanladığı etiraz məktubunda göstərirdi ki, Tiqran Nazaryan adlı şəxs öz yazısında sülh konfransını inandırmağa çalışır ki, Qarabağın siyasi cəhətdən Ermənistana qatılmasını sübut edən fakt odur ki, guya Qarabağdakı əhalinin 198 min nəfəri erməni, 80 min nəfəri isə müsəlmandır. Skotland-Liddell qeyd edirdi ki, bu yalandır. Bu sahədə böyük nüfuz sahibi və dəqiq hesablamalar müəllifi, professor Şepotyevə görə, Qarabağda 415 min müsəlman və 170 min erməni var. Öz məqaləsində Skotland-Liddell ermənilərin həmin il martın 22-də, müsəlmanların ən əziz Novruz bayramı günü bütün Qarabağda qaldırdıqları qiyamı və qəfil basqınları bir daha erməni xəyanətinin bariz sübutu olduğunu qeyd edirdi. Ona görə bütün erməni təbliğatına baxmayaraq, biz Cənubi Qafqazdakı həqiqətləri bilirik. Sözsüz, artıq vaxtdır ki, onu İngiltərə cəmiyyəti də bilsin(25, 343).

Beləliklə,ümumilikdə geniş vüsət almış Azərbaycan milli-azadlıq hərəkatı bu dövrün ictimai və fəlsəfi fikrinin səciyyəvi cəhətlərindən hesab edilməlidir. Müstəqil Azərbaycan uğrunda hərəkat son dərəcə genişlənərək, böyük miqyas almağa başladı. Bütün bunlar bu dövrdə xalqın milli mənlik şüurunun oyanması

və milli özünüdərkinin yüksək səviyyədə inkişafının nəticəsi idi. Bu zaman Seymin müsəlman fraksiyası Zaqafqaziyada Müstəqil Respublikalar yaradılmasını tələb etdilər.

1918-ci il aprel ayının 22-də Zaqafqaziya Seymi Müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılmasını elan etdi və bu üç respublika federasiya tərkibində müstəqil respublikalar idi. Seymin daxilindəki milli zəmində baş verən ixtilaflar Zaqafqaziya Federativ Respublikasını son dərəcə zəiflətmişdi. Almanların Gürcüstanı, Türklərin isə Ermənistanı tutmaları Seymin dağılmasına gətirib çıxardı. 1918-ci il may ayının 26-da Gürcüstanın öz müstəqilliyini elan etməsilə Seym dağıldı. 1918-ci il may ayının 27-də Tiflisdə keçmiş Seymin müsəlman üzvlərinin fövqəladə yığıncağı toplandı. Bu zaman müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri, Milli Şuranın İcrayə Komitəsinin sədri isə F.X.Xoyski seçildilər. «1918-ci il may ayının 28-də Milli Şura Azərbaycan Demokratik Respublikasının yaradıldığını elan etdi»(223). Müstəqil Azərbaycan Respublikasının istiqlal bəyannaməsi qəbul edildi. İstiqlal bəyənnaməsində elan edilirdi ki, Azərbaycan Demokratik Respublika formasında suveren müstəqil dövlətdir. Müəssislər Məclisi çağrılana qədər Azərbaycanı Milli Şura və Müvəqqəti Hökumət idarə edəcəkdir. «Mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsini açıqladı:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. Zaqafqaziyanın Cənub və Şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi

hüquqlar verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Məclisi-müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan müvəqqəti hökumət sayılır»(99, 27).

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi olmuşdur. «Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünüdərkinin inkişafı tarixində misilsiz bir hadisə idi. Onun mövcudluğu millətin bütün sosial qatlarında sevinclə duyulmuş, fəaliyyəti cəmiyyətin bütün təbəqə və qurumlarına, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Azərbaycan Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin: təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirmişdi. Faktlar Azərbaycan parlamenti və hökumətinin sosial-mədəni sahənin köklü inkişaf etdirilməsi üçün sistemli və məqsədyönlü şəkildə iş apardığına dəlalət edir. Müharibələr və daxili qarma-qarışıqlıq nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi kimi sahələrdə hökumət tərəfindən mühüm quruculuq tədbirləri görülürdü»(28, 481).

1918-ci ilin iyun ayının 4-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında Batumda Daimi Sülh və Dostluq müqaviləsi imzalandı. Bu barədə M.Ə. Rəsulzadə özünün «Azərbaycan Cümhuriyyəti» adlı əsərində yazır: «Batumda 4 həziranda dövlətəleyh namına ədliyyə naziri və birinci mürəxxəs Xəlil bəy ilə Şərq orduları komandanı və ikinci mürəxxəs Vəhib Paşa həzrətləri Azərbaycan namına Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin və Xariciyyə naziri Məhəmməd Həsən bəylər tərəfindən bir müxadinət əhdnaməsi imza edildi. Bu müahidənin 4-cü maddəsinə bihaən məmləkətin

əmniyyət və asayişini iadə etmək üzrə Azərbaycan cümhuriyyəti Türkiyədən müavinəti-əsgəriyyə istəmək həqqini caiz idi»(137, 39). Bakının işğal altında olmasına görə, 1918-ci ilin iyun ayının 16-da Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdü və Gəncə Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti olaraq paytaxtı elan edildi. Osmanlı İmperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında daimi sülh və dostluq müqaviləsi Azərbaycan hökumətinin nüfuzuna müsbət təsir göstərməklə yanaşı, Azərbaycan türk millətinin mövcudluğunu qoruyub saxlamaq üçün zəruri bir addım idi. Bu müqaviləyə hərbi yardım haqqında maddənin daxil edilməsi əslində o demək idi ki, Qarabağın dağlıq hissəsində azğınlıq törədən erməni quldur dəstəsinin tezliklə ləğv olunacağından və Bakının xarici düşmənlərdən təmizlənib, orada əmin-amanlıq yaradılmasından xəbər verirdi. Bu barədə M.Ə.Rəsulzadə yazır: «Azərbaycan Şu-rayi-Millisi naminə biz və Xariciyyə Nəzarəti naminə də Məhəmməd Həsən bəy salisüzzikr müahidənin 4-cü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə qəvayi-imdadiyyə istədik»(137, 40).

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin elan edilməsi xarici dövlətlərdən birinci olaraq Sovet Rusiyasını və İranı narahat edirdi. Şimali Azərbaycan ərazisində - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından İranın rəsmi dairələri şübhələnirdi ki, Azərbaycan Demokratik Respublikası Türkiyənin köməkliyi ilə Cənubi Azərbaycanı onlardan alar və eyni zamanda bu şübhələri iyun ayının 4-də Osmanlı imperiyası ilə Azərbaycan Demokratik Respublikası arasında Dostluq müqaviləsinin imzalanması daha da artırdı. İran tərəfinin narahatçılığına son qoymaq üçün Azərbaycan hökuməti müxtəlif xarici yazışmalarda Qafqaz Azərbaycanı ifadəsini işlətməyə başladı. Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski 4 iyun müqaviləsini əsas tutaraq Azərbaycana hərbi yardım göstərilməsi barədə türk nümayəndələri ilə danışıqlar apardılar. Müqavilə öhdəliklərinə görə onlar Osmanlı hökumətindən Azərbaycana ordu göndərilməsini tələb etdilər. Azərbaycan nümayəndələrinin

tələbini qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi müttəfiqi olan Almaniyanın etirazına səbəb olmasın. Ona görə də Türkiyə hökuməti qərara aldı ki, Osmanlı Ordusu və Azərbaycan könüllülərindən ibarət «İslam Ordusu» yaradılsın. Ənvər Paşanın fikrincə belə olduqda Almaniyanın müqavimətini aradan qaldırmaq olardı. İyunun əvvəllərində artıq türk hərbi qüvvələrinin Gəncə istiqamətinə hərəkəti başladı və Türkiyə qoşunlarının bir qismi Qars və Aleksandropoldan keçib Qarakilsə – Dilican-Qazax və Ağstafa vasitəsilə, digər hissələri isə Cənubi Azərbaycan – Qarabağ istiqamətindən hərəkət edirdi. Mürsəl Paşanın başçılıq etdiyi Türk ordusunun ən yaxşı diviziyalarından olan 5-ci diviziya iyun ayının əvvəllərində Gəncəyə daxil oldu. Bu zaman Türkiyənin Qafqazda olan hərbi qüvvələrinin yeni Baş Komandanı Ənvər Paşanın ögey qardaşı Nuru Paşa öz qərərgahı ilə birlikdə Gəncəyə gəldi. Bütün bunlar həmin dövrdə Azərbaycanda millətin milli özünüdərkindən və türk milli şüurunun inkişafından xəbər verməklə bərabər, eləcə də islamın xalqın milli özünüdər-ketməsində rolunun yüksək olmasından xəbər verirdi.

Türk qoşunlarının Gəncə istiqamətində hərəkəti Sovet Rusiyasında və öz hakimiyyətini bütün Azərbaycana yaymaq arzusunda olan Bakı Xalq Komissarları Sovetində ciddi narahatlığa səbəb oldu. 1918-ci ilin iyunun 27-dən iyulun 1-dək davam edən şiddətli döyüşlərdən sonra Qafqaz İslam Ordusu tərəfindən məğlub edilən Bakı Xalq Komissarları Soveti iyulun 31-də süqut etdi. Bakıda Bakı Soveti süqut etdikdən sonra onun yerində Sentrokaspi diktaturası yaradıldı. 1918-ci ilin sentyarbrın 15-də Bakı şəhəri və onun ətrafı Sentrokaspi və Bakı Soveti tör-töküntüsündən azad edilərək, Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi. Noyabr ayının 9-da üç rəngli Azərbaycan bayrağı rəsmi dövlət bayrağı kimi qəbul edildi.

Birinci Dünya müharibəsində məğlub olan Türkiyə Azərbaycandan hərbi qüvvələrini geri çağırdı. Bu zaman Antanta adından Zaqafqaziyanı, o cümlədən də Azərbaycanı işğal edən ingilislər Bakıya gəldilər. 1918-ci il noyabrın 17-də ilk hindli

əsgərlərdən ibarət ingilis qoşunları general V.Tomsonun başçılığı ilə Bakıya daxil oldu. Azərbaycan hökumətinin V.Tomsonla apardığı danışıqlar da asan keçmədi. General V.Tomson bir neçə gün Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, o elan etdi ki, Britaniya hökuməti Azərbaycan hökumətinə və onun nazirinə böyük hörmət bəsləyir. Onun bu mövqeyi müttəfiqlərin gəlişi ilə imperiya ənənələrinin bərpa olunacağına böyük ümid bəsləyən Rus Milli Şurasının üzvlərini məyus etdi. Beləliklə, müttəfiq qoşunların Bakıya daxil olması ilə yaranmış çətinlik Azərbaycanın qabaqcıl ictimai-siyasi xadimlərinin səyi nəticəsində nəinki aradan qaldırıldı, eyni zamanda böyük diplomatik siyasi gedişlər sayəsində hər tərəfdən sıxışdırılan Azərbaycan Xalq Cümhuriyyəti müttəfiqlər tərəfindən de-fakto tanınmağa nail olundu. Əlbəttdə ki, çox çətin beynəlxalq şəraitdə Azərbaycanın istiqlaliyyətinin elan edilməsi Azərbaycan xalqının tarixində əlamətdar bir hadisə idi. Yeni yaradılmış demokratik respublikanın bütün diplomatik fəaliyyəti Azərbaycanın istiqlaliyyətini qoruyub saxlamağa yönəldilmişdi. 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk etdilər və beləliklə də Azərbaycan tam müstəqil dövlət oldu. Bununla da XX əsrin əvvəllərində Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixinin mühüm nailiyyəti olan Azərbaycan Milli Şurası Azərbaycan xalqı qarşısında çox böyük tarixi missiyanı yerinə yetirdi. Türk mənşəli bütün dövlətlər əsasən dini təməl üzərində qurulduğu halda Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi və Şərqdə ilk demokratik respublika idi.

Bakını tərk edən İngilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər. İngilislərin verdiyi gəmilər əsasında Azərbaycanın Xəzər Hərbi Dəniz Donanması yaradıldı. 1920-ci ilin yanvar ayının 11-də müttəfiqlərin Ali Şurası Kerzonun təklifi ilə müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə De-Fakto səviyyəsində tanıdılar. Yanvar ayının 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Parisə dəvət edildilər və Azərbaycanın

De-fakto tanınması barədə Paris sülh konfransının rəsmi qərarı Ə.Topçubaşova təqdim edildi.

1920-ci ilin yanvar ayında Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin siyasi cəhətdən tanınması Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyəti hesab edilməlidir. Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı daha da artırdı. Belçika, İsveçrə, Hollandiya, Çexiya, Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açmağa başladılar. Beləliklə də ictimai və fəlsəfi fikirdə milli müstəqil dövlətçilik proqramının təşəkkülü nəticəsində yaranmış milli dövlət və onun real daxili və xarici siyasəti uğurla həyata keçirilirdi.

XX əsrin əvvəllərinin ictimai-siyasi və fəlsəfi fikir tarixinə diqqət yetirsək görərik ki, Azərbaycan 1920-ci ilin əvvəllərində geniş miqyaslı dövlətlərarası siyasi və iqtisadi münasibətlərə daxil olurdu. Onun beynəlxalq vəziyyətdə əvvəlki təcridçilik siyasətinin yerini hərtərəfli və geniş əməkdaşlıq siyasəti tuturdu. 1920-ci ilin mart ayının 20-də Azərbaycan Xalq Cümhuriyyəti ilə İran imperiyası arasında dostluq haqqında müqavilə imzalandı. 20 mart müqaviləsinə görə İran Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini De-Yure tanıyırdı. 1920-ci ilin aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI ordu rəhbərliyinə və Volqa-Xəzər donanmasına göndərdiyi 490 saylı direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur. Belə olduqda XI ordunun son vəzifəsi Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir. 1920-ci il aprel ayının 26-da Ermənistan hökuməti barışıq imzalamaq xahişilə çıxış etdi, amma bu gec idi. Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə Azərbaycan hökuməti aprelin 27-də müttəfiqlərin Tiflisdəki nümayəndələri Qraf De Martelə, polkovnik Qabbaya və K.Lyükka təcili məlumat göndərdi. 1920-ci ilin aprelin 28-də artıq Bakı tutulmuş, rus qoşunları Kürdəmir və Yevlaxa qədər irəliləmişdir. Bütün deyilənlərlə yanaşı 1920-ci ilin aprelində olmuş ciddi hökumət

böhranı və o cümlədən də hökumət kabinəsinin buraxılması XI Qızıl ordunun Bakıya daxil olması üçün əlverişli şərait yaradırdı.

Hökumətdə olan bəzi milli müstəqil dövləti istəməyən qüvvələr Parlamentdə siyasi partiyalar arasındakı təfriqəni daha da qızışdırırdı. Bu parlamentin sonuncu təcili iclasında özünü daha qabarıq şəkildə nümayiş etdirdi. Aprelin 27-də parlamentin sonuncu iclasına M.Ə.Rəsulzadə sədrlik etdi. Həmin gün axşam parlamentdə M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm əhəmiyyət kəsb edən nitqini söylədi: «Qardaşlar qarşımızda bir ultimatum durur. Burada təslimdən bəhs edilir. Fəqət qardaşlar təslim nə deməkdir? Kimə görə mövqeyimizi tərk edirik? Bizə deyirlər ki, hüdudlarımızdan keçən ordunun başında Nicati adında bir türk komandanı var. Rusiyadan gələn bu təcavüzkar ordu təxminən bilirəm ki, həyat və ölüm mübarizəsi aparan Türkiyəni xilas etmək üçün keçir. Qardaşlar Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca eyləyən bir məmləkətdir. Onun xilasına gedən bir qüvvəni məmnuniyyətlə yola salarıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliyimizi çeynəməsin. Halbuki qardaşlar, bizdən soruşmadan torpaqlarımıza keçən hər hansı bir quvvə dostumuz deyil, düşmənimizdir. Duyduğumuz bu təbliğat düşmən təbliğatıdır. Bizi aldadırlar. Yalandır, gələn Rus ordusudur. Onun istədiyi 1914-cü il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsilə yurdumuza girən işğal ordusu bir daha çıxmaq istəməyəcəkdir. Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim etmək ultimatumunu qəbul etməyə ehtiyac yoxdur. Bu ultimatumu kəmali-nifrətlə rədd edirik. İstiqlalımızı göz bəbəyi kimi müdafiəyə qərar verən bir məclis dinlədiyi bir ultimatumu qəbul etmək, hökuməti öz əli ilə dost cildinə girmiş düşmənə təslim etməkdir. Biz buraya millətin iradə və arzusu ilə gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır»(75, 358-359). Amma bütün bunlara baxmayaraq, M.Ə.Rəsulzadə və Şəfi bəy Rüstəmbəyov etiraz etsələr belə iclas axşam saat 11-də hakimiyyəti dinc yolla bolşeviklərə vermək haqqında qərar qəbul etdi. Beləliklə 1920-ci il aprel ayının 28-də

Azərbaycan Xalq Cümhuriyyəti faktiki olaraq Sovet Rusiyası qoşunları tərəfindən işğal edildi. Bununla da Azərbaycan xalqının milli özünüdərki nəticəsində əldə edilmiş milli-azadlıq və dövlət müstəqilliyinə son qoyuldu. Bütün təqiblərə və təzyiqlərə baxmayaraq milli özünüdərkdən gələn milli-azadlıq ideyaları bu dövrdə ölmədi və əksinə daha da inkişaf edərək yüksək zirvəyə çatdı. Lakin dövlət müstəqilliyini itirmiş Azərbaycanda ideoloji mübarizə davam edirdi və bu mübarizə Azərbaycan xalqının mənəvi mədəniyyətində və ilk növbədə onun ölkə daxili və mühacirətdə yaradılan ictimai-siyasi və fəlsəfi fikrini təmsil edən və sovet hakimiyyətinin pantürkist, panislamist adlandırıb mübarizə etdiyi irsdə əksini tapdı. Xalqda yaşayan islamçılıq, türkçülük və azərbaycançılıq ideyaları onun milli özünüdərki, XX- əsrin sonunda özünü sovet Azərbaycanında aparılan istiqlal mübarizəsində göstərdi. Bu zaman Sovet dövləti süqut etmiş və Azərbaycanımız yenidən müstəqil Respublikaya, hüquqi və dünyəvi dövlətə çevrilmişdi.

## 2.2. XX əsrin əvvəllərində milli özünüdərkin səciyyəvi xüsusiyyətləri

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində islamçılıq və türkçülük təməl ideoloji problemlərdən idi. Panislamizm adlandırılan islamçılıq hərəkatı XIX əsrin əvvəllərindən etibarən müsəlman Şərqinin qəsbkar müstəmləkəçi Avropaya qarşı apardığı milli-azadlıq mübarizəsi idi və bu hərəkatın həmin əsrin sonlarında formalaşmağa başlamış ideologiyasına deyilirdi. Bu zaman Əlcəzairdə Əbu Əl-Qədirin başçılığı altında Fransa imperiyasına qarşı (1832-1847), Dağıstan və Çeçen xalqlarının Şeyx Şamilin başçılığı ilə rus çarizminə (1834-1859-cu illər), Misirdə Ərəbi Paşanın rəhbərliyi altında (1879-1882) və Sudanda Məhəmməd Əhmədin başçılığı altında (1881-1898-ci illər) ingilislərə qarşı xalq üsyanları olmuşdur. İslamçılıq müstəmləkə zülmündən azad olmaq üçün

müsəlman xalqlarının şüarı idi. Məhz bu dövrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixinə nəzər saldıqda, Azərbaycan xalqının ideologiyasının və ictimai-siyasi hərəkatının təməl prinsiplərindən birinin islamçılıq olması təbii və qanunauyğun hal idi.

Panislamizmin yaranması haqqında mənbələrdə göstərilən məlumatlara görə, panislamizm ilk dəfə olaraq Misirdə meydana gəlmiş və əvvəllər sırf dini-nəzəri xarakter daşımışdır. XIX əsrdə Panislamizmi əsasən Türkiyə Sultanı II Əbdülhəmid və Alman imperatoru II Vilhelm müdafiə və himayə etmişlər. «İttihadi-islamiyyə»nin amalı xristian dövlətlərinə qarşı dura biləcək qüdrətli müsəlman dövləti yaratmaq və onu inkişaf etdirmək idi. Bu nəzəriyyədə Rusiya imperiyasında yaşayan bütün müsəlmanları birləşdirmək, onlara kömək etmək, ruslar və digər müsəlman olmayan xalqlar arasında islamı yaymaq, Avropa dövlətlərinin siyasətinə fəal müdaxilə və s. nəzərdə tutulurdu. Bundan əlavə digər mövcud tarixi sənədlərdə, mənbələrdə göstərilir ki, Qafqazda panislamizm hərəkatını müşahidə etmək haqqında göstəriş alan çarın yerli jandarm idarəsi, Peterburqdakı xüsusi polis şöbəsinin müdiri Yerominə belə bir məlumat vermişdir: «Panislamizm ideyası «İttihadi-islamiyyə» adı altında Afrikada, Həbəşistanla Sudan arasında yerləşən Matama şəhərində meydana gəlmişdir. Bu cəmiyyətin banisi fransız katoliki olan mənşəcə əlcəzairli, Qərbi Avropa tərbiyəsi və təhsili almış, xarici dilləri gözəl bilən Şeyx Ömər Əcəl-Rubini- Mehdi olmuşdur. O, döyüşkən Danagil tayfasının dini-siyasi hərbi başçısı olmuşdu» (153, 49). İttihadi-islamiyyənin gizli təşkilatları Misirdə, Türkiyədə, Hindistanda, Rusiyada və İranda da meydana gəlmişdir. Dini-fəlsəfi, iqtisadi və siyasi doktorinaları ehtiva edən «İttihadi-islam» və onun ətrafında birləşən müsəlman ziyalıları Qərbin əsarəti altında olan müsəlman şərq xalqlarını oyanmağa, islam dininin düşdüyü acınacaqlı vəziyyətdən çıxararaq, onun keçmiş qüdrətini qaytarmağa çağırırdı. Bundan ötrü islamı ilkin olaraq məzhəb ayrılıqları və digər parçalanmalardan xilas edərək islami birliyə nail olmaq lazım idi. Məhz bu dövrdə islamda

ehkamçılığa qarşı çıxan bir çox islahat tərəfdarları meydana gəlməyə başladı.

XIX əsrin sonları - XX əsrin astanasında islamın görkəmli ideoloqları dövrün ruhuna uyğun olaraq, «İttihadi-islam»ın qapılarının açılması tələbi ilə çıxış edirdilər. İlk olaraq islamda ehkamçılığa qarşı çıxan islahat tərəfdarı Şeyx Cəmaləddin Əfqani olmuşdur. Müasirlərinin «böyük müsəlman» və yaxud «böyük Şərqli» adlandırdıqları müsəlman dünyasının görkəmli siması olan Şeyx Cəmaləddin Əfqani 1838-ci ildə Həmədan yaxınlığındakı Əsədabad kəndində anadan olmuşdur. Əfqani təxəllüsü ilə tanınan «Cəmaləddin Əfqaninin həyatı dünya müsəlman xalqlarının milli ictimai oyanış və milli-siyasi müstəqillik ideyaları ilə sıx bağlı olmuşdur. O, XIX əsrin elmi-texniki tərəqqisi dövründə hələ də orta əsr həyat tərzində yaşayan müsəlman xalqlarını ictimai oyanışa və Avropa müstəmləkəçilərinə qarşı milli azadlıq mübarizəsinə çağırırdı. Müsəlman xalqlarının milli soykökünə, dininə, mədəniyyətinə böyük əhəmiyyət verən Əfqaninin bu baxışları "Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti" adlı əsərində öz əksini tapmışdır. Əfqani dinin fəlsəfi mahiyyəti barədə nəinki müsəlman dünyası, bütövlükdə dünya üçün maraqlı və orijinal mülahizələr söyləmişdi»(24, 327) .

O, ərəb, fars, rus, fransız və türk dillərində əsərlər yazmışdır. Azərbaycanda panislamizmin banisi sayılan Əhməd bəy Ağaoğlu onu Şərqin məşhur siyasi xadimi adlandırmışdır. «Şeyx Cəmaləddin panislamizm məfkurəsinin islam fundamentalizminin əksinə olaraq, milli düşüncədə milli mənlik şüuruna xidmət edən mənəvi-əxlaqi cəhətlərini qəbul etmiş, onun siyasi-milli təfsirini vermişdir. Şeyx Cəmaləddinin panislamizmini qəbul edən cəmaləddinçilər avropalılaşmaq məsələsinə də onun kimi yanaşmış və məhz bu zərurətdən doğan düşüncə tərzi sonradan onları milli intibahımızda üç devizli – islamlaşmaq, türkləşmək və avropalılaşmaq kimi bir fəaliyyət platformasına gətirib çıxarmışdır. Bu milli liberal islamçılıq cərəyanı özündən əvvəlki mövcud islamçılıqdan, xüsusilə ictimai-siyasi gerçəkliyin

böyük təsiri və təzyiqi əsasında meydana gəlmiş ifrat panislamizmdən ciddə şəkildə fərqlənirdi»(44, 169). Azərbaycanda panislamizmin görkəmli nümayəndələrindən Əhməd bəy Ağaoğlunu, Əlibəy Hüseynzadəni, Qarabəy Qarabəyovu, Axund Yusif Talıbzadəni, Ə.M.Topçubaşovu, M.Ə. Rəsulzadəni və başqalarını göstərmək olar. Eyni zamanda onların Bakıda çap etdirdikləri «Bəsirət», «İttihad», «Müsəlmanlıq», «Həyat», «İrşad», «Hilal», «Füyuzat» və s. mətbu orqanları da olmuşdur. Bu zaman çarizm ölkəsində, eləcə də kolonial Azərbaycanda yayılan, islam xalqlarını birləşdirə biləcək panislamizmin ideoloji təsir qüvvəsini zəiflətməyə çalışırdı. Bunun üçün çar hökuməti dini təriqətlərə, məzhəblərə, cərəyanlara xüsusi diqqət yetirir və onlar arasında fərqləri dərinləşdirməyə çalışırdı. Elə bu məqsədlə çarizm Azərbaycanda babilik, bəhailik təriqətlərinin geniş yayılmasına, sünni-şiə məzhəb ayrılığının dərinləşməsinə ciddi cəhd göstərirdi. Bu dövrdə Azərbaycanda islam ruhaniləri ilə çarizm arasında anlaşma yaranmışdı. Onlar milli müstəmləkəçilik siyasətini həyata keçirirdilər.

Bütün dünyada geniş yayılmış «İttihadi-islamiyyədən» qorxuya düşən çarizm bu yolla müsəlman birliyini pozmağa çalışırdı. Eyni zamanda çar hökumətinin cəza tədbirləri nəticəsində Türkiyə və İrana mühacirət etmiş panislamistlər həmin ölkələrin milli-azadlıq zəminində Qafqaz müsəlmanlarını bu dövlətlərin tərəfinə çəkməyə çalışmışlar.

Azərbaycan panislamistləri olan Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə mətbuatda ardıcıl olaraq islama və şərq xalqlarının tarixinə, onun fəlsəfi fikir tarixinə aid dini-fəlsəfi məzmunlu məqalələrlə çıxış etmişlər. Əhməd bəy Ağaoğlu hələ Parisin Sorbonna Universitetinin hüquq fakültəsində təhsil alarkən Şərqin böyük islahatçısı olan Şeyx Cəmaləddin Əfqani ilə tanış olmuş və onun nəşr etdirdiyi «Ürvətülvüsqa» (qırılmaz əlaqə) jurnalının ideya istiqamətini əxz edə bilmişdi. O tələbə olarkən yəni 1892-ci ildə Şərqşünasların Londonda keçirilən konqresində etdiyi «şiə məzhəbinin qaynaqları» adlı məruzəsi sonralar bir çox Qərbi Avropa dillərinə tərcümə edilmişdir.

Mütəfəkkirin Mən kiməm, Tanrı dağında, Könülsüz olmaz, İran inqilabı, Rus ədəbiyyatının ümumi səciyyələri, Sərbəst insanlar ölkəsində, Sərbəst birgə xatirələri, Müsəlman xalqlarının vəziyyəti, Tərəqqiçilər, yaxud gənc türklər, Bakı hadisələri haqqında həqiqət və s. bədii -fəlsəfi və elmi məqalələri olmuşdur. «Əhməd bəy Ağaoğlu panislamizm haqqında yazırdı ki, ideyanın formalaşmasında məhz Avropa bilavasitə olmasa da, dolayısı ilə rol oynayaraq ona real əhəmiyyət vermişdir»(215). Həqiqətən də etnik və irqi tərkibinə görə həddən ziyadə rəngarəng, inkişafdan geri qalmış müsəlman xalqları, onların hakim mühafizəkar sinifləri öz-özlüyündə İttihadi –islam ideyasını yarada bilməzdilər. Buna görə də yalnız xarici təsir- məhv olmaq qorxusu və kəskin özünü qorumaq hissi birləşmək fikrini doğura bilərdi. Avropa müsəlman dünyası üçün xarici təsir rolunu oynayır və bu təsirə müdafiə zəruri idi. Əhməd bəy Ağaoğlu qeyd edirdi ki, Avropa nə qədər Şərqə yaxınlaşarsa birləşmək ideyası daha sürətlə bütün müslmanların şüuruna hakim kəsilirdi.

Mütəfəkkir öz xalqının, millətinin geriliyini ürək ağrısı ilə qeyd etmiş və sözün əsl mənasında onun inkişafını, milli özünüdərketməsini istəmişdir.

Şahnəzər Hüseynov «Əhmədbəy Ağaoğlunun dünyagörüşü» adlı kitabında yazır: «Ağaoğlunun böyüklüyü onda idi ki, o, qərb və şərq mədəniyyətinin əsas ünsürlərini sadəcə olaraq müqayisəyə çəkib oxucularında təkcə fikir yaratmaq deyil, eyni zamanda daha irəli gedərək, gerilikdən çıxmağın yollarını göstərirdi»(79, 47). Bu arada ifrat-fanatik islamçılıqdan uzaq olan Əli bəy Hüseynzadə «İttihadi – islam» deməklə heç də özgə dinlərə qarşı durmayaraq yalnız millətimizdə tarixən yaranmış məzhəb, əqidə birliyini də dil kimi qoruyub saxlamağın vacibliyini göstərərək yazır: «Müsəlmanız: onun üçün dünyanın hər nerəsində xeyirxəvah bulunduğumuz din qardaşlarımız tərəqqi etsə, biz o tərəqqiyi əzdel və can alqışlarız!»(153, 95). Əli bəy Hüseynzadə öz elmi-fəlsəfi məqaləsində göstərirdi ki, onu islam dininə bağlayan ortodoks dinçilik yox, dinimizdə olan ümumbəşəri mənəvi dəyərlərin hər hansı dindəkindən daha

yüksək olması ilə bərabər, onun ictimai ədalətə daha çox uyğunluğu bağlayır. Əli bəy Hüseynzadə əvvəlcə ictimai-siyasi fəaliyyətinin başlanğıc dövründə əsasən panislamist olsa da, Türkiyəyə mühacirətindən sonra isə pantürkizmə daha çox meyl göstərmişdi. Düzdür o, istər panislamizmi, istərsə də pantürküzmi vəhdət şəklində götürmüş və onların əsas prinsiplərini nəzəri cəhətdən paralel surətdə inkişaf etdirmişdi. Lakin mütəfəkkir zaman keçdikcə sırf türkçülük xəttinə üstünlük vermişdir. Eyni zamanda birinci rus inqilabının beynəlmiləl əhəmiyyətini qeyd edən Əli bəy Hüseynzadə Şərq xalqlarına da ardıcıl mübarizə aparmaq üçün məhz bu yol ilə getməyə, inqilabçıların qəhrəmanlıq təcrübəsindən istifadə etməyə çağırırdı.

Məlumdur ki, bu zaman Azərbaycanda islamçılıqla bərabər türkçülük ideoloji cərəyanı da geniş yayılmışdır. Pantürkizm adı daşıyan bu cərəyan XIX əsrin sonu - XX əsrin əvvəllərində bütün dünyada, o cümlədən Azərbaycanda da geniş yayılmışdı. Onun yaranma tarixinə gəldikdə bu tarix müəyyən qrup xalqların arasında milli oyanma prosesinin dərinləşməsi, millətlərin meydana gəlməsi nəticəsində bir sıra ideoloji axınların və sosial hərəkatların yaranması ilə bağlıdır. Türkçülüyün yaranma tarixini bir sıra alimlər onun Türkiyə, bəziləri Rusiya və Avropa ilə bağlayırlar.

Pantürkizmin öncüllərindən olan, «Türkçülüyün əsasları» adlı kitabın müəllifi, Ziya Göyalp bununla əlaqədar olaraq yazırdı: «Türkçülüyün ölkəmizdə ortaya çıxmasından öncə Avropada türklüklə bağlı iki axım–hərəkat özünü göstərdi. O, bunlardan birinin fransızca «Türkeri» deyilən «türksevərlik», digərini isə «Türkiyyat» (türkologiya) adlandırmışdı. Ziya Göyalpa görə Türkiyədə türkçülük axımının başlanmasına Rusiyadakı türklərin təsiri olmuşdur»(62, 12). Eyni zamanda Türkçülüyün qaynaqlarını Qərb türkoloqlarının, yəhudi türkoloqların və Rusiyadakı türklərin çalışmaları təşkil edir. Bu dövrdə Osmançılığa qarşı çıxan türkçülük daxili və xarici düşmənlər qarşısında tək qalmış türklərin qurtuluş yolunu işıqlandırmaq üçün meydana çıxmışdır. Bununla bərabər

Tripoliya və Balkan müharibələri (1911-1912 və 1912-1913) Türkiyənin başına gətirilən fəlakətlər də türkçülük axımının ön plana keçməsinə şərait yaratdı.

1908-ci ildə II məşrutiyyətdən sonra türkçülük dil, soy və tarix sahələrində sürətlə inkişaf etmişdi: türk dilinin, Türkiyənin xaricində yaşayan türk xalqlarının və osmanlılardan öncəki türk tarixinin öyrənilməsində böyük coşğunluq yarandı. Türkçülüyün başında duran, ona elmlik verən dahi sosioloq, şair və publisist Ziya Göyalp idi. O, türkçülüyə tərif verərək demişdir ki, türkçülük «türk millətini yüksəltmək deməkdir». Türklərin keçmiş şöhrətini qaytarmaq istəyən türkçülər arasında ilk öncə «Turançılıq» fikri çox geniş yayılmışdı. «İlk öncə macarlar tərəfindən işlədilən «turançılıq» anlayışı siyasi mənası ilə türk mənşəli bütün xalqların Türkiyənin hakimiyyəti və ya himayəsi altında birləşmələri və siyasi bir birlik qurmaları kimi təqdim edilirdi. «Turançılığı» başqa bir adla, «pantürkizm» adı ilə təqdim edərək onu «panslavyanizm» və «pangermanizm» ilə eyniləşdirməyə də çalışırdılar. Siyasi mənada türkçülüyü ilk dəfə olaraq ingilislər «panturanizm» kimi təqdim etmişlər»(44, 190) .

Osmanlı imperatorluğuna qarşı Ziya Göyalp «Turan imperatorluğu» düşüncəsini qoyurdu. Yalnız 1912-ci ildən türkçülük (turançılıq) «İttihad və tərəqqi» partiyasının siyasətində özünə görkəmli bir yer tuturdu. Ancaq zaman keçdikcə Ziya Göyalp turançılığın çox xəyali bir səciyyə daşımasını görmüş və öz düşüncəsində dəyişiklik edir. Bu dövrdə Türkiyədə, o cümlədən Azərbaycanda türkçülər arasında «Türkləşmək, islamlaşmaq, qərbləşmək» fikirləri güclənməyə başlamışdı. Ziya Göyalp 1918-ci ildə nəşr etdirdiyi «türkləşmək, islamlaşmaq, müasirləşmək» adlı kitabında bunları uzlaşdırmağa çalışmışdır. Ona görə hər bir türkün etiqadları bu tərzdə ifadə olunmalıdır: «türk millətindənəm, islam ümmətindənəm, Avropa mədəniyyətindənəm».

Beləliklə , XX əsrin əvvəllərində türkçılüyün əsas məqsədi-azad türk mədəniyyəti, sənəti, türk ədəbiyyatı və türk həyatı qurmaq idi.

Türkçülük cərəyanının XX əsrin əvvəlləri Azərbaycan

ictimai-siyasi və fəlsəfi fikir tarixində özünəməxsus yeri olmuşdur. Azərbaycan xalqının fəlsəfi fikrinin, milli mənlik şüurunun, milli özünütəsdiqinin və milli özünüdərkinin inkişafında bu cərəyanın mühüm rolu olmuşdur. Bu cərəyanın görkəmli nümayəndələrindən olan M.Ə.Rəsulzadəni, Ə.Hüseynzadəni, Ə.Ağaoğlunu, Ə.Topçubaşovu, M.B.Məmmədzadəni, F.X.Xoyskini və s. göstərə bilərik. Qeyd edək ki, «türkçülük dünyagörüşünün bəzi əsasları Azərbaycanda hələ XIX əsrin II yarısından – Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi, Krımda İsmayıl bəy Qaspıralı tərəfindən təsbit edilmiş və tətbiqinə başlanmışdı»(44, 191).

Görkəmli mütəfəkkir Ə.Hüseynzadənin başçılıq etdiyi «Füyuzat» jurnalında milli özünüdərk prosesində türkçülüklə bərabər islamçılığa da geniş yer verilirdi. Əlibəy Hüseynzadənin redaktor olduğu «Füyuzat»ın ətrafında fəlsəfi fikir tariximizdə «Füyuzatçılıq» adlanan böyük bir hərəkat yaranıb formalaşdı: bu ictimai-mədəni sahədə türkçülük, ədəbi sahədə isə ədəbi-fəlsəfi səciyyə daşıyan romantizmdən ibarət tamamilə yeni və qüvvətli bir cərəyan idi.

Rasim Mirzə «Türkçülüyün babası» adlı kitabında yazır: «Füyuzat» və füyuzatçılıq. Əlbəttə, bu milli fikir və əməl hərəkatı «Füyuzatın özündən başlamadığı kimi, onunla da bitmir: həmin cərəyan öz başlanğıcını Əli bəy Hüseynzadənin başqa orqandan – «Həyat» qəzetindən (1905-ci ilin iyunundan nəşri başlayır) götürmüş, eyni zamanda, «İrşad», «Tazə-həyat», «Tərəqqi», «Yeni Füyuzat», «Həqiqət», «Açıq-söz», «Dirilik», «İqbal», «Ovraqi-nəfisə», «Şəlalə» və başqa mətbu orqanları ətrafında yığılan qüvvələr tərəfindən davam etdirilmişdir. «Həyat»və «Füyuzat» isə bu böyük hərəkatın əsasını qoymaqla bərabər, onun ən güclü mərhələsini təşkil etmişlər. Bu hərəkatın başlıca məqsədi və qayəsi əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edərək xalqın milli mənlik şüurunu oyatmaq, onu milli özünüdərk səviyyəsinə çatdırmaq və beləliklə, milli istiqlal fikrini təlqin etmək idi»(126, 33). Ə.Hüseynzadə səadətə qovuşmaq yolunu elm və maarifdə görürdü. O, öz məqalələrində türkçülüklə

bərabər islam dininin mənəvi-əxlaqi dəyərlərinin ardıcıl və dərinliklə araşdırılması, öyrənilməsi və təbliğinə xüsusi diqqət verir, islam dünyasının düşdüyü ağır vəziyyət və ondan çıxmaq yollarını araşdırırdı. Ona görə Şərq aləmi belə qalmayacaqdır. Günün birində tərəqqiyə başlayıb avropalıların özlərindən öyrəndikləri alət və ədavət sayəsində bunları məğlub edəcəklər. Ə.Hüseynzadənin bu fikirləri, onun avropalıların müstəmləkəçilik siyasətini tənqid atəşinə tutması bir çoxlarını qane etmirdi. «Füyuzata» qarşı çıxanlar belə iddialar irəli sürürdülər ki, madam ki, ingilislər o cümlədən, avropalılar müstəmləkəçidirlərsə, bəs onda nə üçün jurnalların səhifələrində Şekspirin, Hötenin əsərlərini dərc edirsiniz? Məlumdur ki, bu dövrdə Ə.Hüseynzadə Hötenin «Faust», Şekspirin Yuli Sezar» adlı əsərlərini Azərbaycan dilinə tərcümə edərək, «Füyuzat»da dərc etmişdir. Onun «avropalaşmaq» fikri isə, onun üçrəngli bayrağımızda öz təcəssümünü tapan məşhur, «İslamlaşmaq, avropalılaşmaq, türk-ləşmək» şüarına işarə idi. O öz tənqidçilərinin fikirlərinə belə cavab vermişdir: Ona görə biz Avropalıların həyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiratlarına mü-raciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyiriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Əks təqdirdə mədələrində həzm olunacağıq deyirdi. Bununla da Ə.Hüseynzadə çıxış yolunu ittihadda və tərəqqidə görürdü. O, islam üçün ən böyük təhlükəni məzhəb ayrılığında görürdü. Ə.Hüseynzadəyə görə islam dini insanlara haqq yolunda bir-birlərini sevmələrini, məhəbbəti tövsiyyə edir. Mütəfəkkir islamda islahat keçirilməsini və Qurani- Kərimin Azərbaycan dilinə tərcüməsinin zəruriliyini irəli sürürdü. Onun siyasi- fəlsəfi məzmunda yazdığı məşhur «Siyasəti-Fürusət» əsərində azərbaycanlılarla bərabər Qafqaz müsəlmanlarının milli-azadlıq hərəkatının taleyi üçün narahatçılıq keçirdiyi aydın-açıq hiss olunur. Həmin əsərdə müsəlman dünyasının parçalamasından bəhs edərək Ə.Hüseynzadə tarixi personajlardan istifadə edərək, Teymurləngin dili ilə yazır: «Bir xalq ki, 300 milyon olduğu

halda bu gün xəyanətləri, ittihadsızlıqları üzündən taxta-paralar üzərində dənizlə gələn iki-üç milyon ingilisin, əsarətinə təhəmmül ediyor, vətəndaşlarının top ağızlarına bağlanıb parça-parça elədiklərini sükut ilə tamaşa ediyor, səs çıxarmıyor. Belə bir xalq yaşamağa layiqmi idi? Ah! Bu kimi sifətləri əxlafa tərk edən ünsür üçün - kəllələrindən ehram yapmadığıma deyil! Onun kökünü yerli-dibli qazımadığıma peşmanam»(82, 81). Ə.Hüseynzadənin bu sözləri xalqa köləlik hissi aşılayanlara qarşı da çevrilmişdir. O, Şah İsmayıla müraciət edərək yazırdı ki, Sultan Səlim ilə Şah İsmayıla qədər nə səltənətlər məzhəb davasında və nə də məzhəblər böylə əsaslı surətdə səltənət davasında olmamışdı»(82, 11). Ə.Hüseynzadə eyni zamanda Şah Abbası təqdirə layiq sayır və bildirirdi ki, onun bu fərasəti, dəyanəti sayəsində dövlətin əvvəlki qüdrəti bərpa olunur. «Hətta Şah Abbas avropalılara da qalib gəlib Portagizlərdən Hörmüz adasını geri alır. O, Nadir Şahı İran tarixində «Şəhab» adlandıraraq, onun şiələrlə-sünnüləri birləşdirmək cəhdlərini yüksək qiymətləndirir»(153, 104). Beləliklə də, Azərbaycan mütəfəkkiri öz dərin mənalı məqalələrində müsəlman ölkələrinin tarixinə müraciət edərək, islamın keçdiyi təkamül və tənəzzül mərhələlərini təhlil edərək səbəblərini araşdırır, islahat keçirilməsini, İttihadi-islamın zəruriliyini irəli sürürdü.

Bu dövrdə Azərbaycan xalqının ictimai-siyasi xadimi olan M.Ə.Rəsulzadə həm islamçı, həm də türkçü idi. M.Ə. Rəsulzadə panislamizmin banilərindən olan Şeyx Cəmaləddin Əfqaninin «Milli vəhdət və dil birliyinin həqiqi mahiyyəti» adlı əsərini farscadan türkcəyə tərcümə edərək, onu «Türk yurdu»jurnalında dərc etdirmişdir. Eyni zamanda mütəfəkkir öz yazılarında xalqın maariflənməsinin zəruriliyindən danışarkən Həzrəti peyğəmbərimizə müraciət etmiş və islam mədəniyyətinin tənəzzülünü ürək ağrısı ilə qeyd etmişdir. O, «Şərqi-Rus» qəzetində dərc etdirdiyi «Hümmət və qeyrət vaxtıdır» adlı məqaləsində yazır ki, «elmsiz heç bir nöqsanlarımız götürülməyəcəkdir və buna görə də peyğəmbərimiz Əleyhissəlamın «öyrən elmi məhdidən ləhdəcən (beşikdən qəbrə qədər-Ə.O.) hədisinə əməl etməliyik! Ona görə

də islamiyyət eyni insaniyyətdir. M.Ə.Rəsulzadənin Azərbaycan fəlsəfi fikir tarixində ən böyük xidmətlərindən biri onun əsrin əvvəllərində parçalanmış Azərbaycanın hər iki tayında geniş fəaliyyət göstərməsi idi. O, birinci Rus inqilabının məğlubiyyətindən sonra irticanın inqilabi qüvvələrin üzərinə hücuma keçməsi ilə İrana mühacirət etməyə məcbur olmuşdu. M.Ə. Rəsulzadə Rus missionerlərinin Bakıda fəaliyyət göstərdiyi kimi, Urmiyədə də avropalıların kilsələr tikdirməsini və dini məktəblər açmasından narahatlığını bildirirdi. Bütün missionerliyi din alveri adlandıran M.Ə.Rəsulzadə yazır: «Din məsələsi vicdani bir məsələdir. Hər kəs dinini satarsa, vicdanını satmış kimidir»(153, 110). O daha sonra qeyd edirdi ki, müsəlmanlar islam əqidəsində o dərəcədə möhkəmdirlər ki, onları döndərmək olmaz. M.Ə.Rəsulzadəyə görə ərəb dilini bilməyən müsəlman azərbaycanlılar Quranı yaxşı başa düşmədiklərindən o qədər də səmimi olmayıb nəticədə isə islamın mənəviyyatını - əxlaqiyyəsini qaib etmiş oldular. Elə bu cəhət müsəlmanları əsl islamdan uzaqlaşdırırdı. O islamiyyəti ətalətdən qurtarmaq üçün «Qurani-Şərifin» başlıca dua və ibadətlərinin türkcəyə tərcümə olunub, xalqın ruh və qəlbinə qida verəcək bir hala gətirilməsini təklif edirdi. «Cəhalətə, zülmə, istismara, ədalətsizliyə qarşı bu dinin müdafiəçiləri xalqın qəlbində, yaddaşında özlərinə möhkəm yer tutmuşlar. Əsrlərlə zülm və əsarətdə qalmış bir xalqı oyatmaq, doğru yola yönəltmək üçün islam dini indi bir zəmin yolunu oynayırdı. M.Ə. Rəsulzadə də özünün elmi-bədii və siyasi fəaliyyətində bu zəminə söykənməyi məqsədəuyğun sayırdı»(13, 57). M.Ə. Rəsulzadəyə görə mədəni yaşayış üçün üç əsas lazımdır: milliyyət, beynəlmiləliyyətin əsası din və əsriyyət. Milliyyətin rüknü ana dili, beynəlmiləliyyətin əsası din və əsriyyətin binası əsrə hakim olan ülum və fünun ilə məhəllinə görə onun vasitəsi olan dillərin öğrəməsidir. O, dil haqqında yazır: «Əvət dil təbiidir, binaən əleyh əslidir, millətə bərabər hasil olur. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil olmaz»(138, 233). M.Ə.Rəsulzadə milli özünüdərk prosesində dil ilə milləti vəhdət halında götürmüş və millətin milli özünü-

dərkində, milli özünütanımasında dilin mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir.

Mütəfəkkir əsl millətsevərliyi ana dilində məktəblərin açılmasında və onun inkişafına köməkdə görür. O, millətin özünütanımasında milli məktəblərin mühüm əhəmiyyət daşıdığını xüsusi olaraq vurğulayırdı. «Rəsulzadə yazırdı ki, əgər millət olaraq özümüzü vaxtında tanısaydıq, «türk operaları»nı «müsəlman operaları» adlandırıb, soydaşlarımızı da Ərəbli, Sarablı, Ağdamlı əvəzinə Ərəblinski, Sarablinski, Ağdamski yazmaz və «türk» səhnəsinə «müsəlman səhnəsi» deməzdik»(51, 206).

Məlumdur ki, bu dövrdə çarizmin müstəmləkə zülmünün bir cəhəti də, xalqımızın etnik mənşəyini qəsdən dolaşdıraraq milliyyətimizi təhqir etmək olmuşdur. Həmin dövrün ictimai-siyasi və fəlsəfi fikir tarixinə nəzər saldıqda görərik ki, o zaman azərbaycanlıları həm «tatar», «persian», həm də «müsəlman» adlandırırdılar. Yalnız M.Ə.Rəsulzadə öz konsepsiyası ilə bu dolaşığı açaraq xalqın adını özünə qaytardı. Millətin mənəvi həyatına, mədəniyyətinə xüsusi əhəmiyyət verən M.Ə.Rəsulzadə qeyd edirdi ki, «maddətən tərəqqi edib mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib mənəviyyatca müstəqil qalmağa üstünlük verilməlidir. M.Ə.Rəsulzadə millətin də, bəşəriyyətin də əhəmiyyətinin bunda olduğunu söyləyirdi»(220). M.Ə.Rəsulzadəyə görə milli vicdan, milli özünüdərk mənasındadır. Millətlərin həyatını isə o, milli vicdanın inkişafı ilə bağlayırdı. Milli vicdanın yaranması ilə millətlər özlərinə şərəfli və şanlı yol seçirlər. Bu barədə M.Ə. Rəsulzadə yazır: «Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanından hasil oluyor. Hər millət deyil, hətta bir şəxsin özünə görə bir əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi «ideal» gəliyor. Osmanlıcada son zamanlarda bunu «məfkurə» deyə tərcümə edənlər də vardır»(138, 470). Millət və dinin fərqli cəhətlərini göstərən M.Ə.Rəsulzadə millətin başlıca əlamətinin dil olduğunu göstərmişdi. Ona görə dil millətin zahiri və batinidir. Dili daimi hesab edən M.Ə.Rəsulzadə dini isə o,

mənada qüvvətli hesab edir ki, din xalqın adət və əxlaqı üzərində böyük təsirə və rola malik olsun. «M.Ə.Rəsulzadə çox yaxşı anlayırdı ki, bütün tərəqqinin, inkişafın, yüksəlişin əsasında maarif, elm, təhsil, bilik durur. Xalq kütlələrini bunlarla silahlandırmaq üçün müəllim kadrları lazımdır. Şəhərdə çoxalan rus-müsəlman məktəblərindən əlavə, bir neçə il idi ki, kəndlərdə də məktəblər açılırdı. Bu məktəblərdə də müəllim çatışmırdı. Dərs deyən müəllimlər isə rusca bildikləri halda, türk dilini bilmirdilər. Bu isə şagirdlərin öz soykökündən ayrı düşməsinə, milli xüsusiyyətlərindən, adət-ənənələrindən, tarix, ədəbiyyat, incəsənət və ən mühüm olan milli dildən, milli ruhdan uzaqlaşmasına səbəb olurdu »(15, 105).

Fevral burjua inqilabı çarizmi devirdikdən sonra ilk dəfə olaraq rəsmi şəkildə Azərbaycan muxtariyyəti ideyasını irəli sürmüş M.Ə.Rəsulzadə may ayında Moskvada keçirilmiş Rusiya Müsəlmanlarının qurultayında bu fikrini irəli sürmüş və səs çoxluğu ilə qələbə qazanmışdı. Onun bu fikrinə qarşı çıxanları M.Ə.Rəsulzadə belə cavablandırmışdı: bu hərəkat türk-müsəlman birliyini parçalamayacaqdır. Milli dövlətinə qovuşacaq olan hər bir türk eli coşğun bir türk irmağıdır. Bu irmaqlar yeni türklük dənizinə qədər axacaq və orda birləşəcəkdir. M.Ə.Rəsulzadənin 1913-1918-ci illəri əhatə edən ictimai - siyasi fəaliyyəti əvvəlki illərlə müqayisədə milli mənlik və özünüdərk probleminin qoyuluşu və şərhi baxımından daha məhsuldar idi. O, 1914-cü ildə «Dirilik» jurnalını, 1915-ci ildə «Açıq söz» qəzetini çap etdirərək xalqın ictimai - siyasi şüurunun oyanmasına, onun fəlsəfi fikrinin inkişafına xidmət edir. Eyni zamanda M.Ə.Rəsulzadə «İqbal» qəzetinin də naşirlərindən biri olmuşdur. 1912-1915-ci illərdə Bakıda Azərbaycan dilində «İqbal» qəzeti nəşr olunmuşdur. «İqbal»ın əsas müəllifləri Sənətulla Eynullayev-İbrahimov, Seyid Hüseyn, Hacı İbrahim Qasımov, Nəriman Nərimanov, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət, Əli Nəzmi, Xəlil İbrahim, Əkbər Əkbərov, Məhəmmədəli və Məhəmməd Əmin Rəsulzadələr idi. «Qəzetin məqsəd və məramı onun birinci sayında dərc edilmiş baş məqalədə şərh

olunmuşdur: «İqbal» qəzetəsi millətimizin maddi və mənəvi səadətinə, iqbalına xidmət arzusu ilə nəşrə başlamışdır. Müstəmləkəçi imperialist dövlətlərin Yaxın və Orta Şərqdə törətdikləri təxribatların, Rusiya imperiyasının müstəmləkəçilik və ruslaşdırma siyasətinin tənqidi, milli dirçəliş ideyalarının təbliği, milli ədəbiyyatın inkişafı, ana dilinin müstəqilliyi və yad təsirlərdən təmizlənməsi, qadın azadlığı, maarifin xalqa yaxınlaşması və milliləşməsi «İqbal»ın toxunduğu əsas mövzular idi. Qəzet müxtəlif problemləri vahid məqsəd ətrafında birləşdirir, milli müstəqillik ideyalarının təbliğinə xidmət göstərirdi. «İqbal»ın məramı rus çarizminin köçürmə və ruslaşdırma, Avropa ölkələrinin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidinə həsr olunmuş məqalələrdə qabarıq surətdə əks olunmuşdur.

Qəzetdə milli istiqbal və dirçəlişə gedən yolda maarifin, məktəbin xalqa yaxınlaşdırılmasının, gənc nəslin milli tarixə, dil və ədəbiyyata bağlılıq ruhunda tərbiyə olunmasının əhəmiyyəti xüsusilə qabardılırdı. «İqbal»ın milli istiqbal uğrunda başladığı mübarizə «Yeni İqbal» və «Açıq söz» qəzetlərində davam etdirilmişdir. «İqbal»ın nasir və baş mühərrirləri, müəlliflərinin böyük əksəriyyəti sonralar Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları oldular»(25, 38-39).

Gəncliyində sinfi mübarizə ideyasını qəbul edən M.Ə. Rəsulzadə fəaliyyətinin sonrakı dövründə həmin ideyadan uzaqlaşır. Azərbaycan parlamentinin birinci iclasını açıq elan etmək və böyük təbrik nitqi söyləmək şərəfi də M.Ə.Rəsulzadəyə nəsib olmuşdu. O parlamentin açılışı ilə bağlı nitqində demokratik idarəçiliyin zəruriliyini qətiyyətlə qeyd edərək bildirirdi ki, «bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm rusiyası istibdadıdır. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə mənfur olan Rusiya, millətləri əzən hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər millət müstəqil və hürr olmalı, hürr olduğundan sonra digər millətlərlə ürək istədiyi kibi əgdi-ittifaq etməlidir. Bütün dünya millətlərinin bir «Cəmiyyəti-əğvam» vücudə gətirməsi bizim ən müəzziz

fikirlərimizdəndir. Bu federasion cəbrlə deyil, təbii bir meyl və arzu ilə hasil olmalıdır. Ərz etdim ki, biz Rusiya camaatının da düçar olduğu fəlakətdən qurtulmasını ürəkdən istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcəvüzkar bir hökumətə biz laqeyd qala bilmərik»(133, 90).

M.Ə.Rəsulzadənin ictimai-siyasi və fəlsəfi görüşlərində müstəqil Azərbaycan dövlətinin yaradılması ideyası başlıca yer tuturdu. O, bu məqsədlə aşağıdakı təkamül prosesinin zəruriliyini qeyd edərək, millətin özünüdərketməsi üçün ideya, siyasi-fəlsəfi təbliğatın vacibliyini, milli istiqlal, azadlıq-hürriyyət uğrunda mübarizə, muxtariyyət əldə olunması, tarixi şəraitlə bağlı federasiyasının təşkili və nəhayət müstəqil Azərbaycanın yaradılmasını göstərirdi. Bu təkamül mərhələlərinin tarixi-məntiqi ardıcıllığı M.Ə.Rəsulzadənin ictimai-siyasi və fəlsəfi görüşlərinin inkişafının aydın təzahürüdür. Ona görə azadlıq mübarizəsinə, demokratik hərəkata başlamaq məqsədi ilə ilk növbədə milli özünüdərketmə, milli oyanış lazımdır. O, ittihadi-islama (islam birliyi-Ə.O.) inanmasa da milli özünüdərkdən gələn milli türk birliyinə inanırdı. Buna onun Türkiyədə çap etdirdiyi «Əsrimizin Siyavuşu», çağdaş Azərbaycan ədəbiyyatı, çağdaş Azərbaycan tarixi əsəri əyani sübutdur. M.Ə.Rəsulzadə yazır: «İttihadi-islam mümkün olmayacaq, bir xəyal, bir utopiyadır. Bilkəs bütün türklərin, bütün farsların, bütün ərəblərin ictimai bir vücud kimi birləşmələri həm mümkün, həm də istənilən bir haldır»(139, 36). Yəni mütəfəkkir milli özünüdərk prosesində xalqların birləşməsini qəbul etsə də, ictimai bir vücud kimi müxtəlif millətli islam xalqlarının özünü, mədəniyyət və ənənə birliyi əsasında vahid toplum kimi dərk edərək birləşməsini mümkün hesab etmirdi.

M.Ə.Rəsulzadə türk dünyasının, bütün türk xalqlarının federativ dövlət formasında birləşməsini arzu edirdi və buna əmin idi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra M.Ə. Rəsulzadə İsmayıllı rayonunun Lahıc kəndində Azərbaycan Fövqəladə Komissiyası tərəfindən həbs edildi. Lakin az sonra o,

İ.V.Stalinin köməkliyi ilə həbsdən azad olunur və Moskvaya göndərilir. «1922-ci ildə Petroqraddan gizli yolla Finlandiyaya gedən, sonra isə Türkiyəyə gələn M.Ə.Rəsulzadə ilk növbədə «Müsavat» partiyasının xarici bürosunu yaratdı və 1923-cü ilin iyunundan «Yeni Qafqasya» məcmuəsinin nəşrinə başladı. Xarici Büro əsasən «Müsavat» partiyasının mühacirətdəki üzvlərindən təşkil olunmuşdur. Qaeyd edək ki, «Müsavat»ın əsas özəyi məhv edilsə də, bu dövrdə partiyanın ayrı-ayrı nümayəndələri və tərəfdarları bolşevik rejiminə qarşı mübarizəni davam etdirirdilər. İşğalın ikinci günü partiyanın gizli yığıncağı keçirildi. Sonra isə hökumətin icazəsi ilə keçmiş şəhər dumasının yerləşdiyi binada 300-dək adamın iştirak etdiyi ümumi iclas oldu. İclasda hökumətə müraciət qəbul olundu və təxminən 15 nəfərdən ibarət Mərkəzi Komitə seçildi. Onun tərkibinə Mirzə Bala Məmmədzadə (sədr), Məmmədsadıq Quliyev (təşkilat katibi), Əbdülvahab Məmmədzadə (müavin), Cəfər Cabbarlı (katib), Məmməd Həsən Baharlı (maliyyə katibi) və b. daxil oldular. Lakin az sonra «Müsavat» partiyasının leqal fəaliyyət göstərmək hüququ ala bilməyəcəyi aydın oldu. Partiya fəaliyyətini gizli şəraitdə davam etdirmək qərarına gəldi»(25, 226).

Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu böyük narahatlıqla xatırlayan M.Ə.Rəsulzadə bildirirdi ki, milli hakimiyyəti itirmək qədər fəlakət ola bilməz. Gəncliyində sosializmə meyl edən mütəfəkkir XI Qızıl Ordunun Azərbaycanı işğal etməsi nəticəsində ölkəmizdə qurulan sovet hakimiyyətinə münasibətini bildirərək yazır: «Sosializm Azərbaycan xalqının təbiətinə zidd hadisədir. O Azərbaycan xalqına rus ordusunun süngüsü hesabına zorla qəbul etdirilmişdir» (43, 515).

M.Ə.Rəsulzadə SSRİ-ni ən qəddar istibdad ölkəsi adlandıraraq bildirirdi ki, bu ölkədə demokratiyadan əsər əlamət yoxdur. O, mühacirətdə olarkən bir sıra ictimai-siyasi və fəlsəfi məzmunlu mühüm əhəmiyyət kəsb edən əsərlər yazmışdır. Onun mühacirətdəki yaradıcılığına «Azərbaycan Cümhuriyyəti», «Azərbaycan və istiqlaliyyət» (fransız dilində), «İstiqlal məfkurəsi və gənclik», «Çağdaş Azərbaycan tarixi», «Çağdaş Azərbay-

can ədəbiyyatı» və s. daxil idi. Onun mühacirətdə yazdığı ilk kitab «Azərbaycan Cümhuriyyəti» adlanır.

M.Ə.Rəsulzadə 1951-ci ildə Ankarada «Azərbaycan şairi Nizami» adlı sanballı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına bir çox yeniliklər gətirmişdir. Həmin ildə onun Nyu-Yorkda ingilis dilində nəşr olunan «Ukrayna» toplusunun 1951-ci il 3-cü nömrəsinin 7-ci cildində «Azərbaycan Respublikası» adlı məqaləsi çap edilmişdir. Londonda ingilis dilində nəşr olunan «Britaniya ensiklopediyası»nda «Müsavat» Partiyasının yaranma tarixi və «Azərbaycan Respublikasının təşəkkülünə aid» məqalə də onun qələmindən çıxmışdır. II Dünya müharibəsindən sonra Türkiyədə nəşr edilən «Türk ensiklopediyası»nda Azərbaycana aid məqalələrin bir çoxu M.Ə.Rəsulzadə tərəfindən yazılmışdır. O, Ankarada yaşadığı dövrdə «Türk tarix qurumu» və «Türk dili qurumu» ilə yaxından əməkdaşlıq etmişdir. 1952-ci ildən Ankarada nəşr olunan «Azərbaycan» jurnalında xalqımızın tarixi və ədəbiyyatı haqqında bir silsilə məqaləsini də buna əlavə etsək, M.Ə.Rəsulzadənin heyrətamiz yaradıcılığı haqqında təsəvvür daha da aydınlaşar. O, eyni zamanda İkinci Dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan «Qafqaz» (1932-1938) və fransızca buraxılan «Prometey» (1928-1939) jurnallarında öz məqalələri ilə çıxış etmişdir. Qeyd edək ki, «Prometey» jurnalını SSRİ-dən olan milli mühacir təşkilatlarının siyasi birliyi – eyni adlı «Prometey» təşkilatı nəşr etdirirdi. «Qeyri-rus mühacirlərin Sovet hakimiyyətinə qarşı mübarizəsini istiqamətləndirən bu təşkilat Məhəmməd Əmin Rəsulzadənin təşəbbüsü və Polşa hökumətinin yardımı ilə 1926-cı ildə Parisdə yaradılmışdı. «Prometey»də ermənilər və ruslar istisna olmaqla, SSRİ-dən olan bütün milli mühacir təşkilatlarının - Azərbaycan , Ukrayna, Belarus, Şimali Qafqaz, Gürcüstan, Türküstan, Moldova, İdil-Ural, Krım, Kareliya, Komi və Kuban nümayəndələri təmsil olunmuşdu»(25, 292).

Onun 1920-ci ildən işlətdiyi açıq və gizli imzalardan «Məmməd Əmin Rəsulzadə», «Yalvac oğlu», «Məmməd Əmin», «M. Əlif.Rəsulzadə» və s. qeyd etmək olar. Beləliklə də

mütəfəkkir milli özünüdərklə bərabər, bir çox dillərdə və müxtəlif ölkələrdə nəşr etdirdiyi əsərlərində millətin ölkədənkənar dərki üçün elmi məlumat verərək xalqını dünyaya tanıtdırırdı. Ankara universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan Məmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da üç dəfə «Azərbaycan, Azərbaycan, Azərbaycan» deyərək əbədiyyətə qovuşdu. Son sözləri vətən, vətənində yaratdığı milli dövlət, xalqı və ölkəsi ilə bağlı olan Rəsulzadə fenomeni bəlkə də milli özünüdərkin ən bariz daşıyıcılarından idi. O, Ankaranın Əsri qəbirstanlığında dəfn edildi. Vəfatı münasibətilə Türkiyədə, İranda və Qərbi Avropa ölkələrində xeyli nekroloq çap olunub. Bunlardan ən maraqlısı S.H.Tağızadənin çap etdirdiyi nekroloqdur. Əsli Ordubaddan olan, özü Təbrizdə dünyaya gəlmiş, M.Ə. Rəsulzadə ilə birlikdə İran məşrutə inqilabının əsas rəhbərlərindən biri hesab edilən, sonralar Pəhləvi üsul-idarəsinin tərəfdarına çevrilən İranın ən görkəmli dövlət xadimi, diplomatı və alimi sayılan Seyid Həsən Tağızadə «Sühən» jurnalında yazır: «Rəsulzadə bütün ömrüm boyunca, Şərq dünyasında rastlaşmadığım, mübaliğəsiz səviyyədə biləcəyim fövqəladə, nadir insanlardan biri idi. Məmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənasıyla dürüst, fikir və yoluna dərin bir inam bəsləyən bir fədakar, mücahid və örnək bir insandı. Beləl追inə zəmanəmizdə hələ bizim tərəflərdə rast gəlmək mümkün deyildir»(225). 1978-ci ildə, ölümündən 23 il sonra – Ankarada M.Ə.Rəsulzadənin «Milli təsanüd» («Milli həmrəylik») adlı kitabı nəşr olundu. 1985-ci ildə dünyanın ən qədim universitetlərindən biri olan Oksfordda M.Ə.Rəsulzadənin «Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm» adlı kitabı ingilis dilində, ön sözlə rus dilində ikinci dəfə çap edilmişdir.

M.Ə.Rəsulzadənin 1989-cu ildə «Əsrimizin Siyavuşu», çağdaş Azərbaycan ədəbiyyatı, çağdaş Azərbaycan tarixi və 1990-cı ildə isə «Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti» adlı kitabları Ankarada yenidən işıq üzü görmüşdür.

M.Ə.Rəsulzadə Azərbaycanın müstəqillik bayrağının əbədi dalğalanmasını ehtirasla arzulayaraq gənclərə müraciətlə yazırdı: «Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min bir çətinliklə yüksəldərək dedi ki, - bir kərə yüksələn bayraq, bir daha enməz!»(137, 96). Bu müraciət gələcəyə yönəlmiş azad millətin azad nümayəndələrinə ünvanlanmış, onlarda milli özünüdərk yolu ilə milli mənliyi yaşadan ən cəlbedici şüar kimi səslənməkdədir. Bu dövrdə ölkədə «Azərbaycanın müstəqilliyinin bərpası uğrunda və Sovet hökumətinin yeritdiyi siyasətə qarşı mübarizə aparan təşkilatlar arasında ən fəalları «Müsavat» və «İttihad» partiyaları idi. Sovetləşmədən dərhal sonra Cəfər Cabbarlının şəhər kənarındakı mənzilində onun, Mirzə Bala Məmmədzadənin, Əbdülvahab Yurdsevərin, Məmməd Sadıq Quluzadənin və Məmməd Həsən Baharlının iştirakı ilə Müsavatın gizli mərkəzi yaradıldı»(99, 258).

XX əsrin 20-30-cu illərində Azərbaycanda Sovet dövlətinə qarşı milli mübarizə davam etməkdə idi. 1925-ci ilin sonu, 1926-cı ilin əvvəllərində Azərbaycanda Gənc Türklər Birliyi, 1927-ci ilin əvvəlində isə təşkilatçı Həsənağa Axundzadə və Haşım Aslanov tərəfindən Gənc Azər təşkilatı yaradıldı. Beləliklə…, 1920-1950-ci illərdə Azərbaycanda bir neçə müsavatyönlü partiya və təşkilat mövcud idi. Bunlar arasında Azərbaycan Xalq Cümhuriyyətinin bərpası uğrunda daha aktiv mübarizə aparan Əhməd İsmayılovun yaratdığı «Zaqafqaziya Milli Mərkəzi» adlanan təşkilat idi. Bu təşkilat Azərbaycan DSİ (Dövlət Siyasi İdarəsi – Ə.O.) tərəfindən 1931-ci ildə dağıdıldı və onun üzvlərinin çoxu məhv edildi...(99, 268). Bu dövrdə yaranmış «Türkçülər» təşkilatınında istiqlal düşüncələrimizin qorunmasında, türkçülük ruhunun qüvvətləndirilməsində mühüm rolu olmuşdu.

XX əsrin əvvəllərində Azərbaycan fəlsəfi-ədəbi fikrinin inkişafında onun ləyaqət və mənliyini təlqin edən millətin nümayəndələri M.Ə. Sabir, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, Ə.Topçubaşov, M.Hadi, N.Nərimanov, M.B.

Məmmədzadə və başqalarının müstəsna xidmətləri olmuşdur.

M.Ə.Sabir zəhmətkeşlərin hüquqsuzluğunu və yoxsulluğunu açıb göstərmiş, öz yaradıcılığında istismarçıları ifşa etmişdir. Onun «Əkinçi», «Bizə nə?», «Dilənçi», «Ağlaşma» və s. satirik şerlərində Azərbaycan kəndlərinin hüquqsuzluqları aydın-açıq göstərilmişdir. M.Ə.Sabirin satirik ruhda yazılmış milli özünüdərkə aid şerləri dövrünün «Həyat», «İrşad», «Dəbistan», «Molla Nəsrəddin», «Həqiqət» və s. qəzet və jurnallarda nəşr edilmişdir. Eyni zamanda Sabir öz şerləri ilə inqilabi demokratik meyllərin möhkəmlənməsinə ciddi təsir göstərmişdir. M.Ə.Sabir həmişə öz əsərlərində çar mütləqiyyətini və onun mürtəce siyasətini kəskin tənqid atəşinə tuturdu. Əvvəllər Sabir xalqın əsarətdən azad olmasını yalnız maarifdə və təhsildə görürdü. Lakin sonralar «Molla Nəsrəddin» jurnalında iştirakı onun ictimai-siyasi və fəlsəfi görüşlərinə təkan vermişdir. Sonrakı illərdə o, mövcud quruluşun dəyişdirilməsi haqqında fikirlərini irəli sürmüş, inqilabi mübarizənin labüdlüyünü göstərmişdir. «Şair sələfləri Qasım bəy Zakir, Baba bəy Şakir və Seyid Əzim Şirvani simasında inkişaf edən ictimai satiraya kəskin siyasi məzmun aşılayaraq, onu inqilabi satira səviyyəsinə qaldırmış, Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin – inqilabi satira ədəbi məktəbinin əsasını qoymuşdur. Çarizmin milli zülmünün, sosial ədalətsizliyə əsaslanan yaramaz ictimai quruluşun, xalqı soyub-talayan «boynuyoğun» və «şişqarın» hakim təbəqələrin, ictimai tərəqqiyə mane olan mədəni geriliyin, xurafat və mövhumatın, köhnəlmiş adət-ənənələrin, habelə Şərq, o cümlədən İran, Türkiyə müstəbid Şah və Sultan rejimlərinin amansız ifşası, milli və sosial azadlıq ideyalarının və mübarizəsinin tərənnümü Sabir şerinin başlıca mövzularıdır.

Azərbaycan xalqının milli şüurunun, özünüdərkinin formalaşmasında, istiqlal uğrunda mübarizə yoluna çıxmasında Sabir yaradıcılığının müstəsna əhəmiyyəti olmuşdur»(25, 322).

Mütəfəkkirin «Beynəlmiləl» (1905) şeri onu demokrat şair kimi tanıtmışdır. Onun «Qəm yemə» (1906) və «Səbr eylə» (1910) şerlərində milli azadlıq mübarizəsi daha qabarıq şəkildə

verilmişdir. M.Ə.Sabirin beynəlxalq irticanın ifşası ilə əlaqədar fikirləri İran və Türkiyə inqilabları haqqında əsərlərində də mühüm yer tuturdu. İngilis imperializminin və çar Rusiyasının müstəmləkəçilik siyasətini nifrətlə qarşılayan M.Ə.Sabir İran inqilabını alqışlamış, milli-azadlıq hərəkatının başçısı Səttarxana da şer həsr etmişdir. Mütəfəkkirə görə «vətən və millət üçün ağır günlərdə özlərini fəda edənlər tarixə düşür, nəsillərin şüurunda, xatirəsində əbədi yaşamaq hüququ qazanırlar. Belələri əsl insan səviyyəsinə yüksəlir, başqalarına da örnək olurlar»(11, 62). O İran və Türkiyə xalqlarının azadlıq, demokratiya uğrunda mübarizəsində onları fədakar və ardıcıl olmağa çağırırdı. Ümumiyyətlə M.Ə.Sabir demokratik respublika ideyasını həmişə müdafiə etmişdir. Mütəfəkkir mövhumatı, nadanlığı və elmi geriliyi tənqid edərək xalqın milli özünüdərketməsini istəmişdir. Bu ideyalara onun «Hop-hopnamə» adlı şerlər kitabında daha tez-tez rast gəlmək olar. Mütəfəkkir haqqında M.B.Məmmədzadə «Sabir və xalq» mövzusunda «Qurtuluş» məcmuəsindəki məqaləsində yazır: «Sabir sovet ədəbiyyatçılarının ortaya atdığı kimi proletar şair deyil, milliyyətçi, xalqçı, vətənçi, hürriyyətçi və mülkiyyətçi olduğunu isbatlayan şair idi. O, vicdani və milliyyətçi düşüncənin təcəllisi – zühuru idi»(151, 10).

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi, ədəbi-fəlsəfi fikrin inkişafında xidməti olan mütəfəkkirlərdən biri də Cəlil Məmmədquluzadədir. «Cəlil Məmmədquluzadə bir-birinə zidd olan iki siyasi quruluş, sistem şəraitində – çarizm və Sovet hakimiyyəti illərində yaşayıb yaratmış sənətkardır. Həyata fəal müdaxilə edən, ətrafında baş verən sosial-siyasi, mədəni-iqtisadi hadisələrə biganə qala bilməyən, xalqının, millətinin, eyni zamanda bəşəriyyətin bu günü, sabahı, daha doğrusu, gələcəyi haqqında düşünən, taleyi ilə maraqlanan mütəfəkkir ədib çox geniş dünyagörüşə malik idi»(11, 68).

O, Molla Nəsrəddin jurnalının banisi və redaktoru olmuşdur. «Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» zəhmətkeş xalq və demokratiya cəbhəsində duraraq, azadlıq düşmənlərini – çar mütləqiyyətini, hakim təbəqələrin ağalığını,

imperializmin müstəmləkəçilik siyasətini, geriliyi, mövhumat, cəhalət və xurafatı amansız satira atəşinə tutmuş, Azərbaycan xalqının milli oyanışında əhalinin geniş təbəqələri içərisində istiqlal ideyalarının yayılmasında mühüm rol oynamışdır. Jurnal eyni zamanda maarif və mədəniyyətin tərəqqisi, qadın azadlığı, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı»(25, 203).

Onun milli özünüdərkdən gələn maarifçilik ideyaları «Poçt qutusu», «Usta Zeynal», «Danabaş kəndinin əhvalatları» və s. əsərlərində ifadə olunmuşdur. Mütəfəkkirin «Anamın kitabı» pyesi ilk baxışda dram, qaldırılan problemin mahiyyətinə dərindən nəzər salanda isə ictimai faciədir. Əsər Cəlil Məmmədquluzadəni bütün ömrü boyu düşündürən xalqın milli varlığının dərk olunması, qorunub saxlanılması, inkişaf etdirilməsi problemlərinə həsr olunmuşdur. Onun bu əsəri mütəfəkkirin milli özünüdərkdən gələn vətənə, ana dilinə, doğma torpağına və xalqına bəslədiyi tükənməz məhəbbətin ifadəsi idi. Beləliklə, ... C.Məmmədquluzadənin dramaturgiyası, əsası M.F.Axundov tərəfindən qoyulmuş milli dram məktəbinin inkişafında yeni mərhələdir... (73, 19).

C.Məmmədquluzadə yaradıcılığında fanatizm və mövhumatı kəskin satira atəşinə tutur və feodal- patriarxal quruluşa qarşı maarifçi–demokrat kimi çıxış edir.

Lakin Cəlil Məmmədquluzadə maarifçilik ideologiyasının təsiri altında çox qalmamış və inqilabi demokratik ideyalar ona daha yaxın olmuşdu. Onun ictimai-siyasi və fəlsəfi görüşlərini diqqətlə təhlil edərək belə nəticəyə gəlmək olar ki, o çarizmin devrilməsini və demokratik respublika qurulmasını, feodalizm qalıqlarının məhv edilməsini, aqrar və milli məsələlərin həll edilməsini, mədəniyyətin sürətli inkişafının həyata keçirilməsini nəzərdə tutan inqilabi-demokratik proqramın tərəfdarı olmuşdur. Mütəfəkkirin ictimai–siyasi fəaliyyətində «Molla Nəsrəddin» jurnalının böyük rolu olmuşdur. C.Məmmədquluzadə milli özünüdərki aşılayan bu jurnal vasitəsi ilə istismarçı dövlətin bütün nöqsanlarını satira atəşinə tutur və istehzalı gülüşlə

oxuculara çatdırırdı. Buna görə də jurnal üzərində senzura getdikcə güclənirdi. O əsərlərində dövlət quruluşu idealının şərhinə xeyli yer vermişdir. 1917-ci ildə yazılmış «Cümhuriyyət» məqaləsində bu ideal daha aydın ifadə olunmuşdu. «Cəlil Məmmədquluzadə demokratik respublikanın tərəfdarı kimi çıxış edirdi. Onun arzuladığı bu respublikada köhnə dövlət aparatı və qanunlar ləğv edilir. Onun bu respublikasında prezidentlik institutu vardır. Prezident ya xalq tərəfindən, ya da ali qanunvericilik orqanı tərəfindən seçilir» (87, 11). Xalqının milli oyanışını, özünüdərkini istəyən C.Məmmədquluzadə və mollanəsrəddinçilərin əsas şüarı: «Ey biçarə millət, oyan xabi-qəflətdən elm öyrən və qeyri millətlər kimi tərəqqi et» idi(56, 142).

C.Məmmədquluzadə 1905-1911-ci illərdəki İran inqilabına, məşhur Səttərxana öz münasibətini bildirmişdir. 1908-ci ilin payızında Səttərxan fədailərinin şah qoşunları üzərindəki parlaq qələbəsi mollanəsrəddinçilərin o cümlədən, C.Məmmədquluzadənin də hədsiz sevincinə səbəb olmuşdur. Başqa sözlə C. Məmmədquluzadə də Mirzə Ələkbər Sabirdə olduğu kimi, milli mənlik və milli özünüdərk onların dünyagörüşünün demokratik yönümü ilə bağlı idi. Onlar sosial və mənəvi baxımdan təkmilləşən millətin indisini yox, gələcəyini tərənnüm edir və bu gələcəyi öz yaradıcılıqları vasitəsilə yaxınlaşdırmaqla millətin özünüdərketməsinə, öz «mən»ini və ləyaqətini qorumasına çalışmışdılar.

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin inkişafında görkəmli ictimai-siyasi xadim Ö.F.Nemanzadənin yaradıcılıq yolu da diqqəti cəlb edir.

Ömər Faiq Nemanzadə ilk təhsilini mollaxanada almışdır. O, görkəmli publisist kimi XX əsrin əvvəllərindəki son dərəcə mürəkkəb və ziddiyyətli bir mühitin ən mühüm siyasi problemlərinə nüfuz etməyi bacarırdı. Mütəfəkkirin ictimai–siyasi və fəlsəfi görüşlərinin formalaşması Azərbaycan xalqının fəlsəfi fikir tarixində ən əhəmiyyətli və ziddiyyətli dövrlərdən birinə təsadüf edir. Bu dövrdə feodal torpaq mülkiyyəti dağılmağa başlayır, kapitalist münasibətləri isə inkişaf edirdi. Məhz «Molla

Nəsrəddin»in banilərindən biri olan Ö.F.Nemanzadənin ictimai-siyasi və fəlsəfi baxışları belə bir tarixi şəraitdə formalaşıb inkişaf etmişdir. Ö.F.Nemanzadə də Azərbaycanın digər qabaqcıl ziyalıları kimi Şərq despotizminə qarşı mübarizəni davam etdirmişdir. O, görkəmli ictimai-siyasi xadim, maarifçi Həsən bəy Zərdabinin köhnə dünyaya qarşı mübarizə üsullarından, onun elmi baxışlarından faydalanmışdır. Ö.F.Nemanzadə Mirzə Cəlillə birlikdə «Torpaq» adlı həftəlik jurnal çıxartmaq istəmişdir. Lakin çar hökuməti Nemanzadənin Türkiyədə təhsil almasını bəhanə edərək jurnalın nəşrinə icazə verməmişdir. Əsas səbəb isə onun «Şərqi- Rus» qəzetində nəşr etdirdiyi «zərərli» məqalələri və inqilabi ruhda yazdığı «Dəvət» adlı kitabçası olmuşdur. Onun yaradıcılığında çarizmin kəskin tənqidi, xalqın ağır həyatına acımaq, bu ağır və dəhşətli həyatın inqilabi yolla devrilməsini irəli sürməsi, gələcək xoşbəxt demokratik quruluşa çağırış, xalqlar dostluğu ideyasının təbliği və s. ideyalar mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda onun ictimai–siyasi və fəlsəfi görüşlərinə türk ictimai fikrinin görkəmli nümayəndələri Namiq Kamal və Tofiq Fikrətin yaradıcılığının böyük təsiri olmuşdur. Bu dövrdə İstanbulda təhsil alan Ö.F.Nemanzadə Türkiyənin müstəqilliyi uğrunda mübarizə aparan bu xadimlərin əsərləri ilə yaxından tanış olmuşdu. O, hesab edirdi ki, xalqı azadlığa çıxarmaq üçün inqilab lazımdır. Onun fikrincə inqilabı başlamaq və azadlıq əldə etmək işin yarısıdır. Əsl məsələ alınan azadlığı əldə saxlamaqdır.

Mütəfəkkirə görə, «müstəqil dil və ədəbiyyatı olmayan bir millətin siyasi istiqlalı da sağlam ola bilməz»(130, 80). Ö.F.Nemanzadəni yalnız köhnə quruluşun inqilab yolu ilə aradan qaldırılması ideyası deyil, həm də yeni cəmiyyət məsələsi düşündürürdü. «O, dövrünün demokratik xadimləri kimi, siyasi hakimiyyət məsələsinə yeni cəmiyyətin əsası kimi baxırdı və xalqın siyasi hakimiyyətə sahiblənməsini zəruri sayırdı. Onun arzu etdiyi cəmiyyət demokratik respublika prinsiplərinə tam uyğun gəlirdi. Bu dövlətdə söz, vicdan, mətbuat azadlığı olmalı, camaat tərəfindən seçilmiş və xalqın öz içərisindən çıxmış

vəkillər «Millət Məclisi» yaratmalı və məclis ilə dövləti idarə etməlidir»(87, 19).

Beləliklə də, başqa demokratik ictimai–siyasi xadimlər kimi Ö.F. Nemanzadə də gələcək dövlət quruluşu məsələsində demokratik respublika ideyasını irəli sürmüşdü. Onun milli özünüdərkdən gələn dil haqqında fikirləri də mühüm əhəmiyyət kəsb edir. Ö.F.Nemanzadə dil barəsində yazır: «Siyasi, milli məsələlərimiz arasında dil bəhsi kiçik görünürsə də, məni onlar rahatsız edib dururdu. Çünki istər siyasi və milli, istərsə maarif və mədəniyyət məsələlərindən danışan, onların lüzumunu bildirən dildir. Dil nə qədər açıq, sadə və anlayışlı olarsa, bildirdiyi fikirlər də o qədər tez mənimsənib işə keçər. Buna görə də həmd olsun, camaatımız dil və mənası açıq olan kitabları oxumağa başlamışlardır»(130, 86).

Ümumiyyətlə, XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində əsas mövzu mövcud quruluşa və elmi-mədəni geriliyə qarşı mübarizə, xalqın milli oyanışı, milli özünüdərketməsi və milli-azadlıq ideyaları olmuşdur. Bu mübarizədə Azərbaycan xalqının dahi bəstəkarı, opera sənətinin banisi, felyetonlar müəllifi, jurnalist və ictimai-siyasi xadim Üzeyir Hacıbəyovun da mühüm xidməti olmuşdur. Onun dünyagörüşünün formalaşmasında Qori seminariyasının böyük rolu olmuşdur. O, tez-tez çar üsuli-idarəsini, onun ağır bürokratik dövlət aparatını böyük ustalıqla tənqid edirdi. Bu ideyalar onun dövlət duması haqqında yazılarında daha qabarıq şəkildə özünü biruzə verirdi. Ü.Hacıbəyov öz yazılarında və çıxışlarında zəhmətkeş kütlələrin tərəfində olduğunu açıq şəkildə etiraf edirdi. Mövcud quruluşun tənqidi onun məşhur komediyalarında, «O olmasın, bu olsun»da da satirik gülüş hədəfi ilə daha qabarıq şəkildə verilmişdir.

Ü.Hacıbəyovun siyasi xarakterli yazılarında milli məsələ o cümlədən, milli mənlik və milli özünüdərk məsələləri mühüm yer tuturdu. Çar üsul idarəsi şəraitində o, müxtəlif millətlərin ixtiyarlarının necə əllərindən alındığını, ictimai – siyasi hüquqlarının tapdalandığını ətraflı şəkildə qeyd edərək göstərirdi

ki, müsəlmanların halı hamıdan yamandır. O, əsl humanist mövqedən çıxış edərək xalqlar arasında bərabərlik, əmin-amanlıq və dostluq ideyasını təbliğ edirdi. Eyni zamanda Ü.Hacıbəyov jurnalist yazılarında despotizmi, monarxiya idarə üsulunu kəskin tənqid edir, öz idealını demokratik xalq hakimiyyətində görürdü. O, bu azad quruluşun yaranacağına və cəmiyyətin mütərəqqi gələcəyinə inanırdı. Ü.Hacıbəyov Şərq xalqlarının oyanmasında, o cümlədən, Azərbaycan xalqının milli oyanışında, milli özünüdərketməsində və milli-azadlıq mübarizəsində 1905-ci il inqilabının böyük rol oynadığını xüsusi qeyd edirdi. Onun ictimai-siyasi və fəlsəfi görüşlərinə nəzər saldıqda Ü.Hacıbəyovun siyasi partiyalara olan münasibəti də diqqəti cəlb etmiş olur. 1906-cı ildə mütəfəkkir «İrşad» qəzetində yazdığı məqalədə «Monarxist partiyası»nı kəskin tənqid edərək tələb və məramca ən yaxşı partiya olan «Sosial- demokratiya»nı tərifləyirdi. Azərbaycanda milli dövlətin qurulmasını sevinc hissi ilə qarşılayan, var qüvvə və bacarığı ilə milli dövlətçiliyin təşəkkülü və inkişafı işinə qoşulan Üzeyir bəy Hacıbəyov öz istedad və bacarığını doğma xalqının milli və sosial-siyasi azadlığı, tərəqqisi uğrunda mübarizəyə həsr etmişdir. Onun müasir ictimai-siyasi durumla yaxından səsləşən ... "Mühüm məsələlər", "Partiyalarımıza", "Təəssürat", "İstiqlal və istiqbal ümidi", "Tarixi günümüz", "Andronik məsələsi", "Vəzifəmiz nədir", "Lənkəran faciəsi", "Kim nəyin fikrində imiş", "Fitnələr qarşısında", "Naxçıvan və Qarabağ ", "Qarabağ haqqında", "İçimizdəki denikinlər", "Ermənistan və Azərbaycan münasibəti" və s. yazıları Üzeyir bəy Hacıbəylinin uzaqgörən siyasətçi ,əqidəli publisist olduğunu bariz şəkildə göstərir...(24, 405).

1918-ci ildə xalqın milli mənlik və milli özünüdərkinin məntiqi nəticəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinc hissi ilə qarşılayan Ü.Hacıbəyov eyni zamanda görkəmli şair Əhməd Cavadın sözlərinə Müstəqil Azərbaycanın milli himnini bəstələmişdir ki, bu himn hazırda da Azərbaycan Respublikasının himnidir.

Ü.Hacıbəyovun ictimai-siyasi və fəlsəfi xarakterli əsərləri

öz aktuallığını bu gün də itirməmişdir. XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm yer tutan və xalqın milli özünüdərknin inkişafında müstəsna xidməti olan şəxsiyyətlərdən biri də Mirzə Bala Məmmədzadədir. Çarizm istibdadı hər bir Azərbaycan ziyalısının nifrətinə səbəb olduğu kimi, M.B.Məmmədzadə də ona düşmən münasibət bəsləyirdi. İlk əvvəllər M.Ə. Rəsulzadənin nəşr etdirdiyi «Açıq söz» qəzetinə ara-sıra məqalələr yazan M.B. Məmmədzadə sonralar həmin qəzetin işində fəal iştirak edir.

Rusiyadakı fevral burjua inqilabından sonra o, siyasi hadisələrə yaxından qoşulur və açıq fəaliyyət göstərən Müsəlman demokratik «Müsavat Partiyası»nın sıralarına daxil olaraq onun fəal üzvlərindən birinə çevrilir. M.B.Məmmədzadə Zaqafqaziya Seymi fəaliyyət göstərdiyi dövrdə öz ictimai–siyasi fəaliyyətini Tiflisdə davam etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra o, «Müsavat» Partiyası nəzdində yaranmış «Gənclər cəmiyyəti»nin orqanı olan jurnalın redaktorlarından biri idi. Bu illərdə onun Tiflisdə «İki inqilab arasında» adlı kitabçası çap olunur və bu kitabçada mütəfəkkir sosial problemlərlə yanaşı, milli mənlik və milli özünüdərk məsələlərinə də toxunurdu. M.B.Məmmədzadə 1919-cu ilin oktyabrında «Müsavat» partiyasının Bakı komitəsinin üzvü seçilir. O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin orqanı olan «Azərbaycan» qəzetinin əvvəlcə müxbiri, sonra isə baş redaktoru olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra M.B.Məmmədzadə digər məsləkdaşları ilə birlikdə həbs edilir. Ancaq sonralar təsadüf nəticəsində həbsdən azad olunur. O, çox keçmədən qeyri- leqal fəaliyyət göstərən «Müsavat» Partiyasına başçılıq edir. 1923-cü ilin axırlarında uzun təqiblərdən sonra qeyri-leqal fəaliyyət göstərən «Müsavat» Partiyasının «İstiqlal» qəzeti nəşr olunduğu mətbəənin bütün işçiləri həbs olunur. Belə olan təqdirdə M.B.Məmmədzadə İrana mühacirət etmək məcburiyyətində qalır. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində stenoqrafçı işləyən M.B.Məmmədzadə 1924-cü ilin yazın axırına qədər gizli fəaliyyət göstərmişdi. M.B.Məmmədzadə

mayda İranın Ənzəli şəhərinə gedərək, buradakı mühacirlərin fəaliyyətinə başçılıq etmişdir. Bir müddət Təbrizdə yaşayan, sonra isə Sulduz şəhəri ətrafında şose yolu çəkilişində mühəndis-texnik işləmişdir.

O, həmin illərdə M.Ə.Rəsulzadənin İstanbulda nəşr etdirdiyi «Yeni Qafqaz» jurnalına məqalələr yazırdı. Çox keçmədən yəni, 1927-ci ildə İstanbula gələn Mirzə Bala Məmmədzadə burada «Azərbaycan misaqi-millisi», «28 Mayıs istiqlal bəyannaməsinin təhlili», «Ermənilər və İran» kitablarını çap etdirmişdi. 1927-1934-cü illərdə də o, «Yeni Qafqaz», «Azəri-Türk», «Odlu yurd», «Bildiriş», «İstiqlal», «Qurtuluş», «Azadlıq» və s. mətbu orqanlarında, «Müsavat» adlı bülletendə Azərbaycan haqqında o cümlədən, milli mənlik və milli özünüdərkə aid bir sıra məqalələr çap etmişdi. 1938-ci ildə onun «Milli Azərbaycan hərəkatı» adlı kitabı çap edilmişdir. Onun Azərbaycanın ictimai-siyasi və sosial tarixini özündə əks etdirən «Yenə maarif cəbhəsində», «SSSR – Milli Rus Dövləti», «Dil və şivə bəlası», «Pedaqoji məktəblərdə dözülməz vəziyyət davam edir», «Sabir yaşasaydı» və s. məqalələri də vardır. Mütəfəkkir 31 may-1 iyun tarixində «Promete» təşkilatı tərəfindən Varşavada keçirilən rus əsiri millətləri dil qurultayında «Sovet Azərbaycanda Türk dilinin ruslaşdırma və imha siyasəti haqqında» məruzəsində deyirdi: "Millətlərin oyanış, yüksəliş və düşüş tarixləri göstərir ki, milli xüsusiyyətlərini və milli kültürlərini qoruyub yaşatmağa müvəffəq olan hər millət, gec-tez müstəqil, milli bir dövlət qurmağa namizəddir. Milli xüsusiyyətlərini və milli kültürlərini itirmiş olan millətlər, milli mənliyini və ilham alacaq milli qaynaqlarını da itirmişlər deməkdir. Bu kimi millətlərin gələcəyi yoxdur. Onlara ölmüş nəzərilə baxmaq lazımdır. Milli xüsusiyyət və milli kültürün başında isə milli dil gəlir. Milli dilin milli varlığı mühafizədəki rolu həlledicidir"(122, 17). M.B.Məmmədzadəyə görə, millətlərin milli varlıqlarını, mədəniyyətlərini ölümdən qurtaracaq yol varsa, o da milli istiqlaldır. ... Millətimizi, millətlərimizi və bu millətlərin dil və kültürlərini ölümdən yalnız milli istiqlal qurtaracaqdır...(122, 23).

M.B.Məmmədzadə 1955-ci ildə Münhendə yaradılan Sovet İttifaqını öyrənən instituta dəvət olunaraq institutun elmi şurasının rəhbəri seçilir və burada Azərbaycan dilində nəşr olunan siyasi jurnalın baş redaktoru olmuşdu. Bundan əlavə onun ictimai-siyasi və fəlsəfi məzmunlu məqalə və kitablarından başqa «İslam Ensiklopediyası»nda çap olunan elmi yazıları, «Müsavat» partiyasının tarixi adlı elmi siyasi əsərləri də vardır. O, «Müsavat» Partiyasının üzvü olduğu üçün öz yazılarında onun fikirlərini təbliğ edirdi.

M.B.Məmmədzadə istər vətəndə, istərsə də xaricdə M.Ə. Rəsulzadənin vəfatından sonra «Müsavat» Partiyasının lideri seçilmişdir. Onun dərin, hərtərəfli, geniş məzmunlu yaradıcılığına nəzər saldıqda M.B.Məmmədzadənin bütün ömrünü və var qüvvəsini milli özünüdərk prosesində xalqının azadlığına və tərəqqisinə həsr etməsinin şahidi oluruq. O, 1959-cu ildə İstanbulda vəfat etmişdir. M.B.Məmmədzadə gələcək nəslə tarixi vəsiyyətində yazır: «Milli dövlət kultur yaradıcılığının ən yüksək şəklidir. Bu günkü nəslin yeni qayəsi «Milli Azərbaycan Dövləti» yaratmaqdan ibarət olmalıdır»(87, 27).

Beləliklə də o, inanırdı ki, vaxt gələcək Azərbaycan xalqı öz «mən»ini və ləyaqətini qoruyaraq milli özünüdərkdən gələn istiqlalını qazanacaqdır. Və bu belə də oldu.

XX əsrin əvvəllərində həm islamçı, həm də türkçü olan maarifpərvər ictimai-siyasi xadim, istiqlal ideoloqu *Əlimərdan bəy Topçubaşov* olmuşdur.

Ə.Topçubaşov nəinki Azərbaycanda, eləcə də Qafqazda, bütün Rusiya müsəlmanlarının həyatında mühüm rol oynamışdır. Onun fikirincə müsəlmanların öz dinini və şəriətini dərindən bilməmələri onları acınacaqlı vəziyyətə salır. Ona görə vaxtilə məşhur ziyalı qadınları olmuş İstanbul, Qahirə, Bombey və Kəlkütdə də müsəlman qadınının əqli–mənəvi səviyyəsini yüksəltmək üçün məktəblər açılmışdır. Qafqazda, o cümlədən də Rusiya müsəlmanları arasında belə məktəblərin açılması üçün ilk dəfə XIX əsrin 80-cı illərində cəhd edilmişdir. Ə.Topçubaşovun fikrincə H.Z.Tağıyevin müsəlman qız məktəbini açmaq təşəbbüsü

ailədə qadının yerini yüksəkdə tutan Həzrəti Məhəmməd Peyğəmbərin kəlamlarına riayət etmək demək idi: «Allah-təala cənnəti anaların ayaqları altında yerləşdirmişdir». Mütəfəkkirə görə savadlı ana cəmiyyət və dövlət qarşısında öz rolunu başa düşərək, öz övladlarını yaxşı vətəndaş olmaq üçün düzgün tərbiyə edə bilər. Əlimərdan bəy Topçubaşova görə, Allahın və onun peyğəmbərinin qadına bəxş etdiyi hüquqdan heç kəs onu məhrum edə bilməz. Onun XX əsrin əvvəllərində Azərbaycan xalqının milli mənlik və milli özünüdərketməsindən gələn milli-azadlıq hərəkatında, o cümlədən xalqın milli mənlik şüurunun və milli özünüdərkinin inkişafında mühüm xidməti olmuşdu. Ə.Topçubaşov Azərbaycan Milli Hökumətində yüksək vəzifə tutmaqla bərabər, Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir.

Onun başçılıq etdiyi «Azərbaycan Nümayəndə heyəti yalnız öz ölkəsinin deyil, bütün Qafqazın müstəqilliyi və siyasi-mənəvi birliyi uğrunda mübarizə aparırdı»(160, 9). O, eyni zamanda «Qafqaz evi» yaratmağın qızğın tərəfdarı kimi çıxış edirdi.

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində milli mənlik şüurunun formalaşmasında və milli özünüdərketmənin inkişafında mühüm xidməti olan mütəfəkkirlərdən biri də görkəmli maarifçi, şair M.Hadidir.

M.Hadinin ictimai-siyasi və fəlsəfi baxışları Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixinin inkişafına böyük təsir göstərmişdi. Onun ictimai-siyasi və fəlsəfi görüşlərində milli özünüdərkdən gələn vətənpərvərlik amalı və onun təbliği, azad müstəqil dövlət haqqında, cəmiyyətdə insanın hüquq və azadlıqlarına dair fikirləri, vətəndaş cəmiyyətinin dövlətçiliyin inkişafında rolu haqqında fəlsəfi mühakimələri bu gün də öz aktuallığını itirməmişdir. Milli özünüdərk prosesində «Azərbaycan romantiklərindən, xüsusilə M.Hadi yaradıcılığında vətənpərvərlik, hürriyyət, azadlığa çağırış ideyaları ana xətt təşkil edirdi. Təsadüfi deyildir ki, M.Ə.Rəsulzadə onu «hürriyyət vurğunu», M.B.Məmmədzadə və H.Baykara isə Hadini

«Azərbaycanın istiqlal mübarizəsi tarixində ilk istiqlal şairi» adlandırmışdır»(118, 103). M.Hadiyə görə ölkə vətəndaşlarının ictimai-siyasi hadisə və proseslərin subyektinə və iştirakçısına çevrilməsi üçün onlarda siyasi mədəniyyətlə bərabər, siyasi şüuru da formalaşdırmaq lazımdır. O, insanı təbiətən azad varlıq sayır və azadlıq insanın təbii mahiyyətindədir deyirdi. «Məhəmməd Hadiyə görə, insan yaranmış olsa da, çox çevik, müstəqil düşünən, hərəkətlərində sərbəst və həm də yaradandır, qurandır. İnsan elmin, maarifin gücü ilə dünyanı dəyişdirir; həm zinətləndirir, həm də xarabaya çevirir. Elm - maarif və səyin, qeyrətin, zəhmətin nəticəsidir. Dünyanı bəzəyən insan birinci növbədə öz həmcinsinin qəlbini, vicdanını, mədəniyyət, elm və irfanla gözəlləşdirməlidir. Cəhaləti yalnız maarif məhv edə bilər, insanın idrak düzgünlüyünü yalnız maarif silib parlaq hala sala bilər»(11, 146).

XX əsrin əvvəllərində Rusiya imperiyasının bir sıra yerlərində inqilabi hərəkatın başlanması və geniş vüsət alması M.Hadi yaradıcılığında əsas yer tuturdu. Onun fikrincə bu inqilablar ölkədə milli ictimai şüurun oyanmasına, milli özünüdərkə təkan verəcək və geniş xalq kütlələrini sosial-siyasi fəaliyyətə qoşulmağa çağıracaqdır. M.Hadi öz əsərlərində elm ilə cəhaləti, maarif ilə nadanlığı üz-üzə gətirir və belə bir qənaətə gəlir ki, elmin, maarifin yayılması insanların həyatının daha yaxşı qurulması üçün ciddi amildir. «Elm insana paxlava yedirir» adlı məqaləsində cəhalətlə maarifi müqayisə edib bunların insana verdiyi nəticələr barəsində yazır: «Elm insana şəkərləmə yedirir, cəhalətin yedirəcəyi isə zəhrimari - fəlakətdir» (8,214). O, xalqın milli özünüdərkini elm və maarifin inkişafında görürdü.

Beləliklə, vətənə, millətə, insanlığa sevgi, milli mənlik şüuruna, milli özünüdərkə, milli-mənəvi dəyərlərə hörmət, soykökə ehtiram Məhəmməd Hadi yaradıcılığının əsasını təşkil edirdi.

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində özünə məxsus yeri olan, xalqın milli özünüdərk prosesində siyasi şüurunun formalaşmasında və milli özünüdərk ideyalarının

inkişafında mühüm xidməti ilə seçilən şəxsiyyətlərdən biri də görkəmli ictimai-siyasi xadim Nəriman Kərbəlayi oğlu Nərimanov idi. O, «1882-ci ildə Qori Seminariyasına daxil olmuş və 1890-cı ildə oranı bitirərək, Tiflis quberniyasının Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim təyin olunmuşdur»(222). N.Nərimanov 1891-ci ildə Bakıya gəlmiş və geniş ədəbi-siyasi, mədəni-maarif fəaliyyətinə burada başlamışdır.

Mütəfəkkirin 1905-ci ildə «Hümmət» sosial-demokrat qrupuna daxil olması ilə siyasi fəaliyyətində inqilabçı-demokrat mərhələsi başlanır. Onun dünyagörüşünün formalaşması üç mərhələ ilə səciyyələnir: maarifçilik, inqilabi-demokratizm və marksizm. O, ictimai-siyasi problemləri əks etdirən çoxlu dəyərli əsərlərin müəllifidir. Həmin əsərlərdən «Nadanlıq», «Şamdan bəy», «Nadir şah», «Bahadır və Sona» xüsusilə diqqəti cəlb edir. Bu əsərlərlə yanaşı mütəfəkkirin yaradıcılığında sosial və mədəni məsələlərə, milli özünüdərkə aid ictimai-siyasi və fəlsəfi məzmunlu məqalələri də mühüm yer tutur. Mütəfəkkirin «Bir kəndin sərgüzəşti» hekayəsindəki milli özünütənqid daha kəskindir, həqiqət daha açıqdır, çünki burada qonşu timsalında məkrli, yırtıcı düşməni olan bir xalqın avamlığının, sadəlövhlüyünün, ətalətinin daha acınacaqlı nəticələrə səbəb olduğu onun bir millət kimi hüququnun, mənliyinin tapdalanmasına, başqa xalqlar arasında hörmətsizliyinə, dəhşətli bəlalara düçar olmasına aparıb çıxardığı göstərilir. Sakit tərzdə, təmkinlə və hətta bir qədər də soyuqqanlıqla nəql edilən bu hekayə aydın məzmunu ilə şəffaf görünsə də başdan – ayağa rəmzlərdən ibarətdir. Əsas rəmz Qafqaz kəndlərindən birinin camaatının «ata-babalardan bir-birinə düşmən gözü ilə baxan» İnəmre və Namləsüm adlanan iki məhəllənin adlarında gizlənmişdir. Rəmzi açmaq üçün vaxtilə məhəllələrin abadlığına çalışmış iki böyük adamın adı kimi təqdim edilən bu əcayib sözləri yalnız tərsinə oxumaq kifayətdir: İməmre, yəni erməni, Namləsüm, yəni müsəlman, o vaxtlar azərbaycanlılara belə müraciət edirdilər. Bunu bildikdən sonra o biri rəmzləri açmaq artıq çətin deyil»(68). Mütəfəkkirin din haqqında fikirləri də mühüm əhəmiyyət kəsb edir. N.Nərimanov

«Tibb və İslam» əsərində yazır: «İslam əqli və təbii dindir. Əsl dindar heç bir elmdən qorxmaz, çünki elm təbiət aləmindən alınmışdır. Ancaq bu şərtlə ki, elmləri oxuyan şəxs gərəkdir öz dilini və dinini bilsin»(104, 22). Mütəfəkkirin dinə münasibəti haqqında tədqiqatçı alim Müstəqil Ağayev «XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi» adlı monoqrafiyasında yazır: «Nəriman Nərimanov din haqqında yazdığı əsərlərdə dinə mədəni-mənəvi və sosial bir hadisə kimi baxmış və onun cəmiyyətin tərəqqisi və inkişafının müəyyən bir mərhələsində meydana gəldiyini qeyd etmişdir. Nəriman Nərimanovun dinə münasibəti dini bütövlükdə mürtəce və zərərli bir hadisə kimi dəyərləndirən ifrat ateistlərin münasibətlərindən çox fərqlidir. O, din anlayışına ciddi elmi mövqedən yanaşır, dinin daxili aləminin mürəkkəbliyini tərkibində gerçəklikdən uzaq düşmüş ünsürlərlə yanaşı, real əsasları olan sağlam mənəvi-ruhi dəyərlərin də olduğunu qeyd etmiş, yeri gəldikcə, bu dəyərlərin ümumbəşəri mənasını öz yazılarında izah etmişdir. Nəriman Nərimanova görə, din məhz özündə cəmləşdirdiyi mütərəqqi, sağlam mədəni-əxlaqi dəyərlərinə görə cəmiyyətdə, insanların həyatında böyük rol oynayır, tərəqqinin mühüm amili kimi çıxış edir»(13, 48-49). Qeyd etmək lazımdır ki, islam ideyalarının yeni dövrə uyğunlaşdırılması, yeniləşdirilməsinə, Quranın yeni oxunuşuna və şərhinə ehtiyacın olduğunu M.F.Axundovdan bəri XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif mövqelərdən, müxtəlif ictimai təmayüllərin təmsilçiləri qeyd etmişlər. Bu məqam N.Nərimanovun irsində də özünü göstərir(66, 179). N.Nərimanov din məsələsində olduqca ehtiyatlı olmağı tövsiyə edirdi. Azərbaycan K(b) P-nin 1920-ci ilin oktyabrında keçirilən II qurultayında N.Nərimanov çıxış edərək deyirdi: «Bizdə elə müsəlman kommunistlər var ki, kəndə girən kimi adamları məsciddən qovur və deyir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər öz əməlləri ilə fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edir ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndirirlər. Mən belələrini əksinqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar. Şərqdə din məsələsi

olduqca vacib məsələdir. Bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu qanundan asılıdır»(99, 271) .

Bu dövrdə cəmiyyət həyatının ictimai məsələlərinə diqqət yetirən N. Nərimanov dinə münasibətdə ittihadi–islamçılara nisbətən daha rassional mövqe tuturdu. Sonralar 1920-ci ildə həmin dövrü xatırlayaraq o, deyirdi: «Hələ Nikolayın süqutundan əvvəl mən panislamistlərlə işləmişəm, bizim bir məqsədimiz vardı – Nikolayı yıxmaq, onlar da Nikolayı yıxmaq istəyirdilər və biz də. Lakin onlar panislamizmdən danışmağa başlayanda, mən həmişə gülüb deyirdim: Heç vaxt siz millətləri islam bayrağı altında toplaya bilməyəcəksiniz, heç vaxt fars Türkiyənin bayrağı altında yaşamağa razı olmayacaq, heç vaxt türk razı olmaz ki, başı üstündə İran tayfası ağalıq etsin. Bu faktlar göstərir ki, N.Nərimanov müəyyən məsələlərdə pantürkistlər, panislamistlərlə həmrəy olmuş və yaxud islama münasibətdə onların baxışlarında ümumi cəhətlər şəksiz nəzərə çarpır. Ümumiyyətlə milli oyanış şəraitində islam dininə münasibət çoxçalarlı, çoxşaxəli məsələ idi»(69, 18).

N.Nərimanov çarizmin istibdad üsul-idarəsinə dərin nifrət bəsləyirdi. O, xalqlar həbsxanası adlandırılan çar Rusiyasının bütün siyasətini, şərq istibdad üsuli-idarəsinin mənfur təbiətini kəskin tənqid edir, bu idarəçilik sistemlərinin hər ikisinin humanizmə, insan hüquqlarına zidd qayda qanunlarına nifrətini açıq şəkildə bildirirdi. N.Nərimanov bütün həyatını və mənalı fəaliyyətini xalqının azadlığı, xoşbəxtliyi uğrunda mübarizəyə, onun milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafına həsr etmişdir.

Bu dövrdə «Azərbaycan xalqının qonşu xalqlara nisbətən siyasi, iqtisadi, mədəni və milli cəhətdən geridə qalması, daxili və xarici işlərini müzakirə edə bilmək üçün məclislərinin olmaması, müxtəlif təşkilatlarda, məclislərdə mötəbər bacarıqlı milli nümayəndə və kadrların yoxluğu Nəriman Nərimanovu millətini sevən, onun yüksəlişinə, tərəqqisinə var qüvvəsi ilə çalışan, xalqının qeyrətini çəkən bir övlad kimi, bir vətəndaş kimi həmişə

düşündürmüşdür» (14, 116). Onun ilk tənqidi və publisist məqalələri Baxçasarayda tatar dilində nəşr edilən «Tərcüman» qəzetində çıxmışdır. İ.Qaspiralının redaktəsi ilə çıxan «Tərcüman» qəzeti o dövrdə Rusiya imperiyasında türk dilli xalqların yeganə mətbuat orqanı idi. «N.Nərimanov 1892-ci ildən «Tərcüman» qəzeti ilə əməkdaşlıq etmişdir. Onun kiçik həcmli ilk məlumat və məqalələrində maarif, mədəniyyət, xeyriyyə cəmiyyətləri məsələlərinə toxunulur, dini fanatizm, gerilik kəskin tənqid olunurdu»(48, 230-231). Onun ictimai-siyasi və fəlsəfi görüşlərində xalqın milli mənlik şüurunun oyanması və milli özünüdərkilə yanaşı dövlət məsələsi də əsas yer tuturdu. O, 1919-cu ilin iyununda işləmək üçün Moskvaya çağrılır. Nəriman Nərimanov Rusiya xarici işlər komissiyasında Yaxın Şərq şöbəsinin müdiri işləmişdir. 1923-cü ilin yanvarından ömrünün sonuna qədər SSRİ Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri olmuşdur. Eyni zamanda Nəriman Nərimanov SSRİ-nin ilk Konstitutsiyasının hazırlanmasında yaxından iştirak etmişdir. 1919-cu il iyulun 19-da RK (b) PMK-nın Siyasi Bürosu ilə Təşkilat Bürosunun birgə iclasında gələcəkdə Sovet Azərbaycanının müstəqil respublika kimi tanınması haqqında qərar qəbul edildi. Qərarda Azərbaycanın gələcəkdə müstəqil Sovet Respublikası elan olunması tamamilə məqsədəuyğun hesab edilirdi. ...N.Nərimanov sonralar hakimiyyətdə olarkən «Müstəqil Sovet Azərbaycanı» şüarından partiyadaxili etirazını bildirmək üçün istifadə etmişdi; «Vladimir İliç, məgər «Müstəqil Azərbaycan» sözləri Sizin dilinizdən çıxmayıb?

Aprel işğalından (1920) dərhal sonra A.Mikoyan Azərbaycanın müstəqil sovet respublikasına çevrilməsinə yol verməmək üçün «Müstəqil Sovet Azərbaycanı» şüarının partiyanın qəbul etdiyi müvəqqəti taktiki şüar kimi artıq əhəmiyyətini itirdiyini bəyan etmişdi. Az sonra Q.Orconikidze müstəqillik məsələsini Azərbaycan AK(b)P MK-nın müzakirəsinə çıxarmışdı: «Azərbaycan Respublikası müstəqilmi yaşamalı, yoxsa Sovet Rusiyasının tərkibinə daxil olmalıdır?» Bir qrup azərbaycanlı kommunist ikinci yola tərəfdar çıxsa da,

N.Nərimanovun mövqeyi, qısa bir zaman kəsiyi üçün olsa da, qalib gəldi. Lakin bu qərar 28 Aprel işğalının mahiyyətini dəyişmədi...(25, 236).

N.Nərimanov 1923-cü ildə Stalinə göndərdiyi «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı məktub xarakterli yazıda Azərbaycana və onun xalqına qarşı ədalətsiz, məkrli münasibətin mahiyyəti açıqlanır. N.Nərimanov açıq şəkildə bildirirdi ki, ermənilər onu Azərbaycandan uzaqlaşdırıblar ki, öz çirkin əməllərinə nail olsunlar. Ermənilər Dağlıq Qarabağa muxtariyyət verilməsini istəyirdilər, o isə buna imkan vermirdi. O, bildirirdi ki, Moskvaya işləməyə gedəndən sonra Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi nəticəsində muxtar vilayət elan edildi. Mənim vaxtımda bunu edə bilmədilər. N.Nərimanov yalnız ömrünün axırlarında aldadıldığını və onun obyektiv, vicdanlı fikirlərinə məhəl qoyulmadığını başa düşdü. Hətta onu Mikoyan kimi riyakar və satqın daşnak millətçilikdə günahlandırırdı. Onun səhhətinin pisləşməsində və hətta şübhəli olan ölümündə ona qarşı istiqamətlənən təzyiq, təqiblər güclü rol oynamışdı. «Nərimanov Azərbaycan xalqının milli-mədəni tərəqqisinə, din problemlərinə, Azərbaycan dilinə dövlət statusu verilməsinə, milli ziyalılara və təhsilə xüsusi diqqət yetirmiş, bütün bunlara milli dövlət quruculuğunun tərkib hissəsi kimi baxmış, milli adət-ənənələri qorumuş, elm, maarif və mədəniyyətin inkişafına qayğı göstərmişdir. Onun bu fəaliyyəti birmənalı qarşılanmamış, əleyhinə geniş kampaniya aparılmışdır. Nərimanov fəaliyyətə başlayarkən Azərbaycan artıq İrəvan və Dərbənd ərazilərini itirmiş, Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi isə mürəkkəb olaraq qalırdı. Onun qətiyyəti sayəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdır. O, Naxçıvanın Azərbaycandan təcrid olunmaması üçün Mehridən yol almaqdan ötrü ardıcıl mübarizə aparmış, Zəngəzurun isə Azərbaycandan ayrılmasının qarşısını ala bilməmişdir. Azərbaycanı Sovet Rusiyasının müttəfiqi, müstəqil bir respublika kimi görən Nərimanov qarşılıqlı etimad əsasında mərkəzlə Azərbaycan

arasında siyasi və iqtisadi hüquqların bölgüsü, Bakının milli simasını itirməsinin qarşısının alınması, milli və dini ənənələrin qorunması uğrunda ardıcıl mübarizə aparmışdır. Mərkəzin Azərbaycana qərəzli münasibətini, ruslara, ermənilərə və b. qeyri millətlərə xüsusi imtiyazların verilməsini pisləyərək, «kommunist cildinə girmiş daşnakların» məkrli fəaliyyətini ifşa etmişdir. O, Azərbaycan nümayəndəsinin bilavasitə iştirakı olmadan mərkəzdə Azərbaycana aid heç bir məsələnin müzakirə edilməməsini, mərkəzi strukturlarda Azərbaycanın tam səlahiyyətli nümayəndələrlə təmsil olunmasını, neft istehsalına və satışına Azərbaycan hökumətinin nəzarətinin artırılmasını tələb etmişdir»(25, 262).

N.Nərimanovun ictimai-siyasi və fəlsəfi görüşlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, «onun dünyagörüşü Azərbaycan həyatının irəli sürdüyü vəzifə və tələblərlə, xalqımızın ictimai və milli zülmə qarşı mübarizəsi ilə sıx əlaqədə təşəkkül tapmışdır» (87, 16).

Eyni zamanda N.Nərimanov milli özünüdərk prosesində xalqın, ölkənin tərəqqisini, dininin, dilinin, mədəniyyətinin inkişafını millətin hürriyyətilə bağlayır və mütəfəkkirə görə istibdad kökündən yox olmayınca, bu mümkün deyildir. N.Nərimanova görə fəsadlar törədən istibdadı yıxmaq və hürriyyətə çatmaq yolunda mübarizə zəruridir. «Təbiidir ki, millətin özü siyasi, iqtisadi azadlıq əldə etməzsə, onun dininin, dilinin, ümumiyyətlə vicdanının azadlığından danışmağa belə dəyməz»(207). N.Nərimanova görə millətin özünüdərketməsi və özünütanıması onun birliyinin və təşəkkülünün vacib şərtidir. Ona görə özünüdərketmə millətə inkişaf və tərəqqi yolunu göstərir. Onun fikrincə, bu ideya müxtəlif cəmiyyətlər vasitəsilə yayılıb reallaşa bilər. N Nərimanovun milli özünüdərk ideyalarının inkişafında əsas amillərdən biri olan dil haqqında fikirləri də çox mühüm əhəmiyyət kəsb edir. «N.Nərimanova görə, ana dili millətin əsas atributudur, onsuz millətin nə xüsusi məsləki, nə də «pak milli hissiyyatı» ola bilər. Odur ki, daim onun inkişafının qayğısına qalır, onu qoruyur, başqalarından da

bunu tələb edirdi. 1922-ci ildə N.Nərimanovun mətbuatda türk dilinin məhdudlaşdırılması və türk dili dərslərinin azaldılması haqqında «fitnəkar məqalələr»ə «Bakinski raboçi» qəzetində cavab verərək, türk dilinin Azərbaycanda dövlət dili elan edildiyini və Azərbaycanda heç kimin və heç bir şəraitdə onu ləğv etməyə və ya əhəmiyyətini azaltmağa ixtiyarı çatmadığını sərt bir şəkildə bəyan etməsi buna bariz nümunədir»(68). Mütəfəkkirə görə, «ana dilimiz hər halda qüvvət tapacaqdır. Yeni füzulilər, vaqiflər, zakirlər, vidadilər, seyidəzimlər meydana gələcəklər»(132, 100). N.Nərimanov dili xalqın milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafında əsas amil hesab edirdi. «Onun əxlaq fəlsəfəsi, etik görüşləri ilk növbədə mənsub olduğu xalqın mənəvi dəyərlərindən, onun adət-ənənəsindən, xeyir-şərə münasibətindən qidalanmışdır»(69, 123). Onun irsi bugün də Azərbaycan xalqının milli özünüdərk və milli özünəqayıdış mənbələrindən biridir. Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda baş verən mühüm ictimai-siyasi proseslərin və milli özünüdərkdən gələn milli-azadlıq hərəkatı ideyalarının inkişaf etməsi, bu prosesdə Azərbaycan ziyalılarının müxtəlif siyasi qruplaşmalara qoşulması kimi xarakterizə olunmalıdır.

Bu dövrdə Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində öz yeri olan, xalqın milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafında öz dəsti-xətti ilə seçilən ictimai-siyasi xadim Yusif Vəzir Çəmənzəminlidir.

Yusif Mirbala oğlu Vəzirov 1887-ci il sentyabr ayının 12-də Şuşa şəhərində anadan olmuşdur. Yusif Vəzir məktəb yaşına çatdıqda onu Şuşada «Kar Xəlfə» ləqəbi ilə tanınan Molla Mehdinin məktəbinə qoyurlar. Sonralar Molla Mehdinin yanında təhsilin səmərəsiz olduğunu bilən Mirbaba Vəzirov oğlu Yusifi Ağdama apararaq onun təhsili ilə özü məşğul olmağa başlayır. Eyni zamanda atası onun rusca öyrənməsini də istəyirdi. O, bu məqsədlə balaca Yusifi Ağdamdan xeyli aralıda olan Muradbəyli kəndinə gətirir. Mütəfəkkir bir il məktəbdə oxuyandan sonra real məktəbinə girmək üçün 1896-cı ildə Şuşaya qayıdır. Çox keçmir

ki, Yusif Vəzir Şuşadakı real məktəbinə daxil olaraq təhsil almağa başlayır. 1905-ci ilin yayında Azərbaycanın digər yerlərində olduğu kimi Şuşada da milli qırğın – erməni-müsəlman davası başladı. Belə olan təqdirdə Şuşa realnı məktəbində oxuyan digər azərbaycanlılar kimi Yusif Vəzir də ermənilərin törətdikləri terror və təhdidlərə görə məktəbə gedə bilmir. Çünki Şuşadakı bütün hökumət binaları, o cümlədən realnı məktəbi şəhərin ermənilər yaşayan hissəsində yerləşirdi. Təhsilini davam etdirmək həvəsində olan gənc Yusif Bakıdakı yoldaşlarından birinə məktub yazıb vəziyyətini ona başa salır. Çox keçmədən, mütəfəkkir dostundan müsbət cavab alır və o, Şuşadan Bakıya yola düşür. Yusif Vəzir Bakıya gəldikdən sonra Hacı Zeynalabdin Tağıyevin kömək və yardımı ilə Bakı realnı məktəbinə qəbul olunur. Eyni zamanda Yusif Vəzirlə birlikdə on doqquz tələbənin oxumasına da Zeynalabdin Tağıyev kömək etmişdi. Bu işdə Bakıda yaşayan qarabağlıların yaratdığı təşkilatda yaxından iştirak etmişdir.

1909-cu ildə Yusif Vəzir Bakı realnı məktəbini bitirir. Gənc mütəfəkkir 1909-cu ildən başlayaraq məqalə və hekayələrini arası kəsilmədən mətbuatda çap etdirirdi. O, əsasən məqalələrini «Yeni həqiqət», «Yeni İrşad» və «İqbal» qəzetlərində çap etdirmişdir. 1909-cu ilin iyul ayında Yusif Vəzir Peterburqa gedib təhsilini davam etdirmək üçün sənədlərini mülki mühəndislər institutuna verir. Lakin qəbul oluna bilmir (riyaziyyat fənnindən zəif olduğuna görə).

Mütəfəkkir 1910-cu ildə Kiyevə gedib müqəddəs Vladimir adına İmperator Universitetinin hüquq fakültəsinə daxil olur. Yusif Vəzirin Kiyevdəki beş illik tələbəlik həyatı onun ədəbi və elmi fəaliyyətində çox əlverişli olmuşdur. O, dini məsələ, qadın məsələsi və uşaq tərbiyəsi ilə son dərəcə maraqlanırdı. Mütəfəkkir bu məsələləri ətraflı öyrənmək üçün müqəddəs adlandırılan bütün kitabları və bir çox elmi-fəlsəfi əsərləri oxuyur. Eyni zamanda o, qadın məsələsinə dair Rusiya, Şərq və Qərbdə yazılmış kitabların xeyli hissəsini nəzərdən keçirmiş və

nəticədə onun «Arvadlarımızın halı», «Qanlı göz yaşları», «Ana və analıq» kimi əsərləri meydana çıxmışdır.

1915-ci ildə birinci dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq çar hökuməti qabaqlayıcı tədbir kimi Kiyev universitetini müvəqqəti olaraq Saratov şəhərinə köçürür və Yusif Vəzir də universiteti 1915-ci ilə həmin şəhərdə bitirir. Universiteti uğurla bitirən Yusif Vəzir Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunur. O bir neçə aydan sonra tutduğu vəzifə maaşsız olduğu üçün Kiyevə getmək məcburiyyətində qalır. Gənc Yusif burada «Zemstvo» təşkilatına daxil olub cəbhəyə gedir. Rusiyada fevral burjua inqilabı baş verən zaman o, Qalitsiyada idi. 1917-ci ildə Ukraynada başlanan milli-azadlıq hərəkatı Rusiya imperiyasında yaşayan qeyri-rus millətlərə örnək oldu və bu hərəkat imperiyanın digər yerlərinə də sirayət etməyə başladı. Baş verən bu hadisələr Yusif Vəzirə təsir etməyə bilməzdi. Mütəfəkkir bununla əlaqədar «Bizim məqsədimiz və amalımız Azərbaycanımızdır» deyərək 1917-ci ildə Qalitsiyadan Kiyevə gəlir. Yusif Vəzir siyasi təşkilata ehtiyac olduğunu hiss etmiş və Kiyevdə oxuyan azərbaycanlı tələbələri ətrafına toplayaraq çox keçmədən Türk Ədəmi Mərkəziyyə Firqəsi «Müsavat»ın Kiyev şöbəsini yaradır. Mütəfəkkir həmin şöbəyə başçılıq etmişdir. «Kiyevdə «Müsavat» partiyasının şöbəsini yaradan və ona sədrlik edən Çəmənzəminli burada yaşayan azərbaycanlıların siyasi təşkilatlanma işini canlandırır, bu münasibətlə çağırılmış iclaslar ana dilində keçirilir, sənədlər də milli dildə tərtib olunurdu. Ana dilinin öyrənilməsi, iclaslarda doğma dildə danışılması milli məsələlərə və federasiya fikrinə dair əsərlərin toplanması, Azərbaycan türklərinin sayının, məskunlaşdıqları yerlərdə qeyri millətlərə nisbətdə müəyyənləşdirilməsi qərara alınmışdı.

Çəmənzəminlinin Kiyevdə yazıb tamamladığı «Azərbaycan muxtariyyəti» kitabı Bakıda çapdan çıxanda (1917) Azərbaycanda Xalq Cümhuriyyəti hələ yaradılmamışdı. Beləliklə, müstəqil muxtar Azərbaycan ideyasını ilk irəli sürənlərdən və onun uğrunda mübarizə aparanlardan biri də Çəmənzəminli olmuş-

dur»(24, 288-289). Yusif Vəzir Azərbaycan Xalq Cümhuriyyətinin Ukrayna Respublikasında diplomatik nümayəndəsi təyin olunur. Lakin bolşevik qüvvələrinin Denikin Ordusu üzərində qələbəsindən sonra Odessa şəhəri Sovet Rusiyası tərəfindən alınır. Belə olan təqdirdə sovet hökuməti Yusif Vəzirə qafqazlılarla birlikdə «Boris» bolqar gəmisi ilə Odessadan İstanbula və həmin gəmi ilə də oradan Qafqaza getməyə icazə vermişdir. Yusif Vəzir vətənə qayıtdıqdan sonra Azərbaycan qəzetində «Xarici siyasətimiz», «Milli və mədəni işlərimiz» adlı məqalələrini və «Biz kimik və istədiyimiz nədir?» kitabçasını 1919-cu ildə Bakıda çap etdirir. Çox keçmir ki, Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin təklifi ilə 1919-cu ilin yayında 32 yaşlı Yusif Vəzir İstanbula səfir göndərilir.

Azərbaycanın sovet Rusiyası tərəfindən işğalından sonra tutduğu vəzifəsinin artıq bitmiş olduğunu elan edən Yusif Vəzir Batumidəki Sovet səfirliyinə müraciət edir. Bu zaman İstanbula Bakıdan xarici ticarətin nümayəndəsi Almaniyanın Freyburq dağ mədən Akademiyasını bitirmiş ilk azərbaycanlı olan Behbud bəy Cavanşir gəlir. Yusif Vəzir Cavanşirlə görüşmüş və ondan işlə təmin olunmasını xahiş edir. Lakin daşnak partiyasının üzvü olan qatil Torlakyanın arxadan vurduğu güllə ilə Behbud bəy öldürülür və Yusifin planları həyata keçə bilmir.

1923-cü ilin əvvəllərində Yusif Vəzir İstanbuldan Parisə getməli olur. O, Parisə gəlib qardaşı Mirinin latış məhəlləsində yaşadığı mehmanxanada yaşamağa başlayır. Yusif Vəzir maddi vəziyyətinin ağır olması ilə əlaqədar olaraq Paris yaxınlığındakı Klişi adlı şəhərə köçür və əvvəlcə lokomotiv zavodunda, sonralar isə avtomobil zavodunda fəhləlik edir. Mütəfəkkir Parisdə Azərbaycan səfirliyi tərəfindən buraxılan «Paris xəbərləri» qəzeti ilə də əməkdaşlıq edib «Şərq məktubları» başlığı altında cürbəcür yazılar çap etdirmişdir. Onun Parisdə yaşayan zaman yazdığı «Azərbaycan ədəbiyyatına bir nəzər» kitabı fransızcaya tərcümə edilmiş və 1922-ci ildə çap olunmuşdur.

Yusif Vəzir vətənə qayıtmağa icazə almaq üçün Sovet hökumətinə, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyova ərizə ilə müraciət edir. Buna əsas səbəb qardaşı Mirinin vaxtsız vəfatı idi. 1926-cı ilin əvvəllərində ərizəsinə müsbət cavab alır və Yusif Vəzir həmin ilin aprel ayının 3-də Bakıya gəlir. O, 1926-cı ilin aprelindən 1927-ci ilin martına qədər «Bakı işçisi» kooperativ nəşriyyatında bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur. Yusif Vəzir sonralar Azərbaycan Dövlət Universitetinin (İndiki Bakı Dövlət Universitetinin) şərqşünaslıq və pedaqoji fakültələrində, eləcə də Pedaqoji, Tibb və Neft institutlarında Azərbaycan və rus dilləri kafedralarında dərs demişdi. Eyni zamanda o, Dövlət Plan komitəsində ixtisası üzrə vəkil işləmişdir. Mütəfəkkir Ruhulla Axundovun redaktəsi ilə çıxmış «Rusca-azərbaycanca lüğət»in müəlliflərindən biri olmaqla bərabər Azərbaycan dilində terminologiyanın yaradılmasında da əvəzsiz xidmət göstərmişdi. 1937-ci ildə Yusif Vəzir Yazıçılar İttifaqından çıxarılır və ona qarşı hər tərəfdən hücumlar başlanır. Repressiya üzündən evindən bayıra çıxmayan Yusif Vəzir 1938-ci ilin iyun ayında gizli olaraq İsmayıllı rayonunun Mican kəndinə gəlir. Burada bir müddət qaldıqdan sonra 1938-ci ilin avqust ayında mütəfəkkir Özbəkistan SSR-in Urgənc şəhərinə gedir və Xorəzm Vilayət Pedaqoji İnstitutunda rus dili müəllimi vəzifəsində işləməyə başlayır. Yusif Vəzir tez bir zamanda 1939-cu ildə «rus və xarici dillər və ədəbiyyatları» kafedrasının müdiri seçilir. 1939-cu ilin iyul ayında Yusif Vəzir məzuniyyətə çıxıb Bakıya gəlir. Yusif Vəzir yenə də təzyiqlərlə qarşılaşır. O, məzuniyyətini başa vurduqdan sonra yenidən Urgənc şəhərinə yola düşür. 1940-cı il yanvar ayının 27-də Yusif Vəzir Urgənc şəhərində həbs olunaraq Bakıya gətirilir. 1940-cı ilin iyul ayının 3-də o, altı aya yaxın Keşlə həbs düşərgəsində saxlanıldıqdan sonra Nijni-Novqorod vilayətinin Suxabezvo-dnaya kəndindəki həbs düşərgəsinə göndərilir. 1943-cü ilin yanvar ayının 3-də Yusif Vəzir Çəmənzəminli həmin həbs düşər-gəsində pellaqra xəstəliyindən vəfat etmişdir. Mütəfəkkirin Çəmənzəminli təxəllüsü əslən Cənubi Azərbaycanın Çəmənzə-

min kəndindən olan və Şuşada Yusifgilin həyətində yaşayan qardaşların kəndlərinin adı ilə bağlıdır.

Qeyd olunduğu kimi, Yusif Vəzir təhsilini davam etdirmək üçün Kiyevə getsə də, heç bir zaman vətəni ilə əlaqəni kəsməmişdi. O, Bakıda nəşr olunan qəzet və jurnalları müntəzəm olaraq alır, Azərbaycanda baş verən hadisələrlə yaxından tanış olurdu. Eyni zamanda Yusif Vəzir öz yazılarını Bakıda çıxan qəzetlərin redaksiyasına göndərirdi. Mütəfəkkir Kiyevdə oxuyan zaman onu düşündürən əsas məsələlərdən biri də Azərbaycan dilində kitabların nəşri və onların yayılması olmuşdur. O, bu məqsədlə Kiyevin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrdən ibarət xüsusi nəşriyyat heyəti təşkil etmişdi. Bu heyət kitabları çap edib yaymaq yolu ilə tələbələrə ana dillərini sevdirməklə bərabər, onların biliklərinin artırılmasını da vacib hesab edirdi. Onun xalq nağıllarından götürülmüş uşaqlar üçün yazdığı məşhur «Məlik Məmməd» nağılı 1910-cu ildə Kiyevdə yazılmış və kitabça şəklində Bakıda «Kaspi» mətbəəsi tərəfindən 1911-ci ildə nəşr olunmuşdur. Eyni zamanda Yusif Vəzir Azərbaycan tarixinin yazılması təşəbbüsünü də irəli sürürdü. Bu barədə Yusif Vəzir «Biz kimik və istədiyimiz nədir?» adlı məqaləsində yazırdı: «Min illik müddətində Azərbaycanın zahiri şəkli hədsiz dəfələr dəyişilib: gah vəqti bir hökmdar əlinə keçib qonşu torpaqlara da əl uzadıb, gah da bölük-bölük olub, xanlar, əmirlər və məliklər rəyasətinə düşüb. Azərbaycanımız çox davalar və çox millətlər görüb və hərə də həyatımıza bir təsir buraxmamış olmayıb. Xülasə, keçmişimiz necə olub müfəssəl bir surətdə müvərrixlərimiz gələcəkdə yazarlar bilərik. Hal-hazırda biz tarixi pillələrdən keçib, min qovğa görəndən sonra uyuşub, sabit bir şəkil almışıq. Böyük türk millətinin bir şöbəsini təşkil eləyirik. Millətə məxsus bir amillərə dəxi malikik: ayrıca dilimiz, adət və qaidəmiz, ədəbiyyatımız var»(169, 7).

Mütəfəkkirin dil ilə əlaqədar fikirləri də mühüm əhəmiyyət kəsb edir. 1914-cü ildə çap etdirdiyi «Dil məsələsi» adlı məqaləsində Yusif Vəzir yazırdı: «Dil barəsində arabir yazılır. Hərə ortalığa bir fikir atır, yenə məsələ əvvəlki dairəsində qalır.

Camaatımızın anlamadığı, başa düşmədiyi bir dildə yazanların sayı gündən-günə artır. Bircə bunu bilməli ki, bu yazıçıların qəliz ibarələr işlətməkdə fikirləri nədir? Buna görə qələm sahiblərinə rast gəldikdə bu məsələ barəsində söhbət açıram, rəylərini bilmək istəyirəm. Məhz belə yazıblar, biz də ona baxıb yazırıq deyirlər.

Dilin birliyi üç-dörd adamın bir dildə yazdığı ilə olmaz, dil gərək işlənsin. Dili düzəltmək zəiflik sevməz, zor, gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində elə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Qələm sahiblərimiz buralara yönəlib camaatı öz dilləri ilə danışdırıb yol göstərməkdənsə, özləri düz yoldan çıxıb, camaatı da avara qoymaq istəyirlər»(163,34). Ümumiyyətlə, vətən və xalq həyatı əsas mövzu kimi ilk əsərlərindən başlayaraq mütəfəkkirin yaradıcılığında mühüm yer tutur, müxtəlif formalarda və istiqamətlərdə öz həllini tapırdı. Bir mövzu və problem kimi Vətən və Xalq sonralar onun çoxcəhətli yaradıcılığında Azərbaycan və azərbaycançılıq şəklində konkretləşir, əyaniləşirdi.

1917-1925-ci illəri həyatının ən acınacaqlı illəri kimi qiymətləndirən mütəfəkkir 1919-1925-ci illərdə əvvəl Türkiyədə, sonra isə Fransada yaşadığından, vətənində baş verən böyük ictimai-siyasi hadisələrdən kənarda qalmışdı. Lakin o, bu illərdə boş oturmamış Azərbaycan tarixinin və ədəbiyyatının tədqiqi ilə məşğul olmuşdu. «Yusif Vəzir xalqımızın ən qədim tarixində, ibtidai icma quruluşundan bəhs edən «Qızlar bulağı»nda vəhşi xaqanların yırtıcı siyasətini, qanlı müharibələri ifşa, əmin-amanlığı, yaradıcı əməyi, yeni, işıqlı adətləri təbliğ edirdisə, «İki od arasında» XVIII əsrdə Qarabağ xanlığının ictimai-siyasi həyatını, «Studentlər» və «1917-ci ildə» romanlarında isə Kiyevdə təhsil alan və yeni həyat uğrunda mübarizə aparmaq əqidəsilə yaşayan azərbaycanlıların fikir və duyğularını əks etdirmişdir»(85,158). Mütəfəkkir sovet dövründə yazdığı hekayələrində «yeni aləmlə əlaqədar təsvir edilən obrazları əksər

hallarda köhnə aləmin qalıqları ilə qarşılaşdırır, bu qarşılaşdırma da bəzən yeni aləm və onu təmsil edən obraz ön planda verilir, bu halda yeninin təsdiq və təbliği müəllifin əsas qayəsi kimi diqqəti cəlb edir, bəzən də yeniləşən mühitdə və şəraitdə köhnə dünyanın qalıqları qabarıq təsvir edilir. Bu təsvirin də özündə qarşılaşdırma və müqayisə olur, lakin burada tənqid əsas istiqaməti və ruhu təşkil edir. Bütövlükdə isə bu hekayələrdə iki cəhət birlikdə nəzərə alınmış olur: yenini göstərib təbliğ və təsdiq etmək; yeni ilə barışa bilməyən, onunla nəinki ayaqlaşmaq istəməyən, hətta ona qarşı durmağa fürsət və məqam gözləyən köhnəni ifşa etmək. Bir çox dilləri mükəmməl bilən Yusif Vəzir Çəmənzəminli tarixi milli özünüdərkdən gələn Azərbaycan folklorunun gözəl bilicisi və toplayıcısı olmaqla bərabər, bu tükənməz çeşmədən bir sənətkar kimi faydalanmışdır. Bu onun ictimai amalı, mənəvi ehtiyacı ilə bağlı olmuşdur. «Xalqın yaratdığı bayatılar, ana laylaları, atalar sözləri və məsəllərinə uşaqlıqdan valeh olan, nağıllardakı böyük fəlsəfəni, atalar sözlərindəki hikməti yüksək qiymətləndirən Yusif Vəzirin bu el sərvətini toplaması və yeri gəldikcə çap etdirməsi onun həyatda uğurlu axtarışları idi»(70, 109) .

Onun inqilabdan əvvəlki hekayələrində əxlaqi çürüklüyün, adət və davranışlardakı çatışmazlığın göstərilməsi və ifşası, gəncliyin mənəvi axtarışlarındakı çətinliklər, tələbə həyatının ağırlığı, ailədə, məktəbdə, ümumiyyətlə müsəlman mühitində uşaq tərbiyəsinin düzgün qurulmasının acınacaqlı nəticələri və s. məsələlər də əks olunmuşdur. Bütün bunlar Yusif Vəzir yaradıcılığının inqilabdan əvvəlki dövründə yazdığı hekayələrinin mövzu və problemin qoyuluşunun olduqca geniş və əhatəli olduğunu göstərir. Mütəfəkkir inqilabdan əvvəl yazdığı hekayələrinin çoxunu, «Arvadlarımızın halı», «Ana və analıq», «Qulluq və əsrlik» kimi publisist əsərlərini, o cümlədən «Yeni həqiqət», «Yeni İrşad», «İqbal», «Açıq söz» qəzetlərində çap olunmuş məqalələrini Müqəddəs Vladimir adına Kiyev İmperator Universitetində oxuduğu illərdə (1910-1915) qələmə almışdır. Bundan başqa onun «Sərhəd məsələsi» (1909), «Borclu» (1910),

«Məşədi və Kərbəlayı» (1910), «Həkim» (1911), «Cümə axşamı» (1911), «Dəli» (1911), «Dinayrı qardaşlar» (1911), «Əziz» (1911), «Nahaq qan» (1913), «Bir qəpik» (1913), «Dürnisə və Kərbəlayı Eyvaz» (1913) kimi hekayələri və məqalələri olmuşdur. Yusif Vəzir Kiyevdə olduğu kimi Saratovda da öz vətəni ilə əlaqəni kəsmir, onu düşündürən bir sıra ictimai-siyasi məsələlər barədə Azərbaycan mətbuatında məqalələrlə çıxış edirdi. 1914-cü ildə yay tətilində Aşqabada gedən mütəfəkkir «Günah» romanını (studentlərin ilk variantı) yazmağa başlamış, 1915-ci ildə Kiyevdə davam etdirmiş və Saratov şəhərində həmin ildə tamamlamışdı. Yusif Vəzir Çəmənzəminlinin «Bizə ciddi mətbuat çoxdan lazım idi» adlı məqaləsi istər keçmişimiz üçün, istərsə də bu günümüz üçün mühüm əhəmiyyət kəsb edir. Onun bu məqaləsini inqilabdan əvvəl Azərbaycan mətbuatının vəziyyəti haqqında yazılmış ən yaxşı əsərlərdən biri saymaq olar. O, bu haqda fikrini davam etdirərək yazırdı: «Mətbuatımız xarab olmuş bir lampaya bənzəyir-gah yanır, gah keçir, yandıqda işıq vermir, işıq verdikdə şöləsi həmişə bərqərar olmur. Mətbuatımızın bu qeyri-sabit halı oxucuların və millətin halına da sirayət etməmiş olmur»(119, 141) .

Mütəfəkkiri mətbuatla bərabər düşündürən digər bir məsələ şərq qadınının hüquqsuzluğu, o cümlədən Azərbaycan qadınının acı taleyi idi. O, istər inqilabdan əvvəl və istərsə də sonra yazdığı bir çox ictimai-siyasi, bədii-fəlsəfi publisist və elmi tədqiqat xarakterli əsərlərində məsələn: «Müsəlman arvadının sərgüzəştləri», «Toy», «Divanə», «Dərdli Züleyxa», «Doqquz ay keçmiş», «Üç», «Namussuz», «Son səhifə», «Qaynananın oyunları», «Ana və analıq», «Arvadlarımızın halı», «Türklükdə saray qadınları», «Qədim İran qadınları», «Çadra ətrafında» və s. bu məsələdən ətraflı bəhs etmişdir… XX əsrin 30-cu illərində ədəbiyyatımızda Azərbaycan, o cümlədən Şərq qadını və ümumiyyətlə qadınlıq, analıq haqqında əsər yazanlar yeni quruluşun sosializm cəmiyyətinin qadına, anaya inkişaf üçün böyük imkan açdığını ruh yüksəkliyi ilə tərənnüm edirdilər və bunun üçün qadının keçmiş acı taleyindən söz açıb, bu günün

qadınının xoşbəxtliyini daha parlaq ifadə etməyə çalışırdılar…(78, 30). Yusif Vəzir yaradıcılığında maarifçi demokratlar üçün səciyyəvi hallardan biri də Azərbaycan qadınlarının hal-hazırkı vəziyyətlərini dərindən əks etdirən mənəviyyat güzgüsündə çar istibdadından əziyyət çəkən, əzilən xalqı mübarizəyə səsləmək, qadınların hüququnu təmin etmək, onların üzünə mədəniyyət, təhsil və maarif qapısını açmaq kimi qabaqcıl vəzifələr qoymuşdu. Mütəfəkkir «Arvadlarımızın halı» əsərində yazırdı: «Arvadlarımız əsarətdə çapalamaqdadırlar. Onlar üçün elm qapıları bağlıdır, onlar mal kimi satılır, bağışlanır və oğurlanır. Onların təbii vəzifəsi analıq məhv olub gedib, təkcə kişilərin nəfsi-heyvaniyyələrinə xidmət etmək üçün çarşab qaranlığında yaşayırlar. Məgər arvadlarımızın bu halı millətimizin geridə qalmağına böyük bir səbəb deyil? Məgər arvadların tənəzzülü millətin tənəzzülü deyil? Hükəma dəfəatla təkrar edibdir ki, hər millətin arvadlarının vəziyyəti mədəniyyət dərəcəsinin ölçüsüdür. Yəni nə qədər arvad mədəni olsa, nə qədər onun elm-təhsili mükəmməl, ağıl dairəsi geniş, əri ilə hüquq və ixtiyaratda müsəvi olsa, bir o qədər o, arvad tərbiyəli övlad bəsləməyə müqtədir olar.

Camaatımızın cəhalətdə qalmağına baxıb ah çəkincə yaxşı deyilmi onun səhvini axtarıb mübarizə edək. Bu səbəb əlbəttə arvad məsələsi ilə mərbutdur. Bu məsələ arvadlarımızın mənfəətinə həll olunsa, millətimizin qabağa getməyinə şəkk olmayacaq. Pəs hər kəs öz millətini sevir, onun gələcəyini parlaqlığını arzu edir-arvadların tərbiyə və təliminə çalışmalıdır, onların hüququnu qaytarıb, sərbəstliyini qaytarıb ağıl və zəkasına meydan verməlidir»(168, 146). Yusif Vəziri qadın azadlığı ilə bərabər milli özünüdərkdən gələn xalqının milli-azadlığı məsələsi də dərindən düşündürürdü. Onun «Azərbaycan muxtariyyəti» silsiləsindən olan məqalələr toplusu 1918-ci ildə Bakıda «Açıq söz» mətbəəsində kitabça şəklində çap olunmuşdu. Mütəfəkkirin bu kitabçasının «Ayılın, toplaşın!» müqəddiməsi isə «Açıq söz» qəzetinin 20 noyabr 1917-ci il tarixli 6-10-cu nömrəsində ayrıca məqalə kimi də çıxıb. Millətin, xalqın azad fikirlərinin,

müstəqilliyinin əldə edilməsi yollarında hər cür məhrumiyyətlərə dözməklə güclü muxtariyyətə əsaslanan dövlət yaratmaq naminə türk xalqına, onun millətinə xitabən söylənilənlər çox maraqlı və diqqətə layiqdir. Bu baxımdan Şeyx Şamilin yada salınması çox yerinə düşən, arzu olunan bir hadisədir. Mütəfəkkir «Şeyx Şamil hərəkatına dərin rəğbət bəsləyən yazıçı kimi insana məxsus bütün ən gözəl sifətlərin: kişiliyin, qeyrətin, cəsurluğun, qoçaqlığın, mərdliyin, vətənpərvərliyin onun simasında tapmasından vəcdə gəlir, dövrün ictimai-siyasi hadisələrinin kəskinləşməsi ilə bağlı yeni Şeyx Şamillərin peyda olmasını millətin halına yanan, bütün fikri, düşüncəsi, varlığı ilə xalqla bağlı bir sərkərdənin yetişməsini arzu edir»(88, 98). Yusif Vəzirə görə xalqlar arasında milli xüsusiyyət, milli xarakter fərqlərinin azlığı və çoxluğu müəyyən tarixi amillərdən bu xalqların təmasından da asılıdır. Əsrlər boyu dini qanunların şüurlara təlqin etdiyi ehkamlar eyni dindən olan millətlərin mənəviyyatında, psixologiyasında bir-birinə yaxın izlər qoyur. Bu izlər sivilizasiya ilə əlaqədar olaraq azalmağa doğru gedir. İqtisadi, mənəvi cəhətdən bir-biri ilə təmasda yaşayan qonşu xalqların qədimdən başlayan yaxın məişət münasibətləri tədricən onların mənəvi aləmində, zövqündə də bir yaxınlıq əmələ gətirmişdir. Xalqlardakı bu cür yaxın məişət, mədəni münasibətlər onların beynəlxalq münasibətlərində müəyyən rol oynasa da, millilik çərçivəsində bu cür münasibətlər ikinci dərəcəli sayılır. Çar Rusiyasında müəyyən mərkəz idarələrə tabeçilik üsulu ilə çoxmillətli xalqların dövlət halında birləşdirilməsində ədalət meyarı, milli müəyyənlik gözlənilmədiyindən, dövlətçilikdə sabit idarəçilik pozulduğundan aydın məsələdir ki, hərc-mərclik, xaos yaranırdı.

Yusif Vəzir Çəmənzəminli bilirdi ki, zəngin təbiətə, ictimai-siyasi və coğrafi şəraitə malik Azərbaycanı ayıltmaq, onu dünya sivilizasiyasının fövqünə istiqamətləndirmək heç də asan iş deyil. Ona görə xalqın özünüdərki üçün mətbuata, maarif-mədəniyyətə, kütləvi informasiyanın digər vasitələrinə güc vermək lazımdı. Mütəfəkkir Kiyevdə Millətlər Şurasından qayıdandan sonra etdiyi məruzələrdə Azərbaycan muxtariyyəti

üçün lazım olan zəruri məsələlərin təcili planının çəkilməsini israr edir: «Cəmi millət öz yükünü təpəyə vurub və vurur. Biz isə köhnə ətalət və kəsalət ilə yaşayırıq. İndiyə kimi bizim nə mərkəzi bir şuramız, nə milli bir idarəmiz var. Qafqazda sayda hamıdan artıq ola-ola, əlahiddə bir millət təşkil edə, mal və dövlətə malik ola-ola öz milli irsimizi öz əlimizə ala bilmirik. Ey nəcib millət, ayıl! Bir rəşadətli balalarını yad et! Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalandığın kifayət edər»(88, 100). Mütəfəkkir mənsub olduğu Azərbaycan xalqının milliliyini çox gözəl və dərin başa düşdüyündən milliliyə daxil olan bütün milli xüsusiyyətləri bacarıqla açır, milli kimliyimizlə bağlı hər şeyi öz əsərlərində olduqca geniş işıqlandırır. Yusif Vəzir Çəmənzəminli sənətin milliliyini Azərbaycan türklərinin dili, həyatı, təbiəti, problemləri, eləcə də mədəni irsi ilə bağlılığında, doğmalığında axtarırdı. Ona görə milli müəyyənlikdən məhrum olan əsərlər ümumbəşəri əhəmiyyət kəsb edə bilməz, ümumiyyətlə onları əsl sənət əsərləri saymaq çətindir. Mütəfəkkirə görə Azərbaycanda milli mənlik şüurunun və milli özünüdərk ideyalarının formalaşması müəyyən tarixi proseslər çərçivəsində inkişaf etmiş və xalqımızın buna bağlılığı, doğmalığı, məhəbbəti daha da artaraq möhkəmlənmişdir.

Onun bütün külliyyatı ilə tanışlıq və haqqında yazılmış elmi monoqrafiyalardan məlum olur ki, o, səkkiz müxtəlif ada malik imzalarda əsərlər yaratmış, ədəbi fəaliyyətinin demək olar ki, son dövrünə kimi bu imzalardan istifadə etmişdi. Tədqiqatçı alim Cənnət Nağıyevanın «Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri» adlı monoqrafiyasında fəsillərdə tutuşdurulan Çəmənzəminliyə məxsus hər hansı müvafiq bir arxiv avtoqrafından (əlyazmasından) məlumdur ki, «Sərsəm» imzası ilə 1914-cü ildə Bakıda «Səda» qəzetində 17 müxtəlif adda «Hədərən-pədərən» silsiləli felyetonu çap olunmuşdur. Yusif Vəzirin həmçinin 3 ədəd oçerki aşkar edilmişdir ki, bunlardan da biri milli məsələ ilə bağlı monoqrafiyada fikrimizin əsaslanmasına xidmət edən «On beş gün Ermənistanda» yazısıdır.

Arxivdə eyni adda, lakin, ixtisar edilməsi lazım bilinən bəzi avtoqraflar istisna edilməklə yazıçının 74 hekayəsi qeydə alınmışdır. Əlyazmalar İnstitutunun arxivində 1907-1934-cü illərdə Yusif Vəzirin yazdığı 4 hissədən ibarət «Bir cavanın dəftəri», 2 hissədən ibarət «Qızlar bulağı», 3 hissə və epiloqdan ibarət «İki od arasında» (sonralar «Qan içində» adlandırılmışdır), 1914-cü ildə yazdığı «Günah», «1917-ci ildə», 1928-ci ildə qələmə aldığı 2 hissədən ibarət «Paris romanları», nəhayət «Günah»ın «Studentlər» adlandırılması ilə yeni variantının yeni nəşri üçün hazırlanmış romanı səliqə ilə yığılmış və qorunub saxlanmışdır. Deməli, yazıçının 5 müxtəlif adda romanı olmuş, «Tərtər», «Xaricdə», «Çarpışmalar» adlı məzmunca «Studentlər» silsiləsindən romanlar yazmaq fikrində olmuşdur. Bununla belə, ədibin 3 adda səhnə əsərləri: 1 pərdəli «Ayılmışlar», 3 məclisdə «Nişanbazlıq», 17 şəkildə «Həzrəti-şəhriyar» komediyaları olmuşdur»(88, 48-49).Yusif Vəzir Çəmənzəminlinin bu günümüz üçün aktuallıq kəsb edən ictimai-siyasi görüşləri hazırda özünü praktik həyatda doğrultmuşdu. Mütəfəkkirə görə hər hansı güclü və təcavüzkar dövlətdən qorunmaq üçün daha güclü, lakin sülhsevər iri dövlətlərə sığınmaq, onlarla dostluq əlaqələrimiz bizə qarşı təcavüz etmək istəyən digər dövlətləri həmin addımdan çəkindirə biləcəkdir. Yusif Vəzir Çəmənzəminlinin siyasi diplomatiyaya aid «İngiltərə ilə dostluq», «İran və Biz», «Ermənistan və Biz», «Gürcüstan və Biz» adlı elmi fəlsəfi məzmunlu məqalələri də vardır.

Mütəfəkkiri eyni zamanda Azərbaycan tarixi, coğrafiyası, iqtisadiyyatı və mədəniyyəti ilə bağlı məsələlər daim məşğul etmişdi. Onun «Qan içində» adlı tarixi romanında bəhs olunan XVIII əsr Azərbaycan mühitinin müxtəlif çalarlarından başlamış «Studentlər»ə qədər xalq həyatının səciyyəvi xüsusiyyətləri öz əksini tapa bilmişdir.

Yusif Vəzir Çəmənzəminli dərin məzmunlu elmi-fəlsəfi yaradıcılığında milli mənlik və milli özünüdərk ideyaları ilə bərabər xalqı düşündürən ictimai-siyasi, mədəni-əxlaqi məsələləri, xalqın tarixi həyat yolunu geniş işıqlandırmaqla yanaşı, o,

yalançı millətçiliyi, fırıldaqçılığı, kələkbazlığı bütöv bir millət üçün təhqir hesab edirdi. Mütəfəkkirin bu fikirləri onun ictimai-siyasi və fəlsəfi məzmunda yazdığı «Həzrəti-Şəhriyar» adlı komediyasında açıq-aydın sezilir. Yusif Vəzir Çəmənzəminlinin elmi fəlsəfi yaradıcılığını şərti olaraq 3 qrupa bölmək olar: birinci qrupa mütəfəkkirin inqilabdan əvvəlki ictimai-siyasi, elmi-fəlsəfi yaradıcılığı aiddir. İkinci qrupa mütəfəkkirin Azərbaycan Xalq Cümhuriyyəti dövrünü və onun mühacirətdəki yaradıcılığını göstərmək olar. Üçüncü qrupa Yusif Vəzir Çəmənzəminlinin mühacirətdən sonrakı – Sovet dövründəki elmi-fəlsəfi yaradıcılığını aid etmək olar.

Beləliklə, Azərbaycanda milli yeniləşmə, milli oyanış hərəkatı Mirzə Fətəli Axundovla başlasa da, lakin onunla bağlı milli ideya uğrunda mübarizə hərəkatı, milli gerçəkliyimizin çox mühüm tərkib hissələrindən biri kimi A.A.Bakıxanovdan başlayaraq M.Ş.Vazehi, M.Kazım bəyi, Ö.F. Nemanzadəni, M.A.Şahtaxtlını, M.Hadini, H.B.Zərdabini, M.Ə.Sabiri, A.Şaiqi, C.Məmmədquluzadəni, Ə.Ağaoğlunu, Ə.Hüseynzadəni, M.Ə.Rə-sulzadəni, N.Nərimanovu, Ü.Hacıbəyovu, M.B.Məmmədzadəni və nəhayət Y.V.Çəmənzəminlini də daim düşündürmüş və onlar öz xalqını yeniliyə, tərəqqiyə, maariflənməyə çağırmaqla bərabər, onun özünütanımasına, özünəqayıdışına və milli özünüdərkinə çalışmışlar.

Məlumdur ki, XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin bütün başqa dövrlərdən köklü surətdə fərqlənir. Bu dövr xalqın milli oyanış, milli özünüdərketməsinin inkişafı və bu inkişafdan gələn milli azadlıq hərəkatı ilə səciyyələnir.

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində milli mənlik şüurunun və milli özünüdərketmə ideyalarının inkişafı nəticəsində çarizmə qarşı milli-azadlıq mübarizəsi yüksək səviyyəyə çatmış və bütün bunların da məntiqi nəticəsi kımi Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdı. Eyni zamanda bu tarixi nailiyyətlərin nəzəri və siyasi həyatda özünün də xalqımızın tarixi milli özünüdərk ənənəsi kimi müasir Azərbaycan Respublikasının yaradılmasında müstəsna rolu vardır.

# III FƏSİL
# TARİXİ MİLLİ ÖZÜNÜDƏRK ƏNƏNƏLƏRİNİN MÜASİR DÖVRDƏ MİLLİ ŞÜURUN İNKİŞAFINDA ROLU

Müasir dövrdə xalqların və millətlərin milli oyanışı ölkədə, eləcə də dünyada gedən milli-demokratik prosesin qanunauyğun nəticəsidir. Milli oyanış, milli özünüdərketmə hər bir xalqın və millətin ümumi inkişafında mütərəqqi bir hadisədir. «Milli özünüdərk üçün cəmiyyətin mənəvi olaraq dəyişməsi zəruridir. Burada əsas olaraq mənəvi aləmi nəzərdə tutmaq lazımdır. Milli mədəniyyətin və tarixin önə çıxarılması milli özünüdərkin əsas istiqamətləridir... Spenser deyirdi ki, "milləti ideya yaradır". O ideya da ilk növbədə tarixdə formalaşır. Tarix düzgün yazılmalı və şüurlara yeridilməlidir. Sonra dövlətçilik şüuru gücləndirilməlidir. Dövlətçilik şüuru birbaşa mənəviyyata bağlıdır. Mənəviyyatı milli olan insanların dövlətə bağlılığı da güclü olur. Milli özünüdərk bunlardan formalaşır»(204).

Eyni zamanda Azərbaycan xalqı da çox qədim dövlətçilik ənənələrinə və siyasi tarixə malik olmaqla bərabər, tarixən bütün dövlət formalarını və tiplərini yaşayan bir xalqdır. Qədim Manna, Midiya, Albaniya, Atropatena, Orta əsrlərdə Səfəvilər və XX əsrin əvvəllərində Xalq Cümhuriyyəti dövlətlərindən müasir tipli respublikayadək uzun bir tarixi inkişaf yolu keçmiş Azərbaycan dövlətçiliyi bu gün özünün şərəfli müstəqillik həyatını yaşayır.

Müasir Azərbaycan dövlətinin ən yaxın sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə ən şərəfli bir səhifədir. Qeyd olunduğu kimi, XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycanda milli mədəniyyət, milli mətbuat, təhsil, ədəbiyyat yüksək sürətlə inkişaf etmiş və xalqımızın qabaqcıl təbəqələrinin, ziyalılarının şüurunda müstəqillik, milli mənlik və milli özünüdərk ideyaları özünə möhkəm yer tutmuşdur. Bütün bunların nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti yaranmış, lakin cox keçmədən Sovet Rusiyası tərəfindən işğal olunmuşdu. Beləliklə də, Azərbaycan müstəqilliyini itirsədə dövlətçilik idealını itirməmişdir.

Heydər Əliyev bu dövrü xarakterizə edərək demişdir: «Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz bu varislik prinsipini şərəflə, sədaqətlə yerinə yetiririk. Şübhəsiz ki, 1918-1920-ci illərlə 1990-cı illər arasında böyük fərq var, yaxud o dövrlə bu dövr arasında çox böyük məsafə var. Bu məsafə də boşluqdan ibarət deyil - bu 70 ildə Azərbaycan xalqı yaşayıb, yaradıb, xalq kimi, millət kimi inkişaf edibdir və Azərbaycanın bu gün mövcud olan iqtisadi, siyasi, intellektual, mədəni potensialını yaradıbdır»(198).

1920-ci ilin aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalından sonra Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində xalqda yaşayan milli mənlik şüurunun, milli özünütəsdiqin və milli özünüdərk ideyalarının inkişafının məntiqi nəticəsi idi. 1918-ci ilin mart soyqırımını törədən erməni daşnakları sonralar, 1920-ci ilin sovet işğalında da yaxından iştirak etdilər. İndi bolşevikləşmiş daşnaklar Sovet hakimiyyətinin qurucuları kimi xalqımızın başına olmazın əzablar gətirirdilər. Belə mənfur niyyətli bolşevikləşmiş daşnaklar «saxta cinayət işləri» qaldıraraq, 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirirdilər və yüzlərlə ziyalılarımızı ilk növbədə milli ruhlu ziyalılarımızı millətçi, pantürkist, panislamist ideoloqları olmaqda ittiham edərək məhv etdilər. Eyni zamanda 41 yaşında güllələnmiş Ruhulla Axundovu, 47 yaşında güllələnmiş Çingiz İldırımı, 50 yaşında güllələnmiş Dadaş Bünyadzadəni, 44 yaşında edam edilmiş Mirzə Davud Hüseynovu, 45 yaşında öldürülmüş Mustafa Quliyevi, 42 yaşında güllələnmiş Əliheydər Qarayevi, 51 yaşında edam edilmiş Sultanməcid Əfəndiyevi, 49 yaşında güllələnmiş Həmid Sultanovu, 50 yaşında öldürülmüş Qəzənfər Musabəyovu və başqalarını da buraya əlavə etmək olar. Adları sadalanmış bu ictimai-siyasi xadimlər Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda amansız mübarizə aparmış və öz qurduqları

hakimiyyətin əli ilə qətlə yetirilmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti və sələfi olan Müasir Azərbaycan arasında keçid dövrü Sovet Azərbaycanı olmuşdur. Bu dövrdə marksist-leninçi ideologiyanın hökm sürdüyü Sovet dövlətində yaşayan xalqların milli hissləri tapdalanmış və milli özünüdərk ideyalarına biganə münasibət bəslənmişdi. Düzdür milli mədəniyyətlər Sovet dövlətində inkişaf etdirilib. Lakin bu inkişaf vahid marksist-leninçi ideologiyaya və vahid Sovet dövləti maraqlarına uyğunlaşdırılaraq tabe edilib. Bunun əvəzinə Sovet milləti ideyası irəli sürülmüşdü. «Sovet Rusiyasının 28 aprel işğalı AXC-ni süquta uğratsa da, onun milli ideologiyasını (türkləşmək, islamlaşmaq və müasirləşmək), əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlər sistemini məhv edə bilmədi və bunun üçün uzun müddət mübarizə aparmalı oldu. Həm dövri mətbuat, həm sənət sovetləşdirildi, yəni marksist-leninçi baxışlar sisteminə, modelinə uyğunlaşdırıldı. Milli şüuru dəyişmək istiqamətində məqsədyönlü siyasət yürüdüldü.

Sənət adamları yaşlı və gənc nəslin nümayəndələri adı altında iki cəbhəyə bölündü. Yaşlı və gənc nəsil arasında bir qadağa zolağı, uçurum yaradıldı. Çalışdılar ki, onları bir-birindən uzaq salsınlar, tarixi irslə varisliyin əlaqəsini qırsınlar. Ona görə də sovet cəmiyyətini mədh etməyənlər və 30-cu illərdə sosializmi bəyənməyənlər pantürkizmdə, millətçilikdə ittiham olundu. Başqa sözlə, Azərbaycan FK (Fövqəladə Komissiya – Ə.O.), DSİ (Dövlət Siyasi İdarəsi - Ə.O.), «tərbiyə edə» bilmədiklərini XDİK (Xalq Daxili İşlər Komissarlığı – Ə.O.) məhv etdi»(99, 213).

Bu dövrdə milli respublikaların xalqları, o cümlədən Azərbaycan xalqı öz tarixinin mühüm tərkib hissəsi olan ictimai-siyasi və fəlsəfi fikir tarixinin obyektiv şərhindən məhrum edilmişdi.

Dövrün tələblərinə uyğun olaraq Azərbaycanın bir çox görkəmli simaları kommunist rejiminin diqtəsi altında marksist-leninçi fəlsəfəsinin təhlili və təbliği ilə məşğul olmuşlar.

1923-cü ildə “”Materialistlər klubu” yaranır. Bu klub adından göründüyü kimi, ancaq dialektik materializminin təbliği

ilə məşğul olmuşdu. Klubun ilk üzvlərinin – N.Nərimanovun, S.M.Əfəndiyevin, S.Ağamalıoğlunun, Ə.Qarayevin, Q.Musabəyovun, R.Axundovun təşəbbüsü ilə Mirzə Fətəli Axundovun "Hindistan şahzadəsi – Kəmalüd-Dövlənin öz dostu İran şahzadəsi Cəmalüd-Dövləyə üç məktubu və Cəmalüd-Dövlənin ona cavabı" adlı əsəri ilk dəfə 1924-cü ildə Azərbaycan dilində çapdan çıxmışdı.

Nəriman Nərimanovun "Elmi kommunizm dərk olunma yolları" adlı əlyazmasında qalan populyar formalı əsəri nəinki elmi kommunizm əsaslarını, tarixi materializmin əsas məsələlərini ifadə edir, həmçinin dialektik materializmin əsas məsələləri olan inkişafın iki konsepsiyası (təfəkkürün dialektik və metafizik metodları), materialist fəlsəfəsi, formal məntiqə böyük diqqət yetirir. "Dialektika elminin metodları", "Formal məntiqin elmi", "Fəlsəfə", "Tarixi inkişafa iki baxış", "Tarixə materialist və idealist baxış" və s. əsərlərinin əlyazmasının bölmələrində Nəriman Nərimanov marksist dialektikanın fəlsəfi materialist mahiyyətini asan şəkildə şərh edir. Görünür o, marksist-leninçi fəlsəfənin əsaslarının öyrənilməsi üçün vəsait hazırlamaq istəyirdi. Onun müəmmalı ölümü bu fəlsəfi vəsaitin hazırlanmasını yarımçıq qoymuşdur.

Dialektikanın məsələlərinə Səmədağa Ağamalıoğlu da az diqqət yetirməmişdir. O, fəlsəfi məsələlər ilə bilavasitə məşğul olmamış və fəlsəfəyə dair xüsusi əsər yazmamışdır.

S. Ağamalıoğlu özünün bir çox əsər və məqalələrində (iki mədəniyyət, elmdən və tarixdən və s.) fəlsəfi fikirlərə geniş yer vermişdi. O, öz məqalə və əsərlərində marksist-leninçi fəlsəfənin bir sıra məsələlərinin şərhini vermişdir. Onun fikrincə, fəlsəfənin əsas məsələsi olan təfəkkürün varlığa münasibəti məsələsində materiya birinci, şüur isə ikincidir. Yəni bir sözlə, şüur materiyanın məhsuludur. Ona görə bizim bütün fikirlərimiz, ideya, təsəvvürlərimiz, hisslərimiz insan və materiyadan kənarda mövcud olan ilahi bir qüvvədən asılı deyil, onlar ətraf mühitin bizə olan təsirindən asılıdır. Ağamalıoğlu aqnostiklərə əks çıxaraq dünyanın dərk edilməsi və onun qanunauyğunluqlarının

öyrənilməsinin marksist-leninçi nəzəriyyəsini müdafiə edir və təbliğ edirdi. Onun fikirlərinə görə “dünyanın dərk edilməsi və onun dəyişilməsinin zəruriliyi elə əsl marksisit inqilabçının ruhudur”(179, 74-75). Ona görə, kim aləmin, gerçəkliyin dərk edilməsi və onun qanunauyğunluqlarını inkar edirsə, o, insanların şüurunu kütləşdirir, öz güclərinə inamını qırır. S.Ağamalıoğlu qeyd edir ki, dialektik materializmin əhəmiyyətinin əsas mahiyyəti ondadır ki, təbiətdə və cəmiyyətdə bütün yeniliklər köhnələrlə barışmaz mübarizə ilə inkişaf edir.

Ağamalıoğlu dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanununa əsaslanaraq, yeninin əmələ gəlməsinin, irəliləyişin, inkişafın qarşısıalınmaz olduğunu göstərirdi. Dialektikanın bu obyektiv qanunu təbiətdə, cəmiyyətdə, insan təfəkküründə təzahür edir. Dialektikanın əsas qanunu olan kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçməsi qanunundan danışarkən Ağamalıoğlu xüsusi olaraq qeyd etmişdir ki, təbiətdə və cəmiyyətdə inkişaf kəmiyyət dəyişikləri olmadan baş vermir. Bu səbəbdən də o, “kəmiyyət dəyişiklərinin keyfiyyət dəyişiklərinə keçməsi”, “sıçrayışlı” və “sıçrayış xarakterli”, “tədricilikdə fasilələr”, “vasitəsizlik və vasitəlilik”, “inqilab və təkamül” və s. kimi dialektik anlayışların mənasını açmağa çalışırdı. Eyni zamanda Səmədağa Ağamalıoğlu əksiliklərin vəhdəti və mübarizəsi qanununu, kəmiyyət dəyişiklərinin keyfiyyət dəyişiklərinə keçməsi qanununu və dialektik materializmin digər qanunlarını tədqiq və təhlil etmişdir.

XX əsrin 20-30-cu illərindəki mürəkkəb tarixi şəraitdə Ağamalıoğlu dövlət işləri ilə yanaşı, Azərbaycan ictimai-siyasi fikrini özündə əks etdirən, ictimaiyyəti düşündürən bir çox aktual məsələlərə həsr olunmuş məqalə, kitab və kitabçalarla çıxış etmişdi. O, əsasən yeni əlifba, maarif, din, mədəniyyət, qadın azadlığı və digər məsələlərə aid əsərlər yazmışdır. Onun əsərlərindən “Bizim yolumuz hayanadır?” (1924), “Türk aləmində mədəni məsələlər” (1924), “Türk-tatar xalqlarının təxirəsalınmaz mədəni ehtiyacları” (1925), “Elmdən və tarixdən” (1927), “Yeni türk əlifbasının müdafiəsində” (1927), “İki mədəniyyət” (1928),

“Şuraların işi” (1928), “Namus” (1929) və başqalarını göstərmək olar. S.Ağamalıoğluya görə ədəbiyyat xalqın milli-mənəvi zənginliyidir, tarixi inkişaf yolunu işıqlandıran bir məşəldir. Ona görə xalqın milli özünüdərkində mühüm rol oynayan ədəbiyyatda onun tarixi, həyatı, kədəri, sevinci, göz yaşları və mahnıları öz əksini tapmalıdır. Eyni zamanda teatrı həqiqət aynası adlandıran Ağamalıoğlu Azərbaycan qadınlarının səhnəyə çıxarılması işinə böyük diqqət yetirmiş qadın rollarının kişilərin ifa etməsini teatrın inkişafına mane olan əsas amillərdən biri hesab etmişdi. Qadınların keçmişdəki hüquqsuz vəziyyətindən bəhs edən S.Ağamalıoğlu sovet hakimiyyəti sayəsində onların hüquq bərabərsizliyinin aradan qaldırıldığından, əsl azadlığa və səadətə qovuşduqlarından, respublikanın siyasi, iqtisadi, ictimai və mədəni həyatında fəal iştirak etdiklərindən iftixar hissi ilə danışırdı. O, bu münasibətlə yazırdı: “Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra türk (Azərbaycan qadını- Ə.O) qadınları azadlıq əldə etdilər, qaranlıqdan günəşli işığa çıxdılar. Sovetləşmə həqiqətən geri qalmış Azərbaycana inqilabi ideya səpdi, yəni qadınlar istehsalata cəlb olundular, onlar öz xoşbəxtlik və səadətləri üçün təhsilə can atdılar. Bu isə çox böyük oyanma idi”(131, 42).

Eyni zamanda S. Ağamalıoğlu Şərq ölkələrində azad fikirliliyə, elm və mədəniyyətə düşmən kəsilmiş müsəlman şəriətçilərinin məşhur alim və filosoflara amansız divan tutduqlarından bəhs edərək yazırdı: “Görkəmli özbək astronomu və riyaziyyatçısı Uluq bəy ulduzları tədqiq etmək üçün bir rəsədxana yaratmışdı. Uluq bəyin tərtib etdiyi “elmi-heyət cədvəli və ulduzlar kataloqu” astranomiya elminin ən böyük nailiyyətlərindən biri idi. Uluqbəy islam tarixində yeganə bir addım atmışdı. “Gurxanın cədvəli” adlı əsəri onu, nəinki Şərq alimləri, hətta Qərb alimləri arasında da məşhur etdi. Uluqbəyin əsas məfkurəsi din və milliyyət fərqini nəzərə almadan ümumbəşəriyyətin tərəqqisi yolunda çalışmaq idi. O, 1449-cu ildə müsəlman ruhanilərinin əlilə xaincəsinə öldürülmüşdür”(131, 54).

S.Ağamalıoğlu milli özünüdərkin əsas amillərindən olan dilə üstünlük vermiş və onu ictimai bir hadisə adlandırmışdı. O, yazırdı: "Dili, həyati düşüncəni bir-birindən ayırmaq olmaz... Varlıq düşüncəni təyin edir... Dil də gerçəkli düşüncədir. Həyat düşüncəni böyüdür, düşüncə də dili. Daha doğrusu, bunlar bir yerdə dialektik bir surətdə böyüyür"(166).

Bu dövrdə dialektik materializm məsələləri ilə məşğul olan ictimai-siyasi xadim və filosof Ruhulla Axundovdur. O, Azərbaycanda marksist ideologiyasının təbliği və təşviqi sahəsində mühüm işlər görmüş və bu ideologiyanın daşıyıcısı olan V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə tərcüməsində fəallıq göstərmişdir.

R.Axundov dialektik materializm məsələlərinə xüsusi bir elmi iş həsr edib. O, 1929-cu ilin noyabr ayında fəlsəfə sahəsində qarşıya çıxan müxtəlifliklər və marksist metodologiyasının məsələləri başlığı altında yazılmış işini dialektik materializm məsələlərinə həsr etmişdir. R.Axundovun fikrincə, fəlsəfə cəbhəsində mübarizənin ana xəttini idealizmlə materializmin mübarizəsi tutur. Siyasi mübarizədə olduğu kimi, fəlsəfi cəbhədə də hər cür bütün aralıq fraksiyalar – dualizm, plüralizm, kortəbii və rüsvayçı materializm, maxizm, təftişçiliyin bütün müxtəlifliyi nəticədə, şüurlu və şüursuz, lakin labüddən cəmiyyətdə öz yerini təyin edərək ya idealizmə, ya da materializmə birləşir.

R.Axundov marksist-leninçi nöqteyi-nəzərindən çıxış edərək göstərirdi ki, "fəlsəfə-dünyagörüşdür... yəni təbiət və insan cəmiyyəti nöqteyi-nəzərindən hər yerdə və hər zaman (sinifli cəmiyyətdə) özlüyündə sinfi əsaslara malikdir. Onun fikrincə, fəlsəfə siyasətin nəzəri əsasıdır. Bu baxımdan biz fəlsəfəni "nəzəri siyasət", siyasəti isə öz növbəsində "təcrübi fəlsəfə" adlandıra bilərik. R.Axundov bu ideyaları böyük səylə müdafiə edirdi. O, müstəqilliyin, azadlığın və istiqlalın xalqın həyatında mühüm rol oynadığını xüsusi vurğulamış və bütün xalqları bu amal uğrunda mübarizəyə səsləyirdi. Xalqın milli azadlığını və istiqlalını açıqlamağa çalışan Ruhulla Axundov bu barədə yazırdı: "Hər kəs istədiyi kimi yaşasın, yaşasın da

başqalarına əziyyət verməsin, hüququnu tapdalamasın, halbuki istiqlaliyyəti elan olunmuş Azərbaycanımıza baxarsaq hər bir qədəmdə təcavüz, məzalim, xəyanət, səfalət görəcəyik. İnsanlara insanlıq, çalışqanlara yaşamaq imkanı vermək məqsədi elan olunan istiqlalımızdan bu gün işçilərimiz və füqəramız istifadə edirmi? Xayır! Xayır!

Rusiya inqilab kəbirində olduğu kimi Azərbaycanın istiqlalında da xalqın millət ilə, inqilab ilə heç bir əlaqəsi olmayan ünsürlər iş başına keçib zəhmətkeşlərimizi boş istiqlal sözü ilə ovunduraraq özlərinə ağalıq, hakimlik imkanı tapmışlardır"(23, 23) .

Ruhulla Axundov görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin yaradıcılığını diqqətlə izləyir və onun xalq qarşısındakı xidmətlərini çox yüksək qiymətləndirərək yazırdı: "Sabir Qafqaz şairləri arasında ən müqtədir və xalq fikirli bir şair ədd edilsin gərək. Qafqaz xalqlarının 15-20 il bundan qabaqkı halı ilə indiki halını müqayisə edərsək, bu az müddətdə bir qədər tərəqqi etdiyini görərik.

Sabir yaşadığı zamanda müsəlman aləmi qaranlıq idi. Bir tərəfdən məktəbsizlik, digər tərəfdən molla-qulaqların camaatı aldadıb növbənöv xurafat ilə uğraşdırmaqları müsəlmanların cəhalətdə baqi qalmasına səbəb olurdu.

Əlbəttə, əhalini doğru yola dəvət üçün, qeyri-millətlər kimi, bizim əhali arasında da həcv yazıb, camaatın səhvlərini özünə göstərmək və teatrlar göstərib bunların eyblərini gözləri qabağına gətirmək lazım idi.

Sabir mənsub olduğu Azərbaycan xalqının qarşısında nə qədər borclu olduğunu layiqli düşünüb həcv yazmaq ilə acı həqiqəti camaata anlatmağa başladı. Belə vəzifəni ifa etmək, xüsusən müsəlmanlar arasında asan iş deyildi. Bu qədər qaranlıq mühitdə bir açıq – fikirli ziyalı şəxs tapılıb da, camaatın səhvlərini göstərər və yeni həyata təşviq edərdisə, o saat mollanümalar tərəfindən təklif edilib "babı" ləqəbi qazancaqdı. Sabirin də həyatı bütünlükdə bu kimi təkfir, lənət və bir çox özgə müsibətlər içində keçmişdir. Lakin Sabir ölənə kimi öz xalqına

doğru qaldı və milləti qarşısında lazımi vəzifəsini icrayə çalışdı"(23, 17-18) .

Ruhulla Axundovun fikrincə, "Sabir özünə olmazın zülmləri, təklifləri, lənətləri qəbul edib, heç olmazsa məzhəkə məcmuələrində həcv yazmaqla öz xalqının dərdlərinə çarə tapmaq istədi. Ona görə Sabir yazdığı həcvlərin nəticəsi olaraq Zaqafqaz müsəlmanları arasında elmə həvəs başlanıb cocuqlarımızın üzünə məktəblər açılmışdır. Bu böyük dahinin bərəkətindən, demək olar ki, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tam bir əsr irəliyə addımlamışdır"(61).

Beləliklə də, Sabir yaradıcılığını yüksək qiymətləndirən Ruhulla Axundov mərhum Sabirə Azərbaycan şairləri sırasından birinci xalq şairi adını verərsək günah etməmiş oluruq qənaətində idi. Mədəni-maarif məsələlərinə xüsusi önəm verən R.Axundov savadsızlığın ləğv edilməsinə var gücü ilə çalışırdı. O bu münasibətdə yazırdı: "Kənd mədəniyyətini yüksəltmək işi ləng gedir. Bayaq dedim ki, kənd təsərrüfatı Nuh əyyamında qalma üsul ilə keçir. Bununla, kənd təsərrüfatını mədəniləşdirmək olmaz. Biz indi mədəni üsula keçməliyik. Sapandan, xışdan keçib ziraət maşınlarına sahib olmalıyıq. Bu xüsusda kömək ən canlı qüvvə bizim cavanlarımızdır. Qocalara yeni həyatı, yeni üsulları öyrədincəyə qədər vaxt keçəcək, bunun üçündə gənclərə və pionerlərə qüvvə vermək daha artıq lazımdır. Onları uşaqlıqdan bu üsulla və bu yeniliyə hazırlamalıyıq. Könüllü təşkilat məsələsinə gəldikdə hazırda bir çox təşkilatımız və bunların şöbələri vardır. Könüllü kimya cəmiyyəti, "Cindən əlini çək" təşkilatı və daha sairələri düzəlməkdədir. Təşkilatımız arasında bəzən birlik olmur. Bunların ən əvvəl fəaliyyətini bir-birinə uydurmaq lazımdır. Bunun üçün kəndlərdə qiraətxana komaları, bizim təşkilat və təbliğat işlərində qərargah yerini tutmalıdır. Siyasi-mədəni qüvvələr kəndlərdə bu komalarda birləşməlidirlər"(23, 114).

Qadın azadlığı məsələsini daim diqqətdə saxlayan Ruhulla Axundov qadınlara kişilərlə bərabər ümumi halda hüquq və azadlıq verilməsini lazım bilirdi. Eyni zamanda o, qadınların

savadlanmasının tərəfdarı idi. Onun fikrincə qadınlar nə qədər savadsız qalarsa, o qədər də onlara zülm edərlər və aldadarlar. R.Axundov qadınları öz aralarında savadsızlığı büsbütün ləğv etməyə çağırırdı. O, bu münasibətlə yazırdı: "Şəhərdə qadınlar arasında bilikli – savadlı tapılarsa, kəndlərdə bu kimi qadınlara çox gec-gec təsadüf olunur. Kəndlərdə qadınlar arasında iş görməyə gəldikdə ən əvvəl qarşımıza savad məsələsi çıxır. Bizim qarşımızda duran ən ümdə məsələlərdən biri də budur".(23, 130)

"Şərq qadını" jurnalının əhəmiyyətini yüksək dəyərləndirən Ruhulla Axundov onun nəinki Azərbaycanda, eləcə də bir çox qonşu ölkələrdə tanınmasını da müsbət hadisə hesab edirdi. O, qadınların mətbuata cəlb edilməsindən bəhs edərək qadın müxbirlərinin sayının artırılmasını tövsiyə edirdi. Ona görə yazıçılarımız mətbuatın dili məsələsində gərək hər zaman kütləni nəzərə almalıdırlar. Yazılar el dilinə yaxınlaşmalı və jurnal maraqlı olmaqdan ötrü onda həyat və məişət məsələləri çox-çox müzakirə edilməlidir. Onun fikrincə bəzi yazıçıların, xüsusən şairlərin qadın haqqında hərəmxana üsulu ilə yazdıqları yazıları və şerləri mətbuat özünə yaxın buraxmamalıdır. O, bu barədə yazır: "Biz, qadını zövq və həvəs aləti deyil, ona bir insan, bir əməkçi nəzərilə baxırıq. Biz mətbuatımızda qadınların azad olması, iqtisadi və məişəti haqqındakı yazılara artıq fikir verməliyik"(23, 132) .

O, ali məktəblərdə kafedraların, laboratoriyaların yeni müasir avadanlıqla təchiz edilməsinə, professorların vəziyyətinin yaxşılaşdırılmasına, lakin təkcə əmək haqqı mənasında deyil, həm də onlara başqa respublikalarda olan bizdə isə olmayan güzəştlər verilməsinə diqqət və qayğının artırılmasını lazım bilirdi.

Onun özünüdərk ideyalarından qidalanan dil məsələsi barəsində, vahid Azərbaycan dili haqqında fikirləri də mühüm əhəmiyyət kəsb edir. O, bu barədə yazır: "Azərbaycanda sosializm qurduğumuz bir vaxtda ola bilməz ki, azərbaycanlılar Gəncədə bir ləhcədə, Gürcüstanda başqa ləhcədə danışsınlar və

hətta Buzovna və başqaları kimi ayrı-ayrı kəndlər öz ləhcələrində danışsınlar. Vahid dil yaratmaq lazımdır"(23, 156) .

Yeni dövr Azərbaycan ədəbiyyatı, ictimai-siyasi və fəlsəfi fikrinin inkişafında mühüm rol oynayan böyük dramaturq Mirzə Fətəli Axundovun xatirəsinin əbədiləşdirilməsində Ruhulla Axundovun da az xidməti olmamışdır. 1928-ci ilin martında o, böyük mütəfəkkirin Bakıda heykəlinin ucaldılmasında, M.F.Axundovun vəfatının 50 illiyinə həsr olunmuş yubiley iclasının keçirilməsində yaxından iştirak etmişdir. Yübleydəki nitqində Ruhulla Axundovun yaradıcılığına, onun böyük ictimai fəailiyyətinə yüksək qiymət verərək göstərirdi ki, indiyə qədər M.F.Axundovu layiqincə tanımaq və öyrənmək bizə mümkün olmamışdırsa da, bundan sonra Mirzə Fətəlinin kim və nə olduğunu axtarıb onu daha yaxından öyrənməliyik. ... Mirzə Fətəli bizə qarşı olan vəzifəsini yerinə yetirmiş, biz də onun xatirini əziz tutub vəzifəmizi yerinə yetirməliyik(93).

İdeoloji işimizə bilavasitə aid olan fəlsəfənin, xüsusi ilə Şərq fəlsəfəsinin öyrənilməsi sahəsində qarşımıza nəinki Azərbaycan, eləcə də dünya miqyasında əhəmiyyəti olan bir vəzifənin düşdüyünü bildirən Ruhulla Axundov fəlsəfə sahəsində iş bizə nə üçün lazımdır sualına cavab verərək yazırdı: "Zənnimcə, bu iş təkcə ona görə lazım deyil ki, bütün başqa millətlər kimi bizim də fəlsəfi əsərlərimiz olmalıdır, həm də ona görə lazımdır ki, fəlsəfəyə dair əsərlər ümumi vəzifəyə xidmət etməlidir"(23, 180) .

Ruhulla Axundov savadlanmağı, elmə və təhsilə yiyələnməyi Azərbaycan zəhmətkeşlərinin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edirdi. O, respublikanın şəhər və kəndlərində yeni məktəblərin açılmasına, yeni dərs vəsaitlərinin nəşri işinə, resublikada ali və orta pedaqoji təhsilin təşkilinə, müəllim kadrlarının yetişdirilməsinə böyük qayğı və diqqət göstərirdi. Onun fikrincə savadsızlığa qarşı mübarizədə ən böyük maneələrdən biri köhnə əlifba idi. Həmin dövrdə Azərbaycanda yeni əlifba uğrunda genişlənən kütləvi hərəkat, bu işdə əldə edilən təcrübə ərəb əlifbasından istifadə edən başqa

respublikalarda da geniş yayılmağa başladı. 1926-cı ilin fevralın 26-dan martın 6-dək Bakıda keçirilən Birinci Ümumittifaq Türkoloji qurultayının yeni əlifbanın qəbul edilməsi işində böyük əhəmiyyəti oldu. Bu qurultayın çağrılmasında və onun işində Sovet Azərbaycanının görkəmli partiya və dövlət xadimlərindən S.Ağamalıoğlu, H.Cəbiyev və başqaları ilə birlikdə Ruhulla Axundov da yaxından iştirak etdi. Qurultayda keçmiş SSRİ-də yaşayan türk dilli xalqların 131 nümayəndəsi iştirak etmişdir. Eyni zamanda qurultayda Almaniyadan, Macarıstandan, Fransadan, Türkiyədən və başqa ölkələrdən gələn nümayəndələr də iştirak etmişlər. Qurultayın ən mühüm tədbiri ərəb əlifbasından latın əlifbasına keçmək haqqında qəbul etdiyi qərar oldu.

Ruhulla Axundov 1934-36-cı illərdə keçmiş SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan bölməsi və SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı kimi mühüm bir elmi müəssisəyə rəhbərlik etmişdir. Bu müddətdə o, respublikada dil, ədəbiyyat, tarix, fəlsəfə, etnoqrafiya, arxeologiya və s. elmlərin inkişafında, eləcə də terminaloji məsələlərinin araşdırılması və öyrənilməsində çox mühüm tədbirlərin təşəbbüsçüsü olmuşdur. Gənc milli kadrların yetişdirilməsinə xüsusi qayğı göstərən Ruhulla Axundov Azərbaycanın yazıçılarına, şairlərinə, elm və mədəniyyət işçilərinə də biganə qalmırdı. Bu haqda görkəmli ədibimiz Abdulla Şaiq öz xatirələrində xüsusi qeyd edərək məlumat vermişdir. Beləliklə, Ruhulla Əli oğlu Axundov Azərbaycan xalqının məzmunca sosialist, formaca milli mədəniyyətinin inkişafında böyük qüvvə sərf etmişdir.

XX əsrin 20-ci illərində Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir N.Nərimanov, S.Ağamalıoğlu, R.Axundov, S.M.Əfəndiyev və başqalarının fəlsəfi əsərlərində öz əksini tapmışdırsa da, 30-cu illərdə isə Cahangir Nağıyev, Mikayıl Hüseynov, Mustafa Quliyev, Heydər Hüseynov və digərlərinin elmi-fəlsəfi yaradıcılığında özünü göstərirdi. Eyni zamanda bu dövrdə fəlsəfənin tədqiqi və təbliği ilə A.Y.Seyidov, Ə.Y.Əfəndiyev, B.Həsənbəyov və digər Azərbaycan ziyalıları da məşğul

olurdular. Qeyd edək ki, bu dövrdə fəlsəfənin tədqiqi işində həmçinin 1929-cu ildə təşkil olunmuş Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu da (ADETİ) yaxından iştirak edirdi. ADETİ-də fəlsəfə üzrə kadr və aspirantlar hazırlanmaqla bərabər elmi tədqiqat işləri də aparılırdı. Bu institutun nəzdində ilk dəfə olaraq nəzəri fəlsəfə, fəlsəfə tarixi, ictimai elmlərin və pedaqogikanın metodologiyası kimi bölmələri olan fəlsəfə şöbəsi yaradıldı.

Kapitalizmdən sosializmə keçid dövründə Sovet Azərbaycanında materializmin tarixi və dialektik materializm məsələsinin tədqiqi və təbliğatı ilə məşğul olan şəxslərdən biri Cahangir Nağıyev olmuşdur. O, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun fəlsəfə şöbəsinin, Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) fəlsəfə kafedrasının, "İnqilab və Mədəniyyət" jurnalının fəlsəfə şöbələrinin yaradıcılarından biri olmuşdur. Cahangir Nağıyev 1903-cü ilin 31 mart tarixində Gəncə şəhərində anadan olmuşdur. O, hələ tələbə ikən "Karl Marksın dəyər nəzəriyyəsində dialektika", "Hegelin sosial fəlsəfəsinin problemləri" haqqında məruzələri yüksək qiymətləndirilirdi. Onun Spinoza haqqında kiçik məqaləsi, eləcə də Molye və Deşana aid əsərləri çap olunmuşdur(129). C.Nağıyev öz qısa ömrü müddətində (1903-1929) Azərbaycan tarixinə zəngin fəlsəfi irs qoyub getmişdir. Lakin onun elmi-fəlsəfi irsi indiyə qədər lazımi səviyyədə öyrənilməmişdir. Onun "Marksın materializmi" monoqrafiyasının əlyazması göstərir ki, o, marksizm fəlsəfəsinin tədqiqatçılarından biri olmuşdur. Monoqrafiyanın "Materiyanın öyrənilməsi", "Materiyanın qavranılması", "Materiya və şüur", "Təcrübənin problemləri", "Materialist metodun mahiyyəti" kimi başlıqlarında Cahangir Nağıyev materialist fəlsəfəni geniş işıqlandırmış, materiyanın marksist təlimini təbliğ etmişdir. Bu baxımdan o, öz elmi fəlsəfi yaradıcılığında Holbaxın, Feyerbaxın, Kantın, Hegelin və başqalarının materiya və onun dərk olunması haqqında fəlsəfi görüşlərini təhlil etmişdi. Onun fikrincə Marksın, Engelsin materialistik metodu məntiqi və tarixi baxımdan elmi kommunizmə gətirib çıxaracaqdı. Cahangir Nağıyev tədqiqat

fəaliyyəti ilə bərabər pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, eyni zamanda Azərbaycan Dövlət Universitetində də dərs deyirdi.

Bu dövrdə fəlsəfənin öyrənilməsində və təhlilində "İnqilab və mədəniyyət" jurnalı xüsusi rol oynayırdı. 1928-ci ildə bu jurnalın nəzdində xüsusi bir fəlsəfə şöbəsi yaranır. Cahangir Nağıyevdən sonra jurnalın fəlsəfə şöbəsinin işində Mikayıl Hüseynov, Mustafa Quliyev, Cəmil Rəhimov, Əhməd Kazımov və başqaları fəal iştirak edirdilər. Bu dövrdə marksist-leninçi fəlsəfənin təbliğatçılarından biri də Mikayıl Hüseynov idi. O, 1930-1931-ci illərdə Moskvada Stalin adına İnstitutda dialektik materializm kafedrasının müdiri vəzifəsində işləmişdir. 1932-ci ildə M.Hüseynov Azərbaycana qayıtdıqdan sonra müxtəlif rəhbər vəzifələrdə işləmişdir. M.Hüseynovun dialektik materializmə dair bir çox məqalələri "İnqilab və mədəniyyət" jurnalının səhifələrində çap olunub. Onun fikrincə, Marksın dialektikası Hegelin dialektikasının əksidir. O, yazır: "Hegeldə təbiət müstəqil mövcud deyil, Marksa görə isə təbiət sonsuz mövcud və inkişaf edən maddi varlığın məhsuludur"(182) .

Eyni zamanda o, "Dialektikanın bir elm kimi ümumi xarakteristikası" adlı məqaləsində formal məntiqin və dialektik məntiqin qarşılıqlı münasibətini təhlil etmişdi.

Bu dövrdə "İnqilab və mədəniyyət" jurnalının fəlsəfə bölməsində öz fəallığı ilə seçilən, marksist-leninçi fəlsəfənin təbliğatçılarından biri də Mustafa Quliyevdir. O, təbiətin inkişafında mexaniki, idealist və aqnostik baxışları tənqid edirdi. Onun fikrincə hərəkət materiyanın mövcudluğunun vacib atributudur. Hərəkət materiyada mütləqdir, sükunət hərəkətin bir məqamıdır. Mustafa Quliyev məkan və zamana materiyanın ayrılmaz bir hissəsi kimi baxırdı.

Mustafa Quliyevin məqalələrinin bir çoxu təbiət elmlərinin nailiyyətlərinə həsr olunmuşdur. O, təbiətşünaslığın əsas qanunlarını fəlsəfi baxımdan təhlil etmiş, materiyanın saxlanması qanununun mənasını açıqlamışdır. Onun "Təbiətin dialektikası və materiyanın problemləri" adlı məqalələr silsiləsi də çapdan çıxmışdır. Bu silsilə məqalələrində o, F.Engelsin "Təbiətin

dialektikası" əsərini təhlil etmişdir. Bu dövrdə Cahangir Nağıyev, Mikayıl Hüseynov və Mustafa Quliyev kimi Cəmil Rəhimov və Əhməd Kazımovda marksist-leninçi fəlsəfənin əsas təbliğatçılarından idi. Öz həmkarları kimi Əhməd Kazımovda materialist filosofların elmi fəlsəfi yaradıcılıqlarını tədqiq etmişdir. Əhməd Kazımov öz əsərlərində bütün fransız materialistlərinin fəlsəfi irsini təhlil edir. Ona görə XVIII əsr fransız materializmi materializmin inkişafında yeni bir pillədir. İkinci Dünya müharibəsi illərində Azərbaycan filosoflarının "Kommunist", "Azərbaycan gəncləri" kimi qəzetlərdə, "Vətən uğrunda" və s. kimi jurnallarda vətənpərvərlik və digər mövzularda yazmış olduqları məqalələri çap olunurdu.

Azərbaycanda fəlsəfi fikrin inkişafında 1944-cü ildə keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında fəlsəfə bölməsinin yaradılması və 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasında Fəlsəfə İnstitutunun açılması mühüm rol oynamışdı. Ancaq 1950-ci ildə bu institut Elmlər Akademiyasının Tarix İnstitutunun bir bölməsinə çevrildi. 1945-ci ildə tarix fakültəsinin nəzdində fəlsəfə bölməsinin açılması resublikada fəlsəfə işinin inkişafında mühüm rol oynadı. Həmin ilin yanvarında Azərbaycan Dövlət Universitetində fəlsəfə kafedrası, 1947-ci ildə məntiq və psixologiya, 1961-ci ildə etika və estetika, 1968-ci ildə elmi kommunizm və elmi ateizm kafedraları təşkil olunur. Daha sonra respublikanın digər ali məktəblərində, məsələn: Pedaqoji İnstitutda; Neft və Kimya İnstitutunda; Politexnik İnstitutunda; Tibb İnstitutunda; Pedaqoji Dillər İnstitutunda; Xalq Təsərrüfatı İnstitutunda və s. İnstitutlarda mövcud kafedralar bazasında fəlsəfə kafedraları yarandı(186, 55). Bütün bunlar sovet Azərbaycanında fəlsəfə elminin və fəlsəfi fikrin inkişafına təkan verən amillər idi.

XX əsr Azərbaycan mədəniyyətinin yetirdiyi böyük simalardan biri alim, filosof, publisist və ictimai xadim olan akademik Heydər Hüseynovdur. Bu dövrdə Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələrindən biri olan Heydər

Hüseynovun həyat yolu və elmi fəlsəfi fəaliyyəti daim xalq ilə bağlı olmuşdur.

Heydər Hacı Nəcəf oğlu Hüseynov 1908-ci il aprel ayının 3-də İrəvanın Tələbaşı məhəlləsində anadan olmuşdur. 1918-ci ilə qədər alimin ailəsi İrəvan şəhərində yaşayıb. Azərbaycan xalqı uzun illər boyu ermənilərin soyqırım siyasətinin qurbanı olduğu kimi, onun ailəsi də bu vəhşilik nəticəsində öz doğma yurdundan didərgin düşmüşdür. Erməni vəhşiliyi nəticəsində ailənin böyük oğlu Yusif öldürüldükdən sonra, bir il Batumda, Stavropolda qalıb, nəhayət 20-ci ildə Bakıya gəlirlər. O, Bakıda 18 saylı məktəbdə təhsilini davam etdirir. Bakı Pedaqoji Texnikumunda təhsilini davam etdirən Heydər Hüseynov hələ gənc yaşlarından ictimai işlərlə məşğul olmuşdur. Heydər Hüseynov texnikumu bitirdikdən sonra bir neçə il müəllimlik etmiş və 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin ictimai elmlər fakultəsinə daxil olmuşdur. Ali təhsil aldıqdan sonra o, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun fəlsəfə şöbəsində aspiranturaya qəbul olunmuşdur.(83)

Aspiranturanı bitirən Heydər Hüseynov Sənaye və Ticarət İnstitutlarında fəlsəfə fənnindən dərs demişdir. Onun pedaqoji fəaliyyəti elmi-tədqiqat işi ilə sıx əlaqədar idi. Müxtəlif sahələrdə, vəzifələrdə çalışan alim 1938-ci ildə Ensiklopediya və lüğətlər İnstitutunun direktoru təyin olunur. 1939-1940-cı illərdə onun rəhbərliyi altında bir neçə lüğət ("Rusca-azərbaycanca məktəb lüğəti", "Azərbaycanca – rusca izahlı lüğət)" hazırlanmışdır. 1939-cu ildə Heydər Hüseynov namizədlik dissertasiyası kimi yazdığı "M.F.Axundovun fəlsəfi görüşləri" adlı əsərini Tbilisi Universitetinin elmi şurasında müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır(112, 35). Eyni zamanda o, 1940-cı ildə "Şərəf nişanı" ordeninə layiq görülmüşdü. Onun Azərbaycanda fəlsəfə elminin inkişafı sahəsində çox mühüm xidməti olmuşdur. O, respublika ali məktəblərində fəlsəfənin tədrisinə, fəlsəfə sahəsində elmi tədqiqatların genişlənməsinə, Azərbaycanda fəlsəfi və ictimai fikir tarixinin öyrənilməsinə xüsusi diqqət və qayğı göstərmişdir. Heydər Hüseynov

Azərbaycanda fəlsəfi və ictimai fikir tarixinin mühüm məsələlərini işlədiyinə görə ona 1944-cü ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi verilmişdir. Görkəmli alim keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında, 1945-ci ildən etibarən isə Azərbaycan SSR Elmlər Akademiyasında rəhbər vəzifələrdə çalışmışdır. Heydər Hüseynov 1945-ci ilin mart ayında təşkil edilmiş Azərbaycan SSR Elmlər Akademiyasının ilk akademikləri sırasına daxil olmuş, uzun illər Akademiyanın prezidentinin müavini və ictimai elmlər şöbəsinin sədri vəzifələrində işləmiş, respublikada elmin inkişafına, yeni elmi kadrların yetişdirilməsinə var qüvvəsi ilə kömək və rəhbərlik etmişdir. Azərbaycan SSR Elmlər Akademiyası ilə yanaşı o, eyni zamanda Sovet İKP MK yanında MELİ-nin (Marks – Engels – Lenin İnstitutu) Azərbaycan filialının - Azərbaycan Kommunist Partiyasının MK-sı yanında Partiya Tarixi İnstitutunun da direktoru vəzifəsində çalışmış, Marksın və Leninin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Onun bu dövrdə "Dialektik materializm", "Dialektika və metafizika", "Rusca-azərbaycanca lüğət" adlı kitabları nəşr olunur. Görkəmli filosof həm də "Dialektik və tarixi materializm" kafedrasının dosenti seçilir. Heydər Hüseynovun bu illərdə "M.F.Axundovun fəlsəfi baxışları" (1942), "Vətənpərvər şair Səməd Vurğun" (1944), "Ədəbi qeydlər" (1945) və digər kitabları nəşr edilmişdir. Eyni zamanda o, "Müxtəsər Azərbaycan ədəbiyyatı" tarixinin (I-II cild, 1943-1944) redaktorlarından biri idi. Bu dövrdə Heydər Hüseynov yaradıcılığının ən yüksək zirvəsi onun M.Mirbabayev və Ə.O.Orucovla birlikdə tərtib etdiyi 4 cildlik "Rusca-azərbaycanca tam lüğət" (1940-1946) kitabıdır. Həmin lüğətin 4-cü cildi çapdan çıxmamış 1943-cü ildə akademik İ.M.Meşaninov Azərbaycan alimlərinin əməyini yüksək qiymətləndirir.

1948-ci ildə "rusca-azərbaycanca lüğət"in müəllifləri akademik Heydər Hüseynov, Akademiyanın Dil İnstitutunun direktoru M.Mirbabayev, həmin institutun lüğət və terminologiya şöbəsinin müdiri Ə.Orucov Stalin mükafatına layiq görülürlər. 1946-cı ildə görkəmli filosof "Nizaminin ictimai görüşləri",

1950-ci ildə “Görkəmli Azərbaycan alimi A.Bakıxanov” və nəhayət həmin ildə Stalin mükafatına layiq görülən başı bəlalı “XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən” kitablarını nəşr etdirir. Ancaq çox çəkmir ki, respublika KP MK-nın birinci katib M.C.Bağırovun “qəzəbi” nəticəsində mükafat geri alınır. Totalitar rejim xalqımızın yüzlərlə görkəmli ziyalısını məhv etdiyi kimi görkəmli filosofu da elmi fəlsəfi yaradıcılığının çiçəkləndiyi bir vaxtda faciəli surətdə məhv etmişdir.

1950-ci il iyul ayının 14-də M.C.Bağırovun sədrliyi ilə Flarmoniyada ziyalıların yığıncağı keçirilir. Bura da çıxış edən Bağırovun məruzəsi H.Hüseynovun burjua-millətçi, ciddi siyasi səhvlər buraxan bir alim kimi “ifşasına” həsr olunmuşdur(77, 35). Bu səbəbdən də görkəmli filosofa Stalin mükafatının verilməsindən dörd ay sonra SSRİ Nazirlər Sovetinin qərarı ilə həmin mükafat geri alınmışdır. Bütün tənqidlərə, təqiblərə dözməyən alim hətta özünə qəsd edərək hər iki biləyində damarlarını kəsmişdir. Lakin bu dəfə o, təsadüf nəticəsində sağ qalmışdır.

Bu məsələni araşdırarkən o dövrün ictimai-siyasi vəziyyətini də nəzərə almaq lazımdır. Qeyd edək ki, M.C.Bağırovla akademik Heydər Hüseynov arasında yaşanan anlaşılmazlıqda üçüncü qüvvənin olması qənaətinə gəlsək, yanılmarıq. Bu qüvvə keçmiş Sovet imperiyasının Mərkəzi Komitəsində mövqe tutan, ermənilərin özlərinə mənəvi ata saydıqları A.Mikoyanın başçılıq etdiyi erməni-daşnak siyasi klanı idi. Həmin dövrdə A.Mikoyan və onun həmfikirləri Azərbaycanın tarixi və ayrılmaz hissəsi olan Naxçıvan və Dağlıq Qarabağ torpaqlarını Ermənistana birləşdirmək istəyirdilər. Onlar hətta Sovet İttifaqı Mərkəzi Komitəsinin katibi İ.Stalinin də razılığını almışlar. Azərbaycanda isə buna qarşı dura biləcək yeganə şəxsiyyət var idisə, o da M.C.Bağırov idi. Onun xalqımızın bir çox taleyüklü məsələlərinin müsbət həll olunmasında müstəsna xidmətləri olmuşdur. Bunlara II Dünya müharibəsi illərində azərbaycanlılardan ibarət milli diviziyaların yaranmasını, A.Mikoyanın təhriki ilə Bakının köçürülməsinin, tarixi- ayrılmaz torpaqlarımız olan Naxçıvan və Dağlıq Qarabağın Ermənistana, Balakən və Zaqatalanın isə Gürcüstana

verilməsinin qarşısının alınmasını aid etmək olar. A.Mikoyanın başçılıq etdiyi erməni-daşnak klanı bu dövrdə öz ideyalarının həyata keçirilməsində başlıca maneə kimi M.C.Bağırovu görürdü. 1946-cı ildə İ.Stalin A.Mikoyanın təhriki ilə Dağlıq Qarabağı və Naxçıvan Muxtar Respublikasını Ermənistana vermək istərkən M.C.Bağırovun kəskin və prinsipial mövqeyi ilə rastlaşmış və geri çəkilməyə məcbur olmuşdur. Hətta Stalinin qəzəbinə tuş gələn M.C.Bağırov bir neçə ay müddətində tutduğu vəzifədən kənarlaşdırılmışdı. Əlbəttə ki, bu işlərdə M.C.Bağırova onun yaxın dostu Lavrenti Pavloviç Beriyanın köməklik göstərməsi qənaətinə gəlsək, yanılmarıq. 1945-ci ildə Sovet dövləti Moskva razılaşmasını pozaraq Şimali Koreyada yeni bir dövlət quruluşunun yaranmasına şərait yaratdı. Bu da beynəlxalq ictimaiyyət və eləcə də ABŞ tərəfindən kəskin narazılıqla qarşılandı. ABŞ BMT-də SSRİ-nin bu addımına qarşı xüsusi bir qətnamənin qəbul edilməsinə nail oldu. Bu barədə X.M.Əhmədzadə "Diktatorların bilinməyən sirləri" adlı kitabında yazır: "1950-ci il iyunun 25-də 16 dövlətin silahlı qüvvələri BMT qoşunları adı altında Cənubi Koreyadan Şimali Koreyaya doğru hücuma başladı. BMT bayrağı altında olan qoşunların say tərkibinə görə ABŞ-dan sonra Türkiyə hərbi qüvvələri ikinci sırada idi. Artıq Koreya cəbhəsində Sovet qoşunları ilə BMT ordusu adı altında türk əsgəri üz-üzə gəlmişdi. Belə bir məqamda Heydər Hüseynovun türk və islam milliyyətçiliyi mövqeyindən kitab yazması və onun Stalin mükafatına layiq görülməsi çox qəribə görünürdü. Hadisələrin əsas mahiyyəti heç də göründüyü kimi deyildi. Artıq Cənubi Azərbaycanda siyasi hərəkatlar zamanı M.C.Bağırovun mövqeyi Kremldə əyləşənlərə yaxşı bəlli idi. Ona görə də M.C.Bağırov hər dəfə Moskvaya səfəri zamanı Siyasi Büronun üzvləri ilə ünsiyyətində və o cümlədən, də yazdığı "Azərbaycan ziyalılarının növbəti vəzifələri" haqqında kitabında da İran Azərbaycanı məsələsini qaldırırdı. 1945-ci ildə başa çatdıra bilmədiyi Cənubi Azərbaycandakı siyasi prosesləri yenidən bərpa etmək istəyirdi. Sözsüz ki, buna erməni-daşnak siyasi klanı laqeyd qala bilməzdi. Hər vasitə ilə onu Stalinin gözündən salmaq üçün müxtəlif

kartlardan istifadə etməyə çalışırdılar. Bu baxımdan birdən-birə Heydər Hüseynovun "müridizm"i təbliğ edən əsərinin ölkənin ali dövlət mükafatına layiq görülməsi əslində M.C.Bağırovun əleyhinə hazırlanmış planın gizli tərəfi idi. Ona görə də tükü tükdən seçən M.C.Bağırov küləyin haradan əsdiyini gözəl duymuşdu. O, əslində ona qarşı yönəlmiş bu manеəni özünə-məxsus məharətlə dəf etdi. Ancaq çox təəssüf ki, bu oyunun qurbanı Azərbaycanın böyük filosofu, ictimai-siyasi xadimi Heydər Hüseynov oldu. Heydər Hüseynov bu təzyiqlərə tab gətirmədi. Üzdəniraq, yüzsifətli ziyalıların, məddahların, boşqab dibi yalayanların təhqirinə dözə bilmədi. Nəticədə bir dəfə damarını kəsdi. Amma akademik Topçubaşov onu ölümdən xilas etdi. Xəstəxanadan çıxdıqdan bir neçə gün sonra isə Heydər Hüseynovu asılmış vəziyyətdə tapdılar"(49, 199-200). Əlbəttə ki, yenə də erməni xisləti və hiyləgərliyi öz işini gördü və bu işdə sapı özümüzdən olan baltaların da rolu az deyildi.

Tədqiqatçı alimlər C.Qasımov və X.Bağırov birgə yaz-dıqları "Azərbaycan təhlükəsizlik orqanlarının tarixi" adlı kitabda bu məsələyə toxunurlar: "1950-ci ilin ortalarında Azərbaycanda mənəvi və ideoloji-elmi mühit dəhşətli bir hadisədən sarsılır. Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, fəlsəfə elmləri doktoru, professor Heydər Hüseynov yaşadığı bağ evində özünə qəsd edir. Görkəmli alim və ictimai xadim H.Hüseynovun 1949-cu ildə «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı əsəri çap edilmişdi. Ciddi nəzəri-tarixi və fəlsəfi məzuniyyətlərinə görə monoqrafiya Moskvada, SSRİ Dövlət Mükafatı Komitəsi tərəfindən Stalin mükafatına layiq görül-müşdü. MK Plenumunda Mircəfər Bağırovun məxsusi məruzə-sindən sonra mükafat geri alınmış və müəllif tarixi, sosial-fəlsəfi hadisələri saxtalaşdırmaqda ittiham olunmuşdu. Əslində ittihama səbəb olan əsas amil kitabın «Stalin» mükafatına təşdim olunmasından M.C.Bağırovun bixəbər olması idi.

MTN-in arxivində saxlanılan iki sənəddə həmin mükafatın hansı üsullarla geri alınmasının bəzi məqamları açıqlanır, həmin

sənədlərdən H.Hüseynovun hansı şəraitdə özünə qəsd etməsi də aydın görünür»(99, 312).

Heydər Hüseynov Şərq fəlsəfəsinin, o cümlədən onun bir hissəsi olan Azərbaycan fəlsəfəsinin tədqiq edilməmiş xəzinəsinə əl atmışdır. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikrin tarixinə həsr etdiyi əsərlərində Heydər Hüseynov bu və ya başqa mütəfəkkirlərin dünyagörüşündəki səciyyəvi cəhətləri açmağa, onların Azərbaycan xalqının mədəni həyatında oynadığı rolu göstərməyə çalışmışdır. Beləliklə, Mirzə Fətəli Axundovdan sonra o, öz tədqiqatlarını Azərbaycanın görkəmli maarifpərvər demokratı Həsən bəy Zərdabiyə, alim və tarixçi Abbasqulu Ağa Bakıxanova, XI əsrin məşhur filosofu Bəhmənyara, Azərbaycan xalqının böyük mütəfəkkir şairi Nizami Gəncəvinin fəlsəfi və ictimai fikirlərinin öyrənilməsinə və Azərbaycan mədəniyyətinin başqa nümayəndələrinə həsr etmişdir. Heydər Hüseynova görə Nizami Gəncəvinin əsərləri yalnız poeziya incisi deyil, habelə fəlsəfi fikirlər xəzinəsidir. Bu əsərlərdə fəlsəfə, etika, estetika və pedaqoji məsələlər mütəfəkkir şairimiz tərəfindən irəli sürülür. Məhz buna görə də akademik Heydər Hüseynovun Nizami haqqındakı ilk tədqiqatları: “Nizaminin ictimai görüşləri” və “Nizaminin sufizmə münasibəti” adlı əsərlərindən ibarət olmuşdur. Eyni zamanda Heydər Hüseynov Nizami Gəncəvinin elm və incəsənət haqqında fikirlərini də tədqiq etmişdir. Demək olar ki, XX əsrin 30-40-cı illərində sırf fəlsəfi məzmunu ilə seçilən orijinal əsərlərimiz yox idi. Bu yolda ilk sanballı əsərlər yaradan da məhz Heydər Hüseynov olmuşdur. Görkəmli filosof öz elmi tədqiqatlarında Azərbaycan xalqının ictimai fikir tarixini böyük klassiklərimizin əsərləri ilə üzvü vəhdətdə araşdırırdı. Məhz bu da ... Onun elmi fəaliyyətini ümumbəşər fəlsəfə xəzinəsini öyrənib tədqiq etmək kimi geniş yola gətirib çıxartmışdır (89) .

Heydər Hüseynov bədii ədəbiyyata xüsusi məhəbbət bəsləyirdi. O, eyni zamanda Yazıçılar İttifaqının üzvü idi. Onun ədəbiyyata və mədəniyyətə aid məqalələri müntəzəm olaraq dövri mətbuatda nəşr olunurdu. Akademik Heydər Hüseynov 1943-cü

ildə nəşr olunan "Azərbaycan ədəbiyyatı tarixi"nin müqəddiməsində Azərbaycan ədəbiyyatının ən gözəl xüsusiyyətlərini saymaqla, özünün də bu ədəbiyyata məftun olması səbəblərini göstərmişdir. O, bu barədə yazır: "Ədəbiyyat öz səhifələrində xalqımızın bütün tarixi boyu yaratdığı yüksək bəşəri ideyaları, fəlsəfi fikirləri, elmi prinsipləri hifz etmiş, qərinələrdən-qərinələrə, nəsillərdən–nəsillərə ən böyük bir hədiyyə olaraq təqdim etmişdir. Buna görə də ədəbiyyatımız xalqımızın fəxridir"(112, 8).

Azərbaycan ədəbiyyatı sahəsində olan nailiyyətlər Heydər Hüseynovu daha çox sevindirirdi. Buna misal onun Cəfər Cabbarlının, Səməd Vurğunun və başqa yazıçıların yaradıcılığı haqqında yazdığı məqalələridir. Belə ki, Səməd Vurğunun yaradıcılığı ilə maraqlanan akademik Heydər Hüseynov onun dram əsərini yüksək qiymətləndirmiş, şair haqqında 1942-ci ildə "Vətənpərvər şair Səməd Vurğun" adlı bir kitab çap etdirmişdir. Eyni zamanda 1940-1946-cı illərdə onun çap etdirdiyi ədəbi – tənqidi məqalələri içərisində "Ədəbiyyatımız xalqımızın fəxridir", "Antifaşist şair", "Xanlar haqqında" və s. məqalələri vardır. Heydər Hüseynov ədəbiyyatşünas alim kimi nəzəriyyəni təcrübədən ayırmır, əksinə ədəbiyyatın nəzəri məsələlərini işıqlandırmağa çalışırdı. O, bədii əsərin dəyərini onun xalqa, xalqın mənlik şüuruna və özünüdərkinə olan xidməti ilə ölçürdü. Onun maraq dairəsi çox geniş idi. Eyni zamanda o, Azərbaycan ədəbiyyatı və mədəniyyətini ta qədimlərdən müasiri olduğu zamana qədər öyrənir, araşdırır və bu barədə ümumən elmi, ədəbi fikrimizə istiqamət verən mülahizələr söyləyir, məqalələr çap etdirirdi. Akademik Heydər Hüseynovun həmin axtarışlar, araşdırmalar yolunda gəldiyi nəticələr bu gündə səciyyəvi, aktual və maraqlıdır. Mütəfəkkir filosofun Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixi üzərində uzun müddət gərgin əməyinin məhsulu kimi, yazdığı "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı əsərini göstərə bilərik. Heydər Hüseynovun bu əsəri nəinki Azərbaycanda hətta keçmiş SSRİ-nin bütün yerlərində müsbət qarşılanmışdır. Keçmiş SSRİ-nin müttəfiq

respublikalarından görkəmli alimin ünvanına bu əsərə görə məktublar və təbriklər gəlirdi. Şükufə Mirzəyeva bu barədə yazır: "Belə bir əsərin meydana çıxması bütün sovet ictimaiyyətinin nəzər-diqqətini özünə cəlb etdi. Əsərin müəllifinə göndərilən çoxlu təbrik məktub və teleqramlar oxucuların Azərbaycan xalqının mədəni irsinə qızğın maraq göstərdiklərinə və bu əsərə yüksək qiymət verməlәrinə şahiddir"(127, 16). Xalqımızın XIX əsr mədəniyyət, ictimai və fəlsəfi fikir tarixini qədim və orta əsr mədəni, ictimai və fəlsəfi fikir tarixi ilə əlaqələndirmək məqsədilə akademik Heydər Hüseynov bu kitabın müqəddiməsində yazır: "Müəllifin bu halda məqsədi, təfsilata varmadan, oxucuları Azərbaycan mədəniyyətinin qədim və orta əsr tarixinə aid olan əsas cəhətlərlə ümumi şəkildə tanış etməkdən ibarətdir, zıra bunsuz XIX əsr mədəniyyəti xalqımızın keçmişi ilə əlaqəsiz olardı, həm də XIX əsrin Azərbaycan xalqının mənəvi həyatının inkişafında yeni bir mərhələ təşkil etdiyini başa düşmək mümkün olmazdı"(76, 8). Mütəfəkkir kitabında Azərbaycan xalqının qədim dövrünü araşdırmış və xalqımızın antik maddi və mənəvi mədəniyyətə malik olduğunu göstərmişdir. Eyni zamanda müəllif kitabında VII-IX əsrlərdə orta əsr mədəniyyətinin inkişafında Azərbaycan xalqının xüsusi rol oynadığını qeyd etmişdir. Heydər Hüseynov öz tədqiqatında XII əsrə xüsusi önəm və diqqət yetirmişdir. Çünki həmin dövrdə Azərbaycan xalqının ədəbiyyat, elm və incəsənəti yüksək tərəqqiyə malik olmuşdur. Həmin dövrün ictimai-siyasi, dini-fəlsəfi cərəyanlarına toxunan Heydər Hüseynov bu barədə yazır: "Nizaminin yaşayıb və yaratdığı XII əsrdə Azərbaycanda sufizm adlanan dini-fəlsəfi cərəyan geniş yayılmışdır"(76, 21). Heydər Hüseynov burada sufi cərəyanını təhlil etməklə bərabər Mahmud Şəbüstərinin, İmaməddin Nəsiminin, Mahmud Əbubəkroğlunun və başqalarının, o cümlədən digər Şərq mütəfəkkirlərinin fəlsəfi fikirlərini şərh etmiş, kitabları haqqında məlumat vermişdir. Şah İsmayıl Xətainin Azərbaycan mədəniyyətinin inkişafında oynadığı əvəzsiz rolu yüksək qiymətləndirən mütəfəkkir bu barədə yazırdı: "Xətai öz dövlətinin paytaxtı Təbrizdə qiymətli əlyazmalardan ibarət zəngin

kitabxana yaratmışdır. Onun hamiliyi altında məşhur Təbriz miniatur məktəbinin banisi rəssam Bəhzad, Azərbaycan dilinə tərcümə olunmuş “Kəlilə və Dimnə” kitabına nümayişlər çəkmiş Əvəz Əli və digər alimlər, rəssamlar, şairlər olmuşlar”(76, 24) .

Heydər Hüseynov kitabında Məhəmməd Füzulinin yaradıcılığına toxunmuş, onun etika, estetika və ictimai görüşlərini tədqiq etmişdir. Mütəfəkkir XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixinin izahını, Azərbaycanın məşhur maarifçisi və alimi olan Abbasqulu Ağa Bakıxanovun dünyagörüşünü təhlil etməklə başlayır. Onun fikrincə A.A.Bakıxanov yalnız görkəmli tarixçi deyil, həm də fəlsəfə, coğrafiya, astronomiya, arxeologiya və pedaqoji sahələrdə də məşğul olan hərtərəfli bir alimdir. Ona görə A.A.Bakıxanov məşhur alim olmaqla bərabər, eyni zamanda “Qüdsi” təxəllüslü istedadlı bir şair kimi də tanınır. A.A.Bakıxanovun “Gürcüstani-İrəm” adlı əsərini yüksək qiymətləndirən mütəfəkkirə görə onun bu əsərində ictimai məsələlərin izahı idealist baxışdan izah edilmişdir. Eyni zamanda mütəfəkkir A.A.Bakıxanovun əxlaq nəzəriyyəsini təhlil etmək məqsədi ilə onun “Təhzübül Əxlaq” (Əxlaqın saflaşdırılması) adlı əsərini də tədqiq etmişdir. Heydər Hüseynov kitabında Mirzə Şəfi Vazehi xalqın maariflənməsi uğrunda mübarizə edən azad fikirli bir şəxsiyyət kimi göstərmişdir. Mütəfəkkir şairin ictimai-siyasi baxışları üzərində dayanır və qeyd edir ki, Mirzə Şəfi Vazeh öz şerlərində xalqın milli özünüdərkini və özünüdərkdən gələn azadlığını tərənnüm edir. O, öz kitabında bu barədə yazır: “Mirzə Şəfi Vazehin poeziyası xalqla sıx bağlıdır. Onun əzablarını, istəklərini və arzularını əks etdirir”(187, 181) .

Heydər Hüseynov kitabında geniş yer verdiyi Azərbaycan mütəfəkkirlərindən biri də Mirzə Kazımbəydir. Onun fikrincə, Mirzə Kazımbəy alim və mütəfəkkir kimi istər qərb, istərsə də şərq ədəbi qaynaqlarından istifadə edərək, XIX əsr ictimai-siyasi və fəlsəfi fikir tarixinin inkişafında özünəməxsus yer tutur. O, yazır: “Mirzə Kazımbəyin elmi fəaliyyətində Şamilin başçılığı altında dağlıların xalq azadlıq hərəkatına həsr etmiş olduğu tədqiqatları az yer tutmur”.(187, 230) Məhz Heydər Hüseynovun

öz kitabında Mirzə Kazımbəyin "Şamil və müridizm" adlı əsərinin adını çəkməsi onun Mircəfər Bağırovun qəzəbinə düçar olması səbəblərindən biri idi. Akademik Heydər Hüseynovun bu kitabına müsbət rəy vermiş Mirzə İbrahimov, M.A.Dadaşzadə, Mehdi Hüseyn də Mircəfər Bağırovun məruzəsində diqqətdən yayınmadılar. Halbuki Heydər Hüseynov kitabında Şeyx Şamilə, müridizmə cəmi iki səhifə yarım yer vermişdir, digər tərəfdən də mütəfəkkir filosof...Şeyx Şamil və müridizm haqqında Sovet tarixi ədəbiyyatında deyilənlərdən kənara çıxmamışdır...(125). Əlbəttə, bu gözlənilməz və dəhşət doğuran hadisə Heydər Hüseynovu sarsıtmaya bilməzdi. Onun həyatının ən ağır dövrü başlamışdır. Bu dövr təkcə akademik Heydər Hüseynov üçün deyil, eyni zamanda hamı üçün ağır və gözlənilməz faciələr dövrü idi. Çünki bu dövrdə şəxsiyyətə pərəstişin amansız dalğaları gah yatır, gah da tüğyan edirdi. Bütün bunlara baxmayaraq Heydər Hüseynov Mirzə Kazımbəyi ilk dəfə olaraq böyük bir alim, mütəfəkkir və vətənpərvər ziyalı kimi öz əsərində tərənnüm edirdi. ... Heydər Hüseynovun əsərində ilk dəfə olaraq Azərbaycanın XIX əsr ictimai-siyasi və fəlsəfi fikrin görkəmli nümayəndəsi, rus şərqşünaslığının banisi Mirzə Kazımbəyin tədqiqatları təhlil olunub...(191). Heydər Hüseynov kitabında Azərbaycan xalqının ictimai xadimi, filosofu və maarifçisi M.F.Axundovun da fəlsəfi və ictimai görüşləri haqqında məlumat vermişdir. Akademikə görə bütün Şərqdə dramaturgiyanın banisi hesab edilən və insanpərvər şair M.F.Axundovun bilik dairəsi çox geniş olmuşdur. M.F.Axundov yazdığı bir sıra komediya, hekayə və şeirlərindən başqa, eyni zamanda fəlsəfə, əxlaq, siyasət, estetika, pedaqoji və ədəbi tənqid məsələlərinə dair xüsusi əsər və məqalələrin də müəllifidir. Onun fikrincə, "Mirzə Fətəli Axundov Azərbaycan ictimai və fəlsəfi fikrinin inkişafı tarixində parlaq bir səhifə açmışdır"(187, 268). Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikrin inkişafı tarixində M.F.Axundovun rolundan bəhs edən H.Hüseynov yazır: "Mirzə Fətəli Axundov Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixində müəyyən mənada bir dönüş əmələ gətirmişdir, onun fəlsəfi əsərləri Azərbaycanın

qabaqcıl adamlarının fikir və arzularını məşğul edən bütün əsas məsələləri özündə əks etdirmişdir"(127, 24). Heydər Hüseynova görə M.F.Axundovun dünyagörüşünün formalaşmasında Azərbaycanın mütəfəkkir şairi Mirzə Şəfi Vazehin fəlsəfi fikirləri böyük təsiredici rol oynamışdır. M.F.Axundovun ictimai görüşlərini Heydər Hüseynov ədib və filosofun yaşadığı dövrünün ictimai, iqtisadi və siyasi şəraiti ilə əlaqədar şəkildə tədqiq etmişdir.

Akademikə görə, insanın hüquq bərabərliyi məsələsində Mirzə Fətəli Axundov qadınların hüquq bərabərliyi məsələsinə daha çox diqqət yetirmişdir. Mirzə Fətəli Axundov Azərbaycan xalqının maariflənməsini ən vacib məsələ hesab edirdi. Həsən bəy Zərdabiyə yazdığı məktub buna əyani sübutdur. Mirzə Fətəli Axundov məktubda Həsən bəydən Bakıda məktəb açılması üçün bəzi tədbirlər görməyi xahiş etmişdir. Məktubda mütəfəkkir filosof yazır: "Elmlərin öyrənilməsi üçün bizə imkan, birlik və vəsait lazımdır. Birincisi, bizdə imkan yoxdur. Hətta cəsarətimiz yoxdur ki, bunun səbəblərini açıqlayaq. Həmçinin birliyimiz də yoxdur. Qafqaz müsəlmanları iki məzhəbə- sünni və şiə məzhəblərinə bölünüblər. Şiələr sünnilərə, sünnilər isə şiələrə nifrət edirlər və onların arasında antoqonizm hökm sürür. Onlardan da heç biri bir-birini eşitmək istəmir, bəs birlik harada olacaq?" (Axundov M.F.-nin H.B.Zərdabiyə məktubu) Mirzə Fətəli Axundova görə, elmin və mədəniyyətin inkişafı üçün biz özümüz məktəblərin açılmasını və əhali arasında biliklərin yayılmasını təmin etməliyik. Heydər Hüseynov kitabında Mirzə Fətəli Axundova həsr etdyi fəsli bu sözlərlə bitirir: "Mirzə Fətəli Axundov xalqı bütün ürəyi ilə sevirdi, o, həm də qızğın bir vətənpərvər idi. Azərbaycan xalqının bu görkəmli oğlu öz zəmanəsinin mütərəqqi ideyalarını öz əsərlərində təcəssüm etdirərək, həmin əsərlərlə Azərbaycanın ictimai və fəlsəfi fikir tarixində tam bir dövr açmışdır"(187, 392).

Heydər Hüseynov "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı kitabında Azərbaycanda ictimai və fəlsəfi fikir tarixində görkəmli simalardan olan, maarifpərvər – demok-

rat, təbiətşünas alim, “Əkinçi” adlı ilk Azərbaycan qəzetinin banisi və redaktoru, Azərbaycan teatrının əsasını qoyan, görkəmli ictimai xadim Həsən bəy Məlikov – Zərdabiyə də geniş yer vermişdir. Heydər Hüseynov kitabında yazır: “Zərdabi Azərbaycan teatrının yaradılması haqqında çox fikirləşdi. O, tez-tez deyirdi: “Teatr xalqın inkişafı üçün güclü təkandır”(187, 404). H.B.Zərdabiyə görə hər bir xalq üçün, onun inkişafı və maariflənməsi üçün qəzet zəruridir, elə bir qəzet ki, hətta kəndli də onu oxuya bilsin. Qəzet güzgüdür, burada xalq onun ətrafında və onunla nə baş verdiyi dəqiq görsün. Qeyd edək ki, Zərdabi Azərbaycan dilində qəzetin nəşr edilməsi üçün uzun illər sərf etmiş və bütün çətinliklərə baxmayaraq 1875-ci ilin 22 iyulunda “Əkinçi” qəzetinin birinci sayını çapdan çıxartmışdır. Heydər Hüseynov kitabında bu barədə yazır: “Əkinçi” qəzetinin nəşr edilməsinin bütün müsəlman Şərqi üçün böyük əhəmiyyəti olmuşdur, qəzet Rusiyada yaşayan bütün müsəlmanları hərəkətə gətirdi. O, sanki elektrik cərəyanı kimi bütün müsəlman aləmindən keçdi”(187, 412).

“Əkinçi” qəzeti özünün mövcudluğu dövründə Azərbaycan xalqının milli mənlik şüurunun oyanması və milli özünüdərki yolunda böyük rol oynamışdır. Qəzetin nəşri dayandırıldıqdan sonra Həsən bəyə 1879-cu ildə inzibati surətdə sürgün təklif edildi. Onu Yekaterinodor gimnaziyasına köçürmək istəyirdilər. Həsən bəy müəllimlik fəaliyyətini dayandıraraq öz doğma Zərdab kəndinə qayıtmaq məcburiyyətində qalır. O, burada olarkən birinci olaraq kəndlilərin uşaqlarına dərs keçir, məktəblərin açılmasına cəhd edirdi. Hətta Zərdabda olarkən də Həsən bəy Bakı ilə əlaqəsini kəsmirdi. 1896-cı ildə o, yenidən ailəsi ilə birlikdə Bakıya köçür. Həsən bəy burada qiraətxanalar, kitabxanalar və məktəb açmağa nail olur. Heydər Hüseynov kitabında Həsən bəy Zərdabinin pedaqoji və ədəbi görüşləri üzərində xüsusi olaraq dayanmışdır. Azərbaycanda ictimai fikrin inkişafında Həsən bəy Zərdabinin roluna xüsusi qiymət verən Heydər Hüseynov kitabında yazır: “O, birinci Azərbaycan qəzetinin yaradıcısı, Azərbaycan teatrının banisi, maarifpərvər-

demokrat alim və görkəmli ictimai xadim olduğundan Azərbaycanda ictimai fikrin inkişafına çox böyük təsir göstərmişdir" (187, 377). Qeyd edək ki, Həsən bəyi əhatə edən ziyalılar içərisində Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri yetişmişdir. Onların əsərləri Azərbaycan dramaturgiyası, teatr və musiqi tarixində parlaq bir səhifə açmışdır. Akademik Heydər Hüseynov Azərbaycanın qabaqcıl ziyalıları, maarifpərvər demokratları və ictimai xadimləri içərisində "Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadənin də Azərbaycanda ictimai fikrin inkişafında böyük rolu olduğunu qeyd edir. Beləliklə, Heydər Hüseynovun bu əsəri təkcə XIX əsri deyil, xalqımızın ən qədim tarixindən başlamış XIX əsrin axırınadək olan böyük bir dövrü əhatə etmişdir. Heydər Hüseynovun tələbələrindən olan Sabir Əsədov bu kitab haqqında yazır: "Bu fəsilləri diqqətlə oxuduqdan sonra belə qənaətə gəldim ki, bu kitab təkcə Azərbaycanın fəlsəfi və ictimai fikir tarixindən deyil, ümumiyyətlə, xalqın tarixindən, onun mədəniyyətindən bəhs edən sanballı bir əsərdir. Bunu mən beş doktorluq dissertasiyasına bərabər sayıram"(57, 26).

1950-ci ilin 22 mart tarixli "Literaturnaya qazeta" qəzetində dərc olunmuş "Azərbaycanın görkəmli mütəfəkkirləri" adlı məqaləsində L.Klimoviç Heydər Hüseynovun kitabı haqqında yazır: "Heydər Hüseynovun əsərində Azərbaycan xalqının mədəniyyət abidələrini yaratdığını, ictimai və fəlsəfi fikir tarixinə görkəmli nümayəndələr bəxş etdiyi haqqında qiymətli məlumatlar öz əksini tapmışdır".(191)

Göründüyü kimi, akademik Heydər Hüseynov Azərbaycan fəlsəfi fikrinin inkişafında mühüm rol oynamış və o, Azərbaycan fəlsəfəsi tarixinin əsasını qoyan şəxsiyyətdir. Xalqın milli özünüdərk ideyalarından bəhrələnən Heydər Hüseynov geniş elmi-fəlsəfi yaradıcılığı ilə 1944-cü ildə keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında fəlsəfə bölməsinin yaradılmasında və 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasında Fəlsəfə İnstitutunun açılmasında mühüm rol oynamışdır. Bütün

bunlar Azərbaycanda fəlsəfi fikrin sonrakı inkişafına təkan verən əsas amil idi.

Beləliklə, Heydər Hüseynovun milli özünüdərk ideyalarından qidalanan və Azərbaycan xalqının fəlsəfi fikir tarixinə, dil və mədəniyyətinə, ədəbiyyat və incəsənətinə aid qiymətli əsərləri Azərbaycan elm xəzinəsinə həmişə aktual olan dəyərli bir hədiyyə kimi daxil olmuşdur.

Bütün acı nəticələrə, ağır məhrumiyyətlərə baxmayaraq, sovet dönəmində milli özünüdərk ideyaları ölməmiş, əksinə inkişaf etmişdir. Bu özünü xüsusilə də XX əsrin 80-ci illərində Sovet Azərbaycanında milli özünüdərk prosesində geniş vüsət almış milli-azadlıq hərəkatında göstərmişdi. Bu dövrdə SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da milli özünüdərkdən gələn milli adət-ənənələrin davam etdirilməsi, milli oyanış, milli dəyərləri, dilin və dinin qorunması uğrunda mübarizə genişləndi. Məsələn, ...1957-ci ildə şair Məhəmməd Bağırzadə Biriya Azərbaycanın hökumət başçılarına ünvanladığı məktubda marksizm-leninizm məktəblərini bağlamağı, Marksın, Engelsin, Lenin və Stalinin heykəllərini götürməyi, kiril əlifbasından imtina edib əski əlifbaya qayıtmağı, aləmi-islamın düşməni olan ermәniləri Azərbaycandan çıxarmağı, sərhədləri açmağı, sürgünə məhkum olunmuş bütün müsəlmanları ənənələrinə qaytarmağı və s. tələb edirdi.

Məhəmməd Bağırzadə Biriyanın məktubundan bir qədər sonra Bəxtiyar Vahabzadə «Gülüstan» (1959-1960) poeması ilə çıxış etdi və Gülüstan müqaviləsinin Azərbaycan xalqının taleyində oynadığı faciəvi rolu açıq göstərdi. Belə bir vaxtda imperiya qarşısında Azərbaycanın bütövlüyü uğrunda məsələ qaldırmaq böyük cəsarət tələb edirdi. Öz milli müstəqillikləri uğrunda mübarizəyə qoşulanlar təbii ki, həmin illərdə də bu və ya digər dərəcədə repressiyalara məruz qalırdı...(99, 351). Xalqın milli özünüdərk duyğusunun ölməzliyi və inkişafı nəticəsində 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etmişdi.

XX əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində-həm sənayedə, həm də kənd təsərrüfatında inkişaf getdikcə ləngiyirdi və bu əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başlamışdı. Belə ki, Azərbaycan milli gəlirinin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə ittifaq səviyyəsindən geri qalırdı. Bu barədə Heydər Əliyev deyirdi: «Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipal cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi»(84, 11).

Məhz Heydər Əliyevin XX əsrin 70-80-ci illərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan SSRİ imperiyası məkanında qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına çevrilmişdi. Eyni zamanda onun rəhbərliyi dövründə xalqımızın tarixi keçmişinə də maraq artdı və bu sahədə milli oyanış başlandı. «O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi»(113, 97) .

1987-ci ilin sonunda keçmiş Sovet imperiyasında «yenidənqurma» adlanan dağıdıcı proseslər zəminində süni «Dağlıq Qarabağ» problemi meydana gətirildi. O zaman SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyev hakimiyyətdən kənarlaşdırıldıqdan sonra Ermənistanın qatı millətçi dairələrinin və onların xarici dövlətlərdə olan havadarlarının uzun illər boyu hazırladıqları planı həyata keçirmək üçün münbit siyasi zəmin yarandı. M.Qorbaçov başda olmaqla o zamankı SSRİ rəhbərliyi konstitutsiya borcunu yerinə yetirmək, qanunçuluğu qorumaq əvəzinə, erməni millətçilərinin separatçı hərəkətlərini həvəsləndirmək, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb, Ermənistana inteqrasiya etmək yolunu tutdu. «Nəticədə ilk mərhələdə tamamilə aradan qaldırılması

mümkün olan münaqişə tədricən böyüyərək, iki xalqın tammiqyaslı qarşıdurmasına, geniş müharibəyə çevrildi»(115, 213).

Bu zaman Sovet İmperiyasının xalqımıza qarşı düşmənçilik mövqeyi getdikcə daha aydın olurdu. Dağlıq Qarabağda yaşayan ermənilərin xalqımıza qarşı düşmənçilik çıxışları ilə bərabər Qərbi Azərbaycandan-Ermənistandan qovulan həmvətənlərimizin acınacaqlı vəziyyəti problemi daha da dərinləşdirdi. «Xalqımızın səbir kasasını daşdıran son damla isə ermənilərin Dağlıq Qarabağda özbaşınalığı tarixin yadigarı olan Topxana meşəsinin qırılması oldu»(113, 269). Bu dövrdə xalqın tarixi milli özünüdərketməsindən gələn milli-azadlıq mübarizəsi geniş vüsət almağa başladı. «Bu zaman Azərbaycanda mövcud ictimai-siyasi şəraitdə xalqın təşkilatlanmaya, siyasi şüurunun, milli özünüdər-ketmənin yüksəldilməsinə olan ehtiyac nəzərə alınaraq, siyasi birlik və cəmiyyətlərin yaradılmasına başlandı»(226).Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq milli özünütəsdiqi və milli özünüdərki tərənnüm edən gənc alimlər şurası təşkil edildi və burada gənc alimlər elmi diskussiyalarla yanaşı, imperiya əleyhinə fikirləri də təbliğ edirdilər. «Çox keçmədən Azərbay-canda Sovet imperiyasına qarşı mübarizə şəraitində «Çənlibel», «Qala», «Yurd», «Aşıq Ələsgər», «Tərəqqi», «Ozan», «Varlıq» və s. ictimai-siyasi təşkilatlar meydana çıxdı. 1988-ci ilin əvvəllərində Əbülfəz Elçibəyin rəhbərliyi altında altı nəfərdən ibarət ilk siyasi özək yaradıldı»(150, 56). Bu zaman yeni siyasi özək və təşkilatlarda birləşən qüvvələrin bilavasitə təşəbbüsü ilə Azərbaycanda Xalq Cəbhəsinin yaradılması ideyası ortaya çıxdı. Eyni zamanda Respublika Elmlər Akademiyasında 16 Mart 1988-ci ildə mitinq keçirilmiş və burada Ermənistan, Azərbaycan rəhbərliyinin, eləcə də Moskvanın ünvanına ciddi tənqidi fikirlər söylənilmişdi. 1989-cu ildə Azərbaycanda milli-azadlıq hərəkatında mühüm bir hadisə baş verdi. Belə ki, imperiyaya qarşı mübarizəyə qalxmış bütün xalqı birləşdirmək, parçalanmaya yol verməmək lazım idi. «Elə bu məqsədlə 16 iyul 1989-cu ildə Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı. Əbülfəz Əliyev

(Elçibəy) AXC-nin sədri oldu» (113, 272).

Respublika Elmlər Akademiyasında başlanan mitinq Azadlıq meydanına qədər davam edən 19 günlük Meydan epopeyası ilə əvəz olundu. Meydan hərəkatı o zamankı iqtidar tərəfindən hücuma məruz qalsa da, Respublikada qarşıdurmanı gücləndirsə də, xalqımızın gənc nəslinin ictimai-siyasi dünyagörüşünün, milli mənlik şüurunun və milli özünüdərkinin inkişafında misilsiz rol oynadı. Məhz bu zaman xalqımızın 1920-ci ildə süngü gücünə məhv edilmiş özünə inam duyğusu, milli özünüdərk və milli müstəqillik ideyaları oyanmış və müasir dövr milli şüurunun təşəkkülündə, onun inkişafında tarixi milli özünüdərk ənənəsinin rolu artmışdı. «15 sentyabr 1989 gecəsində Moskvanı təşvişə salan hadisə baş verdi - sentyabrın 16-na keçən gecə Azərbaycan parlamenti SSRİ respublikaları arasında ilk dəfə olaraq Respublikamızın suverenliyi haqqında konstitusiya Qanunu qəbul etdi»(42, 296). Nəhayət, 1989-cu il oktyabrın 5-də Azərbaycan rəhbərliyi AXC-nin varlığını tanımağa məcbur oldu. Lakin demokratik qüvvələr arasında fikir ayrılığı nəticəsində bu qüvvələr «liberallar», və «radikallar» şəklində qütbləşdilər. Bununla bərabər keçmiş SSRİ-nin heç bir yerində milli-azadlıq mübarizəsi Azərbaycandakı qədər güclü getmirdi. Azərbaycandakı milli-azadlıq hərəkatını boğmaq, xalqa divan tutmaq üçün imperiya rəhbərliyi Bakıya xüsusi ordu qüvvələri yeritdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordu hissələri milli oyanışın qarşısına almaq və milli – azadlıq hərəkatını boğmaq məqsədilə Bakıda tayı-bərabəri olmayan 20 yanvar qırğınını törətdi. Lakin imperiya rəhbərliyinin 20 yanvar milli faciəsini törətməklə Azərbaycanda milli-azadlıq hərəkatının qarşısını almaq cəhdi boşa çıxmış və əksinə bu hərəkat daha da genişlənmişdi. Xalqımıza qarşı keçirilən sovet imperiyasının soyqırım əməliyyatı bir tərəfdən xalqımızın düşmənə qarşı daha sıx birləşməsinə səbəb olmuş və digər tərəfdən də sovet imperiyasının süqutuna bir təkan olmuşdu.

«1990-cı ilin payızından əhalinin təchizatı elə pisləşmişdi ki, bir vaxtlar iqtisadi qüdrəti ilə öyünən dövlət (sovet dövləti-

Ə.O) yardım üçün Qərb ölkələrinə müraciət etməli olmuşdu»(54, 48). Bu dövrdə Bakıda Sovet ordu hissələrinin olduğu vaxtlarda, 1990-cı ilin mayın 21-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan parlamentinin binası üzərində qaldırıldı. Həmin il xalqımız vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu günü 28 Mayı mitinqlərlə, nümayişlərlə qeyd etdi.

1991-ci ilin fevralında dövlətimizin adından «sovet» və «sosialist» sözləri çıxarılaraq o, Azərbaycan Respublikası adlandırıldı. Həmin ilin Oktyabrın 18-də Azərbaycan Ali Sovetinin ikinci sessiyası Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu münasibətlə görkəmli ictimai-siyasi xadim, həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev tarixi hadisə ilə bağlı «Həyat» qəzetinin redaksiyasına teleqram göndərmişdi. Orada deyilirdi: "Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir. Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli-azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır" (80, 24). Amma Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etsə də, hələ SSRİ dövləti qalırdı. Sovet dövlətinin mövcudluğuna görə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini hələ heç bir xarici dövlət tanımamışdır. Bu zaman Azərbaycanda gedən ictimai-siyasi hadisələrə öz mövqeyni bildirən İranın keçmiş prezidenti Əbülhəsən Bənisədr «Vaşinqton tayms» qəzetinə verdiyi məqalədə yazırdı ki, «Azərbaycandakı üsyan yalnız Qorbaçovu deyil, İrandakı Xameneyni və Rəfsəncanini də narahat edir. Bu da aydındır ki, Azərbaycandakı, eləcə də Orta Asiyadakı vəziyyət İran və Sovet totalitar sistemləri daxilində həll edilə bilməz. Qorbaçov bura qoşun göndərdi, bunu Rəfsəncani razılıqla qarşıladı; Qorbaçov ya parçalara ayrılmış

Sovet İttifaqına rəhbərlik etməli, ya da özünün yeni təfəkkür siyasətindən əl çəkib vahid SSRİ-ni qaba üsullarla qorumalıdır»(159, 85). Beləliklə, XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət tarixi torpaqlarımızın bir hissəsində-Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi.Bu zaman müstəqil doğma Azərbaycanımız yenidən siyasi varlığa çevrilmişdi. Nəhayət, 1991-ci ilin dekabrında Sovet imperiyası süquta yetdi. Bununla da xalqımız Sovet imperiyasına qarşı apardığı mübarizə nəticəsində azad oldu və Müstəqil Azərbaycan Respublikası dünyada öz layiqli yerini tutmağa başladı. Sovet dövlətinin dağılmasından sonra keçmiş SSRİ-nin bütün millət və xalqları kimi Azərbaycan xalqı da azadlıq şəraitində milli şüurunun və milli özünüdərk ideyalarının inkişafı üçün geniş imkanlar əldə etdi. Lakin məlumdur ki, «milli mənlik ideyalarını həyata keçirmək üçün yeganə vasitə Azərbaycan milli ideologiyası və onun konsepsiyası ola bilər»(156, 31). Totalitar Sovet sisteminin iflasından və kommunist rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq inkişaf yoluna çıxmaq üçün geniş imkanlar qazandı. Milli ideya, milli özünüdərketmə xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respublikasına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi. «Milli ideyanın» gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir. Eyni zamanda müstəqillik və istiqlalımızın əsas tarixi nailiyyəti demokratiyamız oldu. «Çünki cəmiyyətin azadlığı şəxsiyyətin azadlığından, şəxsiyyətin azadlığı isə təfəkkürün azadlığından başlayır»(154, 175).

1991-ci ilin dekabrın 16-da Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan ilə Cənubi Azərbaycan arasında SSRİ-İran dövlət sərhədindəki tikanlı məftil qurğularının söküldüyü 1989-cu ilin 31 dekabrını – Dünya azərbaycanlıların həmrəylik günü elan etdi. Belə ki, zorən ikiyə bölünmüş xalqın bir-birilə qovuşması milli özünüdərk

ideyalarını daha da gücləndirmişdi. Bu zaman ölkədə Kommunist partiyası ilə Azərbaycan Xalq Cəbhəsi arasında hakimiyyət uğrunda mübarizə əsas məsələyə çevrildi.

1992-ci ilin 14-15 mayında Ayaz Mütəllibovun ikinci dəfə uğursuz cəhdindən sonra hakimiyyətə Əbülfəz Elçibəyin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi gəldi. Ayaz Mütəllibovun birinci dəfə istefasından sonra, rəsmi Moskvanın dəstəyi ilə 14 may 1992-ci ildə ikinci dəfə hakimiyyətə gətirilməsi və cəmisi bir gün sonra Rusiya hərbi təyyarəsində qaçması ilə yadda qaldı. «AXC-nin sədri, prezidentliyə namizəd Əbülfəz Elçibəyin həmin gün gecə yarısı milli televiziyayla xalqa müraciəti 15 may qələbəsinin müjdəsi oldu» (158, 79). Bu dövrdə Ermənistanın separatçı qüvvələri daha da azğınlaşaraq Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və ona bitişik ərazilərini işğal edir, dinc əhalini isə məhv edirdilər. Erməni vəhşiliyinin dəhşətli nəticəsi kimi Xocalı soyqırımını göstərmək olar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə separatçı erməni birləşmələri Rusiya ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayı bölmələrinin yardımı və iştirakı ilə respublika əhəmiyyətli, əhalisi 7 mindən çox olan Xocalı şəhərini məhv etdilər. Soyqırım qətliyamından sonra cəmisi 1500 nəfərə yaxın adam, Xocalıların az bir hissəsi Ağdama gəlib çıxa bildi.İşğalçı Ermənistanın bu cür addımları sonralarda davam etdirildi və bu gün də davam etdirilir.

1992-ci ilin avqustun 16-da Azərbaycan ictimai – siyasi və fəlsəfi fikrində mühüm rol oynayacaq hadisə baş verdi. Bu zaman xalqımızın 91 nəfərdən ibarət bir qrup ziyalıları Yeni Azərbaycan Partiyası yaratmaq missiyasını öz üzərinə götürmək xahişi ilə Heydər Əliyevə müraciət etdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev «91»-lərin müraciətinə 1992-ci il oktyabrın 24-də müsbət cavab verdi.

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan Dövlət Musiqili Dram teatrının binasında Azərbaycanın müxtəlif bölgələrindən gələn 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi. Yeni Azərbaycan Partiyası

ümumxalq partiyasına çevrilərək cəmisi 8 aydan sonra hakimiyyətə gəldi. Heydər Əliyev YAP-ın II qurultayında etdiyi nitqində həmin dövrü belə xarakterizə edir: «Yeni Azərbaycan Partiyası o vaxtki mövcud vəziyyətində bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq yaranmış bir partiyadır»(5, 18).

Bu dövrdə Azərbaycanda ictimai - siyasi vəziyyət ürəkaçan deyildi. AXC-Müsavat cütlüyünün səriştəsizliyi, hakimiyyət daxili çəkişmələr, özbaşınalıq, Dağlıq Qarabağ münaqişəsindəki uğursuzluq ölkəni anarxiyaya və xaosa sürükləyirdi. Hakimiyyət-daxili münasibətlərin kəskinləşməsi üzündən Azərbaycan parçalanma, vətəndaş müharibəsi ərəfəsində idi. Belə olan təqdirdə Azərbaycanı parçalanmadan, vətəndaş müharibəsindən qurtarmaq üçün Heydər Əliyevə müraciət olundu. «H.Əliyev «Xəbər-servis»-in müxbirinə bildirmişdir ki, o, Bakıya şəxsən Əbülfəz Elçibəy tərəfindən dəvət olunmuşdur. H.Əliyevin sözlərinə görə, o, Azərbaycanda vəziyyətin normallaşdırılması və vətəndaş həmrəyliyi üçün əlindən gələni əsirgəməyəcəkdir»(165, 417) .

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası parlamentinin sədri seçildi. Hakimiyyətə yeni gəlmiş Heydər Əliyev erməni separatçılarının və onların bütün dünyadakı havadarlarının gücünü, böyük dövlətlərin çirkin planlarını, həmçinin Azərbaycanın düşdüyü ağır vəziyyətini nəzərə alaraq, işğalçı Ermənistanla atəşkəsə nail oldu. Qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ilin fevralından Sovet imperiyasının süqutuna qədər olan dövrdə keçmiş SSRİ-nin daxili problemi kimi qiymətləndirilirdi. Lakin imperiyanın süqutu ilə münaqişə tezliklə beynəlmiləlləşdi, beynəlxalq güclərin və maraqların mübarizə nöqtəsinə çevrildi. Münaqişənin dinc yolla nizama salınması istiqamətində ilk təşəbbüslər erməni işğalçı qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı əraziləri zəbt etdiyi dövrlə başlayır. Eyni zamanda BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və indiyə qədər icra olunmamış qalan 822, 853, 874 və 884 saylı qətnamələrində

işğalçı erməni hərbi birləşmələrinin Azərbaycanın zəbt edilmiş rayonlarından çıxarılması tələb olunurdu. «1992-ci ilin martında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Mərkəzinin Helsinkidə xarici işlər nazirlərinin görüşündə isə gələcək Minsk prosesinin əsası qoyulmuşdu» (115, 214).

Dağlıq Qarabağ münaqişəsinin ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun həll olunması Heydər Əliyevin siyasi strategiyasının ana xətti olmuşdu. «Azərbaycanda vətəndaş müharibəsi reallığını hiss edən, öz uzaqgörənliyindən, peşəkar dövlətçilik səriştəsi və zəngin həyat təcrübəsindən faydalanaraq, xalqın monolit birliyinə arxalanan, vətəni parçalamaqdan qorumaq üçün vaxt itirmədən qətiyyətlə əməli tədbir görən, onu uğurla həyata keçirən Heydər Əliyev Azərbaycanda yeganə dövlət başçısıdır ki, millətimizin tarixinə Böyük Tarixi Şəxsiyyət kimi daxil olmaq hüququ qazanmışdır»(37, 50). Yaxın tarixi təcrübə göstərir ki, Azərbaycan dövlətinin müstəqilliyinin təmin olunmasında, suveren bir dövlət kimi inkişaf etməsində, milli müstəqillik ideyalarının, dövlətçilik ənənələrinin qorunub saxlanılmasında nəinki dünya azərbaycanlılarının, eləcə də onu tanıyanların sevimlisinə, idealına çevrilmiş ümummilli lider Heydər Əliyevin müstəsna rolu vardır.

1994-cü il sentyabrın 20-də Heydər Əliyev «Əsrin müqaviləsi»ni imzalamaqla dünyanın neft siyasətinə təsir etdi və bu siyasət Azərbaycana, Xəzər regionuna istiqamətləndi. Bununla da Azərbaycan xalqı siyasi sıxıntıdan və hərbi təcavüzdən xilas oldu. Heydər Əliyevin qlobal siyasətə bu uzaqgörən təsiri bütün Qafqaza aid dünya siyasətinin dəyişməsinə səbəb oldu. Belə ki, «qədim ipək yolunun bərpası ideyasını qaldırmaq və onun həyata keçirilməsi işinin təşkili sahəsində Heydər Əliyev şəxsiyyətinin rolu regional yox, dünyəvi xarakter daşıyır. Böyük İpək yolu ilə əlaqələnən otuzdan çox dövlətin muasir inkişafında bu yolun müstəsna rolu Heydər Əliyevin adı ilə bağlanmalıdır»(3, 32). Bütün bunlar tarixi milli özünüdərk ənənələrinin, ideyalarının Azərbaycan xalqının bir millət olaraq mövqeyinin möhkəmlənməsinə olan təsirinin nəticəsi idi.

1998-ci il sentyabrın 7-8-də Bakıda 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə Böyuk İpək Yolunun təntənəli toplantısı keçirilmişdi. Eyni zamanda bu yolun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində və onun iqtisadi-mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bu mühüm hadisə xalqın milli özünüdərkilə bərabər türk milli şüurunun və milli özünüdərk ideyalarının inkişafının göstəricisidir. «Burada imzalanmış Bakı Bəyannaməsi və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına dair saziş də Qafqazda sülh prosesini möhkəmləndirməyə, Qafqaz dövlətlərinin Avropa və Asiya ölkələri ilə, eləcədə region ölkələrin bir-birilə inteqrasiyasına, qarşılıqlı anlaşma və etimadın inkişafına birbaşa xidmət edir»(80, 335).

Qeyd edək ki, Sovet dövlətinin süqutundan sonra bir çox müsəlman-türk respublikası müstəqillik qazandı və BMT-nin tam səlahiyyətli üzvü oldu. Bu barədə Heydər Əliyev 1994-cü ildə Türkiyədəki çıxışlarından birində türk dünyasının görkəmli şəxsiyyəti Atatürkün məşhur fikirlərini xatırlayaraq deyir: «Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyirəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Müstafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibəti ilə çıxışında demişdir: «Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Onların bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmamız lazımdır. İndi həmin dövran gəlib çatıbdır»(162, 46). Bütün bu deyilənlər tarixi milli özünüdərk ənənlərinin təsiri sayəsində xalqın milli özünüdərk ideyalarının, o cümlədən türk milli şüurunun və milli özünüdərkinin inkişafına xidmət edir.

1994-1995-ci illərdə Azərbaycanda ictimai-siyasi sabitlik

bərqərar olunduqdan sonra, ölkədə islahatlar proqramı məqsəd-yönlü şəkildə həyata keçirilməyə başladı. Bu barədə Heydər Əliyev demişdir: «Azərbaycan yeni, gənc müstəqil dövlətdir, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkədir. Dünya birliyində öz layiqli yerini tutan, hamı tərəfindən qəbul olunmuş dünya standartları əsasında, dünya iqtisadiyyatına sıx bir şəkildə qovuşmağa çalışan ölkədir»(18, 244).

Müstəqil Respublikamızın Konstitusiyasının qəbul olunması müasir dövr milli şüurunun, milli özünüdərk ideyalarının tarixi milli özünüdərk əsasında inkişafının bariz nümunəsidir. 1995-ci il noyabrın 12-də milli özünüdərk kontekstində Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, Azərbaycan vətəndaş-larının hüquq və azadlıqlarını, azərbaycançılığı, xalqın milli ləyaqət hissini və milli mənini özündə əks etdirən müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Dövlətimizin tarixində ilk dəfə olaraq çoxpartiyalılıq əsasında ilk parlament seçkiləri keçirildi. «Ölkədə Konstitusiya Məhkəməsinin yaradılması, Azərbaycanda ilk dəfə olaraq xalqın özünüidarəetməsinin ən demokratik forması olan bələdiyyələrə seçkilərin keçirilməsi Heydər Əliyev dövlətçilik məktəbinin, hətta səthi və ilk baxışda nəzərə çarpan real görüntüləridir»(41, 189). Beləliklə, Azərbaycan xalqının tarixi milli özünüdərkinin bariz göstəricisi kimi müasir Azərbaycan cəmiyyətində özünüidarəetmənin ən demokratik forması olan bələdiyyələrə seçkilərin keçirilməsi xalqın milli şüurunun və milli özünüdərk ideyalarının inkişafının nəticəsi idi. Bu mühüm hadisə xalqın özünə inam duyğusunu artırmışdı.

Konstitusiyanın qəbul olunmasından sonra Azərbaycanda hüquqi, dünyəvi dövlət quruçuluğu prosesi daha geniş vüsət aldı. 1996-cı il iyulun 13-də Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzvlüyə daxil olmaq barədə müraciət etmişdir. 2001-ci il yanvarın 17-də Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması barədə qərarı təsdiq etmiş və beləliklə də Müstəqil Azərbaycanımız Avropa ölkələri ailəsinə

daxil olmuşdur. Müasir dövrdə ölkəmizdə milli özünüdərk ideyalarından bəhrələnən ictimai-siyasi mühitdə müxtəlif yönlü siyasi partiyalar, ictimai təşkilatlar azad və sərbəst fəaliyyət göstərməkdədir, yüzlərlə mətbuat orqanı senzurasız, sərbəst nəşr edilir, özəl televiziya və radiolar fəaliyyət göstərir. Bütün bunlar ölkədə milli özünüdərkdən gələn demokratiyanın, söz azadlığının və vətəndaşların hüquq və azadlıqlarının göstəricisidir.

Heydər Əliyev siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüşündə onlara öz fikrini belə çatdırmışdır: «Azərbaycan torpağının hər güşəsi hər birimiz üçün müqəddəs yerdir. Əgər bu dartışmalar, çəkişmələr, Dağlıq Qarabağ problemindən istifadə edərək aparılan bu hakimiyyət mübarizəsi davam edəcəksə, bütün bunlar isə müdafiə gücümüzün zəifləməsinə, Ermənistan Silahlı Qüvvələrinin təcavüzünün daha da genişlənməsinə səbəb olacaqsa, Azərbaycan dağılacaqsa, məhv olacaqsa, hakimiyyət davası aparanlar öz hakimiyyətlərini harada quracaqlar? Yenə də deyirəm – Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır»(5, 109). Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram deyən Heydər Əliyev həyatının mənasını yalnız xalqına xidmətdə görür və ömrünü onun tərəqqisinə sərf etməsindən qürur duyurdu. Heydər Əliyevə görə, «həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil, onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır»(2, 4). Heydər Əliyev milli özünüdərk kontekstində «Müstəqilliyimiz əbədidir» konsepsiyasını işləyib hazırlayarkən öncə onun struktur elementi olan «sosial sabitlik» prinsipinə üstünlük vermişdir. O, Azərbaycanın ağır sosial-siyasi durumdan çıxması yolunu göstərərək demişdir: «Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün çox iş görülməlidir. Bundan ötrü isə Azərbaycanın daxilində ictimai-siyasi sabitlik, bütün qüvvələrin, bütün təbəqələrin, bütün vətəndaşların milli birliyi, həmrəyliyi lazımdır»(54, 53) .

Heydər Əliyev müasir demokratik Azərbaycan cəmiyyətinin saflaşması naminə, cəmiyyətin mənəvi inkişafı naminə

mübarizə üçün hər cür şərait yaratmışdı. O, bu barədə deyirdi: «Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, mətbuat azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq»(4, 65).

Həqiqətən də Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra xalqın milli şüuru və milli özünüdərkinin inkişafında mühüm rol oynayan mətbuat azadlığına geniş yer vermiş və ölkədə söz azadlığına, mətbuat azadlığı üçün münbit şərait yaradılmışdı. Elə buna görə də Heydər Əliyev 2002-ci ildə mətbuata göstərdiyi qayğıya görə mətbuatın dostu elan edilmişdi.

Belə ki, 2000-ci ilin martın 6-da imzalanan sərəncama əsasən «2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəratinin yaxşılaşdırılması haqqında tədbirlər proqramı» təsdiq olundu. Milli Məclisin 2001-ci il martın 13-də «Gömrük tarifi haqqında» qanuna etdiyi dəyişikliyə əsasən KİV çap məhsullarının ixracına və idxal edilən xammala görə gömrük rüsumundan azad edildi. Beləliklə də 2001-ci il Azərbaycanda söz və məlumat azadlığının qorunması və KİV-in cəmiyyətdəki mövqeyinin möhkəmlənməsi baxımından dönüş ili hesab etmək olar. «Azərbaycanda söz azadlığının qorunması, irqindən, dilindən, dinindən, milliyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarına təminat verilməsi və idarəetmədə onların iştirakına şərait yaradılması Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasəti sayəsində mümkün olmuş və İlham Heydər oğlu Əliyev tərəfindən davam etdirilir» (71, 541) .

1998-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycan Respublikasında ölüm hökmü ləğv edilmişdir. Bu da öz növbəsində Azərbaycanda demokratiyanın inkişafından, insan haqlarının qorunmasından xəbər verir. Azərbaycanda demokratiyanın inkişafı barəsində Heydər Əliyev demişdir: «Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan Azərbaycanın iqtidarıdır, onun prezidentidir, Yeni Azərbaycan Partiyasıdır»(106, 114).

Məlumdur ki, Azərbaycan müasir dövr milli şüurunun

inkişafında, xalqın milli özünüdərkində mühüm xidmətlər göstərmiş, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin başçılığı ilə XX əsrdən XXI əsrə qədəm qoymuşdu. Bütün həyatını xalqına və ölkəsinə həsr edəcəyini böyük inamla bəyan edən H.Əliyev demişdi: «Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın milli-azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır»(35, 148). Heydər Əliyevin nəzəri irsi müasir Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin ən bariz təzahür formasıdır və o, əməli fəaliyyəti ilə birlikdə xalqın milli özünüdərk və özünəinam duyğusunun inkişafında misilsiz rol oynamışdı.

Müasir dövrdə xalqın milli şüur və milli özünüdərk ideyalarının inkişafının bariz göstəricisi kimi, respublikamızın müstəqilliyinin 10-cu ildönümünün təntənə ilə qeyd olunduğu bir vaxtda, 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsidir. Dünya azərbaycanlılarının I qurultayında 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən cox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Avstraliya, Avstriya, Kanada, Fransa, Almaniya, Rumıniya, İsveçrə, Özbəkistan, Latviya, Moldova, Belarus, Hollandiya, Danimarka, Finlandiya, Estoniya, Ukrayna, İsrail, Qazaxıstan və və sair dövlətlərdə fəaliyət göstərən milli mədəniyyət mərkəzlərinin və cəmiyyətlərin nümayəndələri iştirak etmişlər. Bu da öz növbəsində milli şüurun, milli özünüdərk ideyalarının dərinləşməsinin və daha da canlandırılmasının başlıca şərtlərindən biridir. Noyabrın 9-da H.Əliyev Dünya Azərbaycanlılarının I qurultayındakı nitqində xalqın özünüdərkindən bəhs edərək demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan

dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır»(10, 147). Onu da qeyd etmək lazımdır ki, azərbaycançılığın tarixi XIX əsrin sonlarına gedib çıxsa da, azərbaycançılıq termini ölkəmizin ictimai-siyasi həyatında yaxın illərdən başlayaraq istifadə olunur. Xalqın milli mənlik şüuru və milli özünüdərkinin inkişafı kimi milli özünüdərkimizlə bağlı azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Onun mahiyyəti xalqı mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. Milli özünüdərk ideyaları əsasında yaranan «Azərbaycançılıq» müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaracaq bir yoldur. Belə ki, azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sosial və mənəvi sərvətdir. Belə ki, o real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bir ideologiya kimi «Azərbaycançılıq Azərbaycanın fəlsəfi-sosioloji doktrinasını sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə birləşdirir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir»(117, 30).

Konstitusiyamızda göstərildiyi kimi milli özünüdərkdən gələn azərbaycançılıq ideologiyası Azərbaycan xalqının dövlətyaratma mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəratinin inkişafı uğrunda mübarizənin məqsədidir. «Həmçinin bu ideya dünya azərbaycanlılarının mütəşəkilliyidir, vəhdəti və birliyidir» (224). Eyni zamanda azərbaycançılıq ideologiyasının başlıca məqsədi müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsindən və xalqımızın milli mənlik şüurunun, tarixi milli özünüdərk ideyalarının təsiri sayəsində milli özünüdərkinin yüksəldilməsindən ibarətdir. Bu gün prezident İlham Əliyevin fəaliyyətində bu amal ardıcıl şəkildə və uğurla həyata keçirilməkdədir. Xalqın milli özünüdərkini, milli azadlıq mübarizəsini, istiqlala can atmasını və

dövlətçilik ənənələrini yüksək qiymətləndirən Heydər Əliyev bu barədə demişdir: «Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi. Azərbaycan xalqının gücü və qüdrəti bundadır ki, siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır»(54, 63). 18 iyun 2001-ci ildə xalqın milli özünüdərkinin başlıca şərtlərindən biri olan «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanın imzalanması xalqın özünəqayıdışının və milli özünüdərkinin yüksək inkişafının göstəricisidir.

Heydər Əliyevin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə verdiyi fərmanlar, milli mənəvi dəyərlərin qorunub saxlanması məsələləri barədə Azərbaycan xalqına müraciəti təkcə keçmişə hörmət və ya dünya məkanının qloballaşması dövründə siyasətdə mühafizəkar əhval-ruhiyyə deyildir. Bu zamana, o cümlədən də keçid dövrünü yaşayan ölkələrdə milli sosial-mədəni mühiti dəyişməyə qadir olan qloballaşmaya cavabdır.

Qeyd etmək lazımdır ki, respublikamızın müstəqillik qazanması ilə əlaqədar olaraq dünya ölkələri ilə müxtəlif sahələrdə inteqrasiya, əməkdaşlıq böyük surətlə genişlənir və artır. Belə şəraitdə yad təsirlərin güclənməsi baş verir. Hələ milli ideologiyanın formalaşdığı halda dövlət quruculuğunda, iqtisadiyyatda istehsalın və əməyin təşkilində dünya standartları eyni ilə Azərbaycan şəraitinə köçürülür, hətta idarəetmədə, cəmiyyətdaxili münasibətlərdə etalon olur. Bütün bunlar xalqın milli psixologiya, düşüncə və həyat tərzinə, əxlaqına xeyli mənfi təsir göstərir, milli dəyərlərin hörmətdən düşməsinə, mənəvi eroziyanın dərinləşməsinə səbəbə olur. Milli təfəkkürü Qərbin neçə əsrlik öz siyasi – iqtisadi, mənəvi, intellektual inkişafının nəticəsi kimi formalaşan sivilizasiyanın təfəkkür stereotiplərinə uyğunlaşdırmağa cəhdlər edilir. Bu təqlidçilik, unifikasiya və konformizm meylləri, zənnimizcə, çox təhlükəlidir. Onların

qarşısını almaq üçün tarixən yaranıb təşəkkül tapmış mədəniyyət ənənəsinin qorunması mühüm əhəmiyyət kəsb edir. Çünki o, hər bir xalqın, cəmiyyətin mövcudluğunun, özünəməxsusluğunun, davamlığının, mütəşəkkilliyinin, vəhdətinin əsas atributlarındandır. Ona görə də mədəniyyət ənənəsinin, milli mənəvi dəyərlərimizin qorunub mühafizə edilməsində mədəni-tarixi irsin öyrənilməsi müstəsna əhəmiyyət kəsb edir»(67, 30-31).

Rahid Ulusel «Ulutürklük: qloballaşma çağında milli özünüdərketmə və geostrategiya» adlı kitabında yazır: «Qloballaşma - ümumdünya harmoniyasının gerçəkləşməsi istiqamətində mühüm bir mərhələdir. Bu mərhələdə bəşəriyyətin bütün tarixi və müasir təcrübəsi, intellektual potensialı ilə onun mükəmməl qlobal inkişaf layihəsinin hazırlanmasında yetərli imkanlara, böyük perspektivə malikdir. Qloballaşma epoxasında milli iqtisadiyyat və mədəniyyətlərin silinməsi deyil, əksinə, azad rəqabət dünyasında özünüqoruma, özünümöhkəmlətmə, özünütəsdiq prosesinin baş verməsi daha məntiqi, daha qanunauyğundur»(161, 83). Belə ki, bu siyasətin əsasında milli mentallığın və milli özünüdərkin mahiyyətini qoruyub saxlamaq səyi durur. Məlum olduğu kimi, , «2003-cü ilin fevral ayında Heydər Əliyev Azərbaycan Demokratik Respublikasının xatirəsinə monumentin ucaldılması barədə sərəncam imzalamış və bununla da göstərmişdir ki, Azərbaycan xalqı tarixən demokratik dəyərlərə rəğbətlə yanaşmışdır»(6, 258).

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi yolunda dövlətin uğurla həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərinin görülməsidir. Bu dövrdə dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı olan güclü silahlı qüvvələrin yaradılmasına başlandı. Bu gün Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərhüquqlu əməkdaşlıq edir. Azərbaycan Silahlı qüvvələrinin Sülhməramlı bölmələri uğurla Kosovo, İraq və Əfqanıstanda Beynəlxalq Sülhyaratma əməliyyatlarında iştirak

edir. Eyni zamanda ölkəyə qısa müddətdə cəlb edilən xarici kapital Azərbaycanın hərbi və geosiyasi təhlükəsizliyi üçün başlıca amilə çevrildi. Müstəqil Azərbaycanın daha da güclənməsi və yüksəlişini arzulayan Heydər Əliyev bu barədə demişdir: «Azərbaycanın müstəqil dövlət kimi mənafeyi dünyada hər şeydən uca olmalıdır. Mən həmişə belə düşünmüşəm və bu gün də belə düşünürəm»(30, 139). Ona görə «Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər konstitusiyanın əsasını təşkil etməlidir» (17, 7). Beləliklə də, Heydər Əliyevin milli dövlətçilik irsi Azərbaycanı müasir, demokratik, sivil imicə malik Qərb siyasi modelinə əsaslanan bir ölkəyə çevirdi və o, xalq ilə dövlətin birliyini yaratdı.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Cənubi Azərbaycan mövzusu da həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuş və onun bu qayğıkeşliyi nəticəsində Şəhriyar o tay-bu tay Azərbaycan üçün doğmalaşdı. Bu dövrdə vahid xalqın eyni tarixi kökünü, eyni mədəniyyətini tədqiq edən yüzlərlə əsərlər yaranmışdı. Bütün bunlar eyni dilə, dinə, mədəniyyətə və milli ənənəyə malik iki hissəyə bölünmüş vahid xalqın milli özünütanımasının, milli özünütəsdiqin və milli məninin yüksək inkişafının nəticəsidir. Eyni zamanda bütün deyilənlər Heydər Əliyev siyasətinin əsasını təşkil etmişdi. «Onun dəmir əli təkcə qanunları qorumurdu, sinəsində xalq və vətən üçün çırpınan ürəyin, qəlibinin hökmü ilə millətini və xalıqnı sevən insanları qoruyurdu(124, 88).

Heydər Əliyev hələ 1993-cü ildə Azərbaycanın yaxın qonşusu olan İranla ictimai - siyasi, iqtisadi əlaqələri nizama salmış və mehriban münasibətlər yaratmışdı. Bunu misal olaraq «1993-cü il 27 oktyabrda İran İslam Respublikasının prezidenti Ələkbər Haşimi Rəfsəncaninin Azərbaycana rəsmi səfəridir» (114, 290).

Bu iki ölkə arasında siyasi-iqtisadi əlaqələrin möhkəmlənməsi ilə yanaşı vahid xalqın uzun ayrılıqdan sonra qovuşmasıdır. Bütün bunlar vahid xalqın özünüdərkini və milli şüurunun formalaşmasını göstərir. Heydər Əliyev 1997-ci il mart

ayında Parisin Kion otelində Fransanın mühüm KİV-lərinin müxbirlərinə müsahibə vermiş və müsahibədə İranda yaşayan azərbaycanlıar barədə fikirlərini jurnalistlərlə bölüşmüşdür. Heydər Əliyev jurnalistin sualına cavab olaraq demişdir: «Əlbəttə azərbaycanlıları deyirəm mənşəcə bunlar həqiqi azərbaycanlılardır. Azərbaycan keçmişdə bir olubdur. XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində Azərbaycan iki yerə parçalanıbdır. Onun çox hissəsi İran tərkibində qalıb, indi də oradadır. Az hissəsi Rusiyanın tərkibində qalıb. Rusiyanın tərkibində olan həmin o Azərbaycan indi bizim yaşadığımız Azərbaycandır. Ona görə də sərhədimizin İran tərəfində olan əhalinin hamısı azərbaycanlıdır. Ancaq şübhəsiz ki, onlar İran vətəndaşlarıdır. Biz hər bir ölkənin ərazi bütövlüyünü tanıdığımız kimi, İranın da ərazi bütövlüyünü tanıyırıq»(72, 27). Eyni zamanda tarixi milli özünüdərk ideyalarının təsiri sayəsində Təbrizdə Azərbaycan Respublikasının Baş Konsulluğunun açılması, ikiyə bölünmüş vahid xalqın müasir dövrdə milli mənlik şüurunun inkişafında irəliyə doğru atılan addımlardan idi. Bu gün Azərbaycan Respublikası ilə İran, o cümlədən də Cənubi Azərbaycan arasında ictimai-siyasi, iqtisadi, ticari və mədəni əlaqələr uğurla inkişaf edir.

Əsrin müqaviləsi» əsasında yaranmış neft strategiyası və onun davamı olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum (BTƏ) əsas ixrac qaz kəməri layihələri, Böyük İpək yolunun bərpası, TRASEKA-Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması proqramı, həmçinin bir sıra beynəlxalq və regional iqtisadi əməkdaşlığa əsaslanan GUÖAM (Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan, Moldova), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlarda, region ölkələrində sülh, milli təhlükəsizlik və inteqrasiya proseslərinə kömək etməli, bütövlükdə isə Cənubi Qafqaz dövlətlərinin Asiya və Avropaya yaxınlaşmasına kömək etməlidir.

İradə Hüseynova «Müstəqilliyimizin təminatçısı» adlı kitabında yazır: «Ermənistanın Azərbaycan ərazisinin 20%-ni işğal etməsi nəticəsində ilk növbədə onun özü butun Qafqazda

həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən kənarda qalır. Ermənistan əvvəl-axır anlamalıdır ki, beynəlxalq və regional layihələrdən kənarda qalmaq sonda onun iqtisadi tənəzzülünü qaçılmaz edəcəkdir. Bu yaxınlarda Azərbaycanın NATO-ya assosiativ üzv seçilməsi, Gürcüstanın NATO-ya qəbulla bağlı rəsmi müraciəti də Qafqazda, bölgədə sabit sülhə, milli təhlükəsizliyə, iqtisadi və mədəni əməkdaşlığa beynəlxalq təminatın verilməsinə xidmət etməlidir»(80, 389).

Azərbaycanın iqtisadi inkişafına ABŞ-ın yardımına əngəl törədən və ABŞ Senatı tərəfindən 1992-ci ildə qəbul edilmiş «Azadlığı dəstəkləmə Aktı»na 907-ci düzəlişin icrasının tamam dayandırılması Azərbaycan-ABŞ əlaqələrinin genişlənməsinə səbəb olmuş və ölkələrarası münasibətlər bu gündə uğurla davam etdirilir.

2003-cü ildə milli dövlətçiliyimizdə İlham Əliyev mərhələsinin əsası qoyuldu. Əslində İlham Əliyev 1994-cü ildən siyasi proseslərdə fəal iştirak etmiş, o cümlədən də parlamentdə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətində, dövlət quruculuğu və ictimai işlərlə də məşğul olmuşdur.

Görkəmli ictimai-siyasi dövlət xadimi Heydər Əliyevin İlham Əliyevə verdiyi qiymət belədir: «İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən enerjili və təşəbbüskar bir şəxsiyyətdir» (6, 2).

Həqiqətən də İlham Əliyev iti zəkası, vaxtında lazımi və zəruri qərarları qəbul etmək bacarığı, siyasi hazırlıq səviyyəsi, analitik təhlil qabiliyyəti ilə istər ölkədə, istərsə də ölkədən kənarda böyük rəğbət qazanmışdı. O, Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin prezidenti olduğu qısa bir müddət ərzində özünün bu sahədə yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərdi. «İlham Əliyev özünün yorulmaz və gərgin əməyi sayəsində az vaxt içərisində Azərbaycan idmanını ayağa qaldırmış, ona dünya şöhrəti qazandırmışdır»(152, 12). Azərbaycan idmanın yüksəlişi, onun yeni-yeni uğurlar əldə etməsi, ölkə idmanının beynəlxalq səviyyədə tanınmasına gətirib

çıxarıb. Bütün bunlar milli özünüdərk ideyalarının inkişafını stimullaşdırır.

Əlbəttə İlham Əliyev fenomeni bu gün müstəqil Azərbaycanın siyasi simasını müəyyən edir. Eyni zamanda İlham Əliyev Heydər Əliyev ideyalarını inkişaf etdirən əvəzedilməz liderdir. «2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyini irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir»(2, 9).

Nəticədə Heydər Əliyevin siyasi varisi olan İlham Əliyev 2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkilərində qalib gəldi və o, Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etdi. Belə ki, «İlham Əliyevin böyük siyasətə doğru cəsarətli addımları cəmiyyətin ictimai-siyasi reallıqları, obyektiv sosial gerçəkliyin doğurduğu zərurətdir»(53, 169).

İlham Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin sarsılmazlığı, əbədiliyinin təmin olunması sahəsində mühüm irəliləyişlərə nail olmuş və milli dövlətimizi sağlam dayaqlar üzərində möhkəmləndirə bilmişdir. «İlham Əliyev cəmiyyətin inkişafında, demokratiyanın bərqərar olmasında və möhkəmləndirilməsində azad sahibkarlığı gücləndirməklə, cəmiyyətin demokratikləşməsini sürətləndirmək formulunun tətbiqinin həlledici rol oynayacağını əsaslandırır. Deməli iqtisadi təşəbbüskarlığa yol açmaq, onun inkişafına hər vasitə ilə yardım etmək İlham Əliyevin əsas məqsədidir» (128, 42). Bu gün milli özünüdərk əsasında inkişaf edən Azərbaycan cəmiyyətinin İlham Əliyevə olan rəğbəti həm də Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə ictimai inamın məntiqi nəticəsi kimi qəbul edilməlidir. İlham Əliyevin Azərbaycanı dünya miqyasında təmsil etməsi onun bir tərəfdən şəxsi keyfiyyətləri və siyasi peşəkarlığı ilə bağlıdırsa, digər tərəfdən isə həm də onun dünyanın siyasi güc mərkəzləri ilə sivil qaydada işləmək bacarığına əsaslanır. Heydər Əliyevin siyasi kursunu davam etdirən, Azərbaycanın xoşbəxt gələcəyini görən prezident İlham Əliyev daima çiçəklənən, inkişaf edən dövlətimiz barəsində uzaqgörən fikrini belə izah

edir: «Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir»(59, 436).

2003-cü il noyabrın 1-də keçirilən inauqurasiya mərasimində İlham Əliyev and içərək bildirdi ki, o, bütün dünya azərbaycanlılarının prezidenti olacaq. Onu düşündürən problem separatçı Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və ona bitişik Azərbaycan ərazilərinin azad edilməsi məsələsidir. Prezident İlham Əliyev əzəli Azərbaycan ərazisi olan və Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ problemini BMT-nin sessiyalarında və Avropa Şurası Parlament Assambleyasının toplantılarında da dəfələrlə qaldırıb.Onun şəxsi təşəbbəsü ilə Assambleyanın toplantılarında bir neçə dəfə Cənubi Qafqaz regionunda qaçqın və köçkünlərin vəziyyətinə dair məsələ müzakirə olunub və işğalçı Ermənistanın adı AŞPA-nın qətnamələrində çəkilib.

Dağlıq Qarabağ probleminin dinc yolla həll olunmasına çalışan prezident İlham Əliyev torpaqlarımızın qeyd-şərtsiz azad olunmasını, bu problemin beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü şəkilində öz həllini tapmasını tələb edir, o cümlədən qaçqın və köçkünlərin öz torpaqlarına qaytarılması ilə bərabər Dağlıq Qarabağın erməni icmasına Azərbaycanın tərkibində muxtar hüquqların verilməsinidə istisna etmir. Qeyd edək ki, «azərbaycanlılar üçün Qarabağ təkcə siyasət, iqtisadiyyat və coğrafiya deyil. Qarabağ milli mənəviyyatın, dumduru bulaqları ilə zəngin zonası, yüksək poeziya və musiqi, ədəbiyyat beşiyi, milli mentallıq amili, xalq yaradıcılığının zirvə nailiyyətlərinin xüsusi mədəni məkanıdır»(189). Onu da etiraf etmək lazımdır ki, bu gün Azərbaycan güclü iqtisadiyyata və peşəkar nizami orduya malikdir. İnanırıq ki, İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsi tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır. Bundan əlavə dövlət başçısı İlham Əliyev regionların sosial iqtisadi inkişafının sürətləndirilməsinə də xüsusi diqqət ayırır. Onun Regionların sosial-iqtisadi

inkişafı haqqında imzaladığı dövlət proqramı yaxın beş ildə regionlara 5-6 milyard dollar vəsait yönəldəcək. Eyni zamanda, növbəti 5 ildə Azərbaycanın bütün bölgələri üzrə inkişaf proqramları həyata keçiriləcək. «Dövlət proqramının məqsədi Azərbaycanın regionlarında kənd təsərrüfatı və emal sənayesinin, habelə qeyri- neft sektorunun inkişafı, ən əsası isə yeni iş yerlərinin açılması ilə bağlı layihələrin gerçəkləşdirilməsini təmin etməkdir. Qəbul edilən sənədlərdə iqtisadi inkişafla yanaşı əhalinin sosial vəziyyətinə birbaşa təsir edən ciddi məqamlar da öz əksini tapıb. Dövlət proqramında əsas istiqamətlər kimi təqaüdlərin artırılması, dərsliklərin pulsuz paylanması, tələbələrin təqaüdlərinin artırılması, regionlarda yeni məktəblərin tikintisi, kənd məktəblərinin texniki və kadr təminatının yaxşılaşdırılması, dövlətin maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi, ölkədə tibbi sığorta sisteminin yaradılması, regionlarda yeni xəstəxanaların inşası nəzərdə tutulur. Görülən bu işlərin, aparılan islahatların yaxın dövrdə Azərbaycanın bütün regionlarının inkişafına təkan verəcəyi şübhəsizdir»(7, 134-135). Bütün bunlar ölkədə tarixi milli özünüdərk ənənələrinin təsiri sayəsində milli özünüdərk ideyalarının inkişafının bariz göstəricisidi.

İlham Əliyevin cəmiyyətin inkişafına böyük önəm verdiyini təsdiqləyən məqamlardan biri də təhsil, elm və mədəniyyətin inkişafını nəzərdə tutan xüsusi dövlət proqramının həyata keçirilməsidir. Bundan əlavə prezident İlham Əliyevin təhsilin inkişaf istiqamətlərində atdığı mühüm addımlardan biri də ölkəmizdə təhsil müəssisələrinin informasiya texnologiyaları ilə təmin edilməsidir. Qəbul edilən proqram 2005-2007-ci illəri əhatə edir.

Səlahəddin Xəlilov «Təhsil, təlim, tərbiyə» adlı kitabında yazır: «Azərbaycanda təhsil sistemi yeni qurulmur. O, ilk növbədə sovet təhsil sisteminin davamı kimi mövcuddur. Bizim məqsədimiz isə bir az sovet, bir az da Avropa təhsilinin eklektik qatışığını deyil, milli mahiyyətə əsaslanan və həm sovet, həm də Qərb təhsil sistemlərinin ən yaxşı cəhətlərini məqsədyönlü

surətdə nəzərə ala bilən, daxili tamlığa malik bütöv milli təhsil sistemi yaratmaqdır»(86, 14). Eyni zamanda prezident İlham Əliyevin qərarı ilə bütün kitabların latın qrafikası ilə çap olunması təqdirəlayiq haldır. Belə ki, prezident İlham Əliyevin «Siyasətinin mahiyyətinə vardığı mənəvi-tarixi ehtiyaclardan biri də xalqımızın tarixindəki mühüm ictimai-siyasi, elmi və mədəni hadisələri müasir dövrün tələblərinə uyğun səviyyədə əks etdirən Milli Ensiklopediyanın nəşri ideyasıdır. Milli Ensiklopediya tarixi, elmi-fəlsəfi, metodoloji düşüncənin inkişafı ilə əlaqədar olan bir məsələdir və müasir dünyanı bütövlükdə dərk etmək texnikasının sistemli şəkildə təqdim olunmasıdır»(39, 65).

1995-ci ildə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə yaradılmış xalqın milli mədəni irsini təbliğ edən «Azərbaycan Mədəniyyətinin Dostları Fondu» uğurla fəaliyyət göstərməkdədir. Bu fondun təşkilatçılığı ilə keçirilən xeyriyyə konsertləri nəinki dinləyicilərə sevinc bəxş edir, eləcə də milli mədəniyyətimizin zəngin ənənələrinin davamına yaxından xidmət edir. Ölkədə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam festivalları da bunun bariz nümunəsidir. Qeyd edək ki, muğam təxminən XIV əsrə qədər Yaxın Şərq xalqlarının vahid musiqi janrı olmuş, lakin sonralar baş verən ictimai-siyasi dəyişikliklər səbəbindən bu vahid musiqi janrı xalqlara uyğun parçalanmışdır. Bununla belə, Yaxın və Orta Şərq xalqlarının əsrlər boyu qohumlaşmış, mənəvi və maddi sərvətləri vardır. Şərq xalqlarının musiqi mədəniyyətində ümumi cəhətlər daha bariz şəkildə özünü göstərir. Çünki bu mədəniyyət böyük bir region əhalisinin müxtəlif formalı və çalarlı əlaqə prosesi əsasında təşəkkül tapmışdı. Məhz bu səbəbdən də onlara bir çox mühüm ümumşərq xüsusiyyətləri xasdır. Zaqafqaziya, o cümlədən Azərbaycanda ta qədim dövrlərdən Yaxın və Orta Şərq ölkələrini birləşdirən regiona daxildir. Söz yox ki, bu region ölkələri arasında daimi əlaqələri məhz onların mədəniyyət və məişətində bir çox müştərək cəhətlər əmələ gətirməsinə baxmayaraq, hər xalqın mədəniyyətində özünəməxsus xüsusiyyətlər qorunub saxlanmışdır. Bu mənada qədim ənənələrə malik Azərbaycan xalqının mədəniyyət və

incəsənəti olduqca səciyyəvidir. Azərbaycan xalqının qədim irsi olan muğam çoxdan geniş kütlələrin ümumi malına çevrilmişdir. Lakin çoxəsrli muğam sənətinə aid problemlər o cümlədən muğamın tarixi inkişafı və təkamülü, onun kompozisiya – quruluş, xüsusiyyətləri, milli özünəməxsusluğu kimi məsələlər bu günədək lazımi səviyyədə araşdırılmamışdır. Qeyd edək ki, Azərbaycan bəstəkarı, Azərbaycan professional musiqisinin görkəmli nümayəndəsi Üzeyir Hacıbəyov XX əsrdə Şərq musiqisi və muğam nəzəriyyələrinə dair əsas fikir sahiblərindən biri kimi tanınır.

XX əsrin 70-ci illərin əvvəllərində Sovet İttifaqında YUNESKO – nun himayəsi altında keçirilən ənənəvi musiqinin beynəlxalq festivalları Qərb üçün Sovet Şərqinin ənənəvi musiqisini, həmçinin orijinal musiqi mədəniyyəti kimi Azərbaycan muğam sənətini «kəşf etdi». O vaxtdan Azərbaycan muğamı dünya mədəniyyəti məkanına daxil olmağa başlayır. 1971-ci ildə YUNESKO 50 albomdan ibarət olan «Dünya ənənəvi musiqisinin antologiyası» kolleksiyasına «Şərqin musiqi antologiyası» seriyasında çıxan «Azərbaycan musiqisi» plastikasını daxil edib. 1975-ci ildə Azərbaycan muğamları yenə də YUNESKO tərəfindən «Musiqi mənbələri» seriyasında buraxılıb. 2003-cü ildə YUNESKO Azərbaycan muğamını «bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri» siyahısına daxil etdi və bununla da muğamın bədii təkrarolunmazlığını və dünya mədəniyyəti üçün dəyərini təsdiq etmiş oldu. Eyni zamanda bu uğurlar davam etməkdədir. Bütün bunlar xalqın müasir dövrdə milli özünüdərkini stimullaşdıran əsas amillərdəndir.

Bundan başqa prezident İlham Əliyevin qarşıya qoyduğu mühüm vəzifələrdən biri də neftdən əldə olunan vəsaitin qeyri-neft sektorunun inkişafına xərclənməsidir. Məlumdur ki, təməli 18 sentyabr 2002-ci ildə qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri ilə 2005-ci ildə ilk neftin satışına başlandı və bu da Azərbaycana milyardlarla dollar vəsait gətirməkdədir. Neftdən gələn gəlirlərin getdikcə artması sayəsində ölkəmizdə qeyri-neft sektorunun, aqrar sahənin və emal sənayesinin inkişaf etdirilməsi

üçün mövcud imkanları daha da artıracaqdır. Bütün bunlar da öz növbəsində Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Bu barədə Heydər Əliyev deyirdi: «Bu gün bir daha bəyan etməliyik ki, Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir və bu yolda hamımız əl-ələ verərək çalışmalıyıq»(29, 247). Ölkədə iqtisadi nailiyyətlər, siyasi uğur - Qarabağı qaytararaq milli ərazimizin bütövlüyünə nail olmaq zəminidirlər.

Bu iqtisadi inkişafın arxasında milli təəssübkeşlik, milli mənlik və vətənpərvərlik amalı dayanır. Bu gün dövlətimizin iqtisadi tərəqqisi qələbəmizin təminatı sayılır. İqtisadi tərəqqini vacib sayan İlham Əliyev bu barədə demişdir: «düşmən üzərində qələbə qazanmaq üçün iqtisadi nailiyyətlər əldə etmək vacib və zəruri şərtlərdən biridir»(167, 176) .

XX əsrin sonlarında öz müstəqilliyini, dövlətçiliyini və milli varlığını bərpa edən Azərbaycan bu gün Heydər Əliyevin uğurlu siyasətini həyata keçirən İlham Əliyevin səyi nəticəsində dünya ölkələri içərisində özünə layiqli yer tutur və daima inkişaf edir. Heydər Əliyevin dili ilə desək, «Azərbaycan dövləti öz dövlətçiliyini qorumağa qadirdir»(16, 9). Eyni zamanda siyasət və mədəniyyətdə əldə edilən bütün nailiyyətlər müasir dövr milli şürunun və özünüdərk ideyalarının inkişafının nəticəsidir.

Qeyd edək ki, müasir dövrdə milli özünüdərki tərənnüm edən qədim fəlsəfi fikrə malik Azərbaycan fəlsəfəsinin öyrənilməsi daha vacib və təqdirəlayiq məsələlərdəndir. Məlumdur ki, Azərbaycan fəlsəfi fikri daha qədimlərdə, eradan əvvəl II-I minilliyin qovşağında meydana gəlmişdir. Bu Zərdüştün adı ilə bağlı dini-fəlsəfi biliklər toplusu, dünya mədəniyyətinin incisi «Avesta» ilə bağlıdır. Bu gün Azərbaycan fəlsəfəsi bütün təhsil və elm ocaqlarında geniş öyrənilir. Çoxlu sayda fəlsəfi məzmunlu tədqiqat əsərləri, dərs vəsaitləri və proqramlar yazılmış və yazılmaqdadır. Müasir dövr Azərbaycan fəlsəfi fikrinin öyrənilməsində və inkişafında, onun xalqa çatdırılmasında mərhum filosof-alimlərimizdən H.Hüseynov, A.O.Makovelski, Z.Göyüşov, F. Köçərli, Z.Məmmədov, Ş.Hüseynov, M.Zeynalov, A.Şükürov, C.Əhmədli, F.F.Qasım-

zadə, Y.Rüstəmov, H.İmanov ilə yanaşı, akademik R.Mehdiyev, akademiyanın müxbir üzvü S.Xəlilov, f.e.d. Z.Quluzadə, f.e.d. İ.Məmmədzadə, f.d. S.Rzaquluzadə, f.e.d. F.Ramazanov, f.e.d. A.Hacıyeva, f.e.d R.Aslanova, f.e.d S.Hüseynov və adlarını çəkmədiyimiz bir çox alimlərimizin mühüm xidmətləri vardı. Sadaladığımız bu vətənpərvər alimlər milli özünüdərkə əsaslanaraq yazdıqları sanballı fəlsəfi məzmunlu əsərləri ilə müasir dövr Azərbaycan fəlsəfəsinin inkişafında mühüm rol oynamış və oynamaqdadırlar. Tarixən və müasir dövrdə mənəvi mədəniyyətdə və xüsusən ictimai-siyasi və fəlsəfi ədəbiyyatda əksini tapmış milli özünüdərk probleminin nəzəri tədqiqi və millətə təlqinində özünəməxsus və mühüm yeri olub və olmaqdadır.

# NƏTİCƏ

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının milli inkişafı ilə əlaqədar Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində milli özünüdərk probleminin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bir ideya olaraq ortaya qoyulan milli özünüdərk həm psixoloji, həm də ideoloji prosesdir, hərəkatdır. Bu baxımdan tədqiqat işi yenidir.

Monoqrafiyada XIX əsrin sonlarında Azərbaycanda ictimai - siyasi və ideoloji münasibətlərin inkişaf yolu şərh olunmuş və xüsusən milli münasibətlərə və onların ideoloji təsiri tədqiq edilmişdir. Eyni zamanda bu dövrdə yaşamış görkəmli maarifçi mütəfəkkirlərimizin xalqımızın milli - mədəni tərəqqisi uğrunda apardıqları mübarizəyə diqqət yetirilmişdi.

Məlum olduğu kimi, XIX əsr Azərbaycan tarixinin ən ziddiyyətli dövrü olub. Həmin zamanda İran və Rusiya imperiyalarının işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqları iki hissəyə parçalandı və təcavüz nəticəsində Azərbaycanın cənub hissəsi İran şah rejiminin və fars şovinizminin, şimalı isə rus çarizminin o, cümlədən də «velikorus» millətçi şovinizmi siyasətinin təsiri altına düşdü. Lakin dücar olduğu ağır məhrumiyyətlərə baxmayaraq, bu dövrdə Şimali Azərbaycanda Rusiya tərkibində Rus və Qərbi Avropa mədəniyyəti ilə yaxından tanışlıq və bundan istifadə üçün münasib imkanlar tapdı.

Belə ki, işğaldan sonra Şimali Azərbaycanda vahid ərazi – inzibati qurum çərçivəsində ictimai həyatın müəyyən dərəcədə sabitləşməsi, ticarətin və sənətkarlığın canlanması, dünyəvi mədəniyyət və təhsil ocaqlarının meydana gəlməsi üçün müəyyən dərəcədə imkan və şərait yaranmışdı. Lakin işğalın mənfi nəticələri xalqımız üçün daha ağır və əzablı olmuşdu. Çarizm müstəmləkə əsarəti altında bütün milli ucqarlarda olduğu kimi, Azərbaycanda da hər cür azadlıq mübarizəsini boğmaq, xalqı əbədi zülmətdə, qaranlıqda və cəhalətdə saxlamaq üçün müxtəlif vasitələrə əl atırdı. Rus çarizminin bu vəhşilikləri içərisində

imperiya siyasətinin tərkib hissəsi olan xalqları köçürmə mühüm yer tuturdu. Bu zaman çar hökuməti milli ucqarları «xristianlaşdırmaq» və «ruslaşdırmaq» məqsədi ilə Rusiyanın mərkəzi quberniyalarından Azərbaycan ərazilərinə kütləvi surətdə rusları, almanları, malakanları və s. xristian xalqları köçürürdü. Xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizin çar Rusiyası tərəfindən işğal edilməsindən sonra çar hökuməti Azərbaycanın əzəli tarixi torpaqları olan Qərbi Azərbaycan və Dağlıq Qarabağ bölgəsinə erməniləri kütləvi şəkildə köçürməyə başladı. Çarizmin bu köçürmələri sonralar Qərbi Azərbaycandan həmvətənlərimizin didərgin edilməsinə və xalqımızın Dağlıq Qarabağ faciəsini yaşamasına səbəb olmuşdur. Xristian təəsübkeşliyi ilə nəfəs alan çarizmin yardımı ilə ermənilər tarixi torpaqlarımızda öz dövlətlərini qura bildilər. Çünki çarizm Cənubi Qafqazda müsəlman dövlətlərinə qarşı dura biləcək xristian bufer dövlətinin yaradılmasında maraqlı idi.

Qeyd etmək lazımdır ki, XIX əsrin sonları-XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və ideoloji inkişafın əsas problemi Azərbaycanın müstəmləkə əsarəti altında olması idi. Amma buna baxmayaraq çarizmin müstəmləkəçilik siyasəti Azərbaycanda baş verən milli oyanışa, milli – mədəni tərəqqiyə, feodalizmdən kapitalizmə keçid prosesinə və milli özünüdərketmənin inkişafına nəinki mane ola bilmədi, hətta ona müəyyən dərəcədə zəmin yaratdı. XIX əsrin maarifçi mütəfəkkirlərinin apardıqları milli ideoloji mübarizə xalqın milli özünüdərk ideyalarının inkişafına mühüm təsir göstərməklə bərabər, eyni zamanda milli məktəblərin, milli mətbuatın yaradılmasında önəmli rolu olmuşdu. 1875 - ci ildə H.B.Zərdabi «Əkinçi» qəzetini nəşr etməklə, Azərbaycanda milli mətbuatın əsasını qoydu. «Əkinçi» qəzeti Azərbaycanda ictimai fikrin inkişafında, maarifçilik ideyalarının, milli mənlik şüurunun oyanmasında böyük rol oynadı. Sonralar bu işlər «Şərqi – Rus», «Ziya», «Həyat», «İrşad», «Füyuzat», «Dirilik», «Yoldaş», «Tərəqqi», «Açıq söz», «Azərbaycan» və s. qəzet və jurnallarda davam etdirildi. Bu mətbu orqanları ictimai – siyasi, ideoloji mühitin

formalaşmasında, xalqın milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafında, mütəfəkkirlərimizin fikirlərinin xalqa çatdırılmasında çox mühüm rol oynamışdı. Bu dövrdə Abbasqulu Ağa Bakıxanov, M.Ş.Vazeh, M.Kazım bəy, S.Ə.Şirvani, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Ü.Hacıbəyov, C. Məmmədquluzadə, M.B. Məmmədzadə, M.Hadi, Ö.F.Nemanzadə, Cəmallədin Əfqani, Ə.Ağaoğlu, Ə. Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, N.Nərimanov, R.Axundov, S.Ağamalıoğlu, H.Hüseynov və başqaları öz yaradıcılıqları ilə Azərbaycan xalqının milli mənlik şüurunun, milli özünüdərk ideyalarının inkişafında və milli ideologiyasının formalaşmasında müstəsna rol oynamışlar. Milli ideologiyanın yaranması ilk növbədə milli mənlik şüurunun formalaşması və milli özünüdərk ideyalarının inkişafı ilə bağlıdır. Milli şüur, milli ideologiyaya yiyələnmək üçün milli-mənəvi tərbiyə əsas yeri tutur. Məhz milli mənlik şüuru əsasında formalaşan milli ideologiya da milli – mənəvi tərbiyənin nəticəsi hesab edilən vətənpərvərlik mühitinin yaranması şəraitində öz təsdiqini tapa bilir.

Monoqrafiyada XX əsrin əvvəllərində Azərbaycanın ictimai – siyasi və fəlsəfi fikir tarixində milli özünüdərketmənin inkişafında islamçılığın və türkçülüyün mühüm xidməti olduğu qeyd olunur. İslamçılıq və türkçülüyün Azərbaycanda geniş vüsət alması, son nəticədə milli azadlıq mübarizəsinin, milli oyanışın, milli mənlik şüurunun və milli özünüdərketmənin inkişafına, yüksəlişinə səbəb olmuşdu. Bu dövrdə çar Rusiyasında baş verən 1917–ci il fevral burjua inqilabı Azərbaycanda birmənalı qarşılanmadı. Çünki sosialist bolşeviklər milli müstəqil dövlətin qurulmasının əleyhinə idilərsə, özündə islamçılığı, türkçülüyü, müasirliyi, demokratiyanı ehtiva edən müsavatçılar işə milli müstəqil dövlətin yaradılmasının tərəfdarı idi. Xalqın milli mənlik şüurunun, milli özünüdərketməsi və özünəqayıdışının yüksək inkişafı nəticəsində 1918 – ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildi. Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda milli özünüdərketmənin yüksək

inkişafının nəticəsi kimi Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Yenicə müstəqilliyinə qovuşan ölkə 1920-ci il aprelin 28-də Sovet Rusiyası tərəfindən işğal edildi. Nəticə etibarilə deyə bilərik ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də milli özünüdərk və milli-azadlıq ideyası xalqda yaşayır və bu mübarizə sonralar da davam etmiş və özünü XX əsrin sonlarında sovet dövlətinə qarşı aparılan milli-azadlıq mübarizəsində göstərmişdir.

Monoqrafiyada Azərbaycan mütəfəkkirlərinin irsində tarixən əksini tapmış milli özünüdərk ənənəsi müasir dövrlə əlaqələndirilmişdir. XX əsrin əvvəllərində «Bir kərə yüksələn bayraq bir daha enməz» deyən M.Ə.Rəsulzadə Şərqdə milli özünüdərkimizin bəhrəsi olan ilk demokratik respublikanın təməlini qoymuşdursa, XX əsrin sonlarında milli özünüdərkə əsaslanan milli hərəkatın rəhbəri Əbülfəz Elçibəy tərəfindən bu bayraq altında Azərbaycan Respublikası yarandı və Heydər Əliyev milli özünüdərkin bariz nümunəsi olan müasir dövlətimizdə yenilməz bayrağın təməlini əbədiləşdirdi. Bu gün müasir Azərbaycan cəmiyəti Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və bütün milli – mənəvi və əxlaqi keyfiyyətlərimizi özünə birləşdirən azərbaycançılıqda əksini tapmış milli özünüdərk ideyaları ilə beynəlxalq aləmə inteqrasiya olunur. Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, onlara kimliyini tanıdan milli ideologiyadır. Müasir dövr milli şüurun təşəkkül və inkişafında tarixi milli özünüdərk ənənəsinin təsiri nəticəsində bu gün cəmiyyətimizdə milli şüurun formalaşması milli özünüdərk prosesinin güclənməsi bilavasitə dövlətçiliyin ideoloji bazasının möhkəmləndirilməsinə gətirib çıxarır. Bu gün Azərbaycan cəmiyyətində milli ideologiya milli – mənəvi birlik yaradılmasına xidmət etməklə bərabər, bütövləşməyə və həmrəyliyə xidmət edir. Respublikamızın prezidenti İlham Əliyevin uğurlu siyasi-iqtisadi fəalliyəti nəticəsində yaxın müddət ərzində ölkəmizdə baş verən sıçrayışlar milli ideologiyamızın sosial-iqtisadi bazasını zənginləşdirmişdir. Belə ki, milli iqtisadiyyatın milli özünüdərki təmsil edən milli ideologiya ilə vəhdəti dövlətçiliyimizin daha da möhkəmlənməsi və

sabitləşməsi yolunda parlaq nəticə göstərmişdir. Milli ideologiya cəmiyyətdə milli birliyi və millətlərarası ümumxalq münasibətləri qorumaq, millətin tarixdə mövqeyini izah və təsdiq etmək üçün yaradılır. Bundan əlavə milli ideologiya xalqın milli-mənəvi varlığının başlıca əlamətlərindəndir. O, xalqın kimliyini göstərən təfəkkür, adət və ənənələr sistemidir. Dil, din, ərazi və ideoloji birlik millət və milli dövlətin tarixi varlığının əsas rəmzləridir. Milli ideologiya xalqımızın milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət etməlidir.

Beləliklə, milli ideologiya xalqın inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Ona görə də milli özünüdərkin inkişafı milli dövlətçiliyin sosial bazasının gücləndirilməsinə və onun uzun illər yaşanmasına təminat yaradılması kimi başa düşülməlidir. Eyni zamanda prezident İlham Əliyevin fəaliyyəti azərbaycançılıq ideyalarına xidmətin ən yüksək nümunəsidir. Bu gün milli ideologiyamızın inkişaf etdirilməsi dövlətçiliyimizin canlandırılması və zənginləşdirilməsi deməkdir.

Müasir dövrdə milli mənlik şüurunun inkişafı və tarixi milli özünüdərk ənənəsinin təsiri nəticəsində müstəqil Azərbaycan dövlətçiliyinin mənəvi dayağı olan azərbaycançılıq ideologiyası əsasında xalqımız özünün varlığını dərk edir, maddi-mənəvi sərvətlərinin sahibi olur. Azərbaycan cəmiyyətində milli-mənəvi düşüncənin inkişafı psixoloji cəhətdən insanlarda, o cümlədən də gənclər arasında vətənpərvərlik ruhunu gücləndirir.

Bu gün Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının prezident İlham Əliyev tərəfindən seçilməsi və uğurla həyata keçirilməsi, ölkəmizdə istehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi, milli şüurun inkişafına, milli özünüdərkin yüksəlməsinə və müstəqil Azərbaycan dövlətinin inkişafına xidmət edən uzaqgörən planın tərkib hissəsidir. Bu sahədə aparılan işlər nəticəsində uğurlar davam etdirilərək xalqın milli özünüdərk

hissinin zənginləşməsinə və gələcək inkişafına səbəb olacaq. Azərbaycanımız sosial, siyasi, iqtisadi və mədəni cəhətdən daha da inkişaf edərək qüdrətli bir dövlətə çevriləcəkdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


### *Azərbaycan dilində*

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II cild, Bakı: Azərnəşr, 1997, 607 s.
2. Abbasoğlu O. Xalqa bağışlanan ömür. Bakı: Şəms, 2004, 520 s.
3. Abbasov V. Liderlik fəlsəfəsi. Bakı: Təhsil, 2004, 200 s.
4. Abdullayev E. Azərbaycan demokratik inkişaf yolunda. Bakı: Təhsil, 2004, 280 s.
5. Abdullayev E. Dövlət quruculuğu. Bakı: Ozan, 2002, 232 s.
6. Abdullayev V. Sülh və sabitlik Prezidenti. Bakı: Təhsil, 2004, 280 s.
7. Ağamalıoğlu F. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı: Oskar NPM, 2005, 304 s.
8. Ağamirov M.M. Məhəmməd Hadinin fəlsəfəsi. Bakı: Azərnəşr, 1981, 270 s.
9. Ağaoğlu Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 392 s.
10. Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı: MBM, 2006, 180 s.
11. Ağayev M. Azərbaycan demokratik fikrində insan konsepsiyası. Bakı: Nurlan, 2009, 208 s.
12. Ağayev M. Hüseyn Cavidin dünyagörüşü. Bakı: Təknur, 2005, 186 s.
13. Ağayev M. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi. Bakı: Nurlan, 2008, 167 s.
14. Ağayev M. Azərbaycan ictimai fikrində milli məsələ (1917-1920-ci illər) .Bakı: Nurlan, 2007, 148 s.
15. Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2006, 144 s.
16. Ağayev T. Azərbaycan – 1995, Qarşıdurmadan milli həmrəyliyə. I hissə, Bakı:2005, 456 s.

17. Ağayev T. Azərbaycan-1995, Qarşıdurmadan milli həmrəyliyə. II hissə, Bakı: 2005, 408 s.

18. Ağayev T. Azərbaycan-1995, Qarşıdurmadan milli həmrəyliyə. III hissə, Bakı: 2005, 456 s.

19. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987, 368 s.

20. Axundov M.F. Əsərləri.II cild, Bakı: Azərb. EA nəş., 1961, 576 s.

21. Axundov M.F. Əsərləri. III cild, Bakı: 1951, 128 s.

22. Axundov M.F. Əsərləri.Bakı: Elm, 1988, 376 s.

23. Axundov R. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1977, 205 s.

24. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider nəşriyyatı, 2004, 439 s.

25. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005, 472 s.

26. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri: Üç cilddə. I cild, Bakı: Azərnəşr, 1986, 503 s.

27. Azərbaycan tarixi, Yeddi cilddə, IV cild (XIX əsr). Bakı: Elm, 2000, 508 s.

28. Azərbaycan tarixi, Yeddi cilddə, V cild (1900-1920-ci illər) . Bakı: Elm, 2001, 672 s.

29. Azərbaycan-1994, Milli dövlətçilik sınaq qarşısında. I hissə, Bakı: 2002, 472 s.

30. Azərbaycan 1994, Milli dövlətçilik sınaq qarşısında.II hissə, Bakı: 2002, 432 s.

31. Bakıxanov Abbasquluağa. Bakı: Yazıçı, 1984, 475 s.

32. Bakıxanov A. Gülüstani-İrəm.Bakı: Möminin, 2001, 287s.

33. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 475 s.

34. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr., 1992, 276 s.

35. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı: Təhsil, 2004, 264 s.

36. Behbudov Q. Həsənbəy Zərdabinin siyasi-hüquqi görüşləri.Bakı: Elm, 2000, 116 s.
37. Budaqov B. Heydər Əliyev fenomeni. Bakı: AMEA, H.Ə.Əliyev adına coğrafiya institutu, «İsmayıl» NPM, 2002, 144 s.
38. Cəfər M. Mütəfəkkirin şəxsiyyəti. «Azərbaycan» jurnalı 1962, №10,40 s.
39. Cəfərov N., Osmanlı D. İlham Əliyev (siyasi portret cizgiləri) . Bakı: AZ ATAM, 2004, 76 s.
40. Cəlilov M. Azərbaycan fəlsəfəsi. Bakı: 1993, 88 s.
41. Çaxmaqlı Q. Yeni əsrdə yeni lider. Bakı: Araz, 2002, 238 s.
42. Əbülfəz Elcibəy. Bu mənim taleyimdir. Bakı: Gənclik,1992, 304 s.
43. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: BDU nəşr.,2002, 611s.
44. Əhmədli R.A. Azərbaycan dövlətçilik fəlsəfəsinə dair. Bakı: Təknur, 2009, 380 s.
45. Əhmədli R.A. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, 280 s.
46. Əhmədli R.A. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri. Bakı: Elm,2005, 196 s.
47. Əhmədov Ə.İ. Estetikliyin və etikliyin qarşılıqlı münasibəti (tarixi axtarışlar, nəzəri kontekst, çağdaş problemlər). Bakı: Maarif, 1997, 246 s.
48. Əhmədov T. Nəriman Nərimanovun yaradıcılıq yolu. Bakı: Elm, 1991, 352 s.
49. Əhmədzadə X.M. Diktatorların bilinməyən sirləri. Bakı: R.N. nəşr.,2009, 320s.
50. Əkinçi (1875-1877, tam mətni). Bakı: Azərnəşr, 1979, 464 s.
51. Ələkbərov F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı: Elm, 2007, 270 s.
52. Ələkbərov F. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. I hissə, Bakı: Təknur, 2011, 408 s.
53. Əliyev E. Qoşa zirvə. Bakı: 2001, 224 s.

54. Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Qismət, 2003, 248 s.
55. Əliyeva Z.S. Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri (Mirzə Fətəli Axundzadə maarifçiliyi. Azərbaycan və dünya ədəbi-nəzəri fikrinin gözü ilə). Bakı: Səda, 2008, 113 s.
56. Əliyeva Z.S. Azərbaycan və fransız maarifçiliyi: qarşılıqlı əlaqələr. Bakı: Səda, 2010, 224 s.
57. Əsədov S. Heydər Hüseynov. Bakı: Azərnəşr, 1998, 96 s.
58. Əsgərov R. XIX əsr Azərbaycan maarifçiliyi: cəmiyyət və insan. Bakı: Təknur, 2008, 184 s.
59. Əzimov Z. Azərbaycanı yeni qələbələrə aparan lider. Bakı: Şəms, 2004, 536 s.
60. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 255 s.
61. Fəhlə və mədəniyyət qəzeti, 27 aprel 1919-cu il.
62. Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, 175 s.
63. Göyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin ikinci yarısı) . Bakı: Azərbaycan EA nəşriyyatı, 1960, 212 s.
64. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 653 s.
65. Hacıyev Z. Fəlsəfə. Bakı: Adiloğlu, 2001, 639 s.
66. Hacıyeva A. Hermenevtika Şərqdə (fəlsəfə tarixi kontekstində). Bakı: Adiloğlu, 2006, 210 s.
67. Hacıyeva A. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı: Adiloğlu, 2004, 168 s.
68. Hacıyeva A. Milli ideya millətin mənəvi varlığının substansiyası kimi: Nəriman Nərimanovun əsərləri üzərində düşüncələr. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. «Elmi əsərlər» Beynəlxalq elmi-nəzərəi jurnal. №2(15). Bakı: 2010. s. 26-27.
69. Hacıyeva A. N.Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Azərbaycan ensiklopediyası NPB, 1998, 168 s.

70. Hacıyeva M. Müdriklik çeşməsi. Bakı: Yazıçı, 1984, 127 s.
71. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. /Kitab Yeni Azərbaycan Partiyasının İcra katibliyi tərəfindən hazırlanmışdır/. Bakı: Azərbaycan, 2006, 785 s.
72. Heydər Əliyevin İran İslam Respublikası ilə əlaqədar baxışları. Bakı: İran İslam Respublikasını səfirliyi, 2004, 84 s.
73. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Bakı: Şərq-Qərb, 1994, 24 s.
74. Həbiboğlu V. Abbasqulu Ağa Bakıxanov. Bakı: Gənclik, 1992, 349 s.
75. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər) . Bakı: Azərnəşr, 1993, 361 s.
76. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, 544 s.
77. Hüseynov Heydər – 100. Bakı: Təknur, 2009, 172 s.
78. Hüseynov T. Tarixi roman ustası. Bakı: Yazıçı, 1986, 165 s.
79. Hüseynov Ş. Əhmədbəy Ağaoğlunun dünyagörüşü. Bakı: Azərnəşr, 1998, 107 s.
80. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı (Məqalələr, çıxışlar, müsahibələr, rəylər) . Bakı: Təhsil, 2003, 504 s.
81. Hüseynzadə Ə. Qərbin iki dastanında türk (Azərbaycan xalq cümhuriyyətinin 80 illiyinə), AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: Ağrıdağ, 1998, 150 s.
82. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı: Elm, 1994, 236 s.
83. Xalq qəzeti, 3 aprel 1998-ci il
84. Xankişiyev A. Böyük siyasət zirvəsi. Bakı: EL-ALLİNCE, 2003, 176 s.
85. Xəlilov Q. Həyat və idrak. Bakı: Yazıçı, 1980, 361s.
86. Xəlillov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti nəş., 2005, 650 s.
87. İbadov N.S., Eyyubov İ.Ə. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda siyasi fikir. Bakı: BDU nəşr., 1996, 28 s.

88. İbrahimli Ə. Yusif Vəzir Çəmənzəminli və milli məsələ. Bakı: Qartal, 2002, 151s.
89. İbrahimov M. Xalqdan qidalanan fəlsəfi təfəkkür, Kommunist qəzeti, 12 avqust 1989-cu il.
90. İmanov H.R. Fəlsəfənin əsasları. Bakı: Turan evi, 2007, 441 s.
91. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
92. İsmailov F.Q. Müasir Qərb fəlsəfəsi. Bakı: Azərnəşr, 1991, 310 s.
93. Kommunist qəzeti № 61, 14 mart 1928-ci il.
94. Köçərli F. M.F.Axundovun dünyagörüşü. Bakı: Elm, 1999, 124 s.
95. Köçərli F. N.Nərimanov: Həyatı, fəaliyyəti və dünyagörüşü. Bakı: Elm, 1965, 339 s.
96. Köçərli F. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı: Elm, 1965, 92 s.
97. Qarayev Y. Milli mənəviyyatın böyük carçısı. (M.F.Axundov və Azərbaycan maarifçiliyi). Bakı: Elm jurnalı, 1970.
98. Qarayev Y. Mirzə Fətəli Axundov. Bakı: Yazıçı, 1982, 134 s.
99. Qasımov C., Bağırov X. Azərbaycan təhlükəsizlik orqanlarının tarixi. Bakı: MTN-in nəşriyyatı, 2009, 528 s.
100. Qasımzadə F. Abbasqulu ağa Bakıxanov Qüdsi. Bakı: Uşaq və gənclər ədəbiyyatı nəşr., 1956, 166 s.
101. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1966, 488 s.
102. Qasımzadə F.F. Qüdsi haqqında düşüncələr. Bakı: M.F.Axundov adına APRƏİ-nun T-h mətbəəsi, 2000, 223 s.
103. Qasımzadə F. Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1962, 378 s.
104. Qəhrəmanov B. Doktor Nərimanov. Bakı: Azərnəşr, 1990, 56 s.

105. Quliyev A.İ. Abbasqulu Ağa Bakıxanovun ictimai-siyasi görüşləri. Bakı: Qanun, 2000, 68 s.
106. Quliyev İ. Sabaha inamla və İlhamla. Bakı: Təhsil, 2003, 117 s.
107. Quliyev V. Ağaoğlular. Bakı: Ozan, 1997, 236 s.
108. Quluzadə Z.Ə. Rusiya Elmlər Akademiyasının Etnologiya və Antropologiya İnstitutunun Münaqişələrin tədqiqi və nizamlanması üzrə Mərkəzinin baş elmi əməkdaşı, tarix elmləri doktoru V.A.Şnirelmanın «Yaddaş müharibələri. Cənubi Qafqazda miflər, identiklik və siyasət» kitabında Azərbaycanın tarixinin və Azərbaycanın mədəniyyət tarixi konsepsiyaları Cənubi Qafqaz regionunda etno-siyasi münaqişələrin növbəti təxribatı kimi. Bakı: Təknur, 2009, 116 s.
109. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 220 s.
110. Qurbanov Ş. Cəmaləddin Əfqani. Bakı: Azərnəşr, 1998, 72 s.
111. Qurbanov Ş. Ömər Faiq Nemanzadə.Bakı: Gənclik, 1992, 208 s.
112. Mahmudov H.Z. Heydər Hüseynov: 1908-1950 biblioqrafiya, Bakı: Az.SSR EA-nın nəşr., 1965, 46 s.
113. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 322 s.
114. Mehdiyev Ə. Azərbaycan-1993, Anarxiyadan sabitliyə. Bakı: 2000, 418 s.
115. Mehdiyev R. Azərbaycan tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan milli ensiklopediyası nəşr., 2001, 276 s.
116. Mehdiyev R. "Gorus-2010: Absurd teatrı movsümü" // Xalq qəzeti. 4 noyabr 2010-cu il
117. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: Yeni nəşrlər evi, 2003, 248 s.
118. Məmmədova A. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında). Bakı: İqtisad Universiteti nəşr., 2003, 168 s.

119. Məmmədov K. Yusif Vəzir Çəmənzəminli. Bakı: Azərnəşr, 1987, 272s.
120. Məmmədov M. C.Məmmədquluzadənin din və mövhumat əleyhinə mübarizəsi . Bakı: Az.SSR Elmlər Akademiyasının nəş., 1962, 72 s.
121. Məmmədzadə M.B. Azərbaycan milli xartiyası. Bakı: Azərbaycan jurnalı, 1991, №:-4, 139 s.
122. Məmmədzadə M.B. Sovet Azərbaycanda Türk dilinin Ruslaşdırma və imha siyasəti haqqında. / Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XIV buraxılış. Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2007, 340 s.
123. Məmmədzadə N. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971, 368 s.
124. Mirələmov H.F. Millətin atası (Publisist düşüncələr, tarixi əsərlər–məktublar) . Bakı: Azərbaycan, 2004, 288 s.
125. Mirhadıyev M.Alimin şöhrəti və faciəsi, Kommunist qəzeti, 22 sentyabr 1988-ci il.
126. Mirzə R. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm, 2000, 172 s.
127. Mirzəyeva Ş. Heydər Hüseynov. Bakı: Qızıl Şərq, 1957, 38 s.
128. Mustafabəyli H.Ə. Xalqını sevən insan. Bakı: Orxan NPM, 2003, 109 s.
129. Nağıyev C. Spinoza haqqında – “İnqilab və mədəniyyət” №1, 1928-ci il.
130. Nemanzadə Ö.F. Xatirələrim. Bakı: Gənclik, 1985, 128 s.
131. Nəcəfov X. Səmədağa Ağamalıoğlu, Bakı: Azərnəşr, 1966, 54 s.
132. Nərimanov N. Məqalələr və nitqlər II cilddə, I cild,Bakı: Azərnəşr, 1971, 268 s.
133. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər).Bakı: Elm, 1990, 112 s.
134. Ordubadi M.S. Qanlı illər.Bakı: 1991, 119 s.

135. Paşayev V.Ə. Elmi qabaqgörənlik. Bakı: Azərb. SSR Bilik cəmiyyəti, 1986, 53 s.

136. Ramazanov F. Cəlil Məmmədquluzadənin yaradıcılığında əxlaq məsələləri. Bakı: 1961, 40 s.

137. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.

138. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild, Bakı: Şirvannəşr, 2001, 528s.

139. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik,1991, 110 s.

140. Rüstəmov İ.Ə. A.Bakıxanov. Bakı: Elm, 1981, 48 s.

141. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri. Bakı: diplomat, 2001, 482 s.

142. Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi. Bakı: Gənclik, 1969, 187 s.

143. Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycan təbii- elmi və fəlsəfi fikrin vəhdəti. Bakı: Azərnəşr, 1992, 119 s.

144. Rüstəmov İ.Ə. Mirzə Fətəli Axundov. Bakı: Gənclik, 1986, 71 s.

145. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2004, 498 s.

146. Rüstəmov Y.İ. Siyasi hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: Azərbaycan Universiteti nəşr., 2000, 318 s.

147. Rzayev A. Dərbənddən başlanan əzablı yol. Bakı: Azərnəşr, 1989,160 s.

148. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: 2004, OKA nəş., 348 s.

149. Səid-zadə Ə.Ə. Mirzə Şəfi Vazeh. Bakı: Azərbaycan Elmi Tədqiqatlar İnstitutu nəşriyyatı, 1929, 24 s.

150. Sultanov O. Bakı: 80-cı illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mubarizə. Bakı: Maarif, 1995, 232 s.

151. Süleymanlı M. Mirzə Bala Məhəmmədzadənin «Qurtuluş» məcmuəsindəki yazıları haqqında. Mədəniyyət

dünyası, elmi-nəzəri məcmuə, XIV buraxılış. Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2007, 340 s.

152. Süleymanov T. Bizim Prezident. Bakı: Vektor, 2004, 164 s.

153. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu- XX əsrin əvvəlləri). Bakı: Azərbaycan dövlət kitab palatası, 1999, 422 s.

154. Şəmsizadə N. Azərbaycançılıq. Bakı: Nurlan NPM, 2006, 192 s.

155. Şükürov A.M. Şərq fəlsəfəsi və filosofları. Bakı: 2005, 664 s.

156. Tağıyev Ə. Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi. Bakı: Təbib, 2000, 188 s.

157. Tağıyev Ə., Mustafayev A., Balayev M.: Azərbaycanda milli hərəkat ideyasının yaranması və tarixi təkamülü XIX əsrin sonu, XX əsrin əvvəlləri. Bakı: APU nəşriyyatı, 1994, 83 s.

158. Tahirzadə Ə. Elçi Bəy. Bakı: Cümhuriyyət qəzetinin nəşri. 1999, 354 s.

159. Tahirzadə Ə. Meydan 4 il 4 ay (Azərbaycan Xalq həkatı haqqında gündəlik qeydlər). II cild, Bakı: Ay-Ulduz, 1997, 416 s.

160. Topçubaşov Ə. Paris məktubları. Bakı: Azərnəşr, 1998, 120 s.

161. Ulusel R. Ulutürklük: qloballaşma çağında milli özünüdərketmə və geostrategiya. Bakı: Azərbaycan milli ensiklopediyası, 2002, 90 s.

162. Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı: Azərbaycanda Atatürk Mərkəzi, 2003, 89 s.

163. Vəzirov O. Atam Yusif Vəzir Çəmənzəminli haqqında. Bakı: Azərnəşr, 1997, 120 s.

164. Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə.Bakı: 2001, 154 s.

165. Yaqubov Ş. Qətiyətin təntənəsi (sənədli xronika). Bakı: Səhər qəzetinin nəşri, 848 s.

166. Yeni yol qəzeti, 16 noyabr 1924-cü il.
167. Yusifov M. Heydər Əliyev işığında. Bakı: Nurlan, 2005, 180 s.
168. Y.V.Çəmənzəminli. Əsərləri, III cild. Bakı: Elm, 1977, 146 s.
169. Y.V. Çəmənzəminli Xarici siyasətimiz. Bakı: Azərnəşr, 1993, 51 s.
170. Zamanova E. Türk estetikası: tarixi və müasir inkişafı. Bakı: Araz, 2005, 180 s.
171. Zeynalov Ə.A. XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşri. Bakı: Azərnəşr, 1997, 92 s.
172. Zeynalov M.B. Fəlsəfə tarixi (qərb fəlsəfəsi). ali məktəblər üçün dərslik, Bakı: Azərnəşr, 2001, 544 s.
173. Zərdabi H.B. Əsərləri. Bakı: Azərnəşr, 1960, 476 s.

### *Türk dilində*

174. Mehmetzade M.B. Milli Azerbaycan hareketi. Ankara: 1991, 240 s.
175. Ali Haydar Bayat. Azerbaycanın yigit evladı – Ali Bey Hüseynzade ve Türkiyede yayınladığı eserleri. İstanbul: Atatürk kültür Merkezi yayınları, 1992, 184 s.
176. Resulzade M.E. Kafqazya türkləri. İstanbul: Türk dünyası araştırılmaları vakfı, 1993, 132 s.
177. Resulzade M.E. Milli tesanüd. Ankara: Azerbaycan Kültür dernegi yayınları, 1978, 143 s.
178. Hüseyn Adıgüzel. Atatürk, Nerimanov ve kurtuluş savaşımız. İstambul: Beyoğlu, 2004, 159 s.

### *Rus dilində*

179. Агамалыоглы С. В защиту нового тюркского алфавита. Б., 1927, 85 с.
180. Ахмедов А.Б. Азербайджанские тюрки в революции 1905 года. Баку: ИПО Азербайджан милли енсиклопедийасы, 2002 , 332 с.

181. Ахмедов Э. Философия азербайджанского просвещения, Баку: Азернешр, 1982, 291 с.

182. Бакинский рабочи. 14 марта 1933 г.

183. Бромлей. Очерки теории этноса. М,1983, 158 с.

184. Газета Каспий. 1891, №93.

185. Геюшев З. Мировоззрение Г.Зардаби. Баку: Академия Наук Азербайджанской ССР, 1962, 403 с.

186. Геюшев З. Философская мысль в Советском Азербайджане, Баку, Элм, 1979, 210 с.

187. Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане XIX века, Баку: Азернешр, 1958, 430 с.

188. Дашдамиров А. Национальная идея и этничность. Азербайджанская идея в этнокультурном и этнополитическом контексте. Баку: Азернешр, 2001, 154 с.

189. Дашдамиров А. Россия и Азербайджан: история и современность. Академия наук Азербайджана институт общественно-политических исследований и информации. (Выступление на Первой конфренции азербайджанской Федеральной национально- культурной автономной азербайджанйев Россий Москва, Президент отель, 12 мая, 2000 года).

190. История Азербайджанской философии. Т.1, Баку, Элм, 2002,360с.

191. Климович Л. Замечательные мыслители Азербайджана, Литературная газета, 22 марта 1950 г.

192. Кулузаде З.А. Из истории Азербайджанской философсkой мысли в VII-XVI в.в. Баку: Азернешр, 1992, 237 с.

193. Кулузаде З.А. Тюрки, Кавказ, Кавказская Албания, христианство и ислам в концепции Мурада Аджи, изложенной в его книге Дыхание Армагеддона (Москва, 2006, тираж 5000 экз.). Баку: Элм, 2007.

194. Казим-Бек М. Общая грамматика турецко-татарского языка. Казань: 1846, 457 с.

195. Кулузаде З. А. О концепции Кавказской Албании. Баку: Элм, 2006.

196. Сеченов И.М. Избранные философские и психологические произведения. М: 1947, 504 с.

197. Сумбатзаде А. С. Азербайджанцы - этногенез и формирование народа. Баку: Элм, 1990, 304 с.

### *İnternet saytları*

198. http://aliyevheritage.org/cgi-bin/e-cms/vis/vis.pl?s-=001&p=2135&n=000002&g - Əliyev Heydər. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə mayın 26-da Milli Məclisin təntənəli iclasında nitqi, 26 may 1998-ci il //Heydər Əliyev. Beynəlxalq elektron kitabxana.

199. http://azerbaycan.se/Main/Semed%20Agaoglu. htm - Sultanlı V. Səməd Ağaoğlu haqqında.

200. http://bizimasr.media-az.com/arxiv_2002/iyun /138/-meden.html-Mirzə Kazım bəyin yubıleyi.

201. http://ganca.aznet.org/ganca/history3.html - Эянъянин тарихи.

202. http://karabakh-doc.azerall.info/ru/armyanstvo /arm8-1.php - Асадов С. Миф о «Великой» Армении.

203. http://muzey.iatp.az/18-21.html- Görkəmli mütəfəkkir Mirzə Şəfi Vazeh (1794-1852).

204. http://olaylar.az/index.php?newsid=1172677990 - Məhəmmədoğlu Ş. Milli özünüdərkin çağdaş şərtləri. Millətləşmə və dövlətləşmədən bütövləşməyə.

205. http://turan.info/forum/archive/index.php?t-536.html - Азизов Э.Д. – боевая организация азербайджанских тюрков.

206. http://www.azadqarabag.azerall.ınfo/ts_gen/azl/me-qale/2005/q-28.htm- Baxışova R. XIX əsrin sonlarında Azərbaycanın Qarabağ bölgəsində maarifin inkişaf istiqamətləri.

207. http://www.azerros.ru/pnhtml/100_nar.htm - Narimanov N .K.

208. http://www.elchin.com/az/yazi/nerımanov.htm -Elçin. Nəriman Nərimanov: Şəxsiyyəti və fəaliyyəti.

209. http://www.eraren.org/index.php?page=DergiIcerik&-IcerikNo=274 –Cabbarlı H. Ermeni terroru araştırmaları (türkce).
210. http://www.gazeta.islamnn.ru/modules.php?name=News&file=article&sid=149 - Хабутдинов А.Ю. Ахмед бек Агаев- отец Азербайджанской прессы //Газета «Аль-Хаят». – 2006. - №2. – декабрь.
211. http://www.humanities.edu.ru/db/msg/38234 - II Государственная дума.
212. http://www.inamcfp.org/3-cusektor/n3/n3_nariman-oglu.htm -«Demokratiya» jurnalı 2003 - Kamil V.N. Mirzə Fətəli Axundzadə "Avropaya qapı açanlar" sırasından.
213. http://www.ırs-az.com/gen/n12/ n12_7.htm - Исаханлы Г. Младший из «Большой пятерки» (О М.А.Расул-заде).
214. http://www.islam.az/az/modules/sections/index.php?-op=viewarticle&artid=10 aspektləri - Milli hərəkatımız haradan başladı: ictımai-siyasi əsasları.
215. http://www.islam.az/az/modules/sections/index.php-?op=viewarticle&artid=11 - Milli hərəkatımız haradan başladı: İdeya-fəlsəfi əsasları.
216. http://www.islam.az/modules/sections/index.php?op=viewarticle&artid=17 - Геюшов А. Истоки национального движения: общественно-политические аспекты.
217. http://www.karabakh-doc.azerall.info/ru/armyanstvo/-arm1-3.php;-Преступления армянских бандитских и террористических формирований против человечества (краткая хронологическая энциклопедия) //Карабах в документах.
218. http://www.kitab.az/cgi-bin/catlib2/item.cgi?lang=az-&item=20040317132645021 -Aslanova R. Milli mədəniyyət haqqında bəzi mülahizələr.
219. http://www.mpsf.org/pub/kortunov/contents.html - Кортунов С. “Имперские амбиции и национальные интересы”.
220. http://www.musigi-dunya.az/new/read_magazine.-asp?id=454&page=1 -Əlıyeva Sədaqət. XIX əsrin sonu - XX

əsrin əvvəllərində islam islahatlari və M.Rəsulzadənin kulturoloji arqumentləri.

221. http://www.peoples.ru/art/literature/tech/bakihanov/in-dex.html - Аббаскули Ага Бакиханов, Биография.

222. http://www.peoples.ru/state/statesmen/narimanov- Нариманов Н.К. Биография.

223. http://www.uludil.gen.az/adr/2.php - ADR dövlətçilik fəaliyyəti.

224. http://www.xalqqazeti.com/index.php?lngs=aze&cats =16&ids=8167;// Xalq qəzeti 27.01.2001. - Məmmədov S, Azərbaycançılıq milli birliyimizin əsasıdır.

225. www.bozqurd.tk -«Sühən» jurnalı, Tehran/ - 1955/ - №4/, 76s .

226. www.karabakh-doc.gen.az - Мартовские события 1918 года в Баку: как это была на самом деле //А.Мамедов, А.Дж.Искендеров.

Nəşriyyatın direktoru: **Şöhrət Səlimbəyli**
Texniki redaktor: **Mail Xəlilov**

**ƏLİYAR AĞAGÜL oğlu ORUCOV**

# AZƏRBAYCAN XALQI MİLLİ ÖZÜNÜDƏRK YOLLARINDA: XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİ

***(tarixi-fəlsəfi aspekt)***

Yığılmağa verilib:05.05.2012
Çapa imzalanıb:10.06.2012
Kağız formatı :60x84.16/1
Tiraj:500